AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTU

FÜZULİ İSMAYILOV

# QARABAĞ KONFLİKTİ ABŞ-ın QLOBAL SİYASƏTİ KONTEKSTİNDƏ

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

2232 s

Azərbaycan Respublikası Prezidenti
İşlər İdarəsi Təsərrüfat şöbəsinin
KİTABXANASI

AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI
NƏŞRİYYATI
BAKI-2001

63(Az)
İ 78

Elmi redaktor:
*Rövşən Mustafayev,*
siyasi elmlər doktoru,
Azərbaycan MEA İnsan Hüquqları
İnstitutunun direktoru

Rə'yçilər:
*Vaqif Arzumanlı,*
filologiya elmləri doktoru, professor;

*Qoşqar Əliyev,*
fəlsəfə elmləri doktoru

**İsmayılov Füzuli Cahangir oğlu.**
İ 78 Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001, 152 səh.

Kitab müasir dövrdə beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olan Ermənistan—Azərbaycan Dağlıq Qarabağ konfliktinə, onun həllində ABŞ-ın mövqeyinə həsr olunmuşdur.
Bu monoqrafiya həm siyasətçilər, həm də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

İ 0503000000
M 657—01

ISBN5—89600—313—7

© İsmayılov F.C., 2001

## DAĞLIQ QARABAĞ KONFLİKTİ BEYNƏLXALQ İCTİMAİYYƏTİN DİQQƏT MƏRKƏZİNDƏDİR

*(ö n s ö z ə v ə z i)*

On üç ildən sonra Birləşmiş Ştatların Dövlət Departamenti tərəfindən Ermənistanın təcavüzkar tərəf kimi tanınması ilə Dağlıq Qarabağ konflikti yenidən dünya ictimaiyyətinin diqqət cəlb etmişdir. Əslində bu konfliktin tarixi XIX əsrin əvvəllərinə gedib çıxır. Zaman keçdikcə Dağlıq Qarabağ bölgəsinə geosiyasi marağı olan dövlətlərin strateji planlarında konflikt daha da qloballaşmış və hər dəfə onun həlli yolları müəyyən maraqlar və bucaqlar altında aktuallıq kəsb etmişdir.

Sovetlər İttifaqının süqutundan sonra bu məsələ keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. İndi Dağlıq Qarabağ konfliktinin həlli prosesində Avropa dövlətləri müəyyən təşəbbüslərlə çıxış etsə də, ABŞ dövlətinin atdığı fəal və konkret addımlar daha önəmli rol oynamaqdadır. Təsadüfi deyildir ki, bu gün Rusiyadan və bə'zi Avropa dövlətlərindən fərqli olaraq konfliktin nizamlanması istiqamətində ABŞ amili getdikcə daha konstruktiv əhəmiyyət kəsb edir.

ABŞ dövlətinin Ermənistan-Azərbaycan konfliktinin həlli sahəsində atdığı addımlar, göstərdiyi təşəbbüslər son bir ildə daha konkret, daha faydalıdır. Bütün bunları izləmək, öyrənmək, politoloji təhlil etmək həm Amerika, həm də Azərbaycan tərəfi üçün çox vacibdir.

Düzdür, politoloqlarımız, analitiklərimiz bu məsələ ilə maraqlanır və müəyyən rə'ylər irəli sürürlər. Amma, problemə daha dərindən yanaşılmasına hələ də xüsusi ehtiyac vardır, özü də təkcə kiçik məqalə və yazılar səviyyəsində deyil, eyni zamanda fundamental araşdırmalar səviyyəsində. Oxuculara təqdim olunan kitab məhz, elə buna görə diqqəti cəlb edir.

Gənc araşdırıcı Füzuli İsmayılovun bu monoqrafiyası Ermənistan-Azərbaycan qarşıdurmasına, Dağlıq Qarabağ konfliktinə və hazırda bu problemə ABŞ dövlətinin münasibətinə həsr olunmuşdur.

Bütünlükdə Qafqazın geosiyasi vəziyyətinə Qərb dünyasının aparıcı dövlətlərinin, o cümlədən ABŞ-ın münasibəti, regiondakı konfliktlərin həllində yeni imkan və vasitələrin axtarışları mühüm əhəmiyyət kəsb edir. Məhz, elə bu baxımdan həmin qəbildən olan tədqiqatlara böyük ehtiyac vardır. F.İsmayılovun "Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində" kitabı bu sahədə atılan uğurlu addımlardandır.

Dağlıq Qarabağ probleminin tarixi və geosiyasi köklərinə nəzər saldıqdan sonra gənc araşdırıcı konfliktin ilkin mərhələsində ABŞ dövlətinin mövqeyinə diqqət yetirir.

Dağlıq Qarabağ konfliktinə münasibət təbii olaraq ABŞ-Azərbaycan dialoqunda yeni mərhələ yaradır. Nəticədə Avropa dövlətlərinin problemin həllində sə'ylərini dəstəkləyən ABŞ özünün təşəbbüsü və vasitəçiliyi ilə qısa müddət ərzində Ermənistan-Azərbaycan konfliktinin həlli strategiyasında atdığı uğurlu addımları ilə yeni səhifələr açır.

Dağlıq Qarabağ konflikti ilə bağlı ABŞ-ın son vaxtlarda nümayiş etdirdiyi konstruktiv fəaliyyət xüsusilə diqqətəlayiqdir. İlk növbədə ona görə ki, ABŞ-ın strateji planları baxımından Ermənistan-Azərbaycan konfliktinin həlli Qafqazda hər şeydən əvvəl, sabitliyi və təhlükəsizliyi tə'min



etməlidir. Vaşinqton yaxşı başa düşür ki, əgər Cənubi Qafqazda sülh və sabitlik bərpa olunmasa, bu super ölkənin bütünlükdə Qafqazla bağlı mənafeləri xeyli çətinliklərlə üzləşə bilər. Məhz buna görə də Azərbaycan tərəfi də konfliktin sülh yolu ilə həllinə çalışır.

Azərbaycan prezidenti Heydər Əliyev MDB ölkələrinin Müdafiə Nazirləri Şurası iclasının iştirakçılarını qəbul edərkən demişdir: "Biz sülh mövqeyindəyik, konfliktin dinclikIə nizama salınması mövqeyindəyik. Ermənistan və Azərbaycan prezidentləri arasında son vaxtlar keçirilən görüşlərdə, ATƏT-in Minsk qrupu həmsədrlərinin – Rusiyanın, Birləşmiş Ştatların və Fransanın fəallaşması da müəyyən ümid yaradır ki, bu məsələnin qarşılıqlı kompromislər yolu ilə dincliklə həllinə nail ola bilərik".

ABŞ-ın yeni prezidenti Dağlıq Qarabağ konfliktinin tezliklə aradan qaldırılması üçün konstruktiv diplomatik sə'y göstərir və bütün mövcud tənzimlənmə mexanizmlərindən istifadə etməyə çalışır.

ABŞ-ın Ermənistan-Azərbaycan konfliktinin həllində rolunun və yerinin bir çox tərəflərinin hələ də öyrənilmədiyinə şübhə etmirik. İnanırıq ki, gənc politoloq Füzuli İsmayılov gələcəkdə də bu istiqamətdə araşdırmalarını uğurla davam etdirəcəkdir.

Qarşınızdakı kitab eyni zamanda Amerika-Azərbaycan münasibətlərinin keyfiyyətcə yeni mərhələsinin öyrənilməsində də mühüm addım sayıla bilər. Bu da öz növbəsində Azərbaycanın dünya dövlətləri ilə, xüsusən Azərbaycan-Qərb diplomatik münasibətlərinin yenidən qurulmasında daha çevik və səmərəli mexanizmlərin işlənib hazırlanması, tətbiqi baxımından faydalıdır.

Şübhəsiz ki, beynəlxalq münasibətləri araşdıran mütəxəssislərin qarşısında duran ən aktual problemlərdən biri Azərbaycanın dünya birliyi ölkələri ilə əlaqələrinin daha da

intensivləşdirilməsi üçün düzgün və doğru öncəgörmələri müəyyənləşdirməkdir.

Gənc politoloqun ilk kitabının uğur qazanacağına inanıram. Çünki o, hər şeydən əvvəl günümüzün nəbzini tutan tədqiqatçı kimi xalqımızın taleyüklü probleminin araşdırılması ilə məşğuldur.

***Vaqif Arzumanlı***

Azərbaycan MEA Beynəlxalq Münasibətlər İnstitutunun direktoru, professor.

*15 may 2001-ci il.*



## *REDAKTORDAN*

*Sosializm sisteminin dağılması və bunun ardınca Sovet İttifaqının parçalanması dünyada prinsipcə yeni geosiyasi sistem yaranmasına səbəb olmuş, nəticədə planetdə fövqəldövlət rolunda çıxış edən yalnız bir ölkə qalmışdır – Amerika Birləşmiş Ştatları. Buna görə də istər dövlətçiliyin formalaşması sahəsində ABŞ-ın təcrübəsindən istifadə baxımından bu təcrübənin öyrənilməsi mə'nasında, istərsə də ətraf aləmdən heç bir köməyi olmayan, böyük dünya ilə təkbətək qalmış gənc Azərbaycan Respublikasının siyasi və iqtisadi baxımdan salamat qalması mə'nasında indiki mərhələdə fövqəldövlət fenomeninə maraq xüsusilə artmışdır. Lakin ölkəmizin Amerika ilə əməkdaşlığının və onunla yaxınlaşmasının ehtimal edilən yollarını müəyyənləşdirmək üçün ən azı bu gün Amerikanın xarici siyasətinin mahiyyətini təşkil edən, onların sabitliyini və legitimliyini tə'yin edən amilləri araşdırmaq lazımdır.*

*"Milli mənafelər" ideyasının siyasi baxımdan mə'nalandırılması təxminən XIX əsrə - "real xarici siyasət" haqqında Avropada yaranmış geosiyasi nəzəriyyələrin vahid elmi sistem şəklində formalaşdığı dövrə təsadüf edir. Bu ideyanın mahiyyətini qısaca belə ifadə etmək olar ki, bütün Avropa ölkələri özlərinin xarici sərhədlərinin dəyişməzliyi sayəsində (o dövrdə həmin sərhədlər qənaətbəxş sayıla bilərdi) qitədə öz milli mənafelərinə riayət olunması prinsipini əsas götürərək bir-birilə qarşılıqlı münasibətlərini qura bilirdilər. Başqa sözlə desək, real siyasətin əsasını Avropada mövcud sərhədlərin dəyişməz olması barədə xalis coğrafi təsəvvürlər təşkil edirdi. Lakin cəmiyyət təkamül etdikcə, kommunikasiya vasitələrinin inkişafı, dövlətlərin hərbi qüdrətinin artması sayəsində "milli mənafelər" ideologiyasının mahiyyətində ciddi dəyişikliklər baş verdi. Əvvələn, bu və ya digər ölkənin geostrateji mövqeyi, dövlət sərhədlərinin yaxınlığı*

"xarici siyasətdə mənafelər" tezisinin anlaşılmasında ciddi əhəmiyyət kəsb etmədi. Milli mənafe anlayışının ən'ənəvi mə'nasında dəyişikliklər yaranmasına səbəb olmuş daha bir əsas amil legitimlik alayışına münasibətin dəyişməsi ilə bağlıdır. Bununla əlaqədar, məşhur ABŞ politoloqu S.Hantinqtonun aşağıdakı fikri maraq doğurur: "Böyük dövlət klassik mənafeyinin ifadəsi olan insan nəsilləri və həmin dövlətlərin öz nüfuzundan istifadə etmələri Avropanın ən'ənəvi dövlət sistemlərinin kübar xarakterli sosial quruluşundan irəli gəlmişdir. Monarxiya sistemlərindən millətçi və demokratik baxışlara doğru irəliləyiş həm dövlətlərin öz qarşısına qoyduğu məsələlərin məzmununu və həm də bu məqsədələrə nail olmaq üçün istifadə edilən vasitələri əsaslı şəkildə dəyişmişdir. Legitimlik formasının ən adi dəyişmələri dövlət sistemini və beləliklə, dövlətin zahiri əhatəsini də dəyişdirir.

Habsburqlar və Osmanlı imperiyalarını milli dövlət sistemlərinin əvəz etməsi ilə nəticələnmiş Versal sülhü bağlanandan sonra yaranmış vəziyyət də belə idi, keçmiş Sovet İttifaqı məkanında hazırki vəziyyət də belədir... Legitimlik barədə liberal-demokratik baxışlar sosial həyatın və xarici siyasətin burjualaşmasına gətirib çıxarır, iqtisadiyyatın hərbiləşdirilməsinə daha artıq əhəmiyyət verilir". Yeri gəlmişkən, təcrübə də göstərir ki, sabit demokratik dövlətlərdə legitimliyə münasibət ümumi olur və bu cür dövlətlər, adətən, bir-birinə qarşı müharibə aparmırlar. Bə'zən bu dövlətlər arasında iqtisadi sahədə qarşıdurma vəziyyəti yaransa da, onlar klassik mə'nada bir-birinə qarşı tətbiq etmək üçün qüvvə toplamağa cəhd etmirlər.

İstər yuxarıda adlarını çəkdiyimiz, istərsə də, əsasən, texnoloji dəyişikliklərin tə'siri ilə bağlı olan başqa səbəblər ona gətirib çıxarmışdır ki, müasir şəraitdə ABŞ-ın milli mənafelərini müəyyənləşdirən yeni prinsipləri ABŞ politoloqlarının özləri də uzun müddət dürüst ifadə edə bilmirdilər. Xarici siyasətdə yeni ideologiya yaratmağın zəruriliyi gerçəkliyə çevrilmişdir. SSRİ bir fövqəldövlət kimi mövcud olduğu dövrdə dünya şərti olaraq "qaralar" və "ağlar" deyə iki hissəyə bölünürdü. O vaxt hər hansı ölkənin ABŞ-ın dövlət sərhədlərindən coğrafi mə'nada nə qədər uzaq yerləşməsindən asılı olmayaraq, ABŞ-ın dünyanı öz həyati



mənafelərinə uyğun zonalara bölmək sarıdan fəallığını izah etmək mümkün idi.

İndi vəziyyət kökündən dəyişmişdir. Amerika bu ölkənin bütün tarixi ərzində ən mürəkkəb bir strateji seçim ilə üzləşmişdir: o, ya qlobal yeni təcridçilik yolu ilə gedərək daxili problemlərin həllinə diqqəti artırmalı, ya da xarici siyasətdə prinsipcə elə bir yeni konsepsiya yaratmalıdır ki, həmin konsepsiya:

1) - ABŞ-ın planetdə yeni rolu hesabına Amerika həyat tərzininin imicini təsdiq etsin;

2) - xarici siyasi doktrinanın xalis ideoloji istiqamətini möhkəmlətsin.

Bu, hərbi xərcləri ixtisar etməyə və büdcə kəsirini azaltmağa imkan verərdi. Amerikadan ötrü həlledici əhəmiyyət kəsb edən belə bir dövrdə politoloji mərkəzlərdə ABŞ-ın xarici siyasət doktrinasının yeni məzmunu – demokratiyaya can atmaq meyli müşahidə olunur.

Bəs yeni ideologiyanın əsas cəhətləri və onun mahiyyətini təşkil edən amillər nədən ibarətdir?

Amerika elmi-tədqiqat institutunun tanınmış politoloqu Corc Muravçikin fikrincə, bu amillər aşağıdakılardır:

Birinci cəhət – amerikalılar planetin başqa sakinlərinin halına acıyırlar. Əlbəttə, demokratiya özlüyündə hamını xoşbəxt etmir, lakin o, insanların "xoşbəxtliyə can atmaq" hüququnu tə'min edir.

Mümkündür ki, bə'zi adamlar xoşbəxtliyə can atmaq mə'nasında nə qədər sərbəst olsalar da ona nail ola bilməyəcəklər. Lakin adamların böyük əksəriyyəti xoşbəxtliyə daim can atmağı bütün həyatın mə'nası hesab edir. Amerika özünün mövcudluğu faktı ilə insanların bu təbii və gözəl istəyinə stimul yaratmalıdır;

İkinci səbəb ondan ibarətdir ki, dünyamız nə qədər demokratik olsa, Amerikanın əhatəsi ona bir o qədər dostcasına münasibət bəsləməyə başlayır. Bə'zən demokratik hökumətlər ABŞ-dan ötrü təşviş mənbəyinə çevrilmiş olsalar da bu dövlətlərin heç biri ABŞ-a düşmən kəsilməmişdir;

Nəhayət, üçüncü səbəb ondan ibarətdir ki, dünyada demokratiya inkişaf etdikcə o, daha sülhsevər olur.

Araşdırmalar göstərmişdir ki, müasir şəraitdə demokratik rejimlər arasında müharibə praktiki olaraq qeyri-mümkündür.

Daha sonra, C.Muravçikin fikrincə, demokratik dünya yaranacağı haida Amerikanın əldə edəcəyi üstünlüklərdən əlavə, bunun bir xeyri də ondan ibarətdir ki, Amerika demokratiyanın müdafiəçisi olacaqdır. Çünki bu halda Amerika öz siyasətinə və hərəkətlərinə dəstək qazanmaq üçün həm ölkə daxilində, həm də xaricdə daha çox adamı sıx birləşdirməyə müvəffəq olacaqdır.

Amerikanın milli mənafeləri ilə bağlı yeni ideologiyanın əsas şərtləri bunlardır. Həmin şərtlər yeni şəraitdə Amerikanın bəşəriyyət adından və onun naminə tamamilə yeni mövqedən ıxış etməsinə imkan verir.

Suveren Azərbaycan Respublikası beynəlxalq münasibətlər subyekti kimi müasir inteqrasiya proseslərinə daxil olduqca öikəmizin həyatının bütün sahələrində – siyasi, iqtisadi və mədəni sferalarında dövlətçiliyimizin sosial tələbatlarından irəii gələn köklü dəyişiklikləri həyata keçirməyə başlamışdır. Respublikamız artıq özünün siyasi imici ilə beynəlxalq aləmdə getdikcə daha da tanınmaqdadır. Ölkə prezidenti Heydər Əliyevin dediyi kimi "indi Azərbaycanı dünyanın hər yerində tanıyırlar. İndi hər bir azərbaycanlı qürur hissi keçirə bilər ki, mən azərbaycanlıyam, mənim millətimin dövləti, mənim millətim, ölkəm vardır... Dünya birliyində, bütün beynəlxalq təşkilatlarda Azərbaycànın yeri vardır". Lakin bu beynəlxalq özünü təsdiq tarixi məşəqqətlər və sosial sarsıntılar keçirmiş ölkəmiz və xalqımız üçün heç də asan başa gəlməmişdir. Yeni demokratiyaların təcrübəsinin göstərdiyi kimi Azərbaycanda da demokratikləşmə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesləri, sosial yönümlü bazar iqtisadiyyatına keçid son dərəcə mürəkkəb, gözlənilməz, həlli böyük məs'uliyyət tələb edən konfliktlərlə müşayət olunur. Və bütün problemlərin, o cümlədən sosial konfliktlərin həlli yalnız daxili idarəetmənin deyil, hər şeydən əvvəl xarici siyasət strategiyasının düzgün qurulmasından, Azərbaycanın geosiyasi mənafelərinin realistcəsinə dərkindən xeyli asılıdır. Bu isə öz növbəsində ağrılı problemləri olan Azərbaycanın dünya birliyində, beynəlxalq münasibətlər sistemində dialoqa hazır olan açıq cəmiyyət kimi təmsil olunmasını tələb edir. Tarixi taleyin hökmü elə gətirmişdir ki, qədim



mədəniyyətə malik, bəşər sivilizasiyasına özünün milli dəyərlərini töhvə vermiş Azərbaycan bu gün Qarabağ konflikti ilə dünya ictimaiyyətinin nəzərini cəlb etməli olmuşdur. Birləşmiş Ştatların mö'təbər mətbuat orqanı olan "Vaşinqton post" qəzeti artıq 1992-ci ii 11 mart sayında yazırdı: "ABŞ prezidenti bu gün Ermənistan iiə Azərbaycan arasında böhranın artması barədə Türkiyənin baş naziri S.Dəmirəl ilə telefon söhbəti etmişdir. Dağlıq Qarabağdakı vəziyyət prezidenti dərindən narahat edir və o, tərəfləri dərhal sülh bağlamağa çağırır, çünki hesab edir ki, hər iki ölkə ixtilafları sülh yolu ilə həll edə bilər. ATƏM-in Dağlıq Qarabağ böhranına cəlb edilməsi beynəlxalq birliyin dərin narahatlığından xəbər verir". Şübhəsiz ki, bu, superdövlətin konflikt tərəflərini dialoqa çağırışı kimi qiymətləndirilməlidir. Bu günün inteqrasiya proseslərinin xarakteri və xüsusiyyətləri göstərir ki, dövlətlər arasında dialoq perspektivli münasibətlər forması kimi müstəsna əhəmiyyət kəsb edir. Müasir siyasi praktikanın da göstərdiyi kimi "mümkünlük sənəti" adlanan diplomatiyanın sülhsevərlik potensialı məhz dialoqda açılır. Ona görə də "bu gün beynəlxalq dialoq nə deməkdir, niyə transmilli korporasiyalar əsrində öz milli mənafelərini daha rasional şəkildə həyata keçirmək qabiliyyətini nümayiş etdirən dövlətlər dialoqa ehtiyac hiss edirlər?" sualları politoloqların araşdırmalarında və mülahizələrində xüsusi aktuallıq kəsb edir.

Beynəlxalq dialoq hər şeydən əvvəl tərfdaşla qarşılıqlı təmas deməkdir. Diplomat dialoqda tərəfdaşını başa düşməyə, onu real əməkdaşlığa, qarşılıqlı anlama də'vət etməyi bacarmalıdır. Beynəlxalq dialoqun birinci funksiyası iştirakçılar arasında ümumi mənafelərin mahiyyətini aydınlaşdırmaq, bunları uzlaşdırmaq, danışıqları siyasi mədəniyyət çərçivəsində aparmaqdır. İkincisi, dialoq subyektləri bilməlidirlər ki, tərəfdaşların mənafelərinin müxtəlifliyinin və rəngarəngliyinin nəzərə alınması diplomatiyanın təbii və qanunauyğun prinsipidir və buna görə də məqbul sayılan qərarlara hörmətlə yanaşılmalıdır. Üçüncüsü, bizcə ən vacibi budur ki, beynəlxalq dialoq eyni zamanda iki ölkə arasında münasibətlər və onların vasitəsilə üçüncü tərəflə ünsiyyətlər sistemində danışıqlar mexanizminin diplomatik tənzimlənməsinə kömək göstərir. Bu baxımdan təsadüfi deyildir ki, bu gün ümumavropa proseslərində diplomatik danışıqlar

*modelinin işlənib hazırlanmasında beynəlxalq dialoqun rolu getdikcə artmaqdadır. Bir sözlə, beynəlxalq dialoq diplomatik əməkdaşlıq sisteminin yaradılmasında mühüm mexanizm kimi çıxış edir. Çoxşaxəli ABŞ-Azərbaycan münasibətlərində beynəlxalq dialoqa üstünlük verilməsi buna canlı sübutdur.*

*Monoqrafiyanın müəllifi, gənc alim F.İsmayılov kitabı nəşrə hazırlayarkən məhz bu məqamları nəzərdə tutmuş, ABŞ-Azərbaycan münasibətlərində, iki ölkə arasındakı dialoqda Qarabağ konfliktinin həlli üçün zəruri olan problemləri araşdırmağa cəhd göstərmişdir. Müəllif həmçinin belə əqidədədir ki, ölkə prezidenti Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan diplomatiyası nəinki respublikamıza qarşı çevrilmiş informasiya blokadasını yarmış və ölkəmizin müsbət imicini artırmış, habelə Azərbaycanın dünyanın super dövləti Birləşmiş Ştatlarla tam, bərabər hüquqlu, öz milli mənafelərindən çıxış edən dövlət kimi normal münasibətlər qurmağa, sağlam düşüncə fəlsəfəsinə söykənən dialoq aparmağa qabil olduğunu sübut etmişdir. Bunun əyani nümunəsi təcrübəli siyasətçi və görkəmli diplomat Heydər Əliyevin Ki-Uestdə apardığı danışıqlardır.*

*Gənc tədqiqatçı F.İsmayılova*
*politologiya elmində*
*yeni səhifələr açmaq arzusuyla*

***Rövşən Mustafayev,***

siyasi elmlər doktoru



*FƏSİL I*

## DAĞLIQ QARABAĞ PROBLEMİNİN GEOSİYASİ KÖKLƏRİ

***Bizim tariximiz vardır. Bilirik ki, Azərbaycan hansı ərazidə olubdur. Bunu yaxşı bilirik. Hamımız bilirik və tariximizi yada salaraq ürək ağrısı ilə deyirik ki, Azərbaycanın ərazisi indikindən xeyli böyük, geniş olubdur. Ancaq tarixin müəyyən mərhələlərində bu ərazinin bir hissəsi ermənilərə keçibdir – bir dəfə, iki dəfə, üç dəfə.***

***Heydər Əliyev***

Siyasi tariximizin faktları bunu deməyə əsas verir ki, ABŞ geosiyasəti Azərbaycanla yalnız Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra ciddi maraqlanmağa başlamışdır. Müttəfiq dövlətlərin Cənubi Qafqazdakı orqanlarında təmsil olunan ABŞ nümayəndələri, 1919-cu ildə Azərbaycana gələn Amerika missiyaları ölkənin geosiyasi unikallığını "kəşf" edən və regionda ABŞ strategiyasının perspektivləri barədə ilk dəfə daha ciddi düşünən Amerika rəsmiləri olmuşlar. Həmin missiyanın üzvlərindən biri ABŞ ordusu Baş Qərargahının polkovniki Vilyam N.Hasgel müttəfiq dövlətlərin (ABŞ, İngiltərə, Fransa və İtaliya) Cənubi Qafqazdakı ali komissarı sifətilə 1919-cu il avqustun 28-də Bakıda olmuşdur. Qeyd edək ki, o, hələ İrəvanda işləyərkən Azərbaycanın problemləri, o cümlədən Qarabağ məsələsi ilə tanış olmuşdu. Buna görə də, Bakıda ADR-in xarici işlər naziri M.Y.Cəfərovla, Nazirlər Şurasının sədri N.Yusifbəyovla görüşmüşdür. Tiflisdə çıxan "Borba" qəzetinin yazdığına görə Hasgel N.Yusifbəyova birmə'nalı şəkildə bildirmişdir ki, o, Qarabağın, eləcə də Zəngəzurun qət'i olaraq Azərbaycana keçməsini zəruri sayır. Danışıqlarda Hasgel Şərur və Naxçıvandan ibarət neytral zonanın yaradılması ideyasını da irəli sürmüşdür. Onun fikrincə, bu zonada (buna "müttəfiqlər zonası" da deyilir) başda Amerika qubernatoru olmaqla müttəfiq idarəçilik sistemi tətbiq olunmalıydı. N.Yusifbəyov bu təklifin

parlamentin müzakirəsinə veriləcəyini bildirmiş və eyni zamanda milli təhlükəsizlik baxımından bir sıra şərtlər irəli sürmüşdü: neytral zonada Azərbaycan pulu (bonu) işlədilməli, zona Ermənistanın bütün tə'sirlərindən kənarda olmalı, erməni silahlı qüvvələri zonaya buraxılmamalıdır. "Borba" qəzetinin mə'lumatına görə, Azərbaycan hökumətinin sülhsevər siyasəti Hasgelə çox yaxşı tə'sir bağışlamışdı. O, hətta Azərbaycanda hökm sürən hüquq və qayda-qanuna heyran qalmışdır [1].

Bunu da qeyd etmək vacibdir ki, Versal konfransında ABŞ prezidenti Vudro Vilsonun yeni diplomatiyası da müstəqillik qazanmış Cənubi Qafqaz respublikalarının, o cümlədən Azərbaycan Respublikasının xarici siyasətinin yeni məzmun kəsb etməsində önəmli rol oynamışdır. Amerika politoloqu Devid L.Vilsonun tə'birincə desək "beynəlxalq münasibətlər lüğətində inqilab etmiş". V.Vilsonun adı çəkilən konfransda demokratiya, milli özünüünüəyyənlik və kollektiv təhlükəsizlik haqqında söylədiyi ideyalar müstəqilliyinin tanınmasına sə'y göstərən gənc Azərbaycan diplomatiyasına da güclü tə'sir göstərmişdir [2].

Bu qısa tarixi-faktoloji təsvir göstərir ki, birincisi, hələ XX əsrin əvvəlində Azərbaycan dövlətçiliyinin yenicə formalaşmağa başlayan xarici siyasəti, ölkəmizin geosiyasi aktuallığı Avropa dövlətlərinin, ilk növbədə Versal sülh müqaviləsindən sonra dünyanın iri və qüdrətli dövlətinə çevrilməyə başlayan ABŞ-ın milli mənafelərinin real siyasi obyekti olmuşdur. İkincisi, siyasi ömrü cəmi 23 ay olmuş Azərbaycan Respublikası hələ o dövrdə Dağlıq Qarabağ konfliktinin həlli məsələsində prinsipial mövqe tuta bilmiş, dünyanın tanınmış dövlətləri ilə, hər şeydən əvvəl, ABŞ kimi inkişaf etmiş ölkənin rəsmi nümayəndələri ilə bərabər hüquqlu suveren dövlət olaraq ləyaqətli, yə'ni gənc demokratik dövlətin milli mənafeləri baxımından danışıqlar aparmaq iqtidarında olmuşdur. Və, nəhayət üçüncüsü. Bu tarixi fakt bir daha göstərir ki, hələ o dövrün sosial-siyasi reallıqları məcrasında beynəlmiləlləşdiyindən Qarabağ konfliktinin həlli milli hüdudlardan kənara çıxaraq, geosiyasi dildə deyilsə, "böyük məkan qanunları"na tabe olmuşdur. Qeyd edək ki, geosiyasətin fundamental qanunu "böyük məkan" prinsipidir. Geosiyasət elminin görkəmli nümayəndələri Makinder və Hausxoferin irəli sürdüyü, K.Şmittin inkişaf etdirdiyi bu prinsipə görə, dövlətin milli suverenliyi təkcə onun hərbi qüvvəsindən, texnoloji inkişafından və iqtisadi bazasından deyil, daha çox onun torpaqlarının və ərazisinin yerləşdiyi yerin coğrafi ölçülərindən asılıdır. Geosiyasət klassikləri sübut etməyə çalışırlar ki, suverenlik problemi birbaşa regionun geosiyasi müstəqilliyindən, ərazi yetərliyindən asılıdır. Ona görə də həqiqi suverenliyə can atan dövlətlər ilk növbədə ərazi yetərliyi problemini həll etməlidirlər. Tarixən (bu gün də belədir) belə yetərliyə regionda yerləşən iri dövlətlər, yə'ni digər dövlət



qurumlarının mümkün hücumlarından strateji müdafiə qabiliyyətli ölkələr malik olmuşlar. Müasir reallıqların nümayiş etdirdiyi kimi bir iri dövlətin dağılması ilə, şəksiz ki, Yer üzünün geosiyasi məkanı ciddi surətdə dəyişir. Xatırladaq ki, ADR-in müstəqilliyinin qazanılması Rusiya imperiyasının müvəqqəti dağılması dövrünə təsadüf edir, Avropa dövlətlərinin, eləcə də ABŞ-ın Cənubi Qafqaz regionunda geosiyasi maraqları da məhz həmin dövrdə vüs'ət almışdır. Müasir dünyanın mənzərəsi sübut edir ki, "böyük məkan" qanunu öz strateji əhəmiyyətini nəinki itirməmiş, əksinə bəşəriyyət bu gün "mondializm" konsepsiyasının bərqərar olmasının şahidi olmaqdadır [3]. Həmin konsepsiyaya görə, planet Amerika mərkəzindən idarə olunan vahid böyük məkana çevrilməkdədir. ABŞ-ın keçmiş prezidenti Bill Klintonun "XXI əsr Amerika əsri olmalıdır" ideyasını xatırlayaq.

Bu baxımdan təsadüfi deyildir ki, ABŞ-ın XX əsrin 90-cı illərindən regiona marağının yeni səhifəsi açılmış, dünya siyasətində qlobal rol oynayan dövlətin Cənubi Qafqazdakı konfliktlərin həllində iştirakı Qarabağ probleminə yeni geosiyasi məzmun kəsb etdirmişdir. Belə mə'lum həqiqəti bir daha xatırlatmaq istərdik ki, Sovet imperiyasının dağılması onun ucqarlarında qanlı hadisələrlə müşayiət olunmuş və bu özünün bariz təzahürünü Dağlıq Qarabağ konfliktində tapmışdır. Buna görə də Dağlıq Qarabağ probleminin genezisini, onun geosiyasi köklərinin yaranmasının sosial-siyasi səbəblərini araşdırmaq mühüm nəzəri-metodoloji əhəmiyyət kəsb edir. İrəlicədən qeyd edək ki, araşdıracağımız problemin geosiyasi aspekti konfliktin köklərinin meydana gəlməsində Rusiyanın tarixi-geosiyasi mövqeyi və bütövlükdə Rusiyanın Cənubi Qafqazda milli mənafelərinin həyata keçirilməsi ilə sıx bağlıdır.

İstər Rusiya, istərsə də Qafqaz müəlliflərinin politoloji axtarışları göstərir ki, Qafqaz həm siyasəti, həm də iqtisadi mənafeləri baxımından rus çarizminin geosiyasi niyyətlərinin mərkəzində olmuşdur. Avropanı Asiya ilə, Xəzər dənizini Qara dənizlə birləşdirən zəngin region həmçinin Rusiyanın xarici siyasəti ilə bağlı olan ölkələrin, xalqların da diqqətini cəlb etmişdir.

Belə bir metodoloji prinsipi qeyd etmək yerinə düşərdi ki, "etnik qruplar və dövlətlər arasında müasir konfliktlər böyük tarixi hadisələrin mirasıdır". Bu baxımdan Qarabağ konfliktinin də genezisi bariz nümunə kimi götürülə bilər. Belə ki, XVIII əsrdən başlayaraq Rusiya Qafqaz bölgəsində öz strateji mənafelərini həyata keçirmək üçün fəal geosiyasi addımlar atmağa başlayır. Regionun zəngin təbii ehtiyatları, coğrafi mövqeyi barədə yetərincə mə'lumata malik olan çarizm rejimi feodal çəkişmələrindən məharətlə istifadə edərək və bə'zən özünəməxsus şəkildə baş verən sosial-siyasi konfliktlərə müdaxilə edir, antifeodal

hərəkatların yatırılmasında jandarm siyasətini yeridirdi. Həmin dövrdə Rusiyanın imperiya siyasətinin başlıca istiqaməti təkcə öz sərhədlərini möhkəmləndirmək deyil, hər şeydən əvvəl yeni əraziləri işğal etmək, zəbt olunmuş zonalarda özünün siyasi tə'sir gücünü təsdiqləmək idi. 1812-ci ildə Fransa üzərində qələbədən sonra Rusiya tədricən xarici siyasətində açıq zorakılığa söykənən dövlət kimi formalaşmağa başlayırdı. Avropada xalq inqilablarının yatırılmasında rus çarizminin xüsusi canfəşanlıq göstərməsi bu dövlətin beynəlxalq nüfuzunu müvəqqəti olsa da, müəyyən qədər artırmış, ona Avropanın jandarmı imicini qazandırmışdı.

Bütün bunlara baxmayaraq, Rusiya imperiyasının başlıca qayğısı Xəzər dənizinə çıxmaq, burada hərbi donanma yaratmaq, Qafqaz regionuna sahiblik etmək olmuşdur. Çarizmin regionda öz imperiya siyasətini yeritməsini artıran "şanslardan" biri ermənilərin Rusiyanın hakim dairələri ilə əlbir hərəkəti idi. Erməni millətçiləri özlərinin "böyük siyasətlərinə" atılarkən başlıca məqsədləri Türkiyə Ermənistanında (?)"azad hökmranlıq edən demokratik respublika", "dənizdən dənizə qədər (Bakı da daxil olmaqla) Böyük Ermənistan dövlətini" yaratmaq olmuşdur. Həyata keçirilməsi mümkün olmayan bu siyasi utopiyanı erməni ideoloqları hələ çoxdan təbliğ etməyə başlamış, siyasətlərində çox incə "üsullardan" istifadə etmişlər. Məsələn, 1608-ci ildə İran dövlətinin başçısı Şah Abbasın müşaviri olmuş Xoca Səfər (şah İranın xarici siyasət məsələləri ilə məşğul olmağı və Avropa ölkələri ilə danışıqlar aparmaq səlahiyyətini ona həvalə etmişdi) Roma papasına, İspaniya kralına, Toskano hersoquna və Venetsiya dojuna şahın məktubunu çatdırmaq fürsətindən istifadə edərək ermənilərin də məktubunun olduğunu bildirmiş, Avropanın o dövrdə nüfuzlu ölkələrinin başçılarının diqqətini "məzlum" ermənilərin problemlərinə cəlb etmişdi [4]. Bu, erməni millətçilərinin Avropaya açdıqları "siyasi" pəncərə oldu. Lakin həmin ideoloji addımın hazırlanmasında erməni tacirlərinin, onların bu sahədə xüsusi iste'dadla əlaqələr yaratmasının böyük əhəmiyyəti olmuşdur. Qeyd edək ki, dünyanın tanınmış ölkələri ilə İran dövlətinin ticarət əlaqələrində ermənilər müstəsna rol oynamış və bunun sayəsində xeyli kapital toplamışdılar. Həmin kapitala söykənən erməni millətçilərinin utopik dövlətçilik ideyasının həyata keçirilməsində diplomatik missiyanı kilsə həyata keçirirdi. Mübaliğəsiz demək olar ki, ermənilərin həmrə'yliyinin tə'min olunmasında birləşdirici amil olan kilsə tarixən müəyyən mə'nada dövlətçilik funksiyasını da yerinə yetirirdi. Lakin "həm xarakterinə, həm də coğrafi mövqeyinə görə ikiüzlü olan ermənilər" Avropa dövlət başçılarının rəğbətini qazana bilməyib Rusiyaya üz tutmağa məcbur olmuşdular.

Ümumiyyətlə, Rusiyada ermənilərdən çarizmin Qafqazdakı geosiyasi mənafelərində istifadə oluna biləcəyini ilk dəfə başa düşən I Pyotr



olmuşdur. Rus yazıçısı və jurnalisti S.N.Qlinka Moskvada Lazarevlərin mətbəəsində çap olunmuş "Azərbaycan ermənilərinin Rusiya ərazilərinə köçürülməsinin təsviri" (1831) əsərində göstərir ki, I Pyotr erməniləri gözdən qaçırmaq istəmirdi. O, onları Rusiya üçün faydalı işə cəlb etmək istəyirdi. "Böyük islahatçı Pyotr" İran səfərində şəxsən öz təcrübəsində erməni xalqının sarsılmaz sədaqətinin şahidi olmuş və sonradan "sadiq" erməniləri faydalı vətəndaşlar kimi Rusiyaya də'vət etmişdi. Həmin müəllif qeyd edir ki, Qafqazda rus işlərini sahmana salmaq, əslində isə, ermənilərə siyasi-psixoloji tə'sir göstərmək məqsədilə general Paskeviçə göstəriş vermişdilər ki, polkovnik Lazarevi ayrıca Qafqaz korpusuna də'vət etsin, çünki bu mə'murun ermənilər arasında görünməsinin özü ermənilərin "ləyaqətli" oğullarına Rusiyanın rəğbətinin təcəssümü demək idi [5]. Əsasən, erməni mənbələrinə istinad edən Qlinkanın özü də rus çarizminin müstəmləkə siyasətini dəstəklədiyindən ermənilərə rəğbətini gizlədə bilmirdi. Təkcə bunu demək kifayətdir ki, o ermənilərin İrandan və Türkiyədən Qafqaza, xüsusilə Azərbaycanın Qarabağ bölgəsinə köçürülməsini vaxtilə yəhudilərin Misir əsirliyindən həsrət çəkilən torpağa köçməsi, qayıtması ilə müqayisə edir [6]. Siyasətlərinin bu günə qədər əsas "mexanizmləri" olan rüşvət və terrorizmdən məharətlə istifadə edən erməni ideoloqları Rusiya ilə ilk "diplomatik" danışıqlarına da belə başlamışlar. Tarixi faktlara müraciət edək. Erməni millətçilərinin Rusiya ilə yaxınlaşmasında İranla Rusiya arasında ticarət əlaqələrində ermənilərin fəal iştirakının rolu misilsiz olmuşdur. Onlar "ticarət siyasətdir" prinsipinə sadiq qalaraq rus mə'murlarını bahalı hədiyyələrlə, rüşvət üsulu ilə ələ alaraq gələcək siyasi münasibətlərin, diplomatik danışıqların real təməlini hazırlayırdılar. Demək lazımdır ki, öz "milli" məqsədlərinə nail olurdular [7]. Həmin intensiv ticarət əlaqələrinin, Şərq ölkələrinin təbii sərvətləri hesabına topladıqları kapitaldan "diplomatik" resurs kimi istifadə sayəsində 1660-cı il avqustun 28-də Rusiyada İran ipəyi alveri ilə məşğul olan İsfahan taciri Xoca Zakar Sarhadov (Sarhadyan) özünün şirnikləşdirici hədiyyələri ilə çar Aleksey Mixayloviçin qəbuluna düşə bilir. Bu hədiyyələrin biri hazırda Moskvada Kremlin silahlar palatasında saxlanan "Almaz taxt"dır. Erməni taciri bundan əlavə B.Saltanova (Saltanyan) məxsus, üzərində Leonardo da Vinçinin "Sirli gecə" rəsminin surəti həkk olunmuş mis lövhəni də rus çarına hədiyyə etmişdi [8]. Başqa bir mənbədə göstərilir ki, 1669-cu ilin dekabrın 3-də İsfahandakı erməni icmasından Stepan Mişsekov və Boqdan Saltanov Rusiya çarının adına Moskvaya hədiyyələr gətirmişdilər. Bir müddətdən sonra, ilk əlaqələrin sənginməsinə imkan verməyən ermənilər İsfahandan tacir Stepan Romadamski vasitəsilə Rusiya hökmdarına 9062 rubl dəyərində bəzəkli və qiymətli mallar gətirmişdi [9]. Beləliklə, erməni dövlətçiliyinin bərpası yolunda ilk



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI
22325

addımları atan İran ermənilәri yuxarı rus rәsmilәri ilә görüşlәrindә Şәrq-Rusiya diplomatik әlaqәlәrindәn öz mәqsәdlәri üçün geniş istifadә etmәyә başladılar. Qeyd edәk ki, Rusiya-ermәni ticarәt әlaqәlәri ermәni ideoloqlarının Rusiyanın mәhz hakim dairәlәri ilә dә yaxınlaşmasında mühüm rol oynamışdır. Mәsәlә burasındadır ki, "Avropaya pәncәrә" açmış I Pyotr Şәrq bazarlarında da Rusiyanın mövqeyini möhkәmlәndirmәk siyasәtini hәmişә ön plana çәkmişdir. Onun mәqsәdi ilk növbәdә Avropa ilә aparılan ipәk ticarәti yolunu Volqa-Xәzәr yolu istiqamәtindә döndәrmәk, Osmanlı imperiyasının xәzinәsinә axan "ipәk gәlirini" öz әlinә keçirmәk idi. Çünki hәmin dövrdә Asiyadan Avropaya aparılan ipәk mallar İran vә Qafqaz yolu ilә daşınırdı.

Özünü imperator e'lan etmiş I Pyotr xarici siyasәtindә rus çarizminin imperiya siyasәtinin tәrkib hissәsi olan "Şәrq planını" hәyata keçirәrkәn İran, Xivә, Buxara vә Hindistan ilә ticarәt әlaqәlәrini genişlәndirmәyә, son nәticәdә Şimal vә Cәnub dәnizlәrindә rus donanmalarının yerlәşdirilmәsini nәzәrdә tuturdu. Bu isә, hәr şeydәn әvvәl, Rusiyanın Qafqazda geosiyasi mövqelәrini möhkәmlәndirmәk, regionda müstәmlәkәçilik strategiyası üçün real sosial baza yaratmaq problemini daha aktual edirdi. Qeyd edәk ki, Qafqaz diyarı barәdә I Pyotr ticarәtinә heç bir mәhdudiyyәt qoyulmayan ermәni tacirlәri vasitәsilә xeyli zәngin informasiya әldә etsә dә bu diyar haqqında rus etnoqraflarının әsәrlәri, onların burada yaşayan xalqlar, şәhәrlәr, yaşayış mәntәqәlәri, әkinçilik mәdәniyyәti, ticarәt әlaqәlәri, bir sözlә ölkәnin zәngin ehtiyatları barәdә topladığı materialları imperiya ideoloqları diqqәtlә öyrәnirdilәr. Qeyd edәk ki, rus çarizminin ermәni tacirlәri üçün yaratdıqları azad ticarәt imkanları Azәrbaycanın siyasi tarixçilәri tәrәfindәn xeyli araşdırılmışdır [10]. Ermәni ideoloqlarının rus zadәganları, dövlәt adamları ilә apardıqları yazışmalar o dövrdә müasir dildә deyilsә, ermәni lobbizminin ilk uğurları barәdә az mә'lumat vermir. Yazışmalardan aydın olur ki, ermәni millәtçilәri Rusiya hakimiyyәt rәsmilәri ilә sıx әlaqәlәr yaradarkәn, tәbii ki, ilk növbәdә öz milli mәnafelәrini rәhbәr tutur, bu işdә xristian amilindәn mәharәtlә istifadә edir, Türkiyә reallıqları barәdә rus çarizminin ideoloqlarının şüurunda saxtalaşdırdıqları mә'lumatlarla "mәzlum" ermәnilәr obrazmı yaratmağa cәhd göstәrirdilәr. Elә bu sәbәbdәn dә ermәni siyasәtçilәri çar sarayının imperatora yaxın mә'murları vasitәsilә I Pyotrun nüfuzunu qazanmağa nail olmuşdular. Bunu mәşhur rus tarixçisi S.M.Solovyov da qeyd edir [11]. Yeri gәlmişkәn xüsusi vurğulamalıyıq ki, adı çәkilәn rus tarixçisinin Qafqaz hadisәlәri ilә bağlı әsәrlәrindә әksini tapmış ermәni tacirlәrinin rus rәsmi dairәlәri ilә әlaqәlәri barәdә verdiyi mә'lumatlar içәrisindә İsrail Orinin ermәni milli mәnafelәri mövqeyindәn apardığı tәbliğat xüsusi yer tutur. Bir daha qeyd edәk ki, ermәni



dövlәtçiliyini yaratmaq yolunda atılan әn mühüm, çox gurultulu ad altında düşünülmüş "Reyndәn Tәbrizә qәdәr hәrbi yürüş" layihәsi iflasa uğradıqdan, yә'ni Qәrb havadarlarının dәstәyini almağın mümkünsüzlüyündәn mә'yus olmuş Qarabağın feodal mәliklәri öz ideoloqlarının vasitәsilә yeni strategiya üzәrindә dәrindәn işlәmәyә başlamışlar. Bu işdә ermәni diplomatı vә siyasәtçisi İsrail Ori xüsusi canfәşanlıq etmişdir. Tarixçi S.Solovyovun mә'lumatlarına söykәnәn rus politoloqları hesab edirlәr ki, mәhz, "ә'la zәka vә qabiliyyәtә malik" İ.Orinin sayәsindә "Qarabağ ermәnilәrinin qәtiyyәtli azadlıq hәrәkatı XVIII әsrin әvvәlindә I Pyotrun simasında Rusiya tәrәfindәn tanınmış vә dәstәklәnmişdir" [12]. Rus çarının vә onun әshabәlәrinin rәğbәtini qazanmış İ.Orini rus mәnbәәşünaslığı Ermәnistanda Rusiya oriyentasiyasının banisi hesab edir. S.Solovyovun yazdığına görә, İ.Ori boyar Qolovinlә görüşündә İran zülmü altında inlәyәn ermәnilәrin farsların әsarәtindәn qurtarmaq üçün plan tәrtib etdiyini bildirmiş, I Pyotrun adına yazdığı mәktubunda isә ruslarm din qardaşı olan ermәnilәrә yardım әlini uzatmasını xahiş etmişdi [13]. Bu siyasәtindә ermәni diplomatının başlıca kartı — xristian-müsәlman qarşıdurması ideyası, rus çarını nәinki Qafqazda, bütün әrazilәrdә yaşayan xristian ermәnilәrә bel bağlamasına inandırmaq olmuşdur. Bu "plan" әslindә Rusiyanın çar dairәlәrini Qafqazı işğal etmәyә tәhrik edir vә bu mәqsәdlә ilk addım olaraq, regiondakı ermәni icmalarına, daha doğrusu Qarabağın xristian mәliklәrinә arxalanmaqla diyarı zәbt etmәk niyyәtinә istiqamәtlәndirirdi.

İ.Orinin ölümündәn sonra Rusiya ilә yaxınlaşmaq diplomatiyasını Minas Tiqranyants (Vardanet) davam etdirmişdir. O, 1722-23-cü illәr İran yürüşündә şәxsәn I Pyoturu müşayәt edir, öz sәlәfi kimi I Pyotra Qafqaza işğalçılıq yürüşündә yaxından kömәk edәcәklәrini bildirirdi. Qeyd edәk ki, "ermәni dövlәtçiliyi idealı" naminә "mәqsәd vasitәlәrә bәraәt qazandırır" prinsipini rәhbәr tutan ermәni siyasәtçilәri vә ideoloqları Rusiya ilә sıx müttәfiqlik naminә casusluq amilindәn dә istifadә edirdilәr. Tarixçi Q.A.Ezov yazır ki, Rusiya sarayında qәbul edilәn ermәni elçilәri çar mә'murlarına "müsәlmanların Qafqazda yerlәşәn hәrbi qüvvәlәri barәdә mә'lumatlar da verirdilәr" [14]. Belә ki, hәlә adı çәkilәn İ.Ori ilk diplomatik sәfәrlәrindә, daha dәqiq deyilsә, I Pyotra 1701-ci il iyul ayının 22-dә yazdığı mәktubda vә şәxsi görüşlәrindә rus qoşunlarının Qafqaz yürüşünün demәk olar ki, bütün marşrutunu, hәrәkәt xәritәsini dә qabaqcadan müәyyәnlәşdirmiş, hәtta konkret plan tәrtib etmiş vә bunu xüsusilә vurğulamışdır ki, Qafqazda yaşayan ermәni icması "xilaskar" rusların gәlişini sәbirsizliklә gözlәyir. O, çarı әmin edirdi ki, rus qoşunları Qafqaza yaxınlaşanda yerli qüvvәlәr 24 saat әrzindә kafirlәri (yә'ni müsәlmanları—*müәll.*) qovacaq vә 15 gün әrzindә bütün әrazini azad

edəcəklər. İ.Ori bunu da qeyd etməyi unutmurdu ki, Qafqaz rus qoşunları tərəfindən işğal olunduqdan və hərbi yürüş başa çatdıqdan sonra ə'lahəzrət və onun qoşunu məhz rusların köməyi ilə yaradılacaq "erməni krallığı"nda qışlaya biləcəklər. "Krallığın" coğrafi ərazisi göstərilməsə də erməni diplomatının niyyətindən aydın olur ki, erməni siyasətçiləri belə bir dövlətçiliyi Qarabağ ərazisi və digər müsəlman torpaqları hesabına yaratmağı planlaşdırmışdılar. İstər İ.Ori, istərsə də onun sələfləri Azərbaycanın Rusiya tərəfindən işğalının ideoloji cəhətdən hazırlanmasında xeyli məkrli fəaliyyət göstərmişlər. Azərbaycanın əlverişli geosiyasi mövqeyinin əhəmiyyətini rus siyasətçilərindən heç də az bilməyən erməni millətçiləri çarizmin hakim dairələrini bu ölkəni işğal etməsinə daha çox həvəsləndirirdilər. Adı çəkilən İ.Ori Rusiya rəsmilərini inandırmışdı ki, çarizmin Qafqazda hərbi strategiyasında Şamaxı şəhərinin ələ keçirilməsi önəmli yer tutmalıdır. Belə bir məkrli ideya xüsusilə qabardılırdı ki, Şamaxı hər şeydən əvvəl İrəvana qoşun yeritmək üçün strateji açardır, çünki regionda alınmalı və hərbi əhəmiyyətli yegano qala məhz burada yerləşirdi. İkinci tərəfdən, erməni elçiləri hesab edirdilər ki, Şamaxını buradan İran müsəlmanlarının tezliklə qovulması baxımından uğurlu hərbi əməliyyatlar keçirmək üçün mühüm strateji bölgə kimi istifadə etmək olar. Adı çəkilən Q.A.Ezov göstərir ki, İ.Orinin strateji hərbi planına görə, Şamaxı üzərinə 4 alaydan ibarət 10 minlik qoşun göndərilməli idi. Plana görə həmin alayın biri Gəncə üzərinə hərəkət etməli idi [15]. Daha bir maraqlı, daha doğrusu məkrli məsələ: İ.Ori saray rəsmilərini həmçinin inandırmağa çalışırdı ki, Rusiya bayrağı altında Qafqaza yeridiləcək qoşunların tərkibində yalnız kazaklar və çərkəzlər olsa, onda burada dini amil üçün əsas yaranmayacaq,çünki kazaklar və çərkəzlər də sərhəd yaxınlığında yaşayırlar.

Sonralar Rusiyanın Qafqazda, o cümlədən Azərbaycanda geosiyasi mənafelərinə uyğun erməni siyasətinin nümayəndələrindən biri maarifçi və ictimai xadim İosif Emin daha çox canfəşanlıq göstərmişdir. O, 1761-ci ildə kansler M.İ.Vorontsova göndərdiyi yazısında Rusiyanın himayəsi altında Cənubi Qafqazın dirçəlməsi ilə bağlı ətraflı plan təqdim etmişdi. Həmin plan reallaşmasa da rus müəlliflərinin əsərlərində onun fəaliyyəti yüksək qiymətləndirilmiş, hətta belə bir fikir də formalaşmışdı ki, Rusiyanın köməyi olmadan Cənubi Qafqaz xalqlarının milli azadlıq hərəkatı mümkün deyildir [16].

Rus çarizminin Qafqazda geosiyasi maraqlarının həyata keçirilməsində təhrikedici erməni siyasətinin təbliğində tanınmış səhmdarçı Ovanes (İvan) Lazarev və arxiyepiskop İosif Arqutinski mühüm rol oynamışlar. Onlar XVIII əsrin sonunda Rusiyada yaşamış, rus hökumət dairələrində Şərq məsələsinin müzakirəsində fəal iştirak etmiş, dəfələrlə Potyomkin və



Suvorovla görüşmüş, İranda və Cənubi Qafqazda vəziyyət barədə mə'ruzələr hazırlamışlar.

II Yekaterina ermənilərin xristianlıq qarşısında sədaqətlərini nəzərə alaraq onların Don çayı sahilində yerləşdirilməsi barədə xüsusi fərman vermişdi. Arqutinski və Lazarev erməni-rus müqaviləsinin layihəsini hazırlamış və burada Ermənistanın gələcək dövlət quruluşunun konsepsiyasını irəli sürmüşlər. Bu, sonralar "Şimal proqramı" adı ilə erməni ideoloqlarının müsəlman xalqlarının torpaqlarında, o cümlədən Azərbaycanın tarixi ərazisində utopik "Böyük Ermənistan" ideyasının həyata keçirilməsinə rəvac vermişdir. Tarixi nəsr janrının tanınmış nümayəndəsi Valentin Pikul özünün "Favorit" romanında bunu sadə ştrixlə ustalıqla təsvir etmişdir. Potyomkin ona (Yekaterina II - *müəllif*) xəbər verir ki, Suvorovu çağırtdırıb.

— Kronştat protoponuna ərz edəcəyəm ki, onu arvadı ilə barışdırsın. Sonra yığıncaq olacaq. Mən və bir də Suvorov, həmçinin ermənilər – Lazarev, Arqutinski ilə birlikdə. Onların işini müzakirə edəcəyik. Ermənilər diribaşdırlar, özlərinə paytaxt da seçiblər – İrəvan.

— Ölkə yoxdursa, paytaxtın nə xeyri var?

— İndi yoxdur, bizdən sonra olacaq. — deyə Potyomkin cavab verib.

Qeyd edək ki, ümumiyyətlə ermənilərin Qafqaz regionunda dövlətləri olmaması barədə az yazılmamışdır. Mərhum akademik Piotrovski vaxtilə erməni tarixçilərinin Urartunun erməni dövləti olması barədə versiyasının əsassızlığını dəyərincə sübut etmişdi. Daha irəli faktlara qayıtsaq fəlsəfə elmləri doktoru B.İşxanyanın 1913-cü ildə Berlində alman dilində işıq üzü görmüş "Narodnosti Kafkaza" əsərinə müraciət etmək olar. Burada deyilir: "Ermənilərin həqiqi vətəni, qədim-tarixi Böyük Ermənistan Kiçik Asiyadır, yə'ni Rusiya hüdudlarından kənardadır və ermənilər Cənubi Qafqazda (başlıca olaraq *İrəvan quberniyasında) bə'zi xalis erməni* əyalətlərindən başqa Qafqaz ərazisinin müxtəlif hissələrində yalnız son əsrlərdə məskunlaşmışlar" [17]. Əlbəttə, "xalis erməni əyalətləri" mübahisəli məsələdir. Əgər doğurdan da "ermənilərin tarixi Böyük Ermənistan" Kiçik Asiyadırsa, İrəvan necə "xalis" erməni ərazisi hesab oluna bilər. Bu ya işğal olunmuş torpaqdır, ya da ermənilərin köçürüldüyü, zorla məskunlaşdığı ərazidir. Qafqaz torpağının Kiçik Asiya ərazisinə nə dəxli vardır. Ümumiyyətlə heç bir sanballı tarixi mənbələrdə (erməni mənbələrindən başqa) "Böyük Ermənistan" deyilən coğrafi anlayış yoxdur.

Çar mə'murları ilə söhbətlərində Lazarev, xüsusilə yepiskop İ.Arqutinski erməni kilsələrində bundan sonra pravoslav rus imperatorunun şə'ninə dualar oxunacağını xüsusilə qeyd edir, və bununla bir daha din amilini ön plana çəkməklə rus-erməni münasibətlərinin möhkəmlənmə-

sinə, Rusiyanın Qafqazda geosiyasi niyyətlərinə dini bəraət qazandırmağa cəhd göstərirdilər. Lakin 1891-ci ildə erməni keşişi Ter-Voskanovun hay-küylü işi ilə bağlı prosesdə aydın olur ki, ermənilərin dini ibadətində rus çarının heç adı belə çəkilmir, dindarlar əvvəlcə katalikosun, sonra qriqoryan xristianlarının (yə'ni ermənilər) daha sonra bidətçilərlə yerdə qalan xristianların şərəfinə dini ibadət keçirirlər. Ən başlıcası isə erməni kilsəsini tə'qib edənlərə və onlara rəvac verənlərə lə'nət oxunurdu.

"Böyük Ermənistan" layihəsinin rus çarizmi tərəfindən dəstəklənməsi yolunda erməni ideoloqlarının mühüm cəhdlərindən biri də Mədrəsdə (Hindistan) erməni "milli azadlıq hərəkatının" liderlərindən Şaamir Şaamiryanın təşkil etdiyi siyasi dərnəyin fəaliyyəti olmuşdur. Onun 1771-ci ildə Mədrəsdə yaratdığı mətbəə onsuz da dini münasibətlər baxımından ziddiyyətli ölkə olan Hindistanda məskunlaşmış erməni əhalisinin müsəlmanlara qarşı millətçilik ruhunda formalaşmasında, Cənubi Qafqazdakı torpaqlar hesabına Ermənistan dövlətinin "yaradılmasında Rusiya imperiyasının müstəsna rolunun təbliğində mühüm "maarifçilik" işi görmüşdür. O dövrdə erməniçilik ideologiyasının nümunəsi olan "Nəsihətnamə adlanan yeni kitab", "Şöhrətpərəstlik tələsi" kitabları həmin mətbəədə çap olunaraq İranda, Türkiyədə, Cənubi Qafqazda, o cümlədən Qarabağda çox azlıq təşkil edən erməni əhalisi arasında xüsusi sə'ylə yayılırdı. İkinci kitabda "demokratik" əsaslarda qurulacaq erməni dövlətinin konstitusiyon əsasları işıqlandırılır, Türkiyədəki, Cənubi Qafqazdakı, xüsusilə Azərbaycandakı torpaqların çox hissəsi əzəli erməni torpaqları kimi təbliğ edilir. Ş.Şaamiryanın "Cənub proqramı"nda türk-iran dövlətçiliyinə qarşı mübarizədə başlıca rol Qarabağ məlikləri üçün ayrılmışdı. Hər iki qəti millətçilik mövqeyindən çıxış edən sənədin həm "Şimal", həm də "Cənub" proqramının yaradıcıları utopik erməni dövlətçiliyinin yaranmasının "məzlum" ermənilərin müsəlmanların zülmündən qurtulmasının rəhnini Rusiya ilə əbədi dostluqda axtarırdılar. Nəticə e'tibarilə isə, bütün bunlar erməni ideoloqlarının rus çarizminin Qafqazdakı geosiyasi mənafelərinin həyata keçirilməsi üçün real sosial-ideoloji zəmin yaratmaqda məkrli millətçilik təbliğatı idi.

Lakin Gürcüstanın Rusiya tərəfindən tam işğalı (1801) çarizmin Qafqazda geosiyasi niyyətlərinin həyata keçirilməsində ciddi hadisə oldu və regionda müstəmləkəçilik proseslərinə yeni təkan verdi. Birincisi, rus qoşunları Azərbaycan sərhədlərinə sıx yaxınlaşdı və bu uzun qanlı müqavimətdən sonra Gəncənin alınması ilə nəticələndi. İkincisi, Gürcüstanın işğalı, Gəncə xanlığı üzərində qələbə nəinki Qafqazda, habelə İranda və Türkiyədə Rusiyanın himayədarlığından ruhlanan erməni icmalarının fəaliyyətini daha da intensivləşdirdi ki, bu transformasiya əslində regionda geosiyasi durumun Rusiyanın xeyrinə dəyişməsini asanlaşdırdı.



Çox çəkmədi ki, 1805-ci il mayın 14-də "odla su arasında", yə'ni İranla Rusiya arasında qalmış, bu iki ölkənin siyasi intriqalarının orbitinə cəlb olunmuş Qarabağ xanı Rusiyanın himayəsinə keçmək haqqında müqaviləni imzalamalı oldu. Hərbi düşərgə kimi tanınan Kürəkçayda bağlanmış həmin müqaviləyə rus generalı Sisianov da imza atmışdı. Bu akt əslində Rusiyanın Azərbaycanı işğal etməsinin başlanğıcını bildirən ilk hüquqi sənəd oldu. 11 maddədən ibarət həmin müqavilə Rusiyanın sırf geosiyasi maraqları baxımından tərtib olunmuşdu, belə ki, həmin sazişə görə Qarabağ xanlığı Rusiyanın protektoratına keçir, hansısa üçüncü tərəflə beynəlxalq münasibətlər qurmaq hüququnu itirirdi. Müqavilədə Azərbaycanın tam işğalını hazırlayan ən dəhşətli şərt Qarabağ xanlığının qonşu xanlıqlarla müstəqil münasibətlərinə qadağa qoyulması oldu. Maraqlıdır ki, müqavilədən sonra İbrahim xan general rütbəsi aldı və Qafqazdakı rus qoşunlarının ali komandanına tabe oldu.

Qarabağ xanlığının "hüquqi işğalı" rus çarizminin Qafqazda, xüsusilə Azərbaycanda hərbi strategiyası üçün xüsusilə faydalı oldu. Belə ki, bu diyarın dağlıq hissəsinə — Azərbaycanın Qərb hissəsinə tam hərbi nəzarət etməyə imkan verirdi. Hadisələrin göstərdiyi kimi vahid ittifaqa girə bilməyən Azərbaycan xanlıqları tədricən Rusiyanın itaətinə keçməli oldu ki, bunun nəticəsində də Rusiya dövlətinin nəinki Azərbaycanda, habelə bütün Qafqazda geosiyasi mövqeyinin möhkəmlənməsi tə'min olunurdu. Yaranmış vəziyyət baxımından qeyd olunmalıdır ki, xanlıqların formal olaraq qalması onların nə vaxtsa, "məqam imkan verən kimi" azad olacaqları ümüdünü saxlayırdı. Bu da qeyd olunmalır ki, xanlıqların formal mövcudluğu hər halda, Rusiyanın Azərbaycanda geosiyasi mənafelərinin tam bərqərar olması yolunda yeganə, lakin ən ciddi əngəl olaraq qalırdı. 1816-cı ildə Qafqazın qubernatoru tə'yin olunan general Yermolov Azərbaycan xanlıqlarının dövlətçilik strukturunun Rusiya geosiyasəti üçün təhlükəsini yaxşı başa düşürdü. Odur ki, erməni millətçiləri xanlıqların ləğv olunması ilə Rusiyanın regiondakı milli mənafelərinə tam meydan açmaq məsələsində çarizmin rəsmi dairələrini inandıra bilmişdilər. Bu işdə rolu olan çarın məsləhətçisi əslən erməni, rus ordusunun generalı Madatov olmuşdur. Təsadüfi deyildir ki, 1822-ci ildə Qarabağ xanlığı rus quberniyası e'lan ediləndən sonra bu diyara kuratorluq məhz ona həvalə olunmuşdu.

1823-cü ildə Yermolovun tapşırığı ilə Qarabağda əhalinin siyahıya alınması keçirilmişdir. Əhalinin milli tərkibindəki nisbət belə olmuşdur: ailələrin sayı 18563, ermənilər 1559 ailə təxminən 8,4%.

Türkmənçay müqaviləsindən (1828) sonra Qarabağ xanlığı digər xanlıqlar kimi həmişəlik Rusiyanın tərkibinə keçdi və bununla da Kürəkçay müqaviləsi öz hüquqi qüvvəsini itirdi. Lakin bunun ardınca,

xüsusilə 1829-cu il Ədirnə müqaviləsindən sonra Rusiyanın bilavasitə təşəbbüsü, Lazarevin, Madatovun və digər erməni generallarının fəal iştirakı ilə ermənilərin İrandan və Türkiyədən Qarabağ bölgəsinə kütləvi köçürülməsi təşkil olundu. Artıq 1832-ci ildə diyarda ermənilər əhalinin 34,8 faizini, azəri türkləri isə 64,8 faizini təşkil edirdi [18]. Regionda demoqrafik vəziyyətin kəskin dəyişməsi əslində rus çarizminin müstəmləkə geosiyasətinin möhkəmlənməsi üçün ən əlverişli imkanlar yaradırdı. *Erməni icmalarının timsalında Rusiya dövləti özünün strateji* məqsədlərinə uyğun olaraq sosial baza yaradır, xristian amilindən istifadə etməklə çarizm "sadiq ermənilərin" əli ilə müsəlman əhalisinə qarşı müstəmləkə siyasətini genişləndirirdi.

Yeri gəlmişkən, qeyd edək ki, Qarabağ konfliktinin geosiyasi köklərindən, problemin beynəlmiləlləşdirilməsi aspektlərinin formalaşmasından danışarkən XIX əsrin əvvəllərində Azərbaycanın çar Rusiyası tərəfindən işğalı zamanı erməni ideoloqlarının çarizmin müstəmləkəçilik planlarında iştirakı problemi politoloji ədəbiyyatımızda konseptual şəkildə öyrənilməmişdir. Problemin araşdırılmasında ən mühüm aspekt Azərbaycanda Rusiya ilə İranın strateji və geosiyasi maraqlarının həyata keçirilməsində erməni millətçilərinin rolunu göstərməkdir.

Tarixən mə'lumdur ki, İran-Rusiya münasibətlərində Qafqaz, o cümlədən Azərbaycan da mühüm geosiyasi mübarizə regionu olmuşdur. İran şahı Ağa Məhəmməd şah Qacar Azərbaycanın cənub xanlıqlarının hamısını özünə tabe etdirdikdən sonra dövlətin mərkəzini Tehrana köçürmüş və Azərbaycanın şimal torpaqlarındakı xanlıqları, ümumiyyətlə bütün Cənubi Qafqazı İrana birləşdirmək planlarını hazırlamışdır. Təbii ki, İranın Cənubi Qafqazı və Azərbaycan xanlıqları kimi strateji əraziləri öz tabeçiliyinə keçirmək niyyəti rus çarizminin regionda öz işğalçılıq məqsədlərini həyata keçirməsinə böyük maneə olduğundan onu narahat edirdi [19]. Qeyd edilməlidir ki, Ağa Məhəmməd şah Qacarın gürcü çarı II İrakliyə ultimatumu nəinki Rusiya hakim dairələrini, həmçinin erməni ideoloqlarını çox dərindən düşündürmüşdür [20]. Məsələn, İranın 1795-ci ildə Azərbaycana və Gürcüstana hücumu zamanı Rusiya Cənubi Qafqaza qoşun yeritmək planını hazırlayanda erməni siyasətçiləri II Yekatirinaya məsləhət görmüşdülər ki, rus qoşununa Suvorov başçılıq etsin. "Böyük Ermənistan" ideologiyasının nümayəndələri bu kompaniyada da din amilindən "siyasi kart" kimi istifadə edərək ermənilərə mərhəmət hissi duyan Rusiya imperatorundan öz xristian soydaşlarını müsəlmanların "zülmündən və zorakılığından" qorumağı xahiş etmişdilər. Ermənilər rus çarizmi tərəfindən Qafqazın zəbt olunmasının siyasi-ideoloji hazırlanmasında xüsusi "xidmət" göstərmişlər. Azərbaycanın Naxçıvan, Talış və İrəvan xanlıqlarınm işğalmdan, Gürcüstanın alınmasından sonra artıq



Rusiya siyasətinə tə'sir göstərmək təcrübəsi qazanmış erməni ideoloqları xüsusilə fəallaşdılar. Belə ki, adı çəkilən İ.Arqutinski Azərbaycana qoşun yeritmək üçün siyasi məqamın yetişməsini II Yekatirinaya təlqin etmiş, rus hakim dairələrini "Qafqaz planını" həyata keçirmək vaxtınm yetişdiyinə inandırmışdı. Təsadüfi deyildir ki, 1796-cı ilin yazında general V.Zubovun başçılığı ilə çar qoşunlarının Azərbaycana hücumunu ermənilər "xristianların xilası" kimi qiymətləndirmiş, öz keşişlərini Zubovun ziyarətinə göndərmişdilər. Bunu demək kifayətdir ki, Qafqaz yürüşündə keşiş İ.Arqutinski və H.Davidov rus generalının məsləhətçiləri olmuşlar. Məsələn, İ.Arqutinski Dərbənddəki ermənilərə müraciətində erməni dövlətçiliyini yaratmaq niyyətlərini gizlətməyərək, deyirdi ki, rus qoşunlarını Qafqaza "Allah" göndərmişdir. Ona sədaqətimizlə biz Qafqazı müsəlmanlardan (azərbaycanlılardan — *müəllif*) təmizləyə bilərik [21]. "Həddindən artıq ayıq olun, ey erməni həmvətənlərim". Dərbəndin rus qoşunları tərəfindən işğalı (1796) — mayın 10-u nəinki Azərbaycanın taleyində faciəli rol oynadı (onun ardınca müqavimətin əhəmiyyətsiz olduğunu görən Talış, Şamaxı, Gəncə, İrəvan. Naxçıvan, Xoy və Qarabağ xanları Rusiyanın himayəsini qəbul etməyə məcbur oldular), habelə Qarabağ xanlığının rus çarizminin müstəmləkəçilik siyasətində mövqeyi daha da şəffaflaşdı. İ.Arqutinski (baş komandanın icazəsi olmadan) Qarabağ məliklərinə müraciətlə bildirmişdi ki, rus ordusunun Qafqaza yürüşünün başlıca məqsədi erməniləri müsəlman zülmündən xilas etməkdir. Erməni ideoloqunun bu "icazəsiz", lakin çox məkrli millətçi çıxışı Azərbaycan xanlıqlarının daxili siyasətinə tə'sir göstərmişdi. Belə ki, həmin erməni ideoloqunun "siyasi bəyanatından" sonra Cənubi Qafqazın bütün müsəlman xanlıqları arasında böyük narahatlıq yarandı. Erməni millətçilərinin Azərbaycan xanlıqlarında erməni dövlətçiliyini yaratmaq planlarının siyasi nəticələrini yaxşı dərk edən Bakı xanı Hüseynqulu xan bu mə'lumatı tezliklə digər xanlıqlara çatdırmış, erməni millətçisinin yaratdığı sün'i gərginliyin mahiyyətinin rus siyasətinə də əngəl olduğunu general V.Zubova başa salmışdı [22].

II Yekatirinanın qəflətən ölümü, bundan sonra I Pavelin dövründə Rusiyanın Avropa ölkələri ilə yaxınlaşmaq siyasəti rus çarizminin Qafqaz məsələsindəki niyyətlərinin müvəqqəti olaraq arxa plana çəkilməsinə səbəb oldu. Bununla əlaqədar general V.Zubovun Qafqazdan geri çağırılması, təbii ki, "erməni dövlətçiliyi" ideoloqlarını çox narahat etmişdi. Lakin bu hələ Rusiyanın Qafqaz geosiyasətində mühüm rol oynayan ermənilərin öz məkrli siyasətlərindən əl çəkməsi demək deyildi. Erməni millətçiləri Azərbaycanın tarixi ərazisinin ayrılmaz hissəsi olan Qarabağ diyarınm "geosiyasi məkana" çevrilməsində İran-Rusiya müharibəsinin (1826-1828) sosial-siyasi nəticələrindən də çevikliklə

faydalanmışlar. Məhz bu müharibənin nəticəsi olaraq ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi planlı və məqsədyönlü siyasət kimi həyata keçirilmişdir [23]. Bunu da qeyd edək ki, Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən ermənilərin İrandan Rusiyaya köçürülməsi hüquqi cəhətdən təsdiq edilmişdi [24]. Lakin erməni tarixçisi V.Parsamyan "Erməni xalqının tarixi" kitabında e'tiraf edir ki, erməni ideoloqları hələ Türkmənçay müqaviləsi bağlanmamışdan əvvəl Rusiya hakim dairələrinin nümayəndələrindən ermənilərin Rusiya ərazisinə, daha doğrusu Azərbaycan torpaqlarına köçürülməsi xahişi ilə müraciət etmişdilər. Məsələn erməni yazıçısı N.Aştarakatsi 1827-i il noyabrın 9-da Təbrizə xüsusi missiya ilə göndərilmiş, milliyətcə erməni olan polkovnik Lazarevə yazırdı: "İndi mən bütün erməni millətinin sədaqətli müdafiəçisi A.S.Qriboyedovdan xahiş etmişəm ki, oralarda və başqa yerlərdə yaşayan xristianların qüdrətli Rusiya hökumətinin bayrağı altına qəbul edilməsini yaddan çıxarmasın" [25]. 1828-ci il martın 9-da axırıncı rus əsgəri Təbrizdən çıxandan sonra İranın müxtəlif yerlərindən ermənilər Qarabağa doğru axınla doluşmağa başlayırlar. Bu axının xüsusi vüs'ət almasını adını çəkdiyimiz Qlinka maraqlı tərzdə qiymətləndirir: "Erməniləri İrandan Rusiyaya köçürülməsi dünya səlnamələrində bu günə kimi yeganə hadisədir" [26]. Həmin rus "salnaməçisi" bunu da yazmağı unutmur ki, yeni zəbt olunmuş vilayətlərə əhalinin gözlənilməz axını taxıl qıtlığı yaratmışdı, buna görə də Lazarev belə göstəriş almışdı ki, Naxçıvan və İrəvan xanlıqlarının əvəzinə köçkünləri zəngin yaşayış ehtiyatları və ümidverici yer olan Qarabağda yerləşdirsinlər [27]. İran ermənilərinin Qarabağa köçürülməsində rol oynamış Lazarevin general Paskeviçə ünvanladığı hesabatında son dərəcə düşündürücü bir məqam, biz deyərdik ki, sonradan erməni millətçilərini "Qarabağ bizimdir" mifinə şirnikləndirən ideya da vardır. Rusiyanın erməni təbəəsi burada göstərir ki, o, Vətən (Rusiya — *müəllif*) üçün faydalı olan işgüzar ermənilərin İrandan Rusiya torpaqlarına köçürülməsi işini yerinə yetirmişdir. O, xüsusilə vurğulayır ki, Rusiyanın yeni əldə etdiyi Naxçıvan və İrəvan vilayətləri monarx tərəfindən erməni vilayəti adlandırılmışdır [28].

Lakin xüsusilə qeyd etmək istərdik ki, problemə aydınlıq gətirməkdə A.S.Qriboyedovun general Paskeviçə məktubu önəmli rol oynayır. O dövrdə Rusiyanın İranda səfiri olmuş və təbii ki, çarizmin hakim müstəmləkəçilik siyasətinə xidmət edən A.S.Qriboyedov ermənilərin Rusiyaya köçürülməsinin iqtisadi faydasını xüsusilə vurğulayırdı və hətta hesab edirdi ki, peşələri alverlə məşğul olmaqdan ibarət gürcü ermənilərindənsə Rusiya ərazisinə usta və taxılçı İran ermənilərinin köçürülməsi daha məqsədəuyğundur. Lakin rus diplomatını narahat edən başqa məsələ idi. O, general Paskeviçə göndərdiyi məktubda xüsusilə qeyd



edirdi ki, ermənilərin lideri polkovnik Lazarevin avantürist xarakterli himayədarlığı, onun yersiz, erməni müqavimət dəstələrinin yaradılması barədə niyyətləri, Qarabağda xüsusi hakimiyyət rəhbərliyinin tə'sis olunması barədə fikirləri yolverilməzdir, çünki burada artıq xanlıq yaranmışdır [29].

Beləliklə, polkovnik Lazarevin həyata keçirdiyi, daha doğrusu ona həvalə olunmuş praqmatik imperiya tapşırığının arxasında sırf utopik və məkrli erməni dövlətçiliyi niyyəti dururdu. Başqa sözlə, onun separatizmi xatırlayan hərəkəti hərbi-strateji və siyasi xarakter daşıyırdı ki, bu da adı çəkilən rus diplomatını narahat etməyə bilməzdi. Belə isə, onda daha bir məqam ortaya çıxır: ermənilərin Qarabağa və digər Azərbaycan torpaqlarına köçürülməsinin əsl təşəbbüskarı kimlər idi. Bizə elə gəlir ki, bu işin "ilhamçıları" I Nikolay başda olmaqla rus hakim dairələrinin nümayəndələri qraf Nesslrode, general Paskeviç olmuşlar, ermənilər isə bundan yalnız məharətlə istifadə etmişlər. Lakin bir daha xatırlayaq ki, çarizmin sadiq mə'murlarını bu tədbirdə ideoloji cəhətdən hazırlayan hələ Dəli Petronun (I Pyotr) vaxtında Rusiya paytaxtına tez-tez təşrif aparan erməni tacirləri və keşişləri olmuşdur.

Hər halda A.S.Qriboyedovun general Paskeviçə yazdığı məktubunda hiss olunan narahatçılıq, hər şeydən əvvəl, Lazarevin Qarabağda erməni hökuməti qurumunu yaratmaq haqqında niyyətlərinin qəbuledilməz olduğu barədə mövqeyi rus diplomatının köçürülmə siyasəti üçün mə'suliyyət daşıdığını deməyə əsas vermir. Heç də təsadüfi deyildir ki, müasir erməni millətçiləri "həmvətənlərinin" Qarabağ torpaqlarına köçürülməsinin tarixi əhəmiyyətindən bəhs edərkən diplomat Qriboyedovun nədənsə məhz bu mülahizələrini unudurlar. Lakin buna baxmayaraq bir çox erməni müəllifləri siyasi konyuktura xatirinə "Qriboyedov" amilindən indi də istifadə etməkdə davam edirlər. Bir tipik nümunə — Boris Balayanın "Şah almazı üzərində qan: A.S.Qriboyedovun faciəsi" əsəri üzərində dayanmaq istərdik. Elə bu başdan demək istərdik ki, həmin əsər siyasi və ideoloji mahiyyətinə görə Zori Balayanın mə'lum kitabında irəli sürülən sosial cəfəngiyatın bədii təcəssümüdür. Əsər sovet dövründə işıq üzü görməsinə (1983) baxmayaraq Şimali Ermənistanı (İrəvan xanlığı — *müəllif*) İran işğalçılarının zülmündən xilas olması (s.7), Qərbi (?) Ermənistanın əhalisinin Rusiyanın tərəfində Türkiyəyə qarşı müharibəsi türk zülmündən azad olub Qərbi Ermənistanın Rusiyaya birləşdirilməsinə, bununla da əzabkeş erməni xalqının əsrlər boyu "isidib yaşatdığı" ideyaya çatmasına gətirib çıxarardı, erməni generalı Madatovun ordusunun "gözəl" Şamxor qələbəsi rus korpusunun əks-hücumunun başlanğıcını qoydu (elə təsəvvür oyanır ki, erməni ordusunun qələbəsidir — *müəllif*) (s.37); erməni xalqı müstəqil Qacar zülmünə (zülm də müstəqil olurmuş) qarşı

fədakarcasına mübarizə aparmışdır" kimi ifadlərlə "zəngindir". Maraqlı tarixi fakt budur ki, Fətəli şah Qacarın yaxın ətrafında o dövrdə əsasən ermənilər toplaşmışdılar. Təkcə bunu demək kifayətdir ki, birinci nazir erməni Manuçöhr (Yenikolopov) S.V.Şostokoviçə görə, şəxsən xain erməni Markaryanın əməlini təhqiq edən və "şahın ən nüfuzlu əshabələrindən biri olmuşdur" [30]. Adı çəkilən əsərin dərc olunduğu dövrdə SSRİ-nin Türkiyəyə münasibəti bildiyimiz kimi birmə'nalı şəkildə mənfi olmuşdur. Ermənilər gələcək utopik planları üçün Kremlin Türkiyəyə düşmənçilik siyasətindən kifayət qədər istifadə etmişlər. Görünür, ümumiyyətlə geosiyasət elminə əhəmiyyət verməyən (bəlkə də hərbi strateqləri çıxmaq şərtilə) sovet ideologiyası və senzurası heç "Şərqi Ermənistan", "Qərbi Ermənistan", "General Madatovun az qala rus ordusunun generalı olması" ibarələrinə diqqət yetirməyi lazım bilməmişdi. Halbuki gələcəkdə özünün Şərq siyasəti naminə rus imperatoru I Nikolaya şahzadə Xosrov Mirzə ona Fətəli şah Qacar adından dünyada ən iri almazlardan olan "Nadir şah" almazını hədiyyə verərkən demişdi: "Acınacaqlı Tehran hadisəsini birdəfəlik unutmaq istəyirəm". O dövrdə İngiltərənin İrana siyasi münasibətinin genişləndiyi bir vaxtda Rusiya bu regionu itirmək istəmir və burada cərəyan edən hadisələrdə ermənilərdən hərtərəfli istifadə etməyi nəzərdə tuturdu. Hər halda rus çarı daha real geosiyasi mövqe tutmağa üstünlük vermişdi.

Məhz sovet rəhbərliyinin daxili geosiyasi problemlərə dəyərincə realist yanaşmaması postsovet məkanında bu gün Qarabağ və ona bənzər problemlərin meydana çıxmasına səbəb olmuşdur.

Qarabağ konfliktinin geosiyasi köklərini araşdırmaq baxımından böyük dövlətlərin siyasətində "erməni məsələsi"nin yerini aydınlaşdırmaq mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, istər Türkiyəyə münasibətdə, istərsə də "erməni məsələsi"ndə qərb ölkələrinin hərəkətləri qeyri-ardıcıl olduğundan burada müəyyənləşmiş siyasi mövqedən danışmaq mümkün deyildir. Məsələ burasındadır ki, bu siyasəti mərhələ-mərhələ izləmək imkanı da məhduddur. Odur ki, həmin geosiyasətin yalnız mövzumuzla bağlı ayrı-ayrı məqamlarını nəzərdən keçirməyi məqsədəuyğun sayırıq. Biz hesab edirik ki, "Qarabağ geosiyasətinə" aparan yol Türkiyədə yaşayan erməni millətçilərinin, xüsusilə erməni din xadimlərinin fəaliyyətindən başlayır.

Siyasi ədəbiyyatla tanışlıq bunu deməyə əsas verir ki, 1870-ci ilədək nə Rusiya, nə də digər iri Avropa dövlətləri erməni probleminə heç bir maraq göstərməmişlər. Daha geniş mə'nada götürsək böyük dövlətlərin siyasi mövqelərində "erməni məsələsi" olmamışdır. Onu da qeyd edək ki, "böyük dövlətlər" anlayışını biz əbəs yerə işlətmirik. Birincisi ona görə ki, ümumiyyətlə böyük dövlətlərin siyasi münasibəti və diplomatik



müdaxiləsi olmadan heç bir milli problem "qlobal məsələ" səviyyəsində diqqəti cəlb etmir. İkincisi, "Qarabağ konfliktinin" baş verməsi və müasir məcrada inkişafı göstərir ki, problemin beynəlmiləlləşməsi məhz Rusiya da daxil olmaqla böyük dövlətlərin regionda milli mənafelərinin çulğaşması sayəsində mümkün olmuşdur.

Erməni müəllifləri Oscanyan və Dadiyan e'tiraf edirlər ki, 1870-ci ilə qədər erməni icması ilə Osmanlı imperiyası arasında heç bir siyasi anlaşılmazlıq olmamışdır. Məsələn, M.V.Dadiyan erməni icmasına həsr etdiyi əsərində e'tiraf edir ki, son 30 ildə (*əsər 1867-ci ildə işıq üzü görmüşdür — müəllif*) sultanın qanunlarına əsasən nüfuzlu erməni icması böyük uğurlar qazanmışdır. Hökumətin dəstəyi sayəsində icma xalq hakimiyyəti ideyasını özündə əks etdirən Konstitusiya qazanmış, xalq maarifinin inkişafı yolunda müəyyən addımlar atılmışdır. Xristianlıq əqidəsinə sadiq qalan ermənilər öz dillərini, adət və ən'ənələrini qoruyub saxlaya bilmişlər, ətraf mühitdə əriməmişlər. "Qərbi Asiyanın ticarəti onların əlindədir. Onlar, əgər belə demək olarsa, Asiya ilə Avropa arasında mədəniyyətin ölçüləridir".

Əlbəttə, erməni müəllifinin 1867-ci ildə fransız jurnalında dərc olunmuş bu yazısı ermənilərlə bağlı sonrakı hadisələrin, o cümlədən Qarabağ probleminin mahiyyətini dərk etməkdə mühüm sənəddir. Osmanlı dövlətində ermənilərə verilən imtiyazlar muxtariyyət hüququna çox yaxın olmuşdur. Öz ərazisi olmayan xalqa muxtariyyət hüququnun verilməsi ümumiyyətlə tarixdə nadir hadisədir. Özü də ermənilərə həmin imtiyazlar elə bir tarixi məqamda verilmişdi ki, bu zaman iri dövlətlər bu xalqın taleyi ilə maraqlanmırdı, heç bir "erməni məsələsi"ndən söhbət getmirdi. Müəyyən mə'nada demək olar ki, məhz həmin "tarixi imtiyazlar" erməni millətçilərinin "siyasi iştahını" artırmış, "erməni məsələsi" deyilən fenomenin ortaya çıxmasına səbəb olmuşdu. Rusiyaya gəldikdə isə, haqqında söhbət gedən dövrdə çarizmin ideoloqları daha çox slavyan dinçilik ideyalarının yayılma məkanını genişləndirməklə yaşayırdı. Maraqlıdır ki, erməni patriarxının 1876-cı ildə İstanbulda səfirlərin konfransında iştirak etmək xahişinə Rusiya tərəfi "müzakirə olunan Balkan məsələsinə ermənilərin heç bir aidiyyatı yoxdur" cavabını vermişdi. Elə bu səbəbdən 1870-ci ildən başlayaraq ermənilər bir daha Avropa ölkələri ilə əlaqələri möhkəmləndirməyə üstünlük vermişlər. Qeyd olunmalıdır ki, həmin sə'ylər baş tutmuş, belə ki, ilk dəfə olaraq 1878-ci ilin fevralında imzalanmış San-Stefano (Yaşıl Köy) müqaviləsinin 16-cı paraqrafının 25 və 27-ci maddələrində "erməni məsələsi" beynəlxalq aləmdə müzakirə obyektinə çevrilmişdir. Bu məsələninin müzakirəsinin davam etdirildiyi Berlin konqresi isə öz işinə 1878-ci il iyunun 13-də başlamış, həmin ilin iyul ayının 13-dək davam etmişdir.

Qeyd edək ki, hələ 1878-ci il martın 17-də erməni patriarxı M.Varjapetyan ingilis səfiri Leyerd ilə görüşdə ermənilərin muxtariyyət alması məsələsində İngiltərə hökumətinin sə'y göstərməsini xahiş etmişdi. Söhbət əsnasında ingilis səfiri patriarxdan "Ermənistan" anlayışı altında nəyi nəzərdə tutduğunu soruşarkən erməni ideoloqu buraya Van və Sivas paşalığını, Diyarbəkirin çox hissəsini, köhnə Kilikiya çarlığını əhatə edən ərazilərin daxil olduğunu demişdi. Səfir Leyerd bu ərazilərin əhalisinin çox hissəsinin müsəlmanlar olduğunu patriarxın nəzərinə çatdırmışdır. Bunu inkar etməyən erməni nümayəndəsi söhbətin məcrasını dəyişərək demişdir ki, yerli müsəlman əhalisi də guya hökumətdən narazıdır və buna görə həmin ölkədə xristian idarəçiliyi təşkil olunmalıdır. İngilis səfiri bu cür iri planın həyata keçiriləcəyinə şübhə etdiyini bildirdikdə erməni patriarxı cavabında demişdi ki, əgər Avropa xristianları erməni məsələsinə biganə qalsalar onun soydaşları üsyan qaldırıb Rusiyaya birləşməyi tələb edəcəklər.

Odur ki, ermənilər Berlin konqresinə "Türkiyə Ermənistanı" (diqqət edək: Türkiyə Ermənistanı, deməli, başqa "Ermənistan" əraziləri də potensial iddia obyekti kimi nəzərdə tutulurdu) yaratmaq layihəsi təklif etmişlər. Muxtariyyətə nail olmayan ermənilər, hər halda "erməni məsələsi" deyilən problemə diqqəti cəlb edə bildilər.

E'tiraf edilməlidir, erməni ideoloqları Berlin konqresindən sonra yaranmış yeni geosiyasi məkanda baş verən siyasi reallıqlardan bacarıqla istifadə etmişlər. O dövrün reallıqları isə belə idi: Berlin konqresindən sonra Balkanlar (Frakiyadan başqa) Osmanlı imperiyasının tərkibindən ayrılmış və buna görə də müharibənin e'lan olunması üçün bəhanə ola bilməzdi. Bundan əlavə Rusiya əmin oldu ki, Cənub dənizlərinə çıxmaqda Balkanlar konkret tarixi şəraitdə onun üçün strateji rol oynaya bilməz. Üstəlik də Rusiyanın konqresdə heç bir uğur qazanmaması millətçi rus mətbuatında Berlin konqresini knyaz Bismarkın başçılığı ilə Rusiyaya qarşı "Avropa koalisiyası" adlandıran materialların dərc olunması Rusiyada Türkiyəyə qarşı yeni planlar hazırlanması üçün siyasi-ideoloji şəraiti yetişdirirdi. Ona görə, Rusiya yenidən bu ölkədəki erməni icmasından istifadə etməyə başladı, daha dəqiq deyilsə, "erməni məsələsinə" özünün geosiyasi planlarında xüsusi yer ayırmağı məqsədəuyğun hesab etdi. Bu dəfə Rusiya ən'ənəvi, sınaqdan çıxmış "erməni kilsəsi" kartı ilə yanaşı, bir qədər sonra yaranmaqda olan erməni inqilabi komitələrindən istifadə etməyə cəhd göstərirdi. Başqa sözlə, Rusiya erməni iğtişaşları yaratmaqla Avropa hadisələrinə müdaxilə etmək imkanları barədə düşünürdü. Lakin yaranmış yeni geosiyasi mühit Rusiyanın "erməni məsələsinə" münasibətini dəyişməyə vadar etmişdi. Belə ki, Berlin konqresindən sonra İngiltərənin Qladston hökuməti Rusiya ilə əməkdaşlığı möhkəmləndirməyə çalışırdı. Lakin İngiltərənin ermənilərin müstəqilliyi məsələsi ilə ciddi maraqlandığını, Asiyada nüfuz sahələrinin bölünməsi uğrunda İngiltərə-Rusiya münasibətlərinin kəskinləşdiyini görən Rusiya Ermənistanın müstəqilliyi ideyasından əl çəkdi, Osmanlı imperiyasının mövqeyinə tərəfdar çıxdı. İngiltərə hesab edirdi ki, əgər Türkiyə ərazisində erməni dövləti yaranarsa, bu Rusiya ilə Asiya arasında bufer rolunu oynaya bilər və bununla da Rusiyanın Şərq ekspansiyasına mane olar. Rusiyanın "erməni məsələsi"ndən müvəqqəti əl üzməsindən istifadə edən İngiltərə və Fransa tezliklə öz diplomatiyalarını işə salaraq erməni icmalarına öz himayələrini təklif etdilər.

Göründüyü kimi, "erməni məsələsi" ilə ciddi maraqlanan iri dövlətlər əslində öz siyasətlərində ermənilərin separatizm niyyətlərindən alət kimi istifadəyə üstünlük vermişlər. Qeyd edək ki, erməni xalqına separatizm psixologiyasını metodik şəkildə aşılayan ən aqressiv proqramlı erməni təşkilatı — "Daşnaksutyun" partiyası olmuşdur. Erməni şovinizmini təbliğ edən partiyanın liderləri kütləvi çıxışlarında açıqca deyirdilər ki, ermənilər qonşu kürd və tatarlar kimi barbar xalq deyildir və buna görə də öz tarixi misiyasına görə Allah tərəfindən seçilmiş xalq olaraq Türkiyə və Rusiya erməniləri həmin qeyri-mədəni xalqları qovaraq, onların ərazisində öz müstəqil milli dövlətlərini yaratmalıdırlar [31].

Qeyd etmək lazımdır ki, "erməni məsələsi"nin böyük dövlətlər tərəfindən şişirdilməsi, daha dəqiq deyilsə, Osmanlı dövlətinin daim presinq altında saxlanması erməni separatizmi, antitürk instinktindən qidalanan erməni mentaliteti üçün bu günə kimi mühüm mə'nəvi-siyasi iqlim yaratmışdır. Separatizm ideyalarından bəhrələnmək erməniçiliyin tarixi inkişafının məntiqindən doğsa da daha çox, erməni mentalitetinin ayrılmaz hissəsinə çevrilmiş və indi də bu xalqın şovinist millətçilərinin şüurunu qidalandırmaqdadır.

Erməni mentalitetinin ən naqis ünsürü olan separatizm elementlərini məhz "Daşnaksutyun" partiyası formalaşdırmışdır. Bunu erməni tədqiqatçısı Hov.Kaçaznuni daha dəqiq göstərərək yazırdı ki, instinktli kütlədən, zəif şüura malik olan həmin partiya özü əslində şüurca zəif olan kütlənin milli müstəsnalıq, şovinist təkəbbürçülük ideologiyasını təbliğ edirdi. Hov.Kaçaznuni e'tiraf edirdi ki, daşnakların antitürk və antimüsəlman fəaliyyəti təsadüfi xarakter daşımırdı. Bu, artıq 25 ildən artıqdır ki, (qeyd edək ki, əsər 1927-ci ildə Tiflisdə işıq üzü görmüşdür— *müəllif*) erməni xalqının beyninə yeridilən millətçilik psixologiyasının nəticəsidir. Bu istər-istəməz Türkiyə vilayətlərində və Cənubi Qafqazdakı torpaqlarda Ermənistan dövlətini yaratmaq ideyasını, həmin "məqsəd" naminə Azərbaycan şəhərləri və kəndlərinin məhvinə gətirib çıxarmalı idi [32]. Son hadisələr daha bariz şəkildə göstərir ki, müstəqil Dağlıq Qarabağ

hökuməti yaratmaq, sonradan onu Ermənistana birləşdirmək "ideyası" uğrunda canfəşanlıq edən erməni ideoloqları və lobbisinin söykəndiyi mülahizələr məhz daşnakların proqram siyasətinin müasir formalarda həyata keçirilməsi cəhdidir.

Rusiyanın vaxtilə Ərzurumda və Vanda baş konsulu işləmiş Mayevski açıqca bildirirdi ki, daşnaklar ermənilərdə həmişə millətçilik hissləri qızışdırırlar, onların şüurunu daim şovinizm və qəddarlıq ideyaları ilə zəhərləyirlər [33]. Lakin bir daha qeyd edək ki, maarifçi Qərb dövlətlərinin "əzabkeş", "başı bəlalı" ermənilərin sıxışdırılması ideyalarından insanilikdən kənar formalarda (təbii ki, Türkiyəyə qarşı siyasətlərində) manipulyasiya etməsi erməni separatizminə siyasi-ideoloji bəraət qazandırmaqda mühüm yer tutmuşdur.

Sonrakı hadisələr bir daha göstərdi ki, XIX əsrin II yarısından başlayaraq ermənilər Türkiyənin müxtəlif vilayətlərində qanlı qırğınlar təşkil edərək müsəlman əhalisini metodik surətdə məhv etmək planlarını həyata keçirmək taktikasına üstünlük vermişlər. Belə qırğınlar 1868, 1878, 1884-cü illərdə Osmanlı Türkiyəsinin Zeytun, 1880, 1894-cü illərdə Samsun, 1884-cü ildə Van və digər vilayətlərində baş vermişdir. Erməni millətçiliyinin şovinizm mentalitetinin bu cür "pərvazlanması" şübhəsiz ki, dövrün geosiyasi abu-havası ilə izah olunmalıdır. Belə ki, XIX əsrin II yarısından başlayaraq, Avropa dövlətləri ilə Rusiya arasında vaxtilə qüdrətli dövlət olan Türkiyəni parçalamaq və mühüm strateji su yolları olan boğazlara yiyələnmək uğrunda mübarizəsi "Şərq məsələsi" deyilən diplomatik problem yaratmışdı. Öz niyyətlərinə çatmaq istəyən həmin dövlətlər hər cür vasitələrdən istifadə edir, ilk növbədə ermənilərin antitürk qiyamlarına rəvac verirdilər [34]. Təsadüfi deyildir ki, "Böyük Ermənistan" yaratmaq ideyasını erməni millətçiliyinin mental elementi kimi formalaşdıran müxtəlif erməni təşkilatları və partiyaları da məhz Avropa ölkələrində və Rusiyada yaranmışdır.

XIX əsrin 90-cı illərindən başlayaraq erməni liderləri və ideoloqları "əzabkeş" xalq ideyasını Cənubi Qafqazda, xüsusilə, Azərbaycanda da genişləndirməyə nail olmuşlar. Bu aksiyalara təkan verən geosiyasi şərait onunla izah olunur ki, həmin dövrdən başlayaraq, Rusiya inqilabi hərəkatların, bu ölkənin reallıqlarına xas olan sosial-siyasi intriqaların mərkəzinə çevrilmişdir. Bu, həmişə xaosdan məharətlə istifadə edən erməni millətçilərinə öz "dövlətçilik idealını" həyata keçirmək naminə münbit şərait yaratmışdı. Bunu da qeyd etmək lazımdır ki, XIX əsrin 90-cı illərindən və XX əsrin əvvəlindən başlayaraq, Rusiyaya, xüsusilə, Cənubi Qafqazya erməni emisarlarının axını güclənir. Bədnam "Ermənistan" ideyasından ruhlanan qisasçı antitürk və antiazərbaycan qüvvələri birləşərək hərbi dəstələr yaradırdılar. Ermənilərin siyasi niyyətlərində Qarabağ xüsusi



geosiyasi mahiyyət kəsb edirdi. O dövrün tanınmış ictimai xadimi Xosrov bəy Dolatov Qarabağ ermənilərinin hərbi hazırlıqlarını belə təsvir edirdi: Rusiyadakı çevrilişə qədər, 1903-cü ildən başlayaraq ermənilərin Qarabağ müsəlmanları ilə münasibətləri gərginləşməyə, hətta düşmənçilik xarakteri kəsb etməyə başlayır. Bunun səbəbi aşağıdakılar idi: Eçmiədzində silah anbarı aşkar edildikdə Qafqaz idarəsi nəzdində siyasi məqsədlə Qalitsinin göstərişi ilə erməni kilsə əmlakı xəzinənin nəfinə müsadirə edilir, həmin dövrdə müsəlman əhalisi çaşqın bir vəziyyətə düşür. Çünki ermənilər müsəlmanlara təklif etmişdilər ki, kilsə əmlakını geri almaqda onlara kömək etsinlər. Hakim dairələr isə müsəlman əhalisindən tələb edirdi ki, ermənilərə qoşulmayıb neytral mövqe tutsunlar. Əslində isə, erməni millətçiləri hakimiyyət əleyhinə silahlanmaq adı altında təxribatçı təhriklərilə müsəlman əhalisini özlərinə tabe etdirmək istəyirdilər [35]. Aydındır ki, ermənilərin bu hərəkətlərindən məqsəd müsəlman əhalisini Rusiya hakim dairələri ilə toqquşdurmaq və bundan faydalanmaq idi. Ermənilər isə əslində bundan başdan ayağa kimi silahlanmaq, müsəlman əhalisinə qarşı qırğınlar hazırlamaq bəhanəsi kimi istifadə edirdilər.

Artıq 1905-ci ilin mayından, xüsusilə ermənilərə rəğbətini gizlətməyən qraf İ.Vorontsov-Daşkovun Cənubi Qafqaz canişini tə'yin olunmasından sonra Rusiya hakim dairələri millətlərarası konfliktdə açıq ermənipərəst mövqe tutmağa, hətta bə'zi hallarda bu məqsədlə rus qoşunlarının da ermənilərə qoşulmasına şərait yaratmaqla yerli müsəlman əhalisinə qarşı hücumlarda iştirak etməsinə rəvac verməyə başlayırlar.

1905-ci ilin avqust ayında çarın fərmanına əsasən müsadirə olunmuş əmlak erməni kilsəsinə qaytarılır və bu şübhəsiz ki, Rusiyanın taxt-tacının erməni təbəələrinə rəğbəti kimi təbliğ olunaraq erməni separatizminin antimüsəlman fəaliyyətinə yeni psixoloji təkan verdi. Üstəlik də 1905-ci ildəki inqilabi iğtişaşlar ermənilərin siyasi intriqaları üçün əlverişli sosial mühit yetişdirmişdi. Məhz həmin ildə Bakıda ilk erməni-azərbaycanlı toqquşmaları baş verir və tezliklə bütün Azərbaycanı, xüsusilə Qarabağı, o cümlədən İrəvanı və Tiflisi bürüyür. Hər iki tərəfdən 10 minə qədər adam həlak olur və bununla konfliktdə keyfiyyətcə yeni mərhələ başlayır. Daha yaxşı silahlanmış mütəşəkkil erməni dəstələri "Böyük Ermənistan" torpaqları hesab etdikləri ərazilərdə terror aktları təşkil edir, müsəlman əhalisini öz tarixi yurdlarından zorla qovurdular.

Rusiyaya gəldikdə isə yeni geosiyasi vəziyyət çarizmin ermənilərdən milli-siyasi alət kimi istifadə etməsinə əlverişli imkanlar yaratmışdı. Çarizmin "Şərq məsələsində" mühüm yer tutan "Cənub dənizlərinə doğru" siyasəti yenidən aktuallıq kəsb edir və bu Qərbi Türkiyəyə qarşı Rusiya üçün lazımlı sosial bazaya çevrilir.

İ.İ.Vorontsov-Daşkov Nikolay Romanova yazdığı məktubunda (1912-ci il 10 oktyabr) I Pyotr dövründə əsası qoyulmuş siyasətə bir daha qayıtmağın lüzumluğunu xatırladaraq açıqca bildirir ki, "əzəli rus siyasətinə qayıdaraq Türkiyə ermənilərinə himayədarlıq etməyin vaxtı çatmışdır". Çünki, onun fikrincə, Türkiyə Ermənistanının "vəhşi kürdlərlə" məskunlaşmasının hazırda bizim üçün heç bir faydası yoxdur [36]. Mə'lumdur ki, Türkiyə ərazisində Romanovlar imperiyasının bilavasitə qarşıdurma yaratmasına qədər, yə'ni 1915-ci il hadisələri başlananədək ermənilərin yaşadıqları ərazidə sosial durum çox sakit idi. Başqa sözlə, burada məskunlaşmış ermənilərə dövlət səviyyəsində heç bir ayrı-seçkilik təzyiqi qeydə alınmamışdır. Elə bu faktın özü sonrakı hadisələri genosid adlandırmağın uydurma olduğundan xəbər verir.

1917-ci ilin fevralında Rusiyada baş vermiş çevriliş nəticəsində Cənubi Qafqaz xalqları bir növ öz öhdələrinə buraxıldılar. Lakin regiondakı xalqların hamısı yeni geosiyasi mühitdən öz milli mənafeləri baxımından dəyərincə istifadə edə bilmədilər. 1918-ci ilin 28 mayında hakimiyyətə gələn daşnak liderləri tarixi reallıqlara qətiyyən məhəl qoymadan Gürcüstana və Azərbaycana ərazi iddiaları irəli sürdülər. Bu iddiaların əlçatmazlığını başa düşən yeni erməni hökuməti öz müstəqilliyinə o qədər də sevinmirdi. O dövrdə ermənilərin "Nezavisimaya Armeniya" qəzeti yazırdı ki, daşnakların ərazi əldə etmək hərisliyi çox böyükdür. Onlar olduğundan daha çox istəyirlər. Odur ki, öz nizami qoşunlarını Zəngəzura göndərərək kəndləri talan edir, əhalini məhv edir və bununla da sərhədlərini genişləndirməyə can atırlar [37]. Bunu da qeyd edək ki, 1917-ci il üçün üç respublikadan yalnız Ermənistan ciddi silahlı qüvvəyə malik idi, çünki Türkiyəyə qarşı vuruşan rus ordusundakı 35 minədək erməni silahlıları və onlara qoşulmuş rus əsgər və zabitləri erməni milli ordusunun əsasını təşkil edirdi. Üstəlik də, ermənilər Rusiyaya sadiqliyi sayəsində Qafqazda bolşevizmin də e'tibarlı dayağına çevrilmişdilər.

Təəccüblü deyildir ki, 1917-ci ildə Bakıda S.Şaumyanın başçılığı ilə sovet hakimiyyəti qurulduqda ən mühüm vəzifələri ermənilər tutmuşdular. Üstündən bir ay keçməmiş Ermənistanın Qarabağda peyda olmuş ilk dəstələri 12 Azərbaycan kəndini viran etmiş, Bakıda, Şamaxıda və Qubada Hamazaspın qoşunları "inqilabi ideyaları" həyata keçirmək əməliyyatlarından məkrliklə istifadə edərək 9 minə qədər azərbaycanlını qətlə yetirmişlər. Eyni zamanda keçmiş İrəvan quberniyasında daşnaklardan və ruslardan ibarət "müttəfiq" qoşunlar xüsusilə ağlasığmaz vəhşiliklər törətmişlər. Tam olmayan mə'lumata görə o dövrdə Ermənistandan Azərbaycan ərazilərinə 80 minə yaxın müsəlman qaçqını gəlmişdir. Lakin geosiyasi oyunlar daha çox Qarabağ ətrafında cərəyan edirdi. 1918-ci ilin yayında Andronikin komandanlığı altında erməni ordusu Zəngəzura



soxularaq əsl genosid törətmiş və artıq oktyabrın əvvəlləri üçün 115 kəndi məhv etmişdi. Həmin hücumda 7700 azərbaycanlı qətlə yetirilmiş, 2500 azərbaycanlı və kürd yaralanmışdı, üstəlik 50000 azərbaycanlı öz doğma yerlərini tərk etmək məcburiyyətində qalmışdı. Azərbaycanlıların intensiv və metodik məhv edilməsinin qarşısının müvəqqəti alınması sentyabrın sonunda türk dəstələrinin Şuşaya döyüşsüz daxil olması sayəsində mümkün oldu. Daşnak dəstələri Qarabağın dağlıq ərazilərinə çəkildilər. Problemin sırf millətçilik xarakteri kəsb etməsi beləliklə, regionun geosiyasi məkanında yeni durumun yaranmasını şərtləndirdi.

Qeyd edək ki, sadaladığımız hadisələrə qədər perspektivsizliyi artıq siyasətçilərə bəlli olan Cənubi Qafqaz seymi parçalandı: 1918-ci il mayın 26-da Gürcüstan, mayın 28-də isə Azərbaycan və Ermənistan öz müstəqilliklərini e'lan etdilər. Lakin Bakı hələ də bolşeviklərin və daşnakların nəzarəti altında olduğundan ADR-in paytaxtı müvəqqəti olaraq Gəncə oldu. Lakin rəhbərliyi əsasən daşnaklardan ibarət olan Bakı Soveti ADR-in müstəqilliyini düşməncəsinə qarşıladı, iyunun 12-də S.Şaumyanın əmrilə daşnak dəstələri Gəncəyə hücum etdilər. Qoşunların əsas tərkibini ermənilər təşkil etdiyindən hücum bolşevizm şüarından daha çox şovinist və separatçı erməni millətçiliyi ideyaları altında keçirdi. Daha dəqiq deyilsə, bu aksiya ilə erməni liderləri bolşevizmdən uydurma "Böyük Ermənistan" ideologiyasına söykənən işğalçılıq planlarını həyata keçirməkdə ilk "cəsarətli" addım atmışdılar. Vəziyyətin ciddiliyinə dəlalət edən mühüm siyasi amil bu idi ki, 1918-ci ilin yayında türklərdən və azərbaycanlılardan ibarət qoşunlar mühüm qələbələr qazanaraq, Azərbaycanın paytaxtına yaxınlaşanda Bakıdakı daşnak liderləri İngiltərə və Fransa ilə ittifaqa can atıb bütün sə'yləri Türkiyə və Almaniyaya qarşı yönəltməyi qərara aldılar. Məhz onlar menşeviklər və ermənilərlə ittifaqa girərək həmin ilin iyulun 25-də Bakıda sovet hakimiyyətini devirərək "Sentrokaspi diktaturası"nı qurmuş və ingilisləri də'vət etmişdilər. İlk baxışda ermənilərin bu taktikasını onların ən'ənəvi planlarının mühüm tərkib hissəsindən, yə'ni Rusiyanın siyasi himayəsindən imtina kimi başa düşmək olardı. Lakin Rusiyanın ermənilərlə birlikdə "Şərq məsələsi"ndə geosiyasi oyunları hələ irəlidə idi, çünki Qafqaz uğrunda mübarizədə "Qərb-Şərq qarşıdurması"nın başlıca aləti olan erməni millətçilərinin dövlətçilik iddiaları hələ də qətiyyən səngimirdi. Həmin dövrdə, yə'ni 1918-ci ilin noyabrında I Dünya müharibəsində Almaniya və onun müttəfiqləri məğlub oldular. Türkiyə öz qoşunlarını Cənubi Qafqazdan çıxarmaq məcburiyyəti qarşısında qaldı. Ermənilər isə qalib Antantaya "sığınaraq" öz "milli Ermənistan ideyası" ilə bağlı planlarını həyata keçirmək üçün yeni məkrli yollar axtarırdılar, baxmayaraq ki, onlar bu dəfə məhz Antantanın tələbi ilə Qarabağa hücumlarını dayandırmalı

olmuşdular. Amma Antantanın tə'kidi ilə Paris konfransına qədər ərazi iddialarından əl çəkəcəyini və'd etmiş daşnak liderləri öz siyasi oyunlarından nəinki əl çəkmək fikrində olmamış, əksinə öz silahlı dəstələri ilə dekabrın əvvəlində Gürcüstana və Azərbaycana hücum etmişdilər. Zəngəzurda 40-a qədər müsəlman kəndləri viran edilmiş və yalnız ingilislərin kəskin e'tirazından sonra hərbi əməliyyatlar dayandırılmışdı.

İngilislərin bu hərbi-siyasi prosesə müdaxiləsi "Şərq məsələsi"nin geosiyasi mahiyyəti barədə analitik düşüncələrə müəyyən əsas verir. Məsələ burasındadır ki, o dövrdə Türkiyəyə qarşı açıq düşmənçilik münasibətində olan İngiltərə bu ölkənin qarşısında "xristian sipəri" yaratmaq planını gizlətmirdi. Lakin siyasət elə bir fenomendir ki, əsl geosiyasi mənafelər çox zaman "xristian rəğbətini" də üstələyir. Belə ki, Rusiyanın "erməni kartından" istifadə edib Qafqaz regionunda, xüsusilə zəngin təbii sərvətləri ilə ingilis geoiqtisadiyyatının diqqətini çoxdan cəlb edən Azərbaycanda möhkəmlənməsi Böyük Britaniyanı qıcıqlandırırdı. Bölgədəki konfliktlər böyük dövlətlər üçün müəyyən siyasi manevrlər etmək baxımından əlverişli şərait yaradırdısa da onların qlobal siyasəti daha çox sabitliyə ehtiyac duyurdu. Odur ki, 1919-cu il yanvarın əvvəlində regiondakı müttəfiq qoşunların komandanı, ingilis general-mayoru V.M.Tomson Qarabağ və Zəngəzura general-qubernator kimi Azərbaycan nümayəndəsi Xosrov Sultanovu tə'yin etmişdi. Tə'limata əsasən ona və onun erməni köməkçisinə üç ermənidən və üç azərbaycanlıdan, eləcə də ittifaq missiyasının üzvü-ingilisdən ibarət şura tabe idi. Lakin Qarabağın daşnak liderləri bu layihəni rədd etmişdilər. Qarabağ erməni milli şurasının bu millətçi mövqeyi ingilis komandanlığını qəzəbləndirdiyindən V.Tomson həmin şuranın liderlərini diyardan qovacaqları ilə hədələməli olmuşdu. Demarş öz bəhrəsini vermişdi: layihədə bə'zi təshihlərlə erməni millətçiləri Qarabağda Azərbaycan general-qubernatorluğunun hakimiyyətini tanımaq və Azərbaycan tərəfi ilə əməkdaşlıq etmək məcburiyyəti qarşısında qalmışdılar. Bundan əlavə səlahiyyətindən istifadə edən Xosrov bəy Sultanov erməni millətçilərinə açıqca bildirirdi ki, "general-qubernatorluğun rayonlarında yeganə hökumət - Azərbaycan hökumətinin hakimiyyətidir və hamı məcburi şəkildə ona tabe olmalıdır. Hər hansı bir şəkildə qayda-qanunun pozulması, hərc-mərcliyə gətirib çıxarmış hərəkət general-qubernatorluğun qanunları ilə ciddi şəkildə cəzalandırılacaq. Qanun qarşısında hamı bərabərdir" [38]. Bu addım obyektiv olaraq o dövrdə Qarabağın müstəqil ADR-in ərazisinin tərkib hissəsi olaraq tanınması kimi qiymətləndirilməlidir. Baxmayaraq ki, həmin ingilis general-mayoru V.Tomson özünün ilk bəyanat və çıxışlarında "Azərbaycan" ifadəsini belə işlətməyi lazım bilməmişdi [39].



Həmin dövrdə Qarabağ problemi ilə bağlı Ermənistan-Azərbaycan qarşıdurmasından irəli gələn konfliktləri zəiflətmək üçün Azərbaycan tərəfi sülhməramlı əməkdaşlıq təklifləri ilə çıxış edirdi. Məsələn, 1919-cu il iyunun 25-də ADR rəhbərliyi Ermənistan hökumətinə mübahisəli məsələlərin həlli üçün hər iki respublikadan müttəfiq dövlətlərin iştirakı ilə qarışıq hökumət-parlament komissiyası yaratmağın zəruriliyi təşəbbüsü ilə çıxış etmişdir. Bu təklifin müsbət tə'siri olaraq artıq iyulun əvvəlində Qarabağ ermənilərinin 6-cı qurultayında Azərbaycan hökumətinin nümayəndəsi, milli parlamentin üzvü Ş.Rüstəmbəyov iştirak edirdi. Və nəhayət – bu xüsusilə qeyd edilməlidir – avqustun 15-də Dağlıq Qarabağın erməni icması Azərbaycanla müqavilə haqqında qətnamə qəbul etdi. Qətnaməyə uyğun olaraq Paris sülh konfransında konfliktin tam həllinə qədər Qarabağ erməniləri Azərbaycanın tərkibinə ərazi muxtariyyəti və milli muxtariyyət hüququnda daxil oldu. Lakin qurultayda yalnız müttəfiq dövlətlərin nümayəndələrinin iştirakı istər-istəməz Rusiyanın Qafqaz hadisələrindən uzaqlaşması təsəvvürünü yaradırdı. 1920-ci il yanvarın 11-də lord Corc Kerzonun təşəbbüsü ilə müttəfiq dövlətlərin Ali Şurası Azərbaycanın, eləcə də Gürcüstanın və Ermənistanın müstəqilliyini de-fakto tanıdı. Önəmli cəhət budur ki, Paris konfransı Azərbaycanın Qarabağa olan hüququnu da tanımışdı. Bütün bu prosesdə vətəndaş müharibəsi alovlarında imperiya statusunu qoruyan Rusiya iştirak edə bilməmişdi.

Lakin Rusiya özünün Qafqazdakı ən'ənəvi geosiyasətindən əl çəkmək fikrində deyildi. Regionun o dövrdəki siyasi vəziyyətinə nəzər salaq. 1918-ci ilin noyabrında Bakıda olan ingilislər artıq 1919-cu ilin avqustunda şəhəri tərk etmək üzrə idilər. Belə ki, avqust ayının 23-də müttəfiq qoşunlarının komandanlığı adından ingilis generalı Şatelvort Bakı əhalisinə "vida çağırışı" ilə müraciət etmişdi. Müraciətdə deyilirdi: "Fürsətdən istifadə edib indi Bakını da tərk edən Britaniya qoşunları adından Azərbaycan, xüsusən Bakı şəhəri əhalisindən üzr istəyirik. Səmimiyyətlə təəssüflənirik ki, çoxsaylı dostlarımızla və tanışlarımızla vidalaşırıq, onlara ürəkdən sülh və xoşbəxtlik arzulayırıq. Britaniya ordusunun bütün qulluqçuları Azərbaycanda keçirdikləri günlərin, ən yaxşı xatirələrini özləri ilə aparırlar" [40]. Yeri gəlmişkən, qeyd edək ki, haqqında söhbət gedən dövrdə ingilislərin Azərbaycanda olmasına siyasi ədəbiyyatımızda münasibət birmə'nalı olmamışdır. Təbii ki, Qafqaz regionu bütün siyasi-iqtisadi, xüsusilə coğrafi parametrlərinə görə iri dövlətlərin, o cümlədən İngiltərənin geosiyasi maraqlarını həmişə cəlb etmişdir, indi olduğu kimi. Lakin ingilislərin həmin dövrdə Bakıda olmasını tam mə'nada işğalçılıq hesab etmək düzgün olmazdı. Hər halda önəmli faktdır ki, Mudros sülhünün (1918-ci il oktyabr) şərtlərinə görə Bakıya daxil olan

ingilislər siyasi-etik normalara hörmət edərək, 1919-cu ilin avqustunda ölkəmizin ərazisini dost kimi tərk etdilər. İngilis komandanlığı yuxarıda qeyd etdiyimiz kimi Qarabağ probleminin həllinə, hər halda o dövrün mövcud hüquq normalarına uyğun olaraq obyektiv yanaşdılar. İkinci bir amil: ingilislərin Bakıda yerləşməsi Denikin təhlükəsinin qarşısının alınmasında böyük siyasi qüvvə olmaqla bərabər Qafqaz respublikalarının dövlətlərarası münasibətlərinin tənzimlənməsində, regionda sabitliyin tə'min olunmasında əhəmiyyətli hadisə kimi qiymətləndirilməlidir. Bu siyasi amili Uinston Çörçil belə ifadə etmişdir: "Qara dənizdən Xəzər dənizinə qədər bütün Qafqazı tutmuş Britaniya diviziyası bir-birilə rəqabət aparan xalqlar-gürcülər, ermənilər, tatarlar (azərbaycanlılar—*müəllif*), dağlılar və ruslar arasında sülhün yeganə tə'minatçısı idi".

Başqa bir cəhət: "canlı" ingilis diplomatiyası ilə birbaşa təmas Azərbaycan siyasətçilərinə Qərbin regionda xarici siyasəti barədə lazımi təsəvvür yaratmaqda və bununla bağlı mühüm informativ bazaya yiyələnməkdə müstəsna rol oynamışdır. Odur ki, ADR-in Xarici İşlər Nazirliyi özünün siyasi fəaliyyətinin obyektiv və səmimi mövqeyi sayəsində Qərb diplomatlarını Qarabağ məsələsində düzgün oriyentasiya seçməyə inandırmış və bunu yüksək qiymətləndirən ingilis komandanlığı öz hərbi hissələrinin radiostansiyalarını, ordunun hərbi sursatı və hərbi gəmilərinin bir hissəsini Azərbaycan hökumətinə vermişlər ki, sonralar gənc ADR-in hərbi donanması həmin hissələr əsasında qurulmuşdu.

Mə'lumdur ki, haqqında söhbət gedən dövrdə ən aktual xarici siyasət problemi regionda ermənilərin ərazi iddialarının əsassızlığını sübut etmək və gənc respublikanın ərazi bütövlüyünü hər cür təcavüzdən qorumaq idi. Təhlükəli cəhət bu idi ki, Rusiya özünün Azərbaycandakı geosiyasi maraqlarını həyata keçirmək ideyasından qətiyyən daşınmırdı. Həmin dövrdə ingilis hərbi jurnalisti Liddelin Britaniya hökumətinin mövqeyini əks etdirən qəzetlərindən birində söylədiyi "Bakıda ingilis ordusuna ehtiyac yoxdur. Azərbaycan özü-özünə qayğı göstərə bilər" fikri imperiya təfəkküründən əl çəkməmiş Rusiya xarici siyasət dairələrini düşündürməyə bilməzdi. Heç olmasa belə bir faktı qeyd edək ki, Türkmənçay müqaviləsinə (1828) görə Xəzər dənizində heç bir xarici dövlətin hərbi donanmasının üzmək hüququnun olmamasını iddia edən, lakin ingilis gəmilərinin üzməsinə göz yuman Rusiya dövləti Azərbaycan hökumətindən ingilislərin verdiyi donanmanın Rusiya bayrağı altında üzməsini tələb edirdi. Bu yalnız zorakı diplomatiya məntiqinə sığa bilərdi. Təsadüfi deyildir ki, ADR-in diplomatı C.Rüstəmbəyov general Denikinə ünvanlanan notada çatdırmışdı ki, öz milli donanması olan Azərbaycan hökuməti razı ola bilməz ki, onun gəmiləri özgə bayrağı altında üzsün [41].



Deyilənlərlə yanaşı belə bir faktı da unutmaq olmaz ki, həmin illərdə xaricdə yaşayan ermənilər, onların lobbisi Azərbaycanın müstəqilliyini düşmənçiliklə qarşılamış, azərbaycanlıları "tatar vəhşiləri" kimi gözdən salmağa çalışırdılar. O dövrdə "Azərbaycan Respublikasının Birləşmiş Ştatlardakı nümayəndəsi Çandler Əlimərdan bəy Topçubaşova yazırdı ki, bu ölkədə azərbaycanlılara qarşı güclü erməni təbliğatı aparılır. Bu məqsədlə Amerika erməniləri təbliğat komitələri yaradırlar, onlar yeganə azsaylı xalqdır ki, təbliğat kompaniyalarını bu cür komitələrin vasitəsilə daha da genişləndirirlər, çox yaxşı olardı ki, azərbaycanlılar da belə komitələr yaradaydılar [42].

İlk baxışda görünə bilər ki, deyilənlərin bilavasitə Qarabağ probleminə dəxli yoxdur. Bizcə, burada real məntiqi əlaqə vardır. Çünki, diplomatiyası bu cür imperiya geosiyasətinə söykənən, üstəlik də vaxtilə öz tərkibinə zorla daxil etdiyi tarixi Azərbaycan ərazisi olan Qarabağı özününkü sayan bir dövlət ADR-in demokratik mövqeyini müdafiə edə bilməzdi. Ermənistan-Azərbaycan konfliktinin ən dərin geosiyasi kökü bundadır. Sovet rejiminin reallıqları da "Humanist marksist ideologiyası" ilə pərdələnsə də heç bir milli problemi, o cümlədən Qarabağ məsələsini həll etmədi, əksinə onu yetişdirən şəraiti "dondurmaqla" kifayətləndi.

Lakin bu günkü reallıqlar başqadır. Dünya praktikası artıq çoxdandır ki, belə bir prinsipin düzgün olduğunu təsdiq edir: konfliktli vəziyyətin qarşısını alarkən bu günə qədər təşəkkül tapmış tarixi reallıqları rəhbər tutmaq lazımdır. Helsinki müşavirəsinin yekun aktında (1975) əks olunmuş Avropa ölkələrinin dövlət sərhədlərinin pozulmaması, toxunulmazlığı məsələsi son dərəcə mühüm obyektiv, metodoloji yanaşma prinsipdir.

Tarixi faktlar göstərir ki, hələ ADR dövründə, yə'ni daşnak ideoloqlarının "dənizdən dənizə qədər Böyük Ermənistan" yaratmaq iddialarına baxmayaraq Dağlıq Qarabağ əhalisi diyarın Azərbaycan hüdudlarında qalmasını istəyirdi. Bu baxımdan Qafqazdakı hadisələrdən heç də xəbərsiz olmayan A.Mikoyanın mövqeyi maraqlıdır. O, 1919-cu il mayın 22-də V.İ.Leninə yazırdı ki, erməni hökumətinin daşnak agentləri Qarabağın Ermənistana birləşdirilməsinə çalışırlar, lakin bu Qarabağ əhalisi üçün Bakıda yaşamaq mənbəyini itirmək və heç bir yerlə əlaqəsi olmayan İrəvana bağlanmaq demək olardı. Qeyd edək ki, erməni kəndliləri beşinci qurultayda Sovet Azərbaycanını tanımaq və ona birləşməyi qərara almışlar.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci il iyunun 19-də V.İ.Leninin adına ünvanlanmış teleqramda göstərildi ki, Qarabağda və Zəngəzurda Sovet hakimiyyəti qurulmuş və adı çəkilən hər iki ərazi özünü Azərbaycan Sovet Respublikasının tərkib hissəsi hesab edir. Sovet rəsmi ideologiyası belə bir ideyanı təbliğ edirdi ki, regionda Dağlıq

Qarabağa muxtar vilayət statusu verilərkən Leninin milli məsələ sahəsində işləyib hazırladığı prinsiplər rəhbər tutulmuş, tarixi inkişaf şəraiti, iqtisadi, sosial-sinfi münasibətlərin məcmusu, mədəni ən'ənələr nəzərə alınmışdır.

Qeyd edək ki, Qırmızı Ordunun cənuba doğru hərəkəti və geri çəkilməkdə olan Denikin qoşunlarını tə'qib etdiyi bir vaxtda 1920-ci il martın 23-ə keçən gecə, bütün müsəlman əhalisinin Novruz gününü qeyd etdiyi bir gündə ermənilər gözlənilmədən Şuşada və Qarabağın digər bölgələrində azərbaycanlılar yaşayan kəndlərə hücum etmişdilər. Erməni hərbi hissələrinin hücumları ADR hökumətini demək olar ki, bütün silahlı qüvvələrini Qarabağa göndərməyə məcbur etmişdi. Mart döyüşlərinin acı aqibəti Azərbaycanın tarixi taleyində amansız iz qoydu. Məhz həmin hadisələrdən Azərbaycan kommunistləri Sovet Rusiyasım köməyə çağırmaq üçün bəhanə kimi istifadə etdilər. 1920-ci il aprelin 27-də Rusiya qoşunları Bakını işğal etdilər və Azərbaycan müstəqilliyini itirdi. Lakin sovet hakimiyyəti formasında bərpa olunan Rusiya hökmranlığı özünün sosial təbiətində çarizmin böyük dövlətçilik ideyalarını, xüsusilə milli məsələdə ziddiyyətli imperiya ambisiyaların saxlayırdı. Bu meyl özünü məhz Qarabağ məsələsinin qoyuluşunda biruzə verdi. Artıq 1920-ci il iyunun 19-da Sovet Rusiyasının Xarici İşlər naziri Q.Çiçerin "Rusiya işğalçı qoşunları" tərəfindən Qarabağın və Zəngəzurun mübahisəli torpaqlarının tutulmasının zəruriliyini e'lan etmişdi. Şübhə etməmək olar ki, Rusiya nazirinin bu geosiyasi planının irəli sürülməsində mühüm sövqedici amil onun milliyyətcə erməni olan müavini L.M.Karaxanyanın şəxsi tə'siri də olmuşdu.

1920-ci ilin noyabrında bir qrup erməni kommunistinin özünü inqilab komitəsi adlandırması, Ermənistanda sovet hakimiyyətinin e'lan olunması və 11-ci ordunun regiona "köməyə" gəlməsi ilə Qarabağ probleminin tənzimlənməsi prosesi daha da mürəkkəbləşdi. Belə ki, Türkiyəyə qarşı mübarizədə "mətinləşmiş" daşnak dəstələri respublikanın ərazisinə soxularaq, həm sovet işğalçı qoşunlarım, həm də erməni millətçiliyini pisləyən inqilab komitəsini ölkədən qovdular. Lakin bu çox sürmədi və Qafqazda öz geosiyasi niyyətlərini hər vasitə ilə həyata keçirməyə can atan Sovet Rusiyasının qoşunları 1921-ci il fevralın sonunda Yerevanı danışıqsız təslim etdi. Bununla Qarabağ probleminin həllinin "Kreml variantı" üçün əlverişli geosiyasi imkanlar açıldı. Bu fikrə bir qədər aydınlıq gətirmək istərdik. Məsələ burasındadır ki, erməni politoloqları və onların havadarları sovet hökuməti ilə erməni hərbi komandanlığı arasında heç bir hüquqi əsası olmayan 1920-ci il aprel sazişini çox qabardırlar. Heç bir qüvvəsi olmayan (xüsusilə SSRİ-nin dağılmasından sonra) həmin müqaviləyə görə, Qarabağ, Naxçıvan, Laçın, Kəlbəcər və Zəngilan qəzaları Ermənistana verilməli, erməni ordusu isə təslim olaraq İran



ərazisinə (?) keçməlidir. Halbuki SSRİ-nin dağılmasınadək ləğv olunmamış və indi də qüvvədə olan "Lenin-Atatürk paktına" görə, Qarabağ, Naxçıvan, Laçın, Kəlbəcər və Zəngilan Azərbaycanın tərkibində saxlanılmış, özü də rəsmi olaraq Naxçıvanın da Azərbaycan ərazisi kimi hüquqi tə'minatı da təsbit olunmuşdur. Lakin bə'zi müəlliflər nədənsə bunu "gizli saziş" adlandırırlar [43]. Bu günə kimi ləğv olunmamış rəsmi sənəd gizli bağlana bilərmi?

"Sosializmdə milli məsələ yoxdur" ideologiyası kök saldıqca Qarabağ problemi getdikcə üzdə görünməyən təzadlı xarakter kəsb edir, regionun əmin-amanlıq iqlimi şəraitində yaşaması barədə xülyalar formalaşırdı. 1920-ci ilin noyabrında sovet Qarabağı probleminin tənzimlənməsi üçün kommunistlər özünəməxsus "proletar millətçiliyi" metodlarından istifadə etməyə başladılar. 1921-ci il iyunun 12-də Ermənistan hökumətinin qəbul etdiyi dekretdə Dağlıq Qarabağ Ermənistan Sovet Sosialist Respublikasının hissəsi e'lan edilir, diyara da bu respublikanın fövqəl'adə komissarı tə'yin olunur. Lakin iyunda daşnakların Zəngəzurdan Yerevana hücumu "sovet" ermənilərinin siyasi ambisiyalarını bir qədər səngitdi. Erməni kommunistləri kompromisə girərək dekreti ləğv etdilər, lakin Dağlıq Qarabağ və digər mübahisəli ərazilər üzrə komissiya çağırılmasını irəli sürdülər.

1921-ci il iyunun 27-də Rusiya kommunist partiyasının Qafqaz bürosu çağırıldı. Lenin milli siyasətinin "təntənəsi" özünün real təcəsümünü bu yığıncaqda göstərdi, belə ki, problemin kəskinləşməsində çox maraqlı olmayan kommunistlər bir neçə gün sürən uzun mübahisələrdən sonra Stalinin də iştirak etdiyi Qafbüronun yekun iclasında aşağıdakı qərarın qəbul edilməsinə nail oldular. Ermənilər və müsəlmanlar arasında milli sülhün Yuxarı və Aşağı Qarabağ arasında iqtisadi əlaqələrin, onun Azərbaycanla daimi münasibətlərinin zəruriliyindən çıxış edərək Dağlıq Qarabağı Azərbaycanın hüdudlarında saxlamaqla ona inzibati mərkəzi Şuşa olmaqla geniş vilayət muxtariyyatı vermək. Erməni siyasətçiləri bu qərarı Stalinin erməni mənafelərinə qarşı çevrilmiş fəaliyyətinin nəticəsi kimi təfsir edirlər. Mə'lum olduğu kimi ermənilər həmişə belə bir versiyanı təlqin etməyə çalışırlar ki, guya gürcüpərəst Stalin qəflətən Tiflisə gəlmiş və vaxtilə Qarabağın Ermənistana verilməsi barədə əvvəlki "ədalətli qərarın" ləğvinə nail olmuşdur. Lakin faktlar bunun əksini sübut edir. Tarixi sənədlərə görə, Stalin Tiflisdə müşavirənin lap əvvəlindən olmuş və buna görədə onun iyulun 5-də "qəflətən" peyda olması həqiqətə uyğun deyildir, əksinə, həqiqətə uyğun olan məhz budur ki, Stalin ola bilsin ki, mərkəzin nümayəndəsi kimi Çiçerinlə birlikdə erməni mövqeyində duraraq əvvəllər Dağlıq Qarabağın Ermənistana verilməsi qərarını vermiş Qafbüronun üzvlərinə tə'sir göstərmişdir. Lakin bu qərar o

qədər mübahisəli və Cənubi Qafqaz kommunistlərinin baxışlarına uyğun gəlməyən qərar idi ki, o zaman iyulun 4-də həmin problemi RKP MK-nın geniş iclasına keçirmək barədə qərar qəbul olunmuşdur. Məhz bu qorxu bolşeviklərin mərkəzi orqanında real səsi olmayan Stalini öz qərarını dəyişməyə vadar etmişdir. Maraqlıdır ki, Lenin Orcenikidzeyə yazdığı məktubda Stalinin Tiflisdə nə məqsədlə olduğuna təəcübünü bildirir. Bir də ki, sovet geosiyasətini özünəməxsus şəkildə başa düşən Stalin sün'i mübahisəli məsələləri törətməkdə və sonradan bunları imperiyanın xeyrinə həll etməkdə çox mahir siyasətçi idi.

Elə bu dövrdə, iyulun 13-də daşnakların qiyamı yatırıldı. Bunun Qarabağ probleminə birbaşa tə'siri oldu. Belə ki, 1921-ci il iyulun 16-da Ermənistan MK-ın Qafbüronun plenumunun yekunlarına həsr olunmuş iclası keçirildi və burada qərara alındı ki, Qafbüronun qətnaməsi erməniləri qane etməsə də bu dəfə Qarabağ məsələsini qaldırmamaq və "növbəti iclasda muxtariyyətin mahiyyəti barədə konkret formalaşmış təklif verilsin".

Hələ bundan bir qədər əvvəl vəziyyəti daha yaxşı bilən və Azərbaycana heç də həmişə birmə'nalı münasibəti ilə seçilməyən Orcenikidze regiondan iyunun 19-da göndərdiyi teleqramda göstərmişdir ki, Qarabağ və Zəngəzur özünü Azərbaycan Respublikasının bir hissəsi kimi hesab edir və buna görə də Çiçerinə bunu məsləhət görürdü: "Mənim fikrimcə, Azərbaycan nümayəndəsini Moskvaya də'vət edib onunla birlikdə Azərbaycan və Ermənistanla bağlı məsələləri həll edə bilərik. Bunu Ermənistanla müqaviləni imzalayanadək etmək lazımdır, çünki daşnaklara tez inanmağımız burada "bizim işimizi tamamilə batırar". Orcenikidze başa düşürdü ki, problemin ehtiyatsız həlli müsəlman kütlələri içərisində bolşevizmə inamı sarsıda bilər" [44].

Beləliklə, 1922-ci ildə SSRİ-nin təşkili ilə həmin muxtariyyət statusu Konstitusiya qaydasında təsbit olundu. 1922-ci il dekabrın 30-da RSFSR, Ukrayna SSR, Belorusiya SSR və Zaqafqaziya SFSR-nın nümayəndələri tə'cili olaraq SSRİ-nin I Sovetlər qurultayına toplaşdılar. Qurultayda əsas mə'ruzə ilə çıxış edən İ.Stalin həmin günü *"Yeni Rusiyanın"* (kursiv bizimdir) köhnə, Avropanın jandarmı və Asiyanın cəlladı olan Rusiya üzərində təntənəsi günü adlandırmışdır [45]. Qurultayda sədrlik edənin təqdim etdiyi kimi "Bakıdan gələn fəhlə" S.M.Kirov Zaqafqaziya SFSR-nın proletariatı adından qurultayı təbrik etmişdi [46]. Bununla da Dağlıq Qarabağın ərazi mənsubluğu uğrunda mübarizəyə sovetsayağı nöqtə qoyuldu. Lakin sonralar partlayacaq minanın zərbə gücünü heç kəs təsəvvür etmirdi, buna görə də "sovet geosiyasətinin" və gələcəkdə müasir Rusiyanın "Qafqaz oyunlarında" Qarabağ kartının nə demək olduğunu böyük siyasətçilər sonradan başa düşdülər.



Geosiyasət elə bir elmdir ki, o tarixə "keçmişə çevrilmiş siyasət" kimi baxmır. Bunu son illərdə xalqların taleyüklü problemlərini siyasi spekulyasiya obyektinə çevirmək cəhdləri bir daha göstərir. Elə buna görə Azərbaycan politoloji fikrində Qarabağ probleminin geosiyasi tarixi ilə bağlı problemlərin araşdırılması mühüm və aktual nəzəri-metodoloji əhəmiyyət kəsb edir.

Bu gün təsadüfi deyildir ki, Rusiyanın Qafqaz geosiyasətində Qarabağ probleminə ikili standartla yanaşma, bu dövlətin rəsmi dairələri tərəfindən tez-tez Rusiyanın vaxtilə Qarabağ xanlığı ilə "xüsusi münasibətlərdə" olduğunu qabartması və buna görə də bu diyarın Rusiya imperiyasına birləşdirilməsinin əsası olması barədə eyhamlar vurması konflikti nəinki həll etmir, əksinə Rusiyanın milli mənafeləri baxımından ona yeni "geosiyasi partlayış" məzmunu kəsb etdirir. Ona görə, təsadüfi deyildir ki, Londonda Xəzər dənizinin statusu ilə bağlı danışıqlarda Rusiyanın nümayəndəsi Xolodkov Azərbaycanın Türkmənçay müqaviləsinə əsasən Rusiyaya keçməsi məsələsinə birbaşa istinad etmişdir. Azərbaycan xalqının iştirakı olmadan, onun iradəsinin əksinə imzalanmış və onun üçün alçaldıcı olan bu müqaviləni rəsmi şəxsin yada salması hər halda özünü SSRİ-nin hüquqi varisi e'lan etmiş dövlətin regionda heç də sabitlik yaratmaq strategiyasından xəbər vermir. Rusiyanın nümayəndəsi görünür belə bir faktı unutmuşdur ki, keçmiş ittifaq Konstitusiyası ittifaq respublikalarına nominal da olsa müstəqillik vermişdi.

Bizcə, Rusiyanın Qafqazda müasir geosiyasi planlarını arzu etdiyi qədər həyata keçirməməsinin bir səbəbi bu böyük dövlətin rəsmi dairələrində hökm sürən "hüquqi nihilizmdir". Məsələ burasındadır ki, hər üç Cənubi Qafqaz respublikasının ərazi bütövlüyü dünya birliyi, o cümlədən Rusiya tərəfindən tanınmışdır. İkinci danılmaz beynəlxalq fakt budur ki, Qarabağ Muxtar Vilayəti məhz Azərbaycan Respublikasının ərazisinin tərkib hissəsi olmaqla tanınmışdır. Buna görə də Qarabağ problemi siyasi oyunlarda perspektivsiz "tarixi kart" kimi istifadə edilir. Dağlıq Qarabağ ermənilərinin elçiləri Kreml sakinlərinə diyarın RSFSR-in tərkibinə qəbul olunmasını xahiş edirdilər. E'tiraf edək ki, Moskvada onlara göstərilən diqqət sanki Rusiyanın müqavilə bağladığı hansısa rəsmi erməni dövlətinə olan ehtiram təsəvvürü yaradırdı. O dövrdə Rusiyanın Xarici İşlər naziri olmuş A.Kozırev hətta ağzından belə söz qaçırtmışdı ki, keçmiş İttifaqın bu vilayətlə "xüsusi münasibətləri" olmuşdur. Bəlkə A.Kozırev Dağlıq Qarabağ Muxtar Vilayətinin birbaşa Sov.İKP MK-nın nomenklaturası olması faktını xatırlatmaq istəmişdir? Hər halda təkzib olunmaz həqiqət budur ki, Rusiya geosiyasəti Ermənistanı Cənubi Qafqazın jandarmına çevirməkdə maraqlıdır, ona görə ki, onun ərazisində Rusiya bazalarının Avropa konvensiyalarına uyğun gəlməyən nisbətdə yerləşdirilməsi,

ermənilərin poliqonlarında birgə hərbi tə'limlərin keçirilməsi bunu əyani sübut edir. Lakin Rusiyanın strateji manevrlərinə baxmayaraq Ermənistanın özünün xarici siyasətində xoş niyyətdən xəbər verməyən ikili standart əhval-ruhiyyəsi hökm sürür. Belə ki, son zamanlar daxildəki qərbpərəst qüvvələrlə Rusiya yönümlü tərəfdarlar arasında gedən ideya mübarizəsinə söykənən erməni diplomatiyası hadisələrin dramatizmini artıra bilər.

Beləliklə, Qarabağ konflikti sözün əsl mə'nasında geosiyasi problemdir, çünki bunun ətrafında baş verən hadisələrin gələcəkdə də hansı məcrada gedəcəyi nəinki həm Ermənistanın, həm də Azərbaycanın müstəqilliyi üçün sınaq meydanıdır, habelə bütövlükdə regionda sabitliyi tə'min etmək üçün taleyüklü məsələdir. ABŞ-ın həmin problemə münasibəti də müəyyən mə'nada bununla izah olunmalıdır.



*FƏSİL II*

# KONFLİKTİN İLKİN MƏRHƏLƏSİ VƏ ABŞ-ın BÖLGƏDƏ SİYASİ XƏTTİ

***1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qalmışdı.***

***Heydər Əliyev***

Qarabağ probleminin anatomiyası belə bir həqiqəti açıqlamağa əsas verir ki, hər bir konfliktin beynəlmiləlləşdirilməsi yalnız obyektiv daxili sosial-siyasi hadisələrin məntiqi ilə deyil, habelə bugünki dünya birliyində, xüsusilə Avropada baş verən qlobal struktur dəyişikliklərinin tə'sirilə izah edilməlidir. İlk baxışda da paradoksal hal budur ki, etnosiyasi konfliktlər planetin inkişafından uzaq olan ucqarlarında deyil, "ümumi firavanlıq cəmiyyəti" modelinin uğurla həyata keçirildiyi sivilizasiyalı Avropanın kamil sosial-siyasi institutlarının fəaliyyət göstərdiyi dövlətlərində təzahür edir.

Gəlin, yüksək inkişaf etmiş demokratiyaların reallıqlarına müraciət edək. Vaxtilə Amerika politoloqlarının və ekspertlərinin proqnozlarına görə, XXI əsrin əvvəlində dünyanın siyasi xəritəsində dövlətlərin sayı 1,5 dəfə artacaq, etnoslararası münasibətlərdəki böhran SSRİ, Yuqoslaviya və Çexoslovakiya kimi dövlətlərdə baş verəcək, hətta sabit Qərbdə "Avropa quruculuğu" bir sıra dövlətlərin obyektiv müqavimətinə rast gələcəkdir.

Mə'lum olduğu kimi, 1992-ci il iyunun 2-də birinci referendumdan sonra Danimarka Avropa birliyinə daxil olmaqdan imtina etmişdi. Fransada isə Maastrixt müqaviləsi çox az səs çoxluğu ilə ratifikasiya edilmişdi. Bu ölkədə I Dünya müharibəsində ölkəsinin düçar olduğu acı taleyi unutmayan nəslin nümayəndələri hətta Maastrixt müqaviləsindən ehtiyatlanaraq, bildirmişdilər ki, "Fransa yenidən alman əsgərlərinin çəkmələrinin tapdağına düşməməlidir". Başqa sözlə, milli dövlətlərin "firavan" inkişafı belə real sosial problemlərin, o cümlədən milli konfliktlərin əsl mahiyyətini gizlədə bilmir. Əlbəttə, Qərbdə, eləcə də

Birləşmiş Ştatlarda intensiv fəaliyyət göstərmiş sovetoloqlar, eləcə də müasir politoloqlar öz reallıqlarından daha çox sovet məkanında gizli şəkildə cərəyan edən milli-etnik konfliktlərin araşdırılması ilə məşğul olmuşdu. Məsələn, Amerika sovetoloqu, indi isə mə'lum məsələ üzrə Rusiya üzrə mütəxəssis Riçard Payps SSRİ-nin dağılmasının əsl faciəsini mərkəzin milli konfliktləri "konservasiya" etməsində, onun partlayış vəziyyətinə şərait yaratmasında görmüşdür.

Dövlət statusu 1867-ci il Konfederativ Akt ilə təsbit olunmuş Kanada hökuməti artıq otuz ildən artıqdır ki, Kvebek vilayətinin siyasi suverenlik tələbi ilə üzləşməkdədir. P.E.Trüdonun liberal hökumətinin yeritdiyi bilinqvizm və mədəniyyətlərin paralel inkişafı siyasəti iflasa uğramışdı. Kvebek əhalisi 1996-cı il referendumunda az qala ki, qalib gələcəkdi, yalnız əyalətin bir neçə min yerli əhalisinin bu təklifin əleyhinə çıxması Kanada Federasiyasının taleyini həll etdi [47]. Lakin bu problemin tam həllidirmi?

İqtisadi cəhətdən heç bir problemi olmayan Belçikada mütamadi olaraq flamand və vallon əhalisi arasında hakimiyyət strukturu və bölgüsü, həmçinin "dilcə ayrılmaq" üstündə konfliktlər baş verir. Bunun əsas səbəbi bir əsr ərzində Belçikanın unitar dövlət kimi inkişaf etməsi (əslində isə bu dövlət unitar olmamışdır) olmuşdur. Artıq obyektiv reallıqlar baxımından paradoksal hal hesab olunmayan həqiqət budur ki, həmişə sabit və iqtisadi cəhətdən çiçəklənən bu ölkə flamand hərəkatının törətdiyi etnik identifikasiya amilinin tə'sirinə mə'ruz qalır. Lakin qorxulu cəhət bundan ibarətdir ki, həmin hərəkat radikal xarakter aldıqca bu günə qədər mədəni və sosial-iqtisadi cəhətdən səpələnmiş vallonları birləşməyə təhrik edir və bununla konfliktin gərginləşməsinə gətirib çıxarır [48].

Digər bir nümunə. İtaliyanın Şimal Liqası (hazırda Lombardiya liqası) belə bir iddəa irəli sürür ki, Roma İtaliya üçün nəsə bir "siyasi artefakta" çevrilmişdir. Bu güclü hərəkat İtaliya dövlətini "federallaşdırmağa" cəhd edir. Hərəkatın tələbinə görə, ağırlıq mərkəzi Şimalda yerləşməli, onun hissələri isə Almaniya Federativ Respublikasının torpaqlarının oxşarı olmalıdır. Lombardiya Liqası 1990-cı il seçkilərində ilk dəfə çıxış edərək əyalətlərin əksəriyyətində 18-20 faiz səs toplamışdı. 1992-ci il seçkilərində isə öz adını Şimal Liqası ilə əvəz edərək 30 faiz səs əldə etmiş və öz tə'sirini Pyemont və Venesiyaya yaya bilmişdir. İtaliya politoloqu R.Strassoldo mərkəzləşdirilmiş dövlət prinsipini tənqid etməklə yanaşı göstərir ki, Şimal Liqası cənub əyalətlərinə düşmənçilik münasibəti nümayiş etdirməklə müəyyən mə'nada rasizmə yol verir [49].

Etnomədəni amillərə söykənən regionlaşma prosesi Fransaya da nəsib olmuşdur. Hələ 1992-ci ildə respublikanın iyirmi iki regionuna ayrıca ərazi birliyi hüququ və iqtisadi-sosial inkişafla, həmçinin etnomilli spesifikliyi



saxlamaqla bağlı qərarlar qəbul etmək səlahiyyəti verilmişdi. Lakin həmin əyalətlərin sərhədləri "tarixi millətlərin" yaşadığı (məsələn, Bretan və Korsika) ərazilərə uyğun gəlmir, ona görə də özünəməxsus mədəniyyəti belə ərazi bölgüsü şəraitində saxlamaq çox çətindir.

Başqa bir tipik məsələ. 1982-ci ildə Fransa "Korsika xalqının" mövcudluğunu rədd etmiş, onu "Fransa xalqının bir hissəsi" kimi tanımışdır. Bu fakt bir daha millətçiliklə qarışmış fransız sentrizminin potensial konfliktogenliyin daşıyıcısı olduğunu göstərir. Korsika sosialistlərinin Aralıq dənizinin mədəni dünyası, o cümlədən İtaliya Sardiniyası ilə əməkdaşlıq yaratmaq təşəbbüsünə baxmayaraq (onu deyək ki, Paris buna hörmətlə yanaşmışdır), regional seçkilərdə "problemin radikal həlli" uğrunda çalışan millətçiləri, məsələn, 1992-ci il seçkilərində 25 faiz səs qazanmışdılar.

"Sakit və firavan" Avropanın uzun müddət sönməyən konflikt ocaqlarından biri baskların milli-azadlıq hərəkatıdır. Prineyin ətəklərində yerləşən baskların ölkəsi tarixən Fransanın və İspaniyanın dövlət sərhədləri ilə parçalanmışdır. Bask dilində Fransanın Navarra və Akvitaniya əhalisinin bir hissəsi və onların İspaniyanın Biskay, Qipuskoa və Alava regionlarında yaşayan "soydaşları" danışırlar. Və əgər son illər Madrid bask radikallarının separatist çıxışlarını yatırsa da onlara hər halda etnomədəni inkişaf üçün imkanlar verir, halbuki Akvitaniyada bask dili rəsmi dil statusuna malik deyildir. Ona görə ki, Fransa dövləti azlıqların dil və mədəni hüquqları haqqında sosial xartiyanı imzalamaqdan imtina etmişdir. "Sivilizasiyalı Fransa"nın milli məsələdə bu addımı təbii ki, Basklar ölkəsinin Fransadakı hissəsində məskunlaşmış baskları narazı salmışdır.

Şotlandiyadakı separatizm xüsusi mövzudur. Hələ Yakov Stüartın dövründə Birləşmiş Krallığın tərkibinə daxil olmuş Şotlandiya bu gün Böyük Britaniyanın tərkibindən çıxmağa çalışır. Bu münasibətlə keçirilən sosioloji sorğuların nəticələri, demək olar ki, bütün politoloq və konfliktoloqların nəzərini cəlb etmişdir. Belə ki, 1998-ci ilin əvvəlində respondentlərə "Şotlandiya parlamentinə keçiriləcək seçkilərdə kimləri müdafiə etmək niyyətindəsiniz?" sualına cavablar radikalları da heyrətə salmışdır: məqsədi Böyük Britaniyadan çıxmaq olan Şotlandiya Milli Paritiyası 38 faiz səs toplamışdır. Əgər hadisələr bu məcrada davam etsə, şotland millətçilərinin lideri Aleks Selmond bir iki xırda partiya ilə ittifaq bağlayaraq seçkilərə getsə (onlarda seçki proporsional sistem üzrə keçirilir) onun Şotlandiyanın baş naziri olmaq şansı artar. Bu isə müəyyən ciddi siyasi addımların atılacağı təqdirdə XXI əsrin siyasi xəritəsində yeni müstəqil Şotlandiya dövlətinin yaranmasına gətirib çıxara bilər [50].

Belə nümunələr dünya praktikasında az deyildir. Qarabağ probleminin beynəlləşdirilməsi kontekstində bir məsələni qeyd etmək vacibdir. Qərb

ölkələrinin (ABŞ-da bu problemin spesifikası başqadır) kiçik xalqların etnik və subetnik identikliyi probleminin həllində regional gərginliyi aradan qaldırılması mümkün deyildir, çünki bu konfliktogen gərginlik, postsənaye cəmiyyəti ideoloqlarının dediyi kimi, onların həyatı üçün az əhəmiyyət kəsb etsə də, məhz etnik motivlərdən qidalanır.

Ümumiyyətlə, müasir sivilizasiya artıq dərk etmişdir ki, XX əsrin ikinci yarısında meydana çıxan etnik konfliktin mahiyyəti planetin bütün ərazilərində mədəni və siyasi xarakter daşıyır. Qarabağ probleminin beynəlləşdirilməsinin mühüm amillərindən birini də məhz bu obyektiv siyasi reallıqlarda axtarmaq lazımdır.

Biz Qarabağ konfliktinin başlanğıcı və ümumiyyətlə mərhələləri üzərində ətraflı və müfəssəl dayanmaq fikrində deyilik, çünki, sosioloji və politoloji tədqiqatlarda, monoqrafiyalarda problemlə bağlı kifayət qədər təhlillər verilmiş və fikir söylənmişdir. Lakin düşündürücü məqam budur ki, konfliktin yetişməsi və onun nə vaxtsa "küçələrə çıxacağını" o dövrdə Siyasi Büroda və Ali Sovetdə bilirdilər. Təfərrüatı sona qədər açılmamış Qarabağ konfliktinin "sovet genezisinə" lap bu yaxınlarda maraqlı aydınlıq gətirilmişdir. 2001-ci il fevralın 1-də Moskvanın "Trud-7" qəzetində dərc olunmuş "10 bal Siyasi Büro şkalası üzrə" məqaləsində SSRİ Təhlükəsizlik Komitəsinin "3" idarəsinin əməkdaşları V.Lutsenko və V.Xmelyov öz xatirələri ilə çıxış etmişlər. Qeyd edək ki, "3" idarəsində SSRİ-də və Rusiyada baş verən millətlərarası konfliktlər barədə mə'lumatlar toplanır. İnformasiya yardımı üçün partiyanın MK-dan, Ədliyyə Nazirliyindən, Ali Sovetdən və digər iri idarələrdən məhz bu təşkilata müraciət edirdilər. Bu yeganə mö'təbər struktur idi ki, onun bütün əməkdaşları ölkədəki milli konfliktlərin vəziyyəti barədə tam informasiyaya malik idilər. V.Lutsenko yazır ki, konfliktin yetişməsi və onun mümkün nəticələri barədə biz Siyasi Büroya və Ali Sovetə ətraflı mə'lumatı çatdırırdıq. Hətta Stepanakertdə ilk iğtişaşlar və açıq çıxışlar barədə xəbər verirdik, lakin heç bir tədbir görülmürdü. Sovet siyasi elitasının hətta 1987-ci il oktyabrın 6-da Abovyanda və Yerevanda baş vermiş yürüşlərdən, məhz bu dövrdə açıq-aşkar şəkildə Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək uğrunda çağırışların səslənməsindən xəbəri var idi. "Lenin, partiya, Qorbaçov", "Qarabağa müstəqillik verək" şüarlarının minlərlə insanların iştirak etdiyi azğın kütlənin dilindən düşməməsi faktı belə "yeni təfəkkür" fəlsəfəsi ilə silahlanmış yuxarı dairələrdə lazımi və operativ əks-səda oyatmadı. Partiya liderləri özlərinin köhnə bürokratik idarəçiliyinə sadiq qalaraq yerlərə emisarlarını – fərqi yoxdur kimi, problemdən başı çıxır-çıxmır, təki aparat adamı olsun – göndərdilər. O zaman MK-dən Cənubi Qafqaza Sov.İKP MK-nin katibi G.Razumovski və mədəniyyət naziri P.Demiçev e'zam



edildilər. Qorbaçovun "yeni təfəkküründən" bəhrlənmiş bu partiya funksionerləri gördükləri millətçilik eyforiyasından çaşqınlıq keçirmişdilər. Moskvadan gəlmiş "yüksək qonaq" G.Razumovski Stepanakertdə dizüstə duran mitinqçilərin Qarabağa müstəqillik verilməsi barədə çığırtılarından vahiməyə qapılaraq Bakıya qaçmışdı. Bu bir daha göstərdi ki, sovet gerçəkliyini dərindən bilməyən aparat mə'murları artıq Qarabağda ayaq tutub yeriməyə başlayan ekstremizmin və separatizmin acınacaqlı perspektivlərini qətiyyən təsəvvür etmirdilər [51].

DTK-nın o biri əməkdaşı V.Xmelyev yazır ki, vilayət mərkəzində mitinqlər adi şəkil almağa başlayanda Ağdamdan bir dəstə gənc Qarabağın ayrılmasına e'tirazını bildirmək üçün Stepanakertə gəldi. Stepanakert tərəfdə də ermənilər toplanmışdı. Elə bu arada atəş açıldı, iki nəfər həlak oldu, lakin həlak olanlar ermənilər deyildi [52]. Bəli, erməni yaraqlılarının atəşi ilə həyatdan köçən iki gənc azərbaycanlı idi. Artıq hadisələr nəzarətdən çıxırdı. Həmin V.Lutsenko yazır ki, hər həftə biz Qorbaçova hadisələrin gedişi barədə ətraflı mə'lumat və bununla bağlı DTK-nın konfliktləri tənzimləmək üçün mümkün tədbirlər paketini göndərirdik. Lakin "yeni təfəkkür" müəllifi adəti üzrə eyni stereotipli dərkənar qoyurdu: "Xahiş edirəm, təkliflərinizi verəsiniz". Lakin hadisələrə sovetsayağı biganəlik, soyuq arxayınçılıq regionda yalnız nəzarətin qətiyyən qeyri-mümkünlüyü üçün, ən dəhşətlisi isə 1988-1994-cü illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırımı üçün şərait yaratmış oldu. Halbuki 1989-cu ildə nə Qarabağ, nə Yerevan erməniləri, nə də azərbaycanlılar konfliktin miqyasının belə genişlənəcəyini, bunun isə öz növbəsində bir zaman qüdrətli kontinental imperiya olan Sovet İttifaqının dağılmasında detenator rolunu oynayacağını təsəvvürünə gətirə bilməzdilər.

İkinci bir mühüm məsələyə toxunmaq istərdik. Sovet İttifaqının süqutu dünya miqyasında misilsiz geosiyasi çaşqınlıq yaratdı. Kreml ilk növbədə dərk etdi ki, o, artıq "transkontinental imperiyanın" (Z.Bjezinski) sahibi deyildir. Müstəqil respublkaların yaranması, mühüm strateji regionların Rusiyanın faktik nəzarətindən çıxması dünya birliyini, xüsusilə uzun illər regiona maraqlarını gizlətməyən və bunun üçün tarixi fürsət axtaran iri dövlətləri də ağlasığmaz və gözlənilməz fakt qarşısında qoydu. Elə buna görə də Qərb ekspertləri öz strateji maraqlarının həyata keçirilməsində iri dövlətlərə sosial-siyasi baza hazırlamaq üçün postsovet məkanını öyrənməyi özlərinin mühüm geosiyasi vəzifəsi etdilər. Konfliktləri öyrənmək, regionda siyasi-iqtisadi mənafeləri həyata keçirmək məqsədilə sabitlik yaratmaq problemi Qərb dövlətlərinin, xüsusilə Sovet İttifaqının timsalında başlıca rəqibinə "soyuq müharibədə" qalib gəlmiş ABŞ-ın strateji qayğısına çevrilir. Həmin dövrdən regionun geosiyasi problemi baxımından

Qarabağ konflikti Qərb ölkələrinin, xüsusilə ABŞ-ın maraqlarını daha çox cəlb etmiş və etməkdədir.

Bu məqsədlə Cənubi Qafqaz regionunda hadisələri öyrənmək üçün BMT-nin şəxsi nümayəndəsi Sayrus Vens 1992-ci il martın 17-də Bakıya gəlmişdir. Xarici siyasət konsepsiyası hələ kifayət qədər formalaşmamış və demək olar ki, yox dərəcəsində olan, o dövrdəki respublika rəhbərliyinin S.Venslə söhbətləri istənilən nəticəni verməmişdi, yə'ni Qərbin problemin həllində fəal iştirakını tə'min etməyə nail olmamışdı. İlkin addım kimi Azərbaycan hakim dairələri ilə S.Vensin (qeyd edək ki, ABŞ-ın keçmiş dövlət katibidir) söhbətlərində başlıca konseptual problem kimi torpaqlarımızın bölünməzliyi və ərazi bütövlüyü, Qarabağdan zorla qovulmuş bütün qaçqınların öz doğma torpaqlarına qaytarılması, erməni icmasının isə müstəqil Azərbaycan Konstitusiyası və digər konstitutsion aktlara tabe olması məsələləri qabardılmışdı.

Təbii ki, BMT-nin vasitəçilik missiyasının faydalı nəticə verməsi üçün başlıca məsələlərdən biri vasitəçini (həmin halda S.Vensi) ölkəmizə qarşı çevrilmiş separatizm hadisələri, insan qırğınları, ağlasığmaz vəhşiliklər barədə tam və mö'təbər mə'lumatla tə'min etmək idi. Konflikt barədə dəyərincə informasiyaya malik olmayan S.Vensə birmə'nalı şəkildə çatdırılmışdır ki, Azərbaycanın tam hüquqlu üzvü olduğu BMT Azərbaycan xalqının pozulmuş hüquqlarını qorumalı, təcavüzkarın beynəlxalq hüquq normalarına zidd hərəkətlərinə siyasi qiymət verməlidir. Hər halda ABŞ hökuməti tərəfindən o dövrdə dərk olunmalı idi ki, Ermənistanın öz ərazi iddialarını insan hüquqları əsasında irəli sürməsi sadəcə olaraq hüquqi nonsensdir. İnsan hüquqları uğrunda mübarizə aparan bir icma əgər digər xalqın-azərbaycanlıların ən elementar hüquqlarını tapdalayırsa, onların soyqırımını təşkil edirsə, bu hansı məntiqə sığır? Separatizmə insan hüquqları donunu geyindirmək, təbii ki, dünya ictimaiyyətini çaşdırmaq cəhdindən başqa bir şey deyildir. Təsadüfi deyildir ki, o dövrdə ekspertlər regionda məhz bu reallıqların nəzərə alındığı təqdirdə BMT-nin missiyasının pozitiv xarakter daşıyacağını bildirmişdilər.

Qeyd edək ki, həmin dövrdə rəsmi mətbuatda ABŞ-ın gələcəkdə "Qarabağ problemini" dondurmağa çalışacağı, Azərbaycanı "erməni muxtariyyəti" ilə razılaşmağa məcbur etmək üçün təzyiqlərə əl atacağı barədə fikirlər də irəli sürülmüşdü [53].

Yeri gəlmişkən, qeyd edək ki, SSRİ-nin dağılmasından sonra keçmiş Sovet respublikalarını tanımaq üçün ABŞ beş prinsip irəli sürmüşdür. Həmin prinsiplərdən biri də bu idi ki, başqa respublikalara ərazi iddiasında bulunan dövlətləri ABŞ tanımayacaqdır. Lakin özünün siyasi baqajında Azərbaycan torpaqlarını *ilhaq etmək haqqında Ermənistan parlamentinin* qanunlarını daşıyan ölkə ABŞ tərəfindən tanındı. Üstəlik də, ABŞ hökuməti Ermənistana yardım paketi qəbul etdi. ABŞ tərəfindən Ermənistana göstərilən yardım erməni təcavüzkarlarında öz əməlləri üçün cəzadan qorxmamaq psixologiyasını gücləndirmiş və Azərbaycana qarşı haqsız hücumlara rəvac vermişdir. Bu məsələyə bir daha qayıdacağıq. Lakin burada bunu deməklə kifayətlənmək olar ki, 1992-ci ildə ABŞ Konqresi "Ermənistana qarşı təcavüz etdiyi və blokada yaratdığı üçün" keçmiş SSRİ respublikalarına yardım haqqında qanuna etdiyi əlavəyə görə Azərbaycana dövlət yardımına qadağa qoyuldu. Söhbət, əlbəttə, sırf yardımın özündə deyildir, əksinə regionda real vəziyyət barədə ABŞ hökumətinin dəyərincə informasiyaya malik olmamasındadır.

Doğrudur, dünya ictimaiyyəti, o cümlədən Amerika cəmiyyəti 1992-1994-cü illərdə ermənilərin işğal etdiyi torpaqlardan yerli azərbaycanlı əhalinin qovulması faktını heç də rəğbətlə qarşılamamışdı. Lakin sivilizasiyalı dünyanın gözləri qarşısında belə bir danılmaz hadisənin baş verməsi, erməni təcavüzünün mövcudluğu de-fakto kimi aşkarlandısa da BMT, yə'ni ABŞ-ın aparıcı bir dövlət olduğu təşkilat Ermənistanı təcavüzkar tərəf olaraq de-yure tanımadı.

Bunu da qeyd etmək xüsusilə vacibdir ki, Qarabağ konfliktinin ilk illərində partiya əqidəsindən və prinsipindən asılı olmayaraq erməni siyasətçilərinin hamısı Qərb ölkələri, xüsusilə ABŞ tərəfindən dəstəklənəcəklərinə şübhə etmirdilər. Bunun olduqca ciddi səbəbləri vardır: ABŞ, Fransa, Böyük Britaniya, Yunanıstan, Almaniya, Argentina, Avstraliya, Braziliya kimi ölkələrdə ermənilərin nüfuzlu siyasətçilərdən və varlı şəxslərdən ibarət diasporası mövcuddur. Sonrakı hadisələrin göstərdiyi kimi vaxtilə Rusiya rejiminə qarşı çıxan Ermənistan indi həmin ölkə ilə hərbi-siyasi əməkdaşlıq yolunu tutdu. Əlbəttə, millətçilərə, kommunistlərə və dini fanatiklərə qarşı mübarizə aparan hər bir demokratik hökumət heç də o demək deyildir ki, avtomatik olaraq Birləşmiş Ştatların siyasi rəğbətini qazanır. Erməni millətçilərinin özləri də bunu sadəlövlük hesab edirlər. Çox şübhəsiz ki, belə bir dəstək, prinsipcə, yalnız iri kampaniyaların maliyyə və iqtisadi mənafelərinə zidd olmadığı təqdirdə göstərilir. Bütövlükdə Cənubi Qafqaz konfliktləri buna əyani sübutdur.

Hələ ilkin mərhələdə Ermənistan-Azərbaycan konfliktinin tənzimlənməsinin ABŞ variantı təklif edilmişdi. Həmin layihəyə görə, Azərbaycanın Laçın, Kəlbəcər rayonları və DQMV-nin bir hissəsi Ermənistanın tərkibinə daxil olmalı, Ermənistanın Meğri rayonu, DQMV-nin Mardakert və Hadrut rayonları Azərbaycana verilməli idi. İlk baxışda kompromis variantı kimi görünən bu plan hər iki tərəfi qane etmədi. Azərbaycan hər bir ərazi dəyişikliyinin əleyhinədir, lakin Ermənistan isə bu halda İranla sərhədini itirmiş olurdu. Bə'zi ermənipərəst müəlliflərin fikrincə, əgər bu plan həyata keçirilsəydi, Ermənistan 70 faiz Türkiyə və

Azərbaycan ərazilərinin əhatəsində olar, bir növ CAR-ın Lesoto kimi protektorata tabe olan qurumuna çevrilərdi [54]. Bir daha qeyd edək ki, bu təklif Dağlıq Qarabağ konfliktinin birinci mərhələsində verilmişdi. Qarabağ konfliktinin birinci mərhələsi adətən, 1988-ci il fevralın 20-dən hesablanır, həmin il DQMV Xalq Deputatları Soveti növbədənkənar sessiyasında vilayətdəki vəziyyəti müzakirə edərək belə qərara gəlmişdi: DQMV zəhmətkeşlərinin arzusunu nəzərə alaraq Azərbaycan SSR Ali Sovetinə və Ermənistan SSR Ali Sovetinə Dağlıq Qarabağ erməni əhalisinin arzularını dərindən başa düşmək hissi nümayiş etdirərək DQMV-ni Azərbaycan SSR-nin tərkibindən Ermənistan SSR-nin tərkibinə verilməsi, eyni zamanda SSRİ Ali Sovetinin qarşısında DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi məsələsini müsbət həll etməyi xahiş edir [55].

Azərbaycanlıların tarixi ərazisinin ayrılmaz hissəsi olan DQMV-nin Ermənistan ərazisinə qatılmasını "dərindən başa düşməyi" xahiş edən erməni millətçiləri məkrli niyyətlərinə hüquqi don geydirməyi də unutmurdular. Acınacaqlı haldır ki, keçmiş ittifaqın rəhbər orqanları da əslində bu "hüquqi məqama" bilərəkdən məhəl qoymayaraq problemin səriştəli həllinə cəhd göstərməkdən daha çox, yə'ni mövcud qanunvericilik çərçivəsində bu təklifi rədd etməkdənsə, gələcəkdə geosiyasi məqsədlərlə daha da gərginləşdirmək üçün konfliktin "əlverişli məcraya" keçirilməsinə üstünlük verdilər. Belə ki, hadisələrin bu cür şəkil alması obyektiv olaraq Azərbaycanı, eləcə də Sovet İttifaqını DQMV-ni ölkəmizin ərazisindən qoparıb Sovet Ermənistanına vermək tələbi qarşısında qoydu və bununla Ermənistan-Azərbaycan konfliktinin yaranmasına ilk təkan vermiş oldu.

Azərbaycanın bu ədalətsiz planın irəli sürülməsinə münasibəti ilk gündən birmə'nalı şəkildə mənfi olmuşdur. Faciəli Sumqayıt hadisələri problemin daha ciddi həllə ehtiyacı olduğunu xüsusilə qabartdı. Ondan sonra Spitak zəlzələsinin dağıntıları və insan tələfatı dünya birliyinin diqqətini "məzlum" erməni xalqının taleyinə yönəltdi. Təəssüf ki, dünya ictimaiyyəti belə bir faktı yetərincə bilmir ki, hələ Spitak zəlzələsindən əvvəl erməni millətçiləri silahlanırdılar, yeni təxribatlara ciddi hazırlaşırdılar. Həmin ilin əvvəlində, yə'ni Sumqayıt hadisələrindən əvvəl Ermənistanın ərazisində Qukark kəndində erməni yaraqlıları yerli mühafizə orqanlarının köməkliyi ilə kütləvi vandalizm nümayiş etdirərək dinc azərbaycanlı əhalini vəhşicəsinə talan edərək evlərini yandırmışdılar [56]. Halbuki bir sıra sivilizasiyalı dövlətlər, məsələn, Fransa və ABŞ, erməni millətçilərinin 1915-ci il erməni soyqırımı deyilən fakta ciddi yanaşaraq, dərin "təəssüf" hissi keçirmişlər. ABŞ konqresi, qəbul etməsə də, hər halda, erməni lobbisinin güclü təzyiqi altında soyqırım adlanan



hadisə barədə oxunuş keçirmişdir. Əgər ədalətli düşünüb-daşınmağa qalırsa, onda avropalılar tərəfindən Amerikada qədim sivilizasiya yaratmış hind tayfalarını vəhşicəsinə qırılmasına, qalan hissəsini rezervasiyada saxlanmasına nə ad qoyulmalıdır? Məgər Fransa imperatoru Napoleonun ordusunun XIX əsrin əvvəlində Rusiyada, İspaniyada törətdiyi vəhşiliklər, Madrid üsyanının amansızcasma yatırdılması soyqırım deyilmi? XX əsrin ortalarında həmin Fransız dövlətinin Əlcazairdə yerli əhaliyə qarşı törətdiyi vəhşiliklər və talanlara nə ad verilməlidir? Yeri gəlmişkən, Əlcəzair parlamenti ölkənin ərazisində Fransa müstəmləkəçilərinin vəhşiliklərini soyqırım kimi qiymətləndirmişdir. O zaman Əlcəzair üsyançılarının (1954-cü il noyabrın 1-i) başçıları ilə görüşən prezident Şarl de Qoll onları dinləyəndən sonra demişdi: "Mən sizi başa düşdüm". Səhəri gün ali baş komandan Şarl de Qoll Fransa ordusunun Əlcəzairdən çıxarılması barədə əmr vermişdi.

Obyektivlikdən uzaq olan, ola bilsin ki, Sumqayıt hadisələri barədə kifayət qədər informasiyaya malik olmayan bə'zi müəlliflər reallıqları düzgün qiymətləndirmir, azərbaycanlıları erməni qırğınlarını törətməkdə günahlandırırlar. Məsələn, Amerika politoloqu Mark Feyqin yazır ki, 1988-ci il fevralın 21-də Ağdam rayonundan bir qrup kəndli işsizlər avtobusda Sumqayıta çatdırılaraq burada qırğınlar təşkil etmişlər, özü də rəsmi mə'lumata görə, 32 adam həlak olmuşdur, "qeyri-rəsmi, lakin mö'təbər mə'lumata əsasən" qırğınlarda 1800 (?) Sumqayıt ermənisi öldürülmüşdür. Müəllifin "şəhadətinə" görə, on minlərlə erməni Ermənistana qaçmışdır. "Obyektivlik" hissini itirməyən politoloq bir çox azərbaycanlıların qəhrəmanlıq nümayiş etdirərək erməni ailələrini xilas etdiyini də qeyd edir [57]. Qeyri-rəsmi, lakin tam mö'təbər faktların olduğunu deyərkən müəllif, çox şübhəsiz ki, subyektiv mənbələrə əsaslanmışdır. Söhbət obyektivlikdən gedirsə, politoloq hökmən həmin "qırğınlara", iğtişaşlara mənşəcə erməni olan, lakin "paşa" ləqəbi altında gizlənən L.Qriqoryanın bilavasitə başçılıq etdiyini göstərməli idi.

Onu da qeyd edək ki, Sumqayıt hadisələrinin tə'siri ilə erməni ideoloqları "informasiya maşınını" işə salaraq həmin andan daha intensiv formada (təşəbbüsə çox əvvəllər başlanmışdır) Azərbaycana qarşı düşmənçilik təbliğatına başlayır. Ermənilərin informasiya müharibəsi sayəsində Sumqayıtın əks-sədası ATƏM-in mə'ruzəsində əksini tapmışdı. Mə'ruzədə deyilirdi ki, "ermənilərin ilk ciddi kütləvi surətdə öldürülməsi Bakının şimalında Sumqayıtda 1988-ci il fevralın son günlərində başlamışdır... Ondan sonra ermənilər Azərbaycandan köçüb gedirlər" [58].

Məhz həmin dövrdən başlayaraq Azərbaycan xalqının da pislədiyi Sumqayıt hadisələrindən sonra Ermənistan və Rusiya kütləvi informasiya vasitələrindən respublikamıza qarşı çirkin təbliğatda, xalqımızın "vəhşi

obrazını" yaratmaqda heç bir elementar etika normalarına məhəl qoymadan istifadə edir və israrla dünya ictimaiyyətinə çatdırırdılar ki, Sumqayıtda "erməni qırğınlarından" sonra DQMV-nin Azərbaycanın tərkibində qalması daha mümkün deyildir. Ermənistanda və DQMV-də yaşayan azərbaycanlılara qarşı terror aksiyaları keçirəcəkləri ilə hədələyir, "Azərbaycan ermənilərini müdafiə" etmək üçün hərbi dəstələr yaradırdılar. Halbuki həmin dövrdə Bakıda 200000-dən artıq erməni sakitcə yaşayır, Ermənistandakı azərbaycanlılara qarşı isteriyaya son qoymağı tələb edirdilər.

Məkrli niyyətlərinin təbliğində inadcıl olan erməni separatistləri Avropa Parlamentinə də yol taparaq Avropanın bir sıra nüfuzlu siyasətçilərini öz "həqiqətlərinə" inandıra bilmişdilər. Avropa Parlamentinin 1988-ci il iyulun 7-də qəbul etdiyi qətnamədə deyilirdi: "Dağlıq Qarabağın tarixən Ermənistanın bir hissəsi olduğunu, burada hazırda əhalinin 80 faizinin ermənilərdən ibarət olduğunu, bu diyarın 1923-cü ildə Azərbaycan tərəfindən zorla birləşdirildiyini (anneksiya) və 1988-ci ilin fevralında ermənilərin Azərbaycan şəhəri Sumqayıtda qırğınlara mə'ruz qaldığını və siyasi vəziyyətin pisləşdiyini, ermənilər üçün Azərbaycanda vəziyyətin təhlükəli olduğunu nəzərə alaraq Azərbaycanda erməni nümayişçilərinə qarşı (??) amansız təzyiq (??) pislənsin" [59].

Qəribə qətnamədir, görəsən, o dövrdəki Azərbaycan rəhbərliyinin bu qətnamədən xəbəri olubmu? Olubsa, sonralar Azərbaycan tərəfi buna necə reaksiya verib? Maraqlıdır, guya qırğınların törədildiyi Sumqayıt şəhərində hansı erməni — özü də amansızcasına rəftar edilən hansı nümayişçilərin tə'qib edilməsi pislənir. Şəhərdə baş verən hadisələrin xronikası sübut edir ki, o zaman Sumqayıtda hansısa tələblərlə çıxış edən heç bir erməni nümayişləri olmamışdır. Halbuki ərazi iddiası ilə bağlı ilk cəhdi Qorbaçovun "yeni təfəkkürü" əsasında yenidənqurmanın iqtisadi islahatlarının "atası" A.Aqanbekyan 1987-ci ilin payızında Parisdəki çıxışında "əsaslandırmışdı" ki, DQMV-nin Ermənistana birləşdirilməsi iqtisadi cəhətdən daha səmərəlidir. O, müsahiblərinə bunu da çatdırmağı lazım bilmişdi ki, hazırda onun təklifilə əlaqədar xüsusi komisiya işləyir. Belə bir fikri şübhəsiz ki, Moskva rəhbrliyinin himayəsinə söykənən kəs söyləyə bilərdi.

Əgər mitinqdən söhbət gedirsə onda İrəvanda 1987-ci ilin oktyabrındakı izdihamlı çıxışları yada salaq. Məhz həmin vaxt şəhərin ekoloji vəziyyətinin dözülməz olduğuna qarşı e'tiraz adı altında mitinqlərdə DQMV-nin Ermənistana brləşdirilməsi haqqında çağırışlar səslənmiş və kütləvi şəkildə hər yerdə imzalar toplanmışdı [60]. Bu fakt bir daha göstərir ki, ümumiyyətlə dünya birliyi qarşısında qeyri-səmimi olan erməni millətçiləri Avropa Parlamenti kimi nüfuzlu siyasi institutun



mö'təbərliyinə ləkə gətirərək onlara düzgün mə'lumat verməmiş, bununla da Avropa ictimaiyyətini vicdansızcasına çaşdırmışlar. Əgər söhbət Xankəndində ara verməyən erməni iğtişaşlarından gedirsə, burada heç bir təzyiq olmamışdır, əksinə Azərbaycan tərəfi ilk günlərdən problemi dinc yolla, o dövrdə qüvvədə olan Konstitusiya normaları çərçivəsində həll etməyə cəhd göstərmişdir. Halbuki qanunlara əməl olunmasını daim tövsiyə edən Avropa siyasətçiləri, Avropa parlamentində oturan nümayəndələr Qarabağ ermənilərinin bu hərəkətini separatizm, Azərbaycan dövlətçiliyinə qəsd kimi qiymətləndirməkdənsə hadisələrin mahiyyətinə varmadan tələm-tələsik ermənipərəst qətnamə qəbul etməli olmuşlar.

E'tiraf edək ki, əvvəllər Azərbaycan tərəfi də bu erməni aksiyasını sparatizm hərəkatı kimi qiymətləndirməyə tələsməmiş, artıq üzə çıxan konfliktin mərkəz tərəfindən "Lenin milli siyasəti" çərçivəsində həll olunacağına bel bağlamışdı. Yalnız ölkə prezidenti H.Əliyev bu separatizm anlayışının diplomatik mahiyyətini düzgün qiymətləndirərək bütün sənədlərdə bunun əksini tapmasına sə'y göstərmişdir. O, yazır: "Müstəqil Dövlətlər Birliyinin bə'zi sənədlərində "separatizmlə mübarizə" sözü ortaya çıxır, Ermənistan buna e'tiraz edir. Amma mən tə'kid edirəm ki, "separatizmlə mübarizə" sözü yazılmalıdır". Doğrudur, 1988-ci il iyunun 13-də Azərbaycan SSR Ali Sovetinin iclası DQMV-nin deputatlarının Dağlıq Qarabağın Azərbaycandan çıxarılıb Ermənistana verilməsi tələbini rədd etmiş, onu birmə'nalı şəkildə "respublikanın azərbaycanlı və erməni əhalisinin mənafelərinə zidd olduğu üçün qəbuledilməz" tələb kimi qiymətləndirmişdir [61]. Ali Sovetin qərarında həmçinin qeyd edilirdi ki, mövcud şəraitdə hadisələrin başlıca səbəbi vilayət rəhbərliyinin işində buraxılan nöqsanlar, əhalinin milli xüsusiyyətlərinin nəzərə alınmaması olmuşdur [62].

Təəssüf ki, Azərbaycan rəhbərliyi yalnız bu cür "sovetsayağı" qətnamə ilə kifayətlənmiş, mərkəzin imperiya oyunlarının məkrli siyasətini dəyərincə dərk edə bilməmişdir.

Təbii ki, Ermənistanın erməni əhalisi DQMV-nin Azərbaycanın tərkibindən çıxmaq təşəbbüsünü hərarətlə qarşılamış və bu millətçilik eyforiyasından ruhlanan Ermənistan Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etmişdir. 1988-ci il iyunun 15-də qəbul olunmuş qərarda deyilirdi: "Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin Xalq Deputatları Şurasının növbədənkənar sessiyasının 1988-ci il 21 fevral qərarını hərtərəfli öyrənərək Dağlıq Qarabağ və onun ətrafında yaranmış gərginliyi həmçinin DQMV və Ermənistan SSR-in erməni əhalisinin iradəsini nəzərə alaraq, SSRİ Konstitusiyasının millətlərin özünün müqəddəratını sərbəst tə'yin etmək haqqında 70-ci

maddəsini rəhbər tutaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil olmasına razılıq verilsin" [63].

Burada incə bir məqam var. Danılmaz faktdır ki, Dağlıq Qarabağ konflikti ətrafında gedən mübahisələrin hüquqi aspektinin qabardılması bu gün də səngimək bilmir. Məsələ burasındadır ki, əvvəllər konstitutsion yolla SSRİ tərkibindən sərbəst surətdə çıxmaq barədə "Lenin müddəası" qüvvədə olmuşdur, lakin sonralar bolşevik milli siyasətinin ikili təbiəti həmin müddəanın müzakirələr dairəsindən getdikcə aradan çıxmasına, son nəticədə konstitusiyada təsbit olunmasına şərait yaratmışdır. Bu barədə bir qədər ətraflı söhbət açmağa dəyər. Mə'lumdur ki, bolşeviklərin irəli sürdüyü millətlərin öz müqəddəratını tə'yin etmək hüququ prinsipi 1898-ci ildə partiyanın tə'sis qurultayında qəbul olunmuş "Rusiya Fəhlə Sosial-Demokrat partiyasının Manifesti"ndə e'lan edilmiş, 1903-cü ildə partiyanın II qurultayında qəbul olunmuş partiya proqramında isə dövlətin tərkibinə daxil olan bütün millətlərin öz müqəddəratını tə'yin etmək hüququ təsbit olunmuşdur. Təbii ki, Rusiya dövlətinin tərkibində yaşayan xalqlardan söhbət gedir. Bu da maraqlıdır ki, V.Plexanov çarizm rejimində milli məsələnin nə olduğunu vurğulamaq məqsədilə proqramın Lenin layihəsindəki "dövlət" anlayışının "imperiya" termini ilə əvəz olunmasını təklif etmişdi [64]. Lakin bu ideyanın ətrafında qızğın mübahisələr getmişdir. V.Lenin özü isə milli məsələyə 1912-ci ildə Avstriyaya keçəndən sonra ciddi əhəmiyyət verməyə başlayır və qeyd etməli olur ki, milli məsələ hazırda Rusiyanın ictimai həyatında önəmli yer tutmağa başlayır. Avstriya sosial-demokratları Karl Renner və Otto Bauerin milli mədəni muxtariyyət konsepsiyası o dövrdə olduqca ciddi və qızğın mübahisələr obyektinə çevrilmişdi. Bu ideyanı ilk dəfə Rusiyada və Polşada fəaliyyət göstərən Bund ümumyəhudi partiyası qabartmışdı. Bund hələ 1898-ci ildə fəhlə partiyasının tə'sis qurultayında "yalnız yəhudi proletariatına məxsusi aid olan məsələlərdə müstəqil muxtar təşkilat" kimi qəbul olunmuşdu. Artıq 1903-cü ildə Bundun nümayəndələri öz təşkilatlarının "Rusiyanın istonilən yerində, hər hansı dildə danışmasından asılı olmayaraq, bütün yəhudilərin yeganə təmsilçisi" hüququnu müstəsna şəkildə tanımaq uğrunda mübarizə aparırdılar, lakin bu məsələ üzrə səsvermədə ağır məğlubiyyətə uğradığından partiyadan çıxmışdılar. Doğrudur, 1906-cı ildə onlar IV qurultayda partiyaya yenidən qəbul olundularsa da öz problemlərində çox irəli gedə bilmədilər. Üstəlik Latış və Qafqaz sosial-demokrat partiyaları da eynilə Bundun tələbini irəli sürmüşdülər. Səngimək bilməyən mübahisələrdə Lenin və onun ən yaxın silahdaşlarından bə'zisi partiyada milli seksiyaların muxtariyyəti siyasətinə



qarşı çıxırdılar. Onların fikrincə, partiyada milli muxtariyyət və dövlətdə millətlər üçün mədəni muxtariyyət, mahiyyətcə eyni mə'na kəsb edən anlayışlardır. Bolşevik liderləri başa düşürdülər ki, əgər partiya milli əlamətlərə görə bölünsə həm partiya, həm də gələcəkdə quracaqları dövlət zəifləyə bilər. Maraqlıdır ki, hələ 1903-cü ildə II qurultay ərəfəsində Lenin erməni sosial-demokrat qrupunun "Rusiya üçün "federativ respublika" və Qafqaz xalqları üçün isə "mədəni muxtariyyət" layihəsini pisləmişdi [65]. Bolşeviklərin milli konsepsiyasında israr edilirdi ki, proletariat üçün bir tərəfdən siyasi və vətəndaş azadlığı, həmçinin "tam bərabərlik hüququ", digər tərəfdən isə "hər millət üçün öz müqəddəratını tə'yin etmək" (bu həm də ayrılmaq hüququnu özündə ehtiva edirdi) hüququ vacibdir. Özü də əgər hər hansı bir millət ayrılmaqdan başqa bir əlacı qalmadığı halda o dövlətin tərkibindən çıxa bilər. Lakin on ildən sonra milli məsələnin kəskinləşməsilə bağlı partiyada milli məsələ üzrə "mütəxəssis" olan gənc Stalinə milli məsələnin Avstriya variantını darmadağın etməyi həvalə edir. O, nəhayət "Milli məsələ və sosial-demokratiya" (1913) məqaləsini üzə çıxarır. Leninin tam tə'sirinin duyulduğu bu yazıda müəllif "millətçilik dalğasının" artdığından gileylənir. O, sinfi mübarizənin vəhdəti və qırılmazlığını əsas götürərək millətçiliyi beynəlmiləlçiliklə əvəz etməyə çağırır. Həmin dövrdən beynəlmiləlçilik bolşevizmin milli məsələdə məhək daşına çevrilir. 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər qurultayında qəbul olunmuş Azərbaycan SSR Konstitusiyası da məhz bu ideyadan "bəhrələnmişdir". Mərkəzləşmiş dövlətin tərkibində qalıb-qalmamaq probleminin həllinin millətin özündən asılı olması haqqında bolşevizm müddəası keçmiş ittifaqda yaşayan xalqların "proletar beynəlmiləlçiliyi" ruhunda tərbiyəsində böyük rol oynamışdır [66].

Göründüyü kimi, erməni millətçiləri hələ XX əsrin əvvəlində milli müstəsnalıq ideyalarını irəli sürür, özlərini digər xalqlara qarşı qoyurdular. Bu milli instinkt sonralar özünü artıq hüquqi don geyindirmək formasında dəfələrlə təzahür etmişdir. Yuxarıda adı çəkilən 70-ci maddəyə gəldikdə isə "böyük amallarını" hüquq çərçivəsində dinc həyata keçirməyi ilə öyünən erməni separatistləri yaxşı bilirdilər ki, istər SSRİ-dən, istərsə də respublikanın tərkibindən çıxmaq prinsipi konstitutsion praktikada sırf formal xarakter daşıyırdı, heç olmasa ona görə ki, tərkibdən çıxmağın hüquqi mexanizmi nəinki işlənib hazırlanmamış, əksinə bu cəhd mərkəzləşmiş imperiyanı idarə edən elitanın idarəçilik prinsiplərilə praktik ziddiyyət təşkil etmişdir. Görünür, daşnak millətçilər N.Xruşovun Krımı Ukraynaya "hədiyyə" verməsi faktından bir təzyiq vasitəsi kimi istifadə

etmək niyyətində bulunmuşlar. Deməli, erməni separatistlərinin əməllərinin başlıca qayəsi həmişə olduğu kimi milli məsələni zorakılıq yolu ilə həll etmək olmuşdur.

Beləliklə, demək olar ki, artıq 1989-cu il üçün tərəflər – Ermənistan və Azərbaycan konfliktə özlərinin hüquqi münasibətlərini bildirmişdilər. Lakin həmin dövrdə erməni separatistləri Dağlıq Qarabağın Ermənistana verilməməsinin təqsirini konfliktin başlanğıcında mərkəzin çevik siyasət göstərməməsində görürdülər. Onlar hətta hesab edirdilər ki, DQMV əhalisinin "haqlı" tələbi eşidilsəydi, hadisələr başqa ssenari üzrə gedə bilərdi. Lakin ictimaiyyətimiz artıq başa düşürdü ki, "sosializmdə milli məsələ həmişəlik həll olunmuşdur" ideologiyasının mərkəzdəki daşıyıcıları konfliktin baş verməsinin qarşısını vaxtında almaq fikrində deyildi. Elə buna görə də hadisələr artıq gözlənilməz dərəcədə təhlükəli xarakter almağa başlayırdı. Odur ki, 1988-ci il sentyabrın 21-də Moskva DQMV-də fövqəl'adə vəziyyət e'lan edərək qoşun yeritdi. Hadisələrin belə məcraya keçməsinə baxmayaraq, Ermənistanda və Xankəndində keçirilən mitinqlərə respublikamızda sakit yanaşılır, ermənilərlə birlikdə yaşayıb çalışırdılar. Hətta 1988-ci ildə azərbaycanlıların Ermənistandan qovulmasından 1990-cı il yanvar hadisəsinə qədər Azərbaycan televiziyası erməni-azərbaycanlı dostluğu barədə "sovetsayağı" verilişlər verirdi. Beləliklə, mərkəzin bu aksiyası əslində DQMV-ni Azərbaycan Respublikasının idrəçiliyindən almaq yolunda mərkəzin ilk addımı idi. Vilayətdə separatizmin özülünü qoymuş "Qarabağ erməni millətçi komitəsinin üzvləri" həbs olunandan sonra vəziyyət daha da gərginləşdi və 1989-cu ilin yanvarında DQMV-i mərkəzin əmrilə SSRİ Ali Sovetinin Xüsusi İnzibati Komitəsinin nəzarətinə verildi. Komitənin yaranması Azərbaycanda dərin narazılıq və narahatçılıqla qarşılandı, çünki qətiyyən perspektivi bilinməyən (ilk növbədə mərkəz tərəfindən) belə bir qondarma qurumun yaradılması onsuz da hadisələr qarşısında çaşqınlıq keçirən, real vəziyyətin siyasi mahiyyətinə dərindən varmağı bacarmayan, hələ də "sosialist beynəlmiləlçiliyinin" köməyə gələcəyinə ümidini itirməyən respublika rəhbərliyini DQMV-yə nəzarət funksiyasından uzaqlaşdırmaq demək idi.

Lakin bunun ardınca erməni sepratizmi öz çirkin əməllərindən əl çəkməyərək Bakıda, Gəncədə və guya Azərbaycanın digər şəhərlərində yeni erməni qırğınları barədə dünya ictimaiyyətinə yalan mə'lumatlar yaymaqda davam edirdi. Ermənilərin Avropanın bir sıra təşkilatlarını inandırması sayəsində ictimaiyyət "yeni" acınacaqlı "faktları" tanımalı olurdu. Məsələn, ATƏM-in hesabatında göstərilirdi ki, "Sumqayıt hadisələrindən doqquz ay keçəndən sonra azərbaycanlıların Ermənistandan deportasiyası, yaxud köçüb getməsi başa çatdı" [67].



Məsələnin qəribə, bəlkə də acınacaqlı cəhəti budur ki, erməni millətçiləri haqqında söhbət gedən dövrdə Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdinin pozulmasının, yə'ni "kağız üzərində" qalmasının əsas səbəbini M.Qorbaçovun azərbaycanlılara göstərdiyi "rəğbətdə" görürdülər: guya DQMV-nin Azərbaycanın nəzarətində qalması onun siyasi dəstəyi sayəsində mümkün olmuşdu. Erməni politoloqu N.Oqanesyan hətta iddia edir ki, həmin dövrdə erməni əhalisinə qarşı guya sovet qoşunları ilə Azərbaycan Daxili İşlər Nazirliyinin hərbi dəstələri əlbir hərəkət edirmişlər [68]. Erməni separatistləri bu məsələdə hətta ATƏM-in üzvlərini də inandırmışdılar. Məsələn, həmin qurumun hesabatında gətirilən bu fikirdən təəccüblənməmək olmur: hadisələr 1991-ci ilin aprel və mayında xüsusi xarakter kəsb etməyə başlayır, bu zaman sovet ordusu Azərbaycanın Daxili İşlər Nazirliyinin dəstələrinin iştirakı ilə erməniləri regionun bir çox kəndlərindən deportasiya etməyə başlayırlar [69].

Belə bir ciddi siyasi qurumu informasiya çaşqınlığına sövq etmək nə dərəcədə ədalətli hərəkətdir? Axı, o dövrdə Ermənistandan bütün azərbaycanlıların qovulması ilə konfliktin daha kəskin xarakter alması labüd olaraq Azərbaycan orazisində yaşayan ermənilərin dinc yolla, qan tökmədən köçürülməsini zəruri edirdi. Təəssüf ki, bu gerçəkləşmədi. Belə bir humanist hərəkətə zorla deportasiya xarakteri vermək,özü də rus ordusu ilə əlbir şəraitdə, ən azı qərəzçilikdir. Görəsən, ATƏM-ə bilərəkdən yanlış informasiya verən erməni millətçiləri, eləcə də həmin siyasi qurumun ekspertləri 20 yanvar hadisələrindən sonra da "Azərbaycan rəhbərliyinin sovet ordusu ilə mehriban əlbirliyinə" həqiqətənmi inanmışlar?

Əksinə, konfliktin əsl təbiətinə aydınlıq gətirmək üçün mərkəzin məhz ermənilərlə diplomatik ünsiyyətindən danışmaq daha məqsədəuyğun olardı.

Qeyd edək ki, erməni separatistlərini həmin hadisələr ərəfəsində mə'yus edən bir fakt da 1987-ci ilin aprelində ABŞ-dakı erməni diasporunun Amerika ictimaiyyətinə və dövlətinə müraciət edərək "1915-1923-cü illər erməni genosidinin milli xatirə günü" layihəsinin ABŞ konqresində müzakirə edilib qərar çıxarmasını tələb etdikdə rədd cavabı almaqları olmuşdur. Belə ki, Türkiyənin qət'i e'tirazı və ABŞ-ın o vaxtkı dövlət katibi C.Şultsun bu məsələyə qarşı çıxması nəticəsində ABŞ Dövlət Departamenti konqresmenlərə məsləhət görmüşdü ki, ermənilərin hazırladığı qondarma 132 saylı qətnamə layihəsi qəbul edilməsin. Xaricdə

yaşayan erməni millətçilərinin artan fəallığı düşünməyə əsas verirdi ki, onlar bu uğursuzluğun yerini doldurmağa çalışacaqlar. Erməni diasporunun və lobbisinin ciddi tə'kidi ilə erməni separatçıları Qarabağa olan iddialarını daha da gücləndirirdilər. Deməli, Birləşmiş Ştatların hakim strukturlarında fəaliyyət göstərən ermənipərəst qüvvələr heç də seyrçi mövqe tutmamışdılar. Konqresmenlərin erməni lobbisinin sə'ylərini heçə endirməsi hələ ittifaqın tərkibində çox şeyə ümid bəsləyən erməni separatistlərinin fəaliyyətinə yeni "impuls" verdi. Erməni liderləri Rusiyadakı "həmkarları" ilə birlikdə Qarabağ probleminin hüquqi cəhətdən həllinə girişdilər. O dövrdə DQMV-ni Ermənistana birləşdirmək üçün ABŞ-dakı diasporanın tə'kidilə ermənilər üç istiqamətdə hərəkət edirdilər. Bir qrup hesab edirdi ki, Konstitusiya əsasında hərəkət etmək lazımdır, amma nə Azərbaycanın, nə də Sovet İttifaqının Konstitusiyaları buna imkan vermirdi. İkinci qrupun mövqeyinə görə, Qorbaçovun yenidənqurması şəraitində Konstitusiyanı elə dəyişmək lazımdır ki, ərazi dəyişikliklərini həyata keçirmək mümkün olsun. Üçüncü qrupun nəzər nöqtəsi belə idi: bir halda ki, ərazi dəyişiklikləri üçün hüquqi mexanizmlər yoxdur, onda zorakılıq metoduna əl atmaq lazımdır. Çox qəribədir ki, zorakılıq metoduna üstünlük verən erməni millətçiləri o dövrdə beynəlxalq hüquq normalarına qətiyyən məhəl qoymurdular.

Qeyd edək ki, bunun üçün müəyyən şərait yetişirdi. Belə ki, erməni yaraqlılarının artıq zorakılıq aksiyalarına başlaması, daha doğrusu, onların Xanlar və Şaumyan rayonlarında Azərbaycan əhalisinə qarşı zorakılıq tətbiq etməsi Bakıda gərginliyi artırırdı. Digər tərəfdən isə Azərbaycanı bürümüş antikommunist xalq hərəkatının geniş miqyas alması mərkəzdə böyük narahatlıq yaratmışdı. Həmin hərəkat 1990-cı il yanvarın 20-də milli məsələyə "qayğı" ilə yanaşan sovet hakimiyyətinin özü tərəfindən vəhşicəsinə "yatırıldı". Qərb ölkələri, o cümlədən, ABŞ hadisələrin ilk günlərində xalq hərəkatlarının yatırdılmasını SSRİ-nin "daxili işi" kimi qiymətləndirmişdi. Sivilizasiyalı Qərb ölkələrinin başçıları imperiyanı dağıdan, "yeni təfəkkürə söykənən yenidənqurmanın" müəllifini – M.Qorbaçovu itirmək istəmirdi.

Digər tərəfdən isə Qərbin, o cümlədən ABŞ-ın ikili standart siyasəti, beynəlxalq hüquq normalarına məhəl qoymadan ermənilərin özgə torpaqlarına iddialarına və deməli, başqa dövlətin ərazi bütövlüyünün pozulmasına birmə'nalı şəkildə münasibət bildirməməsi erməni separatizminin əl-qolunu açırdı. Yeri gəlmişkən, qeyd edək ki, erməni separatçılarının siyasi ambisiyalarına meydan açan bir səbəb də həmin dövrdə Azərbaycan Respublikasının partiya və dövlət orqanlarına rəhbərlik edən



birinci şəxslərin acizliyi, zəifliyi və qətiyyətsizliyi, kifayət qədər milli təəssübkeşlik hissinə malik olmaması idi.

20 yanvar faciəsi Azərbaycanın siyasi həyatında, konfliktin həllində sabitliyi pozmaq rolunu oynamışdır. Məsələ burasındadır ki, Bakıda e'lan edilmiş fövqəl'adə vəziyyət 1991-ci ilin sentyabrına qədər – Sovet İttifaqının dağılmasınadək davam etmişdi. Həmin şəraitdə keçirilmiş parlament seçkiləri ölkədə siyasi qüvvələrin real vəziyyətini deyil, parlament üzərində kommunist nəzarətinin zorakılıq yolu ilə bərpasını əks etdirirdi. Məhz bu rejim şəraitində cərəyan edən hadisələr respublikada hətta Sovetlər İttifaqının dağılmasından sonra da sabit dövlət strukturları yaratmaq niyyətlərini həyata keçirməyə mane olmuşdur.

E'tiraf edək ki, Ermənistanda həmin dövrdə nisbətən normal parlament seçkiləri keçirilmiş, ölkənin real qüvvələri hakimiyyətdə təmsil olunmuşdur, nisbətən sabit dövlət strukturlarının yaranmasına şərait yaradılmışdır. Ermənistan keçmiş İttifaqdan qalmış hərbi texnikanı öz "qlobal" planlarını həyata keçirmək məqsədilə ərazisində cəmləşdirərək, regionda demək olar ki, keçmiş Sovet İttifaqı respublikaları içərisində öz ordusu olan yeganə respublikaya çevrilmişdi.

Erməni separatçıları "öz müqəddəratını" tələb edərkən hüquqi əsas kimi daha çox "İttifaq respublikasının SSRİ-dən çıxması ilə bağlı məsələlərin həlli qaydası" haqqında Sovetlər İttifaqının 1990-cı il aprelin 3-də qəbul olunmuş qanununa söykənirlər. Qanunda konkret respublikanın SSRİ tərkibindən çıxacağı təqdirdə referendum keçirmək məsələsi təsbit olunmuşdu (mə'lum olduğu kimi Azərbaycan SSR İttifaqdan çıxmamış və buna görə də referendum keçirməmişdi). Doğrudur, burada həmçinin göstərilirdi ki, tərkibində muxtar respublika, muxtar vilayətlər, muxtar dairələr olan ittifaq respublikasında referendum hər bir muxtar respublikada, vilayətdə ayrıca keçirilir. Muxtar respublikaların, muxtar qurumların xalqlarının SSRİ İttifaqında qalması məsələsini, yaxud çıxmaqda olan ittifaq respublikasının, habelə öz dövlət statusunu sərbəst həll etmək hüququ saxlanılır. Ərazisində əhalinin sıx yaşadığı yerlər olan, həmin yerdə əhalinin əksəriyyətini təşkil edən milli qrupların olduğu müttəfiq respublikada keçirilən referendum səsverməsinin nəticələri müəyyənləşdirilərkən bu yerlər üzrə ayrıca nəzərə alınır. Erməni ideoloqları "sürüşkən" müddəaları olan bu qanunda nədənsə tərkibdən çıxmağın mexanizmlərinin (görünür özlərinə lazım olduğu üçün) aydın və dəqiq olmasını iddia edirlər. Burada dəqiq olan budur ki, tərkibdən çıxmaq hüququ saxlanılır. Belə bir hüquq SSRİ Konstitusiyasının 70-ci maddəsində də verilirdi. İkinci tərəfdən, həqiqətən də referendumun nəti-

cələrinə aydınlıq gətirmək üçün səsvermənin nəticələri hökmən bütün inzibati-ərazi qurumlarında nəzərə alınmalıdır. Birincisi, qanunda mexanizmlərin göstərilməsindən söhbət gedə bilməz. Əgər hər hansı bir respublika, konkret olaraq, Azərbaycan İttifaqdan çıxmaq istəmirsə və buna görə də referendum keçirmirsə, onda onun ərazisinin tərkib hissəsi olan bir qurum Sovet İttifaqından necə çıxa bilərdi? Məgər bu, hər şeydən əvvəl, müttəfiq respublikaların Konstitusiyasının pozulması demək deyildirmi? İkincisi, qanunun adından göründüyü kimi söhbət "İttifaq Respublikasının SSRİ tərkibindən çıxmasından" gedir. Bir də ki, əgər muxtar vilayətə belə hüquq verilsə idi, yə'qin ki, ermənipərəst mərkəz "məzlum" ermənilərin tələblərini çoxdan ödəyərdi.

Odur ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının "Dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı qəbul olunandan sonra erməni separatçıları daha da fəallaşdılar. Qeyd edək ki, hələ hadisələr geniş miqyas alana qədər 1991-ci ilin setyabrında Rusiya Federasiyasının prezidenti B.Yeltsin və Qazaxıstan prezidenti N.Nazarbayev regiona səfər etmiş, özlərinin vasitəçilik xidmətlərini təklif edərkən ümumiyyətlə, ərazi dəyişikliklərinin qeyri-mümkünlüyünü Qarabağ Vilayət rəhbərliyinin diqqətinə çatdırmışlar. Məhz bunun ardınca erməni millətçiləri hələ də regionda "məzlum" Qarabağ ermənilərinin mövqeyini müdafiə edən rus hərbi dəstələrinin köməkliyi ilə yerli Azərbaycan əhalisinin DQMV-dən zorla çıxarılması əməliyyatlarını genişləndirdilər. Etnik təmizləmə prosesində təkcə Meşəlidə 28 azərbaycanlı məhv edildi. Azərbaycan kəndlərinin əhalisi tam silahsız idi. Regiondakı ədalətsizlikləri müşahidə edənlər bildirirdilər ki, rus hərbçiləri azərbaycanlıların əsrlər boyu yaşadıqları kəndlərə girərək "biz sizi ermənilərdən xilas edə bilmirik, köçün gedin" deyərək etnik təmizləmədə fəal iştirak edir, beləliklə də "rəşadətli sovet ordusu"nun bilavasitə öz borcunu yerinə yetirdiyini nümayiş etdirirdilər [70].

Hadisələrin belə dramatik məcrada baş verməsinə baxmayaraq müstəqil Azərbaycan Respublikası öz suverenliyini bəyan etdikdən sonra BMT-nin üzvü olmaq üçün diplomatik sə'ylər göstərmişdir. Həmin cəhdlər sayəsində Azərbaycan Respublikası 1992-ci il martın 2-də bu nüfuzlu təşkilata daxil olur. Ən önəmlisi budur ki, Cənubi Qafqaz zonasında strateji perspektivlərinə görə daha çox nəzəri cəlb edən Azərbaycan Respublikası BMT-yə bərabər hüquqlu dövlət kimi qəbul edilərkən DQMV də ölkəmizin sərhədləri hüdudlarında tanınmışdır. Bu fakt bir daha sivilizasiyalı dövlətlərə birmə'nalı şəkildə bildirdi ki, DQMV separatistlərinin yaratdıqları konfliktin əsl hüquqi həlli üçün real sosial-



siyasi imkanlar məhz indi açılır. Beləliklə, erməni separatçılarının fəaliyyətində tərkibdən çıxmaq üçün "ən önəmli" hesab olunan ermənisayağı "hüquqi əsaslandırma" mifinə son qoyuldu. Gənc Azərbaycan Respublikası qarşısında özünün siyasi, iqtisadi və mədəni problemlərinin həlli yolunda daha nikbin addımlar atmaq üçün real perspektivlər açıldı. Respublika prezidenti H.Əliyev BMT Baş Məclisinin 49-cu sesiyasındakı çıxışında demişdir: "Bütövlükdə Azərbaycan Respublikası gələcək üçün BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir və bundan sonra da Birləşmiş Millətlər Təşkilatının yüksək prinsiplərini müdafiə etmək, təşkilatın nüfuzunun və səmərəsinin artırılmasına nail olmaq əzmindədir" [71].

Hadisələrin sonrakı inkişafı bir daha sübut etdi ki, Qarabağ konfliktinin sülh yolu, hüquq normaları çərçivəsində həllinə cəhd göstərən məhz Azərbaycan tərəfidir. Azərbaycan öz təhlükəsizliyini qorumaq məqsədilə 1992-ci ilin iyununda Daşkənd müqaviləsinə görə öz milli ordusu üçün ona Sovet ordusundan düşən payı aldı və bu təşəbbüs respublikamızın hərbi potensialını bir qədər artırmış oldu.

Lakin istər ölkəmizin təhlükəsizliyinin tə'min olunması, istərsə də taleyüklü problem olan Qarabağ konfliktinin həlli geniş beynəlxalq müttəfiqlik əlaqələrinin yaradılmasının aktuallığını getdikcə artırırdı. Bu işdə dünyanın ən qüdrətli dövləti olan ABŞ-la hərtərəfli və qarşılıqlı faydalı münasibətlərin yaradılması gənc Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyət kəsb edirdi. Təsadüfi deyildir ki, hələ 1992-ci ildə Vaşinqtonda olarkən Turqut Özal C.Buş (ata) hökumətinə müraciət edərək demişdi: "Qərb keçmiş İttifaqın 14 qeyri-rus respublikasının "ayaq üstə durmasına" sə'y göstərməlidir. Əgər yardım edilməsə, Rusiya vaxt keçdikcə onları yenidən öz ardınca aparar, bu isə mövcudluğuna bu yaxınlarda son qoyulmuş sovet tipli bir imperiyanın dirçəlməsinə gətirib çıxarar. Buna görə də vacib məsələ onların həqiqətən müstəqil olmasına kömək etməkdir".

Həmin ildə Azərbaycana sanksiya olaraq tətbiq edilmiş 907-ci düzəliş və ondan irəli gələn nəticələr Azərbaycana dünya birliyində suveren dövlət kimi ABŞ-la münasibətlərin normal səviyyədə inkişafına sə'y göstərməyi bir daha aktuallaşdırmışdı. Bu son dərəcə ağır yüklü məsələ Qarabağ probleminin həlli yolunda əsl fədakarlıq Azərbaycan xalqının arzusu və istəyi ilə ikinci dəfə hakimiyyətə qayıdan görkəmli və təcrübəli siyasətçi, səriştəli dövlət başçısı Heydər Əliyevin taleyinə qismət oldu. Bu inamın başlıca rəhni 1991-ci il iyulun 19-da H.Əliyevin Kommunist Partiyası sıralarından çıxması barədə yazdığı ərizədəki böyük əqidə

sahibinin sözləridir: "Mən Kommunist Partiyasının ideallarına səmimiyyətlə inanırdım və onun planlarının həyata keçirilməsində fəal iştirak edirdim. İndi bu inam artıq sınmışdır.

Partiyanın, Respublikalar İttifaqının daim dəyişilməsi barədə bəyanatlar xalqı növbəti dəfə aldatmaqdır. Xalqa sərt və açıq şəkildə deyilməlidir ki, ölkəmizdə Respublikalar İttifaqının yaratdığı və güclə dəstəklədiyi kommunist eksperimenti, sosializm seçimi özünü doğrultmadı" [72]. Lakin təcrübəli dövlət xadimi H.Əliyevin kredosu belədir: kommunist rejiminin potensialının tükənməsinə baxmayaraq Azərbaycan özünün müstəqilliyinin ilkin şərtlərini məhz keçmiş rejimdə yarada bilmişdir. Tarix sübut edir ki, Azərbaycan xalqı Heydər Əliyevi hakimiyyətə ikinci dəfə məhz öz dövlət müstəqilliyini qorumaq üçün də'vət edəndə müdrik addım atmışdır.



*FƏSİL III*

# HEYDƏR ƏLİYEV DİPLOMATİYASI VƏ ABŞ-AZƏRBAYCAN BEYNƏLXALQ DİALOQUNDA QARABAĞ KONFLİKTİ

***Biz həm Minsk qrupunun fəaliyyətini gücləndirməliyik, həm də öz imkanlarımızdan hərtərəfli istifadə etməliyik.***

***Heydər Əliyev***

Hər şeydən əvvəl qeyd edək ki, Qarabağ konfliktinin həllində mühüm əngəllərdən biri 907-ci əlavədir. Azərbaycan xalqına qarşı çevrilmiş bu ədalətsiz qərarın qısaca tarixi belədir: "Rusiyada azadlığın, Avrasiya demokratiyalarının və açıq bazarın müdafiəsi haqqında akt" 1992-ci il oktyabrın 24-də ABŞ konqresi tərəfindən qəbul olunmuşdur. Qanunun aşağıdakı bölmələri mövcuddur: 1)yardımı tə'min etmək üzrə əsas tədbirlər; 2)ikitərəfli iqtisadi yardımı fəallaşdırmaq; 3)işgüzarlığın və ticarətin inkişafı; 4)yeni demokratiyalara kömək üçün qeyri-hökumət təşkilatlarının yaradılması; 5)tərksilah proqramı və onun həyata keçirilməsi; 6)kosmos sahəsində əməkdaşlıq; 7)kənd təsərrüfatı sahəsində ticarət; 8)Birləşmiş Ştatların informasiya agentliyi, Dövlət Departamenti, onlara qohum təşkilatlar və onların fəaliyyəti; 9)yardımı tə'min etmək üzrə digər tədbirlər; 10)Beynəlxalq maliyyə təşkilatları.

Qeyd edək ki, Azərbaycana yardım etməyə qadağan qoymağı nəzərdə tutan əlavə doqquzuncu bölmənin tərkib hissəsidir. Həmin qanun SSRİ-nin dağılmasından sonra yeni müstəqil dövlətlərə yardım göstərmək haqında ABŞ konqresinin ilk qanunvericilik aktıdır. 907-ci düzəliş senator Kerri tərəfindən (Masaçussets şt.) irəli sürülmüş, həmkarları Sarbanes, Saymons, de Konsini tərəfindən dəstəklənmişdir. Burada söhbət Azərbaycana yardımın məhdudlaşdırılmasından gedir və göstərilir ki, Azərbaycan hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı bütün blokadaların və qüvvədən təcavüzkarcasına (?) istifadənin ləğvi sahəsində nümayişkaranə addımların atılmadığını prezident müəyyən etməyincə və bunu konqresə

bildirməyincə Azərbaycan hökumətinə yardım göstərilməyəcəkdir. Bu barədə söhbətə keçməzdən əvvəl deyilməlidir ki, böyük siyasətə ikinci dəfə qayıdışından sonra ölkə prezidenti H.Əliyevi ən çox qayğılandıran, konfliktin həllinə mane olan problemlərdən biri ABŞ tərəfindən Azərbaycana yardımın məhdudlaşdırılmasıdır. O, yaxşı bilirdi ki, bunun başlıca səbəblərindən biri əvvəlki rəhbərliyin məqsədyönlü informasiya mübarizəsi apara bilməməsi üzündən ermənipərəst qüvvələrin "təcavüzkar" azərbaycanlı obrazını yaratması olmuşdur. Məhz bu baxımdan 1993-cü il oktyabrın 13-də ölkə prezidenti müstəqil dövlətlərə yardım məsələsi üzrə əlaqələndirici Tomas Saymonsla (ABŞ) görüşərkən qaçqınlar məsələsi ilə bağlı söhbətində Qarabağ konfliktinin mahiyyətindən söhbət açmış, 907-ci əlavənin neqativ tə'sirini açıqlamışdır. Oktyabrın 15-də ABŞ Dövlət Departamentinin nümayəndələri ilə söhbətdə bu məsələyə ciddi aspektdə toxunulmuş, ABŞ-Azərbaycan münasibətlərinin inkişaf perspektivlərindən bəhs edilmişdir.

Lakin prezident H.Əliyev çox gözəl bilirdi ki, ondan əvvəlki səriştəsiz rəhbərlər ona çox ağır miras qoyub getmişlər. Respublika rəhbərliyinə qayıdarkən o, iqtisadiyyatı dağılmış, xalqı yoxsullaşmış, siyasi qüvvələrinin qarşıdurmada olduğu, sosial gərginliyin reallığa çevrildiyi, ərazisinin bir hissəsinin erməni faşizmi tərəfindən işğal olunduğu, vətəndaş müharibəsinin başladığı, səriştəsiz diplomatiyanın ümidinə qalmış rəzil bir ölkə ilə üzləşmişdi. Ən dəhşətli və ən faciəvi hal bu idi ki, o xalqını ruhdan düşmüş və ölkənin gələcəyinə inamını itirmiş vəziyyətdə görmüşdü. Ona görə də ölkə qarşısında duran ən ağır problemləri, xüsusilə Qarabağ konfliktini həll etmək ilk növbədə xalqın öz dövlətinə olan inamını qaytarmaq, cəmiyyətin konsolidasiyasına, milli həmrə'yliyə nail olmaq, milli şüurun oyanışını tə'min etmək lazım idi. O, çox yaxşı bilirdi ki, 80-ci illərin sonu və 90-cı illərin əvvəlində Azərbaycan cəmiyyətində fərdi, ictimai və milli şüur haçalanmışdı. Şüuru haçalanmış xalqın və cəmiyyətin birliyini tə'min etmək isə çox çətindir. Xalqının intellektual potensialına söykənən prezident H.Əliyev müdrükcəsinə dərk edirdi ki, şüurun oyanışı hələ onun inkişafı deyildir. Hər şey, oyanmış milli şüurun məzmununun hansı ideyalardan, prinsiplərdən və dəyərlərdən bəhrələnəcəyindən və ona hansı istiqamət verilməsindən asılıdır. Ümummilli liderin "Ayağa qalx, Azərbaycan" çağırışı cəmiyyəti kökündən çalxaladı, vətənpərvərlik hissinin nə olduğunu xalqa bir daha çatdırdı. Bu qanadlı ifadə təkcə Vətəni erməni işğalçılarından azad etmək çağırışı deyil, həmçinin ağır mə'nəvi-ruhi və psixoloji böhrandan çıxmağa və nəhayət Azərbaycan Respublikasının hər bir vətəndaşının özünə, öz xalqına inanmasına çağırış idi. Bəli Azərbaycan üçün olduqca ağır keçirilən bu keçid dövründə xalqı nəhəng işlər görmək naminə səfərbər



etmək hər cür uğurun rəhni demək idi [73]. Bu, ölkə prezidentinin Azərbaycan rəhbərliyinə qayıdışma qədər uğursuzluqlarla müşayət olunmuş milli diplomatiyamıza xüsusilə aid idi.

Hələ 1993-cü ilin yanvarında Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində olarkən H.Əliyev ABŞ prezidenti Bill Klintona göndərdiyi təbrik məktubunda ümidvar olduğunu bildirmişdi ki, o, müstəqil Azərbaycan Respublikasına xoş və xeyirxah münasibət bəsləyəcək, dünyanın bir çox regionlarında baş verən silahlı konfliktlərin həllinə nail olmaq, Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınmasını aradan qaldırmaq üçün Amerika dövlətinin bütün imkanlarından istifadə edəcəkdir. Müdrik siyasətçinin məktubu Ağ evdə böyük reaksiya oyatdı və həmin ilin yanvar ayında ABŞ və Rusiya prezidentləri Cənubi Qafqazdakı reallıqları müzakirə etdilər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktinin sülh və danışıqlar yolu ilə həlli məqsədilə ATƏM-in Minsk konfrasının çağrılmasına tərəfdar olduqlarını bəyan etdilər. Bunun ardınca təcrübəli diplomatın şəxsiyyətinə diqqət əlaməti olaraq 1993-cü il fevral ayının 4-də ABŞ-ın Azərbaycandakı ilk səfiri Riçard Mayls Naxçıvana gələrək H.Əliyevlə görüşmüş, ona Bill Klintonun bölgədə yaranmış konfliktli vəziyyətlə bağlı narahatlığını çatdırmış, ABŞ hökumətinin Naxçıvana humanitar yardımının vacibliyini vurğulamışdır. Həmin görüşdə vəziyyətin əsl mahiyyəti ilə yenicə tanış olmağa başlayan amerikalı diplomat Dövlət Departamentinin humanitar yardımlar üzrə proqramının rəhbəri Riçard Açmintaqın göndərdiyi məktubu təqdim etmişdir [74]. ABŞ səfiri ilə görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konflikti ətrafında aparılan müfəssəl söhbət zamanı 907-ci düzəlişin qüvvədə olmasına baxmayaraq nəinki Amerika və Azərbaycan arasında gərginliyin aradan qaldırılmasının, habelə gələcəkdə hər iki dövlət arasında qarşılıqlı faydalı münasibətlərin, hərtərəfli əməkdaşlığın praktik təməli qoyuldu. Çox çəkmədi Naxçıvana ilk Amerika yardımı gətirildi [75]. Lakin Azərbaycanın bölgədə sülh siyasəti yeritməsinə baxmayaraq ABŞ-ın rəsmi dairələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktinin əsl mahiyyətini, tərəflərdən hansının təcavüzkar və hansının təcavüzə mə'ruz qalan tərəf olması barədə kifayət qədər informasiyaya malik olmadıqlarından, təbii ki, hələlik konfliktin həlli yolları məsələsində dəyərincə obyektiv mövqe tuta bilmirdilər. Belə ki, 1993-cü ilin may-iyun aylarında ABŞ-ın Dövlət Departamentinin Dağlıq Qarabağ problemi üzrə danışıqlarda nümayəndəsi C.Mareskanın və yeni müstəqil dövlətlərlə əlaqələr üzrə müşaviri S.Talbotun da Bakıya səfəri Qarabağ konfliktinin həllində ABŞ-ın nüfuzundan tam istifadə etmək imkanı yaratmadı. Əvvəlki, hakimyyətin çevik diplomatiya yeritməməsi ucbatından Azərbaycan tərəfi konfliktin həlli üçün son dərəcə vacib olan imkanlardan istifadə etmək məsələsində böyük çətinliklərlə üzləşirdi.

Təcrübəli dövlət başçısı H.Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə milli diplomatiyamız, xüsusilə Amerika-Azərbaycan beynəlxalq dialoqu güclü implus aldı. Ölkəmizin problemlərinin xüsusilə Dağlıq Qarabağ həqiqətinin mahiyyətini dünya ictimaiyyətinə çatdırmaq, informasiya blokadasından çıxmaq üçün misilsiz imkanlar açıldı.

İlk mühüm təşəbbüs olaraq Azərbaycan prezidenti 1993-cü ilin sentyabrında ABŞ prezidenti B.Klintona, vitse-prezident Albert Qora və konqresin spikeri Tomas Foliyə məktub göndərərək, ABŞ konqresi tərəfindən qəbul edilmiş 907-ci düzəlişin qeyri-obyektiv olduğunu əsaslandırmış və Azərbaycana münasibətdə ayrı-seçkilik bəndinin ləğv olunması üçün müvafiq tədbirlər görülməsini xahiş etmişdir [76]. Ölkə başçısının məktubuna səmimi reaksiyanın əlaməti olaraq həmin ayda S.Talbot Bakıya gəlmiş, prezident B.Klintonun məktubunu H.Əliyevə çatdırmışdır. Məktubun məzmunu göstərir ki, artıq Birləşmiş Ştatlarda, xüsusilə rəsmi dairələrdə Qarabağ konfliktinin mahiyyəti ilə ciddi tanışlığa meyl artmağa başlayır. Belə ki, ABŞ prezidenti məktubunda regiondakı konfliktli vəziyyətdən narahatlığını bildirməklə yanaşı, Azərbaycana qarşı hücumları və bunun nəticəsi olaraq ölkəmizin torpaqlarının bir qisminin işğalını pislədiyini qeyd edir, konfliktin aradan qaldırılması üçün Dağlıq Qarabağ ermənilərinə və Yerevan hökumətinə ciddi təzyiqlər göstərildiyini xüsusi vurğulayır. Məktubda eyni zamanda göstərilir ki, 907-ci il düzəlişin qüvvədə qalmasına baxmayaraq ABŞ qeyri-hökumət təşkilatları vasitəsilə Azərbaycana yardım ediləcəkdir [77].

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, erməni lobbisinin ABŞ-da Azərbaycan dövlətinə qarşı, xüsusilə onun Qarabağ konfliktini həll etmək fəaliyyətinə qarşı məkrli mübarizəsindən ruhlanan erməni separatçılarının respublikamıza Vaşinqtonun qeyri-hökumət təşkilatları xətti ilə yardım göstərməsinə mane olmaq cəhdi puça çıxdı. Lakin bizcə, daha önəmli məqam budur ki, məktubda Azərbaycanın Cənub-Qərbində erməni silahlı dəstələrinin hücumlarından Dövlət Departamentinin narahatlıq keçirməsi faktının xüsusi qeyd olunması, rəsmi dövlət kanalları ilə olmasa da, hər halda, Azərbaycana humanitar yardım göstərmək yolunda atılan ciddi addımlar Amerika-Azərbaycan dialoqunun daha da genişlənməsinə və deməli Qarabağ konfliktinin həllində Birləşmiş Ştatların mühüm rol oynayacağına yeni implus vermiş oldu. Uzaqgörən dövlət başçısı H.Əliyevin milli diplomatiyanın sülh yolu ilə inkişaf xəttini tutması ABŞ rəhbərliyinin Qafqaz strategiyasında, xüsusilə zəngin potensiala və əlverişli geosiyasi mövqeyə malik Azərbaycana münasibətində mənafelərinin yeni reallıqlar baxımından formalaşmasında mühüm mərhələ oldu. Lakin özünün diplomatik fəaliyyətində milli mənafeləri yüksək tutan, eləcə də beynəlxalq dialoqda iştirak edən dövlətin də milli mənafelərinə



hörmət prinsipinə söykənən səriştəli siyasətçi H.Əliyev hələ qarşıda ciddi problemlərlə üzləşəcəyini irəlicədən görürdü. 1991-93-cü illərdə xarici siyasətdə ciddi, çox hallarda bağışlanmaz səhvlər buraxmış əvvəlki iqtidarlar Qarabağ konfliktinin həllində də çoxlu əngəllər yaratmış, bu işdə ABŞ kimi qüdrətli dövlətin tə'sir imkanlarından istifadə etməmişlər. Politoloji ədəbiyyatda qeyd edildiyi kimi, "Rusiyanın Qafqazdakı tə'sir dairəsini zəiflətmək istəyi bizim dövlətin fəaliyyətindən asılı olmayaraq ABŞ-ı respublikamız ətrafında gedən proseslərə fəal müdaxilə etməyə sövq edəcək" fikri səriştəsiz xarici siyasətdən xəbər verirdi [78]. Diqqət yetirin: "Bizim dövlətin fəaliyyətindən asılı olmayaraq". Siyasi baqajında Qarabağ konflikti kimi ağır yükü daşıyan bir iqtidar həqiqətənmi inanırdı ki, dövlətimizin fəaliyyətindən asılı olmayaraq, ABŞ özü bizə yaxınlaşacaq və Ermənistan-Azərbaycan konflikti planetin lider ölkəsinin köməkliyi ilə avtomatik həll ediləcəkdir?! Təbii ki, belə bir primitiv diplomatiya vasitəsilə ölkənin taleyüklü problemlərinin həlli qeyri-mümkün idi. Siyasət həyat dialektikasıdır, burada qarşıhqlı tə'sirdən nəinki qaçmalı, hətta ona can atmaq, qarşılıqlı faydaya nail olmaq lazımdır. Ölkə prezidenti haqlı olaraq qeyd edir: "Şərq və Qərb sivilizasiyanı vəhdət halında birləşdirən ölkəmizin coğrafi mövqeyindən, sosial-siyasi yönümündən və tarixi-mədəni ən'ənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində mənim respublikamın roluna və yerinə səciyyəvi tə'sir göstərir. Məhz, öz xüsusiyyətlərini başa düşərək və dəyişikliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq biz addım-addım irəliləyirik, xarici dünya ilə əməkdaşlıq binasını ucaldırıq" [79].

*Məhz belə müdrik diplomatiya* sayəsində 1994-cü ildən Azərbaycan-ABŞ dialoqu yüksələn xəttlə inkişaf etmiş, iki dövlət arasında münasibətlərdə hər bir tərəfin milli mənafeləri və mövqeləri daha da şəffaflaşmış, hər şeydən əvvəl, Qarabağ konfliktinin ədalətli, sülh yolu ilə həlli üçün ciddi zəmin yaranmağa başlamışdır. Daha önəmlisi budur ki, ölkə prezidenti konfliktin real həlli naminə ABŞ-la beynəlxalq dialoqu genişləndirməklə bu taleyüklü problemin əsl mahiyyətini, Ermənistanın təcavüzkar tərəf kimi dərk olunmasında Birləşmiş Ştatların nüfuzlu müttəfiqlərinin potensialından istifadə üçün məhsuldar diplomatik görüşlərin əsasını qoymuşdur. Bu münasibətlə əlaqədar Azərbaycan prezidenti iradını bildirərək haqlı olaraq göstərir ki, "bizim dostlarımız, qardaşlarımız, başqa ölkələr Ermənistanın təcavüzkar olmasını dillərinə gətirmirlər". Həmin dövrdən başlayaraq, diplomatik fəaliyyətində sülh strategiyasına üstünlük verən H.Əliyev hər rəsmi görüşündə ölkəsinin milli mənafeləri mövqeyindən çıxış edərək Qarabağ konfliktinin həlli ətrafında faydalı və inandırıcı danışıqlar aparmışdır. Məsələn, dövlətimizin başçısı 1994-cü il iyun ayının 10-da Türkiyədə işgüzar səfərdə olarkən, İstanbulda

Birləşmiş Ştatların o dövrdəki dövlət katibi U.Kristoferlə görüşmüş, ABŞ-ın nüfuzlu siyasətçisini əmin etmişdir ki, Azərbaycan tərəfi hər iki ölkənin qarşılıqlı faydalı münasibətlərinin inkişafında, Qarabağ konfliktinin beynəlxalq hüquq normaları çərçivəsində həllində maraqlıdır. Həmin görüşün müstəsna əhəmiyyəti bundadır ki, diplomatlar ilk dəfə olaraq ikitərəfli münasibətlər və dünya siyasətinin ən mühüm məsələləri üzrə fikir mübadiləsi aparmış, müzakirə olunan məsələlərdə tərəflərin mövqelərinin üst-üstə düşdüyünü aşkarlamışlar [80]. Həmin il sentyabrın 3-4-də Bakıda Azərbaycan prezidenti H.Əliyevin ABŞ prezidentinin şəxsi nümayəndəsi, ABŞ-ın BMT-dəki daimi təmsilçisi Madlen Olbrayt ilə görüşündə Qarabağ konfliktinin sülh yolu ilə həlli məsələsinə toxunulmuş, bu sahədə dialoqun davam etdirilməsi məqsədəuyğun sayılmışdır. Görüşdə ABŞ-ın 907-ci düzəlişi ləğv etmək imkanlarının araşdırılması, Dağlıq Qarabağ konfliktinin həlli məsələsində başlıca rolun Rusiyadan ATƏM-ə keçməsi istiqamətində dipomatik sə'ylərin dəstəklənəcəyi fikri də vurğulanmışdır. Söhbətin gedişində M.Olbrayt problemin həlli sahəsində mühüm rol oynaya biləcək konqresmenlərdən De Konsini, Q.Lavlin, C.Tanner, K.Ueldon, L.Qamilton və b. əlaqə yaratmağın faydalılığını vurğulamışdır [81]. Çox çəkmədən Xarici İşlər Nazirliyi dialoqu fəal davam etdirmək məqsədilə həmin konqresmenlərə məktublar göndərmişdir.

Ölkə prezidenti xarici siyasət fəaliyyətinin prioritet dəyərlərindən olan Qarabağ probleminin həllinə ABŞ-ı cəlb etmək üçün bütün diplomatik kanallardan istifadə edir. Yeri gəlmişkən, görkəmli siyasətçi hələ Naxçıvanda olarkən Birləşmiş Ştatların tanınmış diplomatları ilə görüşləri, məktublaşmaları ölkəmizin gələcək diplomatik fəaliyyəti üçün faydalı zəmin yaratmışdı. Bu, tezliklə özünün ilk bəhrələrindən birini verdi. Belə ki, dünya ictimaiyyətinin tə'siri altında 1993-cü il iyulun 29-da BMT TŞ yekdilliklə 853 nömrəli qətnamə qəbul edərkən ABŞ-ın BMT-dəki səfiri Edvard Uorker erməniləri dərk etməyə çağırırdı ki, onların son zamanlar törətdikləri yalnız ermənilərə ziyandır. O, Təhlükəsizlik Şurasına müraciət edərək qeyd etmişdi: "Ağdamın işğalına heç bir özünümüdafiə zərurəti barədə bəyanatlarla bəraət qazandırmaq olmaz. Bu şəhərin işğalı onsuz da konflikt nəticəsində yaranmış böyük qaçqınlar axınından əziyyət çəkmiş xalqın iztirablarını daha da artırmışdır" [82]. Respublikamızın rəhbəri 1994-cü il sentyabrın 6-da Qahirədə rəsmi səfərdə olarkən, ABŞ-ın vitse-prezidenti A.Qorla görüşməyə imkan tapmış, ona Ermənistan-Azərbaycan konfliktinin mahiyyətini dərindən açıqlamış, Amerika siyasətçisini Azərbaycanın ədalətli mövqe tutmasına inandırmışdır [83].

Belə bir həqiqət xüsusilə vurğulanmalıdır ki, 1993-cü ilin ikinci yarısından başlayaraq H.Əliyevin başçılıq etdiyi diplomatiya sayəsində



bütün Qərb ölkələrinin, xüsusilə ABŞ-ın Azərbaycana münasibəti xeyli dəyişməyə, əvvəlki iqtidarlar dövründə kök salmış siyasi stereotiplər tədricən silinməyə başlayır, bütövlükdə iki ölkə arasında beynəlxalq dialoq daha intensiv xarakter alır.

Qeyd edək ki, ABŞ-la Azərbaycan arasında dialoqun fəallaşmasına, hər iki ölkə arasında beynəlxalq əlaqələrin möhkəmlənməsinə, Qarabağ konfliktinin həllinin yeni məcraya keçməsinə həlledici təkan verən amil Birləşmiş Ştatların dövlət katibinin müşaviri MDB üzrə ABŞ siyasətinin böyük əlaqələndiricisi C.Kollinzin 1994-cü ilin mayında Bakıya səfəri olmuşdur. Yüksək səviyyəli diplomatla görüşdə prezident H.Əliyev dünya və regional siyasətin ən aktual məsələləri üzrə fikir mübadiləsi aparmış, amerikalı qonaq isə Qarabağ konfliktinin təfərrüatı barədə geniş və maraqlı informasiya əldə etmişdir. Təqdirəlayiq haldır ki, ABŞ ilə Azərbaycan arasında dialoqun genişlənməsində həmin dövrdə Azərbayanda Birləşmiş Ştatların Fövqəl'adə və Səlahiyyətli səfiri tə'yin olunmuş R.Kozlariç müstəsna rol oynamışdır. Respublika prezidenti H.Əliyev onunla söhbətlərində öz ölkəsi haqqında demokratiya yolunu tutan məmləkət və siyasi məkanda müstəsna siyasət yeridən dövlət imici yaratmaqda böyük diplomatik bacarıq nümayiş etdirmişdir. Bunun bariz nümunəsi Azərbaycan Respublikası hökumətinin xarici siyasət təşəbbüsü kimi meydana gəlmiş "Sülh naminə tərəfdaşlıq" layihəsinə qoşulmaqla NATO-nun əməkdaşlığını genişləndirmək proqramında iştirakı barədə qərar qəbul etməsidir. Lakin acı həqiqət olsa da göstərilməlidir ki, Azərbaycan diplomatiyasının çox qısa müddətdə qazandığı uğurlar məkrli düşmənlərimizə rahatlıq vermirdi. Həmin dövrdə ABŞ-da güclü qüvvə olan erməni lobbisinin birbaşa Azərbaycanın suverenliyinə yönəlmiş bədnam əməlləri söngimək bilmirdi. Belə ki, ABŞ Konqresi ədalətin meyarından kənara çıxaraq 1994-cü il mayın 11-də konqresmen Bilbreyin layihəsini nəzərdən keçirmiş, konqresin nümayəndələr palatası isə 247-ci qətnaməni qəbul etmişdir. Qətnaməyə görə "Kerri düzəlişi" qüvvədə qaldı, yə'ni Birləşmiş Ştatların Azərbaycan hökumətinə yalnız humanitar istiqamətlərdə yardım göstərilməsinə səs verildi. Həmin il mayın 25-də senatorlar Q.Reyd və P.Saymons senatın 218-ci qətnaməsinin layihəsini təqdim etmişlər. Qətnamədə Ermənistan ilk dəfə olaraq bilavasitə konflikt iştirakçısı kimi göstərlmiş və bu sənəd mahiyyətcə Azərbaycan əleyhinə çevrilmiş qüvələrə Azərbaycanın mövqeyi ilə hesablaşmaq mə'nasında ciddi xəbərdarlıq olmuşdur. Lakin bununla belə qətnamədə Qarabağ konfliktinin həllində ABŞ-ın rolunun fəallaşdırılması da vurğulanır. Lakin ədalət naminə deyilməlidir ki, prezident H.Əliyevin sülhsevər diplomatik sə'ylərini layiqincə qiymətləndirən konqresmenlər e'tiraf edirlər ki, Qarabağ konfliktinin həlli yolunda böyük maneə olan 907-ci düzəlişin ləğv

edilməsi üçün erməni lobbisi və onların tə'sirində olan Konqres üzvləri bütün sə'ylərini səfərbər edirlər. Bunu nəzərdə tutan Robert Berls yazır: "Azərbaycanın bir tərəfdən təcavüzün qurbanı olması və eyni zamanda ABŞ konqresindən də bu cür bəlalar çəkmək məcburiyyətində qalması faktdır. Bu qeyri-adi və ədalətsiz görünür. Səbəb də budur ki, konqres üzvlərinin çoxu ya bilməzliyi ucbatından, ya da Amerikadakı erməni lobbisi tərəfindən təzyiqlər üzündən bundan xəbərsizdirlər" [84]. Bu bir daha gösərir ki, 907-ci düzəliş regionda real mənafelərini gizlətməyən Birləşmiş Ştatların daxili siyasi çarpışmalarında açıq-aşkar ciddi predmetə çevrilmişdir.

Bütün bunlara baxmayaraq Azərbaycan özünün xarici siyasət xəttində və diplomatik fəaliyyətində siyasi nikbinliyini itirmirdi. Respublikamız Qərb ölkələri və ABŞ-la qlobal münasibətlərinin daha mühüm, yeni perspektivli mərhələsini qurmağa çalışırdı. İkinci bir tərəfdən də, nəzərə almaq lazımdır ki, siyasət, təhlükəsizlk, iqtisadiyyat və ticarət sahəsində Amerika-Azərbaycan çoxtərəfli tərəfdaşlığın böyük perspektivləri mühüm strateji bölgədə yerləşən və önəmli siyasi mövqe tutan Azərbaycanla dialoqun durmadan genişləndirilməsinə Birləşmiş Ştatların marağını getdikcə artırırdı. Ermənistan-Azərbaycan müharibəsində atəşkəsin əldə olunması ilə regionda yaranmış sabitlik ABŞ-la müxtəlif səviyyələrdə əməkdaşlığın inkişafı üçün olduqca əlverişli şərait yaradırdı. Məhz bunun sayəsində 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsini" bağlamaq mümükün olmuşdu. Xatırladaq ki, görkəmli diplomat Ə.B.Topçubaşov hələ 1919-cu ildə Paris Sülh Konfransına təqdim edilmək üçün tərtib etdiyi "Memorandum"da yazırdı: "Unudulmamalıdır ki, Bakı və onun ətrafı zəngin neft yataqlarına malikdir və gələcəkdə Azərbaycan Respublikasının dövləti, neft ehtiyatlarına ehtiyac duyan həm həmsərhəd, həm də digər dövlətlərlə lazımi əlaqələr yaratmalıdır" [85]. Tarixi zərurətdən yaranan "Əsrin müqaviləsində" ilkin olaraq ABŞ-ın "Amoko", "Yunikal", "Penzoyl" və "Mak Dermot" neft kompaniyaları iştirak etmişlər. Artıq bu gün cəsarətlə demək olar ki, regionda tarixi hadisə olan "Əsrin müqaviləsi" hər şeydən əvvəl Azərbaycan-ABŞ beynəlxalq dialoqunun daha da inkişafında son dərəcə önəmli rol oynamışdır. 1920-ci ildən bəri ilk dəfə olaraq Azərbaycanın Qərb və ABŞ sərmayəçiləri üçün yenidən kəşf olunması bir daha sübut edir ki, təbii resurslardan səmərəli, milli mənafelər və cəmiyyətin ümumi rifahı naminə düzgün istifadə müstəsna əhəmiyyətə malikdir. Müasir texnoloji inqilab əsrimiz göstərir ki, "iqtisadiyyat siyasətdir" devizi bu günkü qədər aktuallıq kəsb etməmişdir. Bunu Bakıda imzalanan "Əsrin müqaviləsi" aydın sübut edir. Beləliklə, Azərbaycan çətin maneələri dəf edərək imzaladığı "Əsrin müqaviləsi" ilə yeni "neft sivilizasiyasına" daxil oldu.



Neft müqavilələrinin imzalanması ilə Qarabağ konfliktinin həlli, bu yolda mühüm əngəl olan 907-ci düzəlişin ləğvi ilə bağlı diplomatik sə'ylərin artması Azərbaycan-ABŞ beynəlxalq dialoqunda önəmli yer tutmağa başladı. İki dövlətin faydalı dialoqunun mühüm məqamlarını əks etdirən istər yerli, istərsə də xarici mətbuatı izləyən hər bir azərbaycanlı belə bir danılmaz həqiqətlə rastlaşır ki, prezident H.Əliyev bütün rəsmi səfərlərində, həm işgüzar dairələrin nümayəndələri, həm də görkəmli siyasətçilərlə söhbətlərində həmişə Qarabağ konfliktinin həlli, 907-ci düzəlişin ləğvi ilə bağlı xalqımızın milli mənafeləri mövqeyindən inandırıcı söhbətlər aparmış və bu gün də aparmaqdadır.

"Əsrin müqaviləsi" həyata keçirilən ilk günlərdən "milli diplomatiyamız" öz bəhrələrini tədricən verməyə başlayır. 1995-ci ilin mayında senatorlar Xelm və Luqar "Kerri düzəlişi"ni qismən modifikasiya edən qanun layihəsi təqdim edirlər. Həmin layihə ABŞ hökumətinin Azərbaycana humanitar xəttlə yardım göstərməsini, bir sıra sahələr üzrə məhdudiyyətlərin aradan götürülməsini vacib sayırdı. Erməni diasporunun güclü təzyiqi nəticəsində senatorların təklif etdikləri qanun layihəsi qəbul edilməsə də, bunu müəyyən mə'nada Azərbaycan tərəfinin uğuru saymaq olar, ona görə ki, respublika rəhbərliyi bu diplomatik təmasla ilk dəfə olaraq Amerika qanunvericiləri ilə intensiv əlaqə yarada bilmişdi. Hələ 1994-cü ilin yanvarında Konqres prezidentə 907-ci düzəlişin qüvvəsini dayandırmaq hüququ verməyi nəzərdə tutan (konqresmenlər Livinqston, Vuler, Qalahen və Laflin tərəfindən hazırlanmış) "Vilson düzəlişini" qəbul etmişdi. Lakin burada göstərilirdi ki, prezident Azərbaycana qeyri-hökumət təşkilatları tərəfindən qaçqınlar və köçkünlər üçün yardımın qeyri-adekvat olduğu nəticəsinə gəldikdə hüququndan istifadə edə bilər. Qeyd edək ki, bu məsələdə senator Bob Livinqston xüsusi fəallıq nümayiş etdirmişdi. Bu fakt erməni lobbisinin nəzərindən qaçmamışdı. Konqresmen bu məsələyə ikinci dəfə qayıdarkən Amerika lobbisi nümayəndələrindən biri "Kaliforniya kuryeri" (10.12.98) qəzetində yazmışdı: "Biz Livinqstonu inandırmalıyıq ki, 907-ci düzəlişi rahat buraxsın. Əks təqdirdə o, bütün Birləşmiş Ştatlar üzrə amerikalı ermənilər cəmiyyətini özünə qarşı birləşdirə bilər. Bu da onun Nümayəndələr Palatası spikeri vəzifəsindən uzaqlaşdırılması və konqresin demokratların əlinə keçməsi ilə nəticələnər" [86]. Ümumiyyətlə "Qarabağ konfliktinin" həllinə, özü də açıq-aşkar Birləşmiş Ştatların strateji mənafelərinə zidd hərəkət edən erməni lobbisinin antiazərbaycan, eləcə də antiamerika fəaliyyəti barədə bu cür misalları çox çəkmək olar.

Əgər "konfliktin həlli" xronologiyasını davam etdirsək göstərməliyik ki, 1994-cü ilin ikinci yarısında geosiyasət elmində tanınmış nəzəriyyəçi Z.Bjezinski, ABŞ konqresmenləri S.Kennedi, T.Penni və b. həm B.Klin-

tona, həm də konqresə müraciət edərək Azərbaycanla hərtərəfli əlaqələrin strateji əhəmiyyətini xüsusi vurğulamış, ölkəmizə qarşı konqresin qəbul etdiyi ədalətsiz 907-ci düzəlişin Birləşmiş Ştatların milli mənafelərinə qətiyyən cavab vermədiyini əsaslandırmış, onun ləğvinə çağırmışlar [87]. Şübhəsiz ki, Azərbaycan diplomatiyasının intensiv təşkilatçılığı sayəsində səfərbər olunmuş bu siyasi aksiya sonralar öz müsbət tə'sirini Budapeşt sammitinin bütün gedişinə göstərdi, respublikamızın informasiya blokadasından çıxmasında önəmli rol oynadı.

Qeyd etdiyimiz kimi, 1994-cü ilin mayında atəşkəs rejiminin yaranmasından sonra ölkədə yaranan siyasi sabitlik Qarabağ konfliktini həll etmək yolunda Azərbaycanın diplomatik fəaliyyəti üçün əlverişli şərait yaratmışdır. Daha dəqiq deyilsə, həmin bu sabitliyin özü H.Əliyevin məqsədyönlü xarici siyasəti sayəsində mümkün olmuşdur. Bundan əlavə, ölkəmizin xarici siyasətinin qısa bir müddət ərzində ən mühüm uğuru onda idi ki, Azərbaycan tərəfi beynəlxalq ictimaiyyəti Qarabağ konflikti barədə xeyli mə'lumatlandırmış, dünyanın bir çox tanınmış diplomatlarını problemə sağlam düşüncə baxımından yanaşmağa inandırmışdı. Odur ki, Azərbaycan siyasətçiləri Budapeşt sammitinə artıq beynəlxalq nüfuz qazanmış suveren dövlətin nümayəndə hey'əti kimi gəlmişdi.

Qeyd edək ki, sammitdən bir qədər əvvəl, yə'ni 1994-cü ilin sentyabrında BMT-də ABŞ-ın daimi nümayəndəsi Madlen Olbrayt Bakıda ölkə prezidenti ilə görüşündə Qarabağ konfliktinin siyasi problem olaraq potensialını düzgün qiymətləndirmiş və onu beynəlxalq birlik üçün sınaq hesab etmişdi. Bundan əlavə, oktyabrın 25-də səfir R.Kozlariç Azərbaycan prezidentinə ABŞ prezidenti B.Klintonun məktubunu çatdırmışdı. Burada ABŞ-ın dövlət başçısı Qarabağ probleminin həllində ATƏM-in Minsk qrupunun fəaliyyətinə üstünlük verdiyini göstərmiş, konfliktin tənzimlənməsində sülh yaratma qüvvələrinin təşkili ideyasını dəstəkləmişdir. Ən qüdrətli dövlətin başçısının problemə bu me'yarla yanaşması fəaliyyəti 1994-cü il dekabrın 6-dan başlayan Budapeşt sammitinin gedişi üçün çox şey demək idi. Bundan əlavə, BMT-nin Baş katibi B.Qali həmin ərəfədə bütün konfliktli hallarda olduğu kimi BMT-nin Təhlükəsizlik Şurasının regionda sülhü bərpa etmək naminə ATƏM-in bütün fəaliyyətində iştirak etməyə hazır olduğunu vurğuladı. Onun fikrincə, digər konfliktlər kimi Ermənistan-Azərbaycan konfliktinin də həllində BMT üç əsas vəzifəni yerinə yetirməlidir: 1.BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsini tə'min etmək; 2.Regionda ATƏT-in sülhməramlı əməliyyatlarının maksimum dəstəklənməsi; 3.Konflikt zonasında sülh və təhlükəsizlik naminə təşkilat tərəfindən təkrarçılığa yol verilməməsi üçün sülh təşəbbüslərinin əlaqələndirilməsi funksiyasını yerinə



yetirmək. Daha mühüm bir məqam. Sammit ərəfəsində erməni tərəfi Azərbaycan rəhbərliyindən "günahsız Ermənistana qarşı təbliğata" son qoymağı tələb etmişdi. Çox qəribədir ki, bütün təbliğat maşınından yerli-yersiz olaraq xalqımızın "vəhşi obrazını" yaratmaqda hər cür yalandan istifadə edən erməni millətçiləri nədənsə respublikamız əleyhinə qərəzli informasiya blokadasını yarmağın onsuz da gecikmiş cəhdlərini ədalətsiz hərəkət adlandırırlar. Hər halda bu fakt Azərbaycan tərəfinin Qarabağ konflikti ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə obyektiv çatdırılmasından erməni liderlərinin, xüsusilə onların Amerika lobbisini qıcıqlandırmasından xəbər verirdi. Beləliklə, prezident H.Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə hey'əti Budapeşt zirvə görüşü ərəfəsində sanballı siyasi-psixoloji dəstək qazana bilmişdi.

Budapeşt zirvə görüşünün artıq birinci mərhələsində respublika prezidenti H.Əliyev konstruktiv mövqe tutaraq Avropanın və dünyanın nüfuzlu liderləri və tanınmış siyasətçiləri ilə təkbətək görüşlərində Ermənistanın Azərbaycana qarşı təcavüzünün mahiyyətini açaraq, onları belə bir həqiqətə inandırmışdır ki, Qarabağ konfliktının uzanmasının səbəbi erməni tərəfinin beynəlxalq hüquq normalarına zidd olaraq müstəqil dövlət qurumu yaratmaq tələbindədir. Dünyada ölkənin ərazi bütövlüyünü pozmaq hesabına ikinci bir müstəqil dövlət qurmaq kimi presedent olmadığından Azərbaycan hökuməti buna gedə bilməz. Ona görə də Azərbaycan tərəfi Dağlıq Qarabağın erməni icmasına muxtariyyətin geniş formalarını verə bilər, bu isə yalnız siyasi yolla həll olunmalıdır.

Ümumiyyətlə, Budapeşt zirvə görüşü Qarabağ konfliktinin həllini tə'min etmək sahəsində Azərbaycan xarici siyasətinin fəal iştirak etdiyi sammit olmuşdur.

Azərbaycan nümayəndə hey'ətinin konstruktiv mövqedən çıxış etməsi nəticəsində həmin sammitdə Avropanın bu və ya digər regionlarında baş verən konfliktlərin həlli işi ayrı-ayrı dövlətlərin inhisarından alınaraq (bu vaxta qədər bu iş Rusiyanın inhisarında idi) ATƏM-in səlahiyyətlərinə verilmişdir. Ən önəmlisi isə bu idi ki, H.Əliyevin çevik və inandırıcı diplomatiyasının tə'sirilə zirvə görüşündə "Dağlıq Qarabağ konflikti ilə əlaqədar ATƏM-in (bundan sonra ATƏT-in — *müəllif*) fəaliyyətinin intensivləşdirilməsi" qətnaməsi qəbul olundu, çünki 1992-ci ilin martın 24-də Minsk qrupunun yaradılmasından bu günədək konfliktin həlli yolunda bu təşkilat Azərbaycan tərəfini qane edən elə bir mühüm iş görməmişdi. Ən ümumi şəkildə həmin qətnamədə Ermənistan-Azərbaycan konfliktinin tənzimlənməsi sahəsində BMT və ATƏT-in əməkdaşlığı ilə bağlı aşağıdakı məsələlər əksini tapmışdır:

-ATƏT BMT-nin Təhlükəsizlik Şurasının (TŞ) Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki vəziyyətlə bağlı müddəaları ilə razıdır və bunu dəstəkləyir.

-ATƏT BMT TŞ-nın belə bir mövqeyi ilə razıdır ki, hərbi konflikt başa çatdıqdan sonra siyasi müqavilə bağlanmalıdır.

-ATƏT özünün sülhməramlı qüvvələrinin köməkliyi ilə siyasi müqavilənin bağlanması üçün şərait yaratmağa hazırdır. Həmin sülhməramlı qüvvələr 1992-ci il Helsinki Aktının 3-cü bəndinə və BMT-nin Nizamnaməsinə əsasən yaradıla bilər. Bu məqsədlə yüksək səviyyədə Vyana planlaşdırma qrupunun yaradılması nəzərdə tutulur.

-ATƏT təşkilatın ekspert fəaliyyətini tə'min etmək üçün texniki məsləhət köməyi göstərməyə hazır olması naminə BMT-nin Baş Katibinin bəyanatına müvafiq olaraq BMT-dən kömək almağa çalışmalıdır.

-ATƏT özünün sülhməramlı qüvvələrini yerləşdirmək üçün BMT-dən siyasi dəstək (mandat — *müəllif*) almalıdır.

-ATƏT sülhməramlı əməliyyatları təşkil etmək haqqında qərarın BMT-nin TŞ tərəfindən qəbul olunmasına çalışmalıdır.

Hər halda başlıca ideya bundan ibarətdir ki, BMT-nin və ATƏT-in əməkdaşlığı və sə'ylərinin əlaqələndirilməsi Ermənistan-Azərbaycan konfliktinin sülh yolu ilə tənzimlənməsi prosesini daha geniş əhatə etməyə imkan verir. Güman etmək olar ki, iki nüfuzlu təşkilatın birgə sə'ylərinin universal və regional imkanları və vasitələri məcmusundan istifadə etməklə həmin konfliktin beynəlxalq hüquq normaları və prinsipləri, o cümlədən BMT-nin və ATƏT-in Nizamnamələri əsasında həlli üçün zəmin yaratmaq mümkündür. Məsələ burasındadır ki, ATƏT-in bilavasitə hüquqi funksiyası Dağlıq Qarabağa dövlət müstəqilliyinin verilməsinin qeyri-mümkünlüyünü qarşı tərəfə aydınlaşdırmaq, onları bu aksiyanın beynəlxalq hüquq normalarına zidd olduğuna birmə'nalı şəkildə inandırmaqdır. Sonralar Azərbaycan prezidenti ABŞ səfiri R.Kozlariçlə görüşündə Budapeşt sammitinin ölkəmizin siyasi nüfuzu, xüsusilə Azərbaycan-Ermənistan konfliktinə son qoymağa imkan verən xüsusi qətnaməsinin qəbul edilməsinin, həmçinin sülhün qorunması üzrə beynəlxalq qüvvələrin yaradılması haqqında qərarın Azərbaycan üçün əhəmiyyətini qeyd etmişdir [88].

Beləliklə, Azərbaycanın 1992-ci il yanvarın 20-də üzv qəbul olunduğu və həmin il iyulun 10-da sənədlərini imzaladığı ATƏM Budapeşt zirvə görüşündən başlayaraq Qarabağ konflikti ilə daha ciddi məşğul olmağa başlayır. Mühüm uğurlardan biri budur ki, keçmiş iqtidarın səriştəsizliyi sayəsində ATƏM-in birinci zirvə görüşünün (1992) gündəliyinə belə düşməyən Ermənistan-Azərbaycan konflikti H.Əliyev diplomatiyasının tə'sirilə Budapeşt sammitində bütün dünya birliyinin diqqətini cəlb edən,



Azərbaycan-Amerika beynəlxalq dialoqunun ən önəmli problemlərindən birinə çevrildi. Məhz Budapeşt sammitində bu dialoqun səmərəli bəhrəsi olaraq Minsk qrupuna həmsədrlik institutu tə'sis edilmiş ona rəhbərlik Rusiya və Finlyandiyaya həvalə edilmişdir. Mühüm məqam isə bu olmuşdur ki, konflikti tezliklə həll etmək üçün hər iki tərəfə – Ermənistana və Azərbaycana "Böyük sülh sazişi" hazırlamaq tövsiyyə edilmişdir. İndi isə dialoqda başlıca məsələ olaraq bu uğuru genişləndirmək və daha da inkişaf etdirmək dururdu.

Hadisələrin sonrakı inkişafı göstərdi ki, Lissabon sammitinə qədər dövr, 1995-1996-cı illər Birləşmiş Ştatlarla Azərbaycan arasında ikitərəfli əlaqələrin möhkəmlənməsi, Azərbaycan-Amerika dialoqunda Ermənistan-Azərbaycan konfliktinin tənzimlənməsində ABŞ-ın iştirakının daha intensiv xarakter alması mərhələsidir. Adı çəkilən dövrdə ikitərəfli əlaqələrin inkişafına təkan verən mühüm amillərdən biri 1995-ci ilin oktyabrında Azərbaycan prezidenti H.Əliyevin Nyu-Yorkda BMT-nin 50 illiyi ilə bağlı tədbirlərdə iştirak edərkən ABŞ prezidenti B.Klintonla görüşü, eləcə də həmin ilin oktyabr ayının 2-də hər iki prezidentin telefon söhbətləri olmuşdur. Həmin söhbətlərin gedişində dövlət başçıları enerji, Xəzər dənizinin statusu məsələləri ilə yanaşı Ermənistan-Azərbaycan konfliktinin mövcud vəziyyəti ilə bağlı problemləri də müzakirə etmişlər. Təbii ki, burada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konflikti hər iki tərəfin diqqətini daha çox cəlb etmişdir. Çünki hər hansı geosiyasi və geoiqtisadi layihənin həyata keçirilməsi hər şeydən əvvəl regionda normal sabitliyin tə'min olunmasından, qonşuluq münasibətlərinin rəvan qurulmasından asılıdır. Hər iki dövlətin başçısı belə əqidədə olmuşlar ki, bu görüşlər Azərbaycan-Amerika dialoquna yeni impuls vermişdir. Lakin, Azərbaycanın xarici siyasətinin uğuru baxımından yanaşılsa, görüşlərdə ən önəmli məqam B.Klintonun H.Əliyev diplomatiyasını tam dəstəkləməsidir. Sanki bu "dəyərli qiymətləndirmənin" davamı kimi ölkə prezidentinin ABŞ-ın informasiya agentliklərinə, Birləşmiş Ştatların geniş auditoriyalı teleşirkətlərinə verdiyi dərin məzmunlu müsahibələri oldu. Belə ki, Azərbaycan prezidenti hər iki ölkənin milli mənafeləri baxımından dəyərli olan prioritet sahələrə toxunmaqla yanaşı ictimaiyyəti daha çox Ermənistan-Azərbaycan konfliktinin əsl mahiyyəti barədə mə'lumatlandırmağa nail olmuşdu. Azərbaycan diplomatiyasının lideri hər çıxışında öz ölkəsinin xarici siyasətini layiqincə təmsil etmiş, sülhsevər xalqının demokratik dövlət quruculuğu yollarında rastlaşdığı çətinlikləri, xüsusilə bu işdə Qarabağ konfliktinin ən böyük manеə olduğunu televiziya auditoriyasına inandırıcı surətdə çatdırmışdır. İnformasiya blokadasının necə problemlər yaratdığını yaxşı dərk edən Azərbaycan tərəfi həmin dövrdə Birləşmiş Ştatların Rend Korporeyşin, Strateji və Beynəlxalq

Tədqiqatlar Mərkəzi, Con Hopkins Universiteti, İrs fondu və bu kimi analitik mərkəzlərlə əlaqələr yaratmışdır ki, bu da hər iki dövlət arasında həm dialoqun predmetli aparılmasında, həm də Qarabağ konfliktinin geosiyasi köklərinin aydınlaşdırılmasında mühüm vasitə olmuşdur.

Qeyd edək ki, adı çəkilən dövrdə Klinton hökumətinin xarici siyasətində həyata keçirilməsi nəzərdə tutulan mühüm vəzifələrdən biri, daha dəqiq deyilsə, ABŞ-Azərbaycan münasibətlərinin önəmli istiqamətlərindən biri, regionda, xüsusilə strateji mənafelərin çulğalaşdığı Azərbaycanda demokratikləşdirmə proseslərini sür'ətləndirmək, iqtisadi əlaqələri daha da möhkəmləndirmək və genişləndirmək idi. Bu sahədə təbii ki, ən prioritetli problem neft müqavilələrinin reallaşdırılması, birinci konsorsiuma daxil olmayan Amerika neft şirkətlərinin Azərbaycanla uzunmüddətli əməkdaşlığın bünövrəsini yaratmaq idi. Lakin təcrübəli siyasətçi H.Əliyev yaxşı bilirdi ki, böyük strateji və geosiyasi məqsədləri həyata keçirmək üçün regionda "nə müharibə, nə sülh" vəziyyəti heç bir tərəfdaşı, xüsusilə Azərbaycanı qane edə bilməz, çünki dünya praktikasında da görünməyib ki, atəşkəs rejimini əbədi saxlamaq mümkün olsun. Belə bir qeyri-müəyyənlik vəziyyəti Xəzərin statusu məsələsinin də rasional həll olunmasına mane olur, baxmayaraq ki, bu məsələdə ABŞ-la Azərbaycanın mövqeləri üst-üstə düşür. Qeyd edək ki, hələ 1995-ci ilin aprelində ABŞ-ın enerji naziri xanım O'Lirinin Bakıdakı görüşlərində də bu məsələyə toxunulmuşdur. Qarabağ konfliktnin sülh yolu ilə həlli üçün mühüm rol oynayan uzunmüddətli ABŞ-Azərbaycan dialoqunun tərkib hissəsi olaraq 1995-ci ilin iyulunda ABŞ Konqresinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə komisiyasının sədri M.Oksun, avqust ayında isə senator R.Şelbinin Bakıya səfərləri Azərbaycan diplomatları və siyasətçiləri tərəfindən dəyərincə qiymətləndirilmişdir. Oktyabrın 23-də ölkə prezidentinin dünyanın tanınmış siyasətçisi H.Kisincerlə görüşü Azərbaycan-Amerika beynəlxalq dialoqunda maraqlı səhifədir. H.Əliyev amerikalı diplomatın 907-ci düzəlişin ləğv edilməsinə təşəbbüs göstərəcəyinə inandığını bildirmiş, bu işdə öz nüfuzundan istifadə edəcəyinə ümidvar olduğunu vurğulamışdır. H.Kisincer görüşdə bidirmişdir: "ABŞ və Azərbaycan arasında əməkdaşlıq strateji xarakter daşıyır. Bu mə'nada ABŞ coğrafi nöqteyi-nəzərdən olduqca əhəmiyyətli olan bu regionda öz maraqlarını qorumalıdır".

Mə'lumdur ki, regionda sabitliyin və təhlükəsizliyin tə'min olunması konfliktin həlli probleminin tərkib hissəsidir. Buna görə də Azərbaycan-Amerika dialoqunda önəmli yer tutan problemlərdən biri təhlükəsizlik problemidir. Dövlətlərimiz arasında danışıqlarda əsas fəaliyyət mexanizmi olan təhlükəsizlik üzrə dialoq ABŞ ilə Azərbaycan arasında uzunmüddətli əməkdaşlığın mühüm aspektlərindədir. Həmin əməkdaşlığın çox vacib



şərtlərindən biri regional təhlükəsizliyin real tə'min olunmasıdır. Məhz buna görə də ABŞ-ın dövlət katibi U.Kristofer Bakıya H.Əliyevin ünvanına göndərdiyi məktubunda belə bir dialoqun əhəmiyyətini qeyd edərkən göstərmişdi ki, bununla ABŞ Azərbaycanın təhlükəsizliyini, onun ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bildirir. Dialoqda səslənən mühüm fikirlərdən biri də Amerika tərəfinin regional təhlükəsizlik, silahların və hərbi texnologiyaların yayılmaması və ixracına nəzarət etmək məsələləri ilə yanaşı, Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramında iştirakı idi. Azərbaycan öz milli mənafelərini rəhbər tutaraq belə bir dialoqu dəstəkləmiş, onun çərçivəsində konflikt zonasına hərbi silahların göndərilməsinin qarşısını almaq, işğal olunmuş ərazilərdə nüvə tullantılarının basdırılmasına imkan verməmək, narkotiklərin, nüvə materiallarının ötürülməsinin qarşısını almaq və bu məqsədlə e'tibarlı sərhəd və gömrük nəzarəti yaratmaq, neft yataqlarının, kəmərlərinin təhlükəsizliyini tə'min etmək məsələləri ətrafında söhbətlər aparmağa tərəfdar olmuşdur. Azərbaycan tərəfinin özünün milli mənafeləri baxımından dialoqda iştirakında başlıca məqsəd onun potensialından öz təhlükəsizliyini tə'min etmək, ölkəmizin suverenliyinə qarşı riskli hücumlara imkan verməmək, habelə konkret tədbirlər sisteminin işlənib-hazırlanmasında istifadə etməkdir. Lakin bundan ötrü ilk növbədə dialoq iştirakçılarına izah etmək lazımdır ki, Dağlıq Qarabağın dövlət müstəqilliyi statusunu tələb etməsi sadəcə olaraq Azərbaycan hökuməti tərəfindən nəinki qəbuledilməzdir, hətta regionun təhlükəsizliyinə birbaşa ziyandır. Axı, dialoq iştrakçıları yaxşı bilirlər ki, erməni separatçılarının siyasi ambisiyaları nə beynəlxalq birlik, nə də ATƏT tərəfindən dəstəklənə bilməz. Təsadüfi deyildir ki, ABŞ-ın dövlət katibinin müstəqil dövlətlər üzrə səfiri C.Kollinzin 1996-cı il noyabrın 13-də Bakıya səfəri zamanı görüşdə prezident H.Əliyev birmə'nalı şəkildə bildirmişdi ki, erməni millətçilərinin ambisiyalı mövqeyi və onların müəyyən qüvvələr tərəfindən dəstəklənməsi Azərbaycanın atəşkəs rejiminə riayət etməsinə baxmayaraq, respublikamızın ərazi bütövlüyü bərpa olunmamış, minlərlə qaçqınlar hələ də çadrlarda yaşayırlar. Prezident H.Əliyev qətiyyətlə göstərmişdir ki, "Lissabon zirvə görüşü həmin məsələlərin həlli üçün şərait yaratmalıdır". Ümumiyyətlə qeyd edilməlidir ki, 1996-cı il Azərbaycan-Amerika dialoqunda məhsuldar, iki ölkə arasında münasibətlərin strateji əməkdaşlıq və tərəfdaşlıq istiqamətində inkişafı ili olmuşdur.

Lakin Lissabon sammitində baxılacaq Dağlıq Qarabağ konfliktinin həlli yolunda yeni bir əngəl çıxdı. 1996-cı ilin iyun ayında erməni pərəst Amerika qanunvericiləri Konqresin nümayəndələr Palatasında "Porter düzəlişi" deyilən bir sənəd qəbul etdilər. Həmin sənədə görə (əslində

qəbuledilməz proporsiyada) Azərbaycana göstəriləcək humanitar yardım Dağlıq Qarabağa göstəriləcək humanitar yardımla əlaqələndirilirdi.

Qeyd edək ki, "Porter əlavəsi" ABŞ-ın iqtisadi siyasətinin özünəməxsus formada davamıdır. Kapitalın hər sentinin qədrini bilən Birləşmiş Ştatların iqtisadi yardımı özündən asılı olan dövlətlərin siyasi və iqtisadi dəstəyini qazanma formalarından biridir. Son zamanlar ABŞ konqresmenlərini narahat edən məsələ budur ki, vaxtaşırı Vaşinqtondan maliyyə yardımı alan dövlətlər BMT-də səsvermə zamanı Amerikanın əleyhinə mövqe tutmağa başlamışlar. Məsələn, xarici siyasətində ABŞ-ın əleyhinə daha çox çıxan ölkə Hindistandır. O, ən çox Amerika yardımı alan beşinci ölkədir (157 milyon dollar). Hindlilər BMT-də Amerika təkliflərinin 83 faizinin əleyhinə səs vermişlər [89]. Bəs, Azərbaycan hansı günahı işlədib? Respublikamız cəmi 9 milyon dollar yardım alsa da Amerika təkliflərinin əleyhinə bundan 48 faiz az səs verib. Erməni lobbisi, ermənipərəst konqres üzvləri də bundan "bacarıqla" istifadə ediblər. Bununla belə deyilməlidir ki, bu ədalətsiz düzəlişin qanunverici akta çevrilməsinin qarşısının alınmasında Amerika hökumətinin xeyli rolu olmuşdur. Belə ki, Konqresin aşağı palatasının qəbul etdiyi "Porter düzəlişi" ilə bağlı Dövlət Departamentinin rəsmi bəyanatında deyilirdi ki, düzəlişin mətni onsuz da 907-ci düzəliş nəticəsində çox əziyyət çəkən azərbaycanlı qaçqınların vəziyyətini daha da pisləşdirə bilər. Eyni zamanda həmin düzəliş Cənubi Qafqaz regionunda ABŞ-ın mənafelərinə ziddir. Daha önəmli cəhət budur ki, sağlam düşüncə mövqeyindən çıxış edən konqresmenlər Azərbaycanın sərhədlərinin toxunulmazlığını, onun ərazi bütövlüyünün saxlanmasını xüsusi vurğulamışlar. Bu, hər halda Lissabon sammiti ərəfəsində Amerika-Azərbaycan dialoqunda yeni pozitiv mərhələ olmuşdur. Onu da qeyd edək ki, "Porter əlavəsinin" ləğvi ABŞ-da erməni diasporasının və rəsmi Yerevanın sərt tənqidinə mə'ruz qalmış, onlar tərəfindən Birləşmiş Ştatların Azərbaycana münasibətində müsbət dəyişikliklər kimi qiymətləndirilmişdir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi özünün 1996-cı il 18 iyun tarixli bəyanatında erməni tərəfinin "Porter əlavəsi" ilə bağlı kobud təbliğatını Azərbaycan-ABŞ əməkdaşlığına müdaxilə kimi səciyyələndirmişdir.

Lakin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktinə münasibətdə ABŞ-ın mövqeyində baş vermiş dəyişikliklərin parlaq nümunəsi Birləşmiş Ştatların prezidenti B.Klintonun Azərbaycan prezidenti H.Əliyevə ünvanladığı 1996-cı il 8 noyabr tarixli məktubudur. Məktubda Amerika prezidenti Azərbaycanın ərazi bütövlüyünü açıq şəkildə dəstəkləyərək göstərir ki, hərbi konfliktin həlli beynəlxalq hüquq prinsipləri əsasında (dövlət ərazilərini toxunulmazlığını zorla pozmağın, sərhədlərini



dəyişməyin və ərazilərin işğalının yolverilməzliyi *—müəllif)* mümkündür. ABŞ prezidenti xüsusi olaraq vurğulayır ki, Birləşmiş Ştatlar Azərbaycanın tərəfdaşıdır, öz müttəfiqləri ilə birlikdə onun təhlükəsizliyini tə'min etmək təəhhüdünə sadiqdir [90].

Beləliklə, Budapeşt sammitindən keçən dövrdə Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan diplomatiyası son dərəcə məhsuldar və çevik fəaliyyət nümayiş etdirərək, ABŞ kimi qüdrətli və nüfuzlu dövlətlə pozitiv beynəlxalq dialoqu daha da inkişaf etdirməkdə mühüm uğurlar qazanmış, regionda siyasi, iqtisadi və təhlükəsizlik mənafelərini nəzərə almaqla bu ölkə ilə qarşılıqlı faydalı münasibətlər yarada bilmişdir.

Konfliktin tənzimlənməsinə obyektiv yanaşmağa çalışan ABŞ-ın ölkəmizdəki səfirliyi Dağlıq Qarabağda keçirilən "prezident seçkiləri" deyilən tədbirə mənfi münasibət bildirmişdir. Səfirliyin 1996-cı il 29 oktyabr tarixli açıqlamasında bu addım regionda onsuz da zəif olan sabitliyin pozulmasına yönəlmiş və konfliktin tənzimlənməsinə kömək etməyən cəhd kimi pislənmişdir.

Birləşmiş Ştatların Azərbaycana qarşı pozitiv münasibəti ATƏT-in Lissabon sammitində daha bariz şəkildə təzahür etmişdir. Zirvə görüşünün işində Avropa ölkələri, ABŞ və Kanada daxil olmaqla 54 dövlət, o cümlədən müşahidəçi sifəti ilə Asiya və Afrikanın 10 dövləti iki gün ərzində (1996-cı il dekabrın 2-3-də) qlobal problemlərin həllində iştirak etmişlər.

Lissabon sammiti ərəfəsində "Mayak" radiosu bildirmişdi ki, bə'zi icmalçıların fikrincə, belə hadisələr tamaşalara bənzəyir və ciddi problemlərdən və qayğılardan çox uzaqdır. Həqiqətən də belə olur. Lakin bu dəfə şübhəsiz ki, Avropanın, ABŞ-ın, Kanadanın və hətta qismən Asiyanın (İttifaqın keçmiş respublikaları nəzərdə tutulur) nümayəndələri bu və ya digər dərəcədə bizə və gələcəyimizə aid işlərə görə Lissabonda toplaşmışlar, çünki söhbət Avropada uzunmüddətli sabit sistemin yaradılmasından gedir [91].

Müəyyən mə'nada təqdirəlayiq hal budur ki, dünya ictimaiyyəti ATƏT-in pozitiv fəaliyyətinə ümidini itirmirdi. Məsələn, qarşıdan gələn Lissabon zirvə görüşünü şərh edən jurnalist Nikolas Dauti yazırdı: "ABŞ-ı və Kanadanı Rusiya və digər dövlətlərlə birləşdirərək ATƏT tədricən demokratiya, insan və silahlar üzrə nəzarət məsələlərini nəzərdən keçirmək üçün yaxşı və daha nüfuzlu təşkilata çevrilir" [90].

İki zirvə görüşü arasında Azərbaycan diplomatiyasının ən önəmli uğuru dünyanın mürəkkəb problemlərinin həllində aparıcı rol oynayan qüdrətli dövlətin – Birləşmiş Ştatların diqqətini Qarabağ konfliktinə daha çox cəlb edə bilmişdir, Hələ 1996-cı il fevralın 28-də ölkə prezidenti H.Əliyev ABŞ-ın regional konfliktlər üzrə Dövlət Departamenti İdarəsinin rəisi

Cozef Presseli qəbul etmişdi. C.Pressel bildirmişdi ki, Minsk qrupunda fəaliyyətini başlamazdan əvvəl ABŞ-ın Azərbaycanda keçmiş səfiri Riçard Maylzla və indiki səfiri Riçard Kozlariçlə müfəssəl söhbət aparmışdır. Pressel xüsusilə vurğulamışdır ki, ABŞ-ın mövqeyinə görə Minsk prosesi heç də köhnəlməmiş və Dağlıq Qarabağda sülhün yaradılmasında perspektivlərə malikdir [92]. Lakin qeyd edək ki, Bakıya bir neçə dəfə danışıqlar məqsədilə gəlsə də Pressel heç bir kompromisə nail ola bilmədi. Bə'zi mənbələrin mə'lumatına görə o, hətta Azərbaycan tərəfini faktik olaraq hədələyərək bildirmişdi ki, əgər rəsmi Bakı onun şərtlərini qəbul etməsə, atəşkəs haqqında razılıq pozula bilər [93]. Lakin H.Əliyevin qətiyyətli mövqeyi sayəsində ABŞ-ın ikili standart siyasətinə baxmayaraq bu böyük ölkəyə Qarabağ məsələsində xarici siyasətinin fəallaşdırmasının vacibliyi ideyası çatdırıldı.

Birləşmiş Ştatların Ermənistan-Azərbaycan konfliktinin həllinə dərin marağının daha bariz təzahürü bu oldu ki, Klinton hökuməti Qarabağ məsələsinin həlli və ABŞ-ın bu işdə köməyini planlaşdırmaq üçün Lissabon zirvəsi ərəfəsində taktiki gediş etmişdir. 1996-cı il martın 16-da "Nyu-York Tayms" qəzetində B.Kordon yazırdı ki, Klinton hökuməti Dağlıq Qarabağ probleminin həlli və bu işdə Birləşmiş Ştatların mümkün yardımını göstərmək məqsədilə növbədənkənar danışıqlara başlamışdır. Hökumətin təşəbbüsü ilə dövlət katibinin müavinləri Sendi Berqer və Stroub Talbott danışıqlar aparmaq üçün Azərbaycana və Ermənistana gəlmişlər. Onlar birmə'nalı şəkildə bildirmişdilər ki, Birləşmiş Ştatlar Minsk qrupunun fəaliyyətini çətinləşdirən hər bir hərəkəti pisləyir, Qafqaz regionunda sülhü bərpa etmək işində ATƏT-in rolunu dəstəkləyirlər. Yeri gəlmişkən, deyək ki, hadisələri diqqətlə izləyən ABŞ Dağlıq Qarabağda "prezident seçkiləri" deyilən aksiyadan da narahatçılığını bildirmişdir. O dövrdə, 1996-cı il oktyabrın 29-da "Realiz nyus" qəzeti Dağlıq Qarabağda noyabr ayında keçirilməsi nəzərdə tutulan "seçkilərin" yersiz olduğunu göstərmiş, sülh danışıqlarının çox qıcıqlandırıcı bir şəraitdə keçirilməsinin əleyhinə olduğunu dəstəkləmişdir.

Yeri gəlmişkən qeyd edək ki, Lissabona yola düşməzdən əvvəl H.Əliyev jurnalistlərə verdiyi müsahibədə Dağlıq Qarabağda keçirilən "prezident seçkilərini" qanunsuz adlandırmış, beynəlxalq hüquq normalarına zidd olduğunu söyləmişdir. Odur ki, "biz seçkiləri tanımırıq və heç bir beynəlxalq təşkilat, heç bir ölkə bu seçkiləri tanımaz".

Beləliklə, H.Əliyevin rəhbərlik etdiyi nümayəndə hey'əti Lissabona tam hazırlıqla gəlmişdi. Ölkə prezidenti Ermənistan-Azərbaycan konfliktinin həllini, Minsk qrupunun fəaliyyətini, Ermənistanın mövqeyinin bütün aspektlərini, erməni tərəfinin hər cür hücumlarının məqsəd və niyyətlərini irəlicədən analitik təhlil etmişdir. Lissabon sammitinin



konfliktin tam həlli üçün qərar qəbul edə bilməyəcəyini irəlicədən bilən dövlət başçısı H.Əliyev bütün sə'ylərini konfliktin ATƏT-in prinsipləri əsasında həllinə nail olmağa yönəltmişdi. Təsadüfi deyildir ki, zirvə görüşü ərəfəsində Avropa ölkələri nümayəndələri ilə keçirdiyi diplomatik görüşlərində, ölkə rəhbəri problemin məhz ATƏT-in fundamental prinsipləri əsasında həllinin vacibliyini həmişə vurğulamışdır. Odur ki, ümummilli məqsədə söykənən dövlət başçısı Lissabonda özünün strateji və taktiki hərəkətlərini tam müəyyənləşdirmişdir. Prezident H.Əliyev qarşısına qoyduğu məqsədi belə izah edirdi: "Lissabon görüşünün sənədlərində Ermənistan-Azərbaycan konfliktinin sülh yolu ilə həlli üçün yeni imkanlar açılmışdır. Bizim əsas məqsədimiz bundan ibarət idi ki, Lissabonda yüksək səviyyədə görüşdə məsələnin gələcəkdə ədalətli həlli üçün ən çox qəbul edilən düsturun təsdiqinə, yaxud bəyənilməsinə nail olaq" [94]. Bununla yanaşı, H.Əliyev Azərbaycan xalqının ATƏT-dən çox şey gözlədiyini qeyd etməklə yanaşı bunu da haqlı olaraq göstərirdi ki, bu mö'təbər təşkilatın Ermənistan-Azərbaycan konfliktinin həlli yolunda hələ istifadə etmədiyi imkanlar çoxdur. Ölkə başçısı Avropa ölkələrinin, ABŞ-ın və Kanadanın liderlərinə əminliyini bildirdi ki, özünün müstəsna roluna görə ATƏT kontinentdə təhlükəsizlik probleminə ümümavropa miqyası kəsb etdirməyə qabil yeganə təşkilatdır. Özünün bu mövqeyi ilə müstəqil Azərbaycan Respublikası beynəlxalq təşkilatlara hörmətini, onlarla qarşılıqlı fayda şəraitində əməkdaşlığa hazır olduğunu bildirirdi. Beynəlxalq hüquq normalarına hörmət edən beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərində ölkə başçısı göstərirdi ki, Dağlıq Qarabağın "müstəqilliyi" məsələsinin ilk növbədə BMT-nin və AŞ-ın qəbul etdikləri hüquq normalarına zidd olduğundan biz heç zaman Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına razı olmarıq və yol verməriк [95]. Düzgün strateji mövqedə duran Azərbaycan xarici siyasəti Lissabonda dövlət başçıları ilə görüşlərində daim Ermənistan Respublikasının BMT-nin nizamnaməsinə, ATƏT-in prinsiplərinə məhəl qoymadığını dəfələrlə qeyd etmiş, Azərbaycanın ərazi bütövlüyünü tanımadığını, təcavüzün nəticələrini qanunlaşdırmağa cəhd göstərdiyini, Dağlıq Qarabağ üçün müstəqillik əldə etməyə çalışdığını və həmin regionu Ermənistana birləşdirmək niyyətində olduğunu xüsusilə vurğulamışdır. Təbii ki, Lisabon zirvə görüşündə erməni tərəfi də bütün Avropa dövlətlərinin, o cümlədən də ABŞ-ın potensialından tam istifadə etməyə, sammit iştirakçılarının diqqətini belə bir məsələyə xüsusilə cəlb etməyə çalışırdı ki, Azərbaycanın ərazi bütövlüyü Ermənistanla danışıqlar mövzusuna çevrilməməli, Qarabağın muxtariyyəti bundan asılı olmamalı, təhlükəsizlik məsələləri isə yalnız diyarın erməni icmasına aid edilməlidir. Beləliklə, Ermənistanın prezidenti L.Ter-Petrosyan sammitdəki bütün görüşlərində ölkəsinin məkrli diplo-

matiyasını bir daha nümayiş etdirirək, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalmamasını əsaslandırmağa çalışmış, onun həllinin yalnız "özünün milli müqəddəratı" çərçivəsində həyata keçirilməsini ön plana çəkmişdir. Erməni diplomatiyasının "potensialı" yalnız bir absurd ideyaya xidmət edirdi: əgər Dağlıq Qarabağ Azərbaycanın tərkibində qalsa, bu, regiondakı erməni əhalisinin soyqırımı ilə nəticələnə bilər. Məhz elə bu səbəbdən də ölkə prezidenti H.Əliyev erməni tərəfinin zirvə görüşündə tutduğu mövqeyini əsassız və qeyri-konstruktiv cəhd adlandırmışdır [96].

Beləliklə, Azərbaycan bu zirvə görüşündə hərtərəfli potensiala malik erməni diasporasına və lobbisinə arxalanan məkrli düşmənlə üz-üzə durmalı və belə bir şəraitdə əsl Qarabağ həqiqətini dünya ictimaiyyətinə çatdırmaq kimi son dərəcə böyük çətinliyi dəf etməklə qarşılaşmalı olmuşdur. Lakin hadisələrin gedişi göstərdi ki, BMT Nizamnaməsinə və ATƏT-in prinsiplərinə söykənmək hələ heç də əsl həqiqəti çatdırmaq üçün kifayətedici potensiala malik olmaq demək deyildir. Çünki hələ zirvə görüşündən əvvəl mə'lum idi ki, sammitin yekun Bəyannaməsinə Azərbaycan tərəfini qane etməyən düstur, tamamilə qeyri-müəyyən, perspektivli danışıqlar üçün prinsipial əhəmiyyət kəsb etməyən kompromis məsələsi daxil edilmişdir. Lakin işçi qrupunun izahatında göstərilirdi ki, həmin düstur ümumi Bəyannamədən çıxarılmışdır, çünki erməni tərəfi ona konsensus verməkdən imtina etmişdir.

Erməni tərəfi bir daha sübut etdi ki, o, heç bir beynəlxalq hüquq normalarına məhəl qoymur, dövlətlərarası münasibətlərin inkişafında müstəsna rol oynayan "kompromis" və "konsensus" prinsiplərinin diplomatik məzmun və çəkisinə əhəmiyyət vermir. Mə'lumdur ki, hələ 1996-cı ilin aprelində, deməli Lissabon görüşü ərəfəsində Luksemburqda Azərbaycan və Ermənistan prezidentlərinin birgə bəyanatını Avropa mətbuatı konfliktin həllində mühüm addım kimi qiymətləndirmişdi. Bu mə'nada həmin sənəd Erəmənistan-Azərbaycan görüşlərində də ilk mühüm sənəd idi. Həmin sənəddə tərəflər hərbi konfliktin beynəlxalq prinsip və normalara əsasən həllinə sadiq qalacaqlarına söz vermişdilər. Lakin erməni tərəfinin barışmaz mövqeyi nəticəsində Lissabon sammitinin yekun sənədində Azərbaycan tərəfinin israr etdiyi, BMT-nin və ATƏT-in prinsiplərinə cavab verən müddəalar əksini tapmadı. Əvvəlcə Vyanada, sonra isə Lissabonda hazırlanmış Bəyannamənin layihəsində tamamilə başqa bir maddə meydana gəldi. Həmin maddə bundan ibarət idi: Ermənistan-Azərbaycan konfliktini sülh yolu ilə həll etmək, danışıqlar prosesini intensivləşdirmək, atəşkəsi saxlamaq və sülh danışıqlarını davam etdirmək, bununla da tərəfləri razılığa gətirmək lazımdır.

Təbii ki, belə bir yanaşma Azərbaycan tərəfini qane etməzdi. Çünki diplomatiyamızın zirvə görüşündə başlıca missiyası Ermənistan-Azərbaycan konfliktinin həllində ATƏT-in əsas tələblərini həyata keçirmək və erməni siyasətinin təcavüzkar mahiyyətini açıb göstərmək idi. Və bu, Ermənistanın konsensus verib-verməməsindən asılı olmayaraq yekun sənədinin layihəsinə Azərbaycan tərəfinin istədiyi müddəanın daxil edilməsindən və onun müzakirəyə çıxarılmasından asılı idi.



Ermənistanın konsensus verməməsi ilə zirvə görüşündə bütün ATƏT üzvləri mübahisələrin dramatik xarakter alacağını proqnozlaşdırırdı. Lakin Heydər Əliyev diplomatiyası özünün uzaqgörənliyini və çevikliyini bir daha nümayiş etdirdi. İşçi qrupunda çalışan bütün dövlət başçılarının, o cümlədən Minsk qrupu üzvlərinin fəal dəstəyini alan Azərbaycan zirvə görüşü ərəfəsində özünün ilk konstruktiv addımını atdı. Azərbaycan tərəfinin təklif etdiyi və Minsk qrupunun hər iki həmsədrinin dəstəklədiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktinin həlli üzrə ATƏT-in prinsiplərini əks etdirən bənd, Ermənistanın imtina etməsinə baxmayaraq sammitin yekun qətnaməsinə əlavə olundu [97]. Daha doğrusu Azərbaycan diplomatiyasının sə'yi nəticəsində Lissabon sənədi həmin adı çəkilən prinsipləri əks etdirən 20-ci paraqrafla tamamlandı. Lakin erməni tərəfi növbəti dəfə beynəlxalq hüquq norma və prinsiplərinə hörmətsizlik edərək yekun qətnaməsinə səs vermədi. Bununla əlaqədar Dağlıq Qarabağ probleminin Lissabon sammitində müzakirəsi və deməli Qarabağ həqiqətinin dünya ictimaiyyətinə çatdırmaq niyyəti təhlükə altına alınırdı. Lakin vəziyyəti düzgün qiymətləndirən təcrübəli siyasətçi Heydər Əliyev düşünülmüş və eyni zamanda mə'suliyyətli qərar qəbul edərək bütün yekun sənədinə "veto" qoydu. Bu, ölkə başçısının qeyd etdiyi kimi böyük narahatçılıq oyatdı. Ümumiyyətlə görüş iştirakçıları üçün bu gözlənilməz addım oldu. Əslində bununla Qarabağ konfliktinə diqqəti artırmaq sahəsində fəaliyyətimizin yeni mərhələsi başladı [98].

Xüsusi qeyd edilməlidir ki, ölkə prezidentinin bu qərarı dərin diplomatik təhlilə və məntiqə söykənirdi. O, başa düşürdü ki, Azərbaycan özünü dünya birliyinə qarşı qoymamalı, sammitin iki gün gərgin davam edən işinin gedişinə mane olmamalıdır. İkincisi, zirvə görüşündə yaranmış əlverişli vəziyyətdən istifadə edib, xüsusilə dünya dövlətləri tərəfindən Azərbaycanın ərazi bütövlüyünün dəstəkləməsindən, Qarabağ probleminin həllində bizim mövqeyimizi müdafiə etməsindən istifadə olunmalıdır. Ölkə başçısı çıxışlarında və sammit iştirakçıları ilə görüşlərində bir məsələyə xüsusi diqqət yetirirdi. Avropanın sivilizasiyalı inkişafı və təhlükəsizliyi ideyası hamı tərəfindən qəbul edilmiş beynəlxalq qaydalara söykənməli və bu böyüklüyündən və kiçikliyindən aslı olmayaraq bütün dövlətlərə şamil olunmalıdır. Və buna görə də Avropada təhlükəsizliyə tam nail olmaq üçün bütün konflikt ocaqları söndürülməlidir.

Azərbaycan tərəfinin narahatçılıq keçirməsi əbəs deyildi. Çünki hələ 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalı məsələsini bir neçə dəfə müzakirə etmişdir. Dörd qətnamə – 30 aprel tarixli 822 nömrəli, 29 iyul tarixli 853 nömrəli, 14 oktyabr tarixli 874 nömrəli, və 11 noyabr tarixli 884 nömrəli qətnamələr qəbul edilmişdir. Lakin bunların heç biri yerinə yetirilmədiyindən ATƏT-in fəaliyyətini intensivləşdirmək xüsusi məsələ kimi sammit iştirakçılarını da düşündürməyə bilməzdi.

Ermənistan tərəfinə gəldikdə isə başda L.Ter-Petrosyan olmaqla bu ölkənin nümayəndə hey'ətinin məntiqdən uzaq hərəkəti, xüsusilə Ermənistan prezidentinin buraxdığı səhv erməni rəsmilərinin dünya ictimaiyyətinə konfliktin həllində maraqlı olmadığını sübut etdi, xarici siyasətinin təcavüzkar mahiyyətini büruzə verdi.

Azərbaycan prezidenti yaranmış vəziyyətdən istifadə edərək dövlət başçıları ilə, o cümlədən ABŞ-ın vitse-prezidenti A.Qor ilə söhbətlərində Ermənistanın təcavüzkar siyasətini ifşa edir, onun sammitin gedişində nümayiş etdirdiyi ekstremizmi xüsusilə vurğulayırdı.

Lakin Azərbaycan diplomatiyasının xalqımızın milli mənafeləri baxımından daha faydalı fəaliyyəti öz bəhrəsini ATƏT-in sədri Flavio Kotti ilə sammitin yekun iclasından bir qədər əvvəl yaranmış vəziyyət barədə apardığı danışıqlarda verdi. Azərbaycan tərəfinin ədalətli mövqe tutduğunu xüsusi vurğulayan F.Kotti ölkəmizin prezidentini əmin etdi ki, yekun sənədinə üç ədalətli prinsip daxil edəcəkdir. O, qeyd etdi ki, yekun iclasında səsləndiriləcək Bəyanatında Ermənistan—Azərbaycan konfliktinin həmin üç prinsip əsasında həlli məsələsinə xüsusi diqqət yetirəcəkdir. Nəticədə bütün iştirakçıların (Ermənistandan başqa) dəstəklədiyi prinsiplərin əks olunduğu F.Kottinin bəyanatı Lissabon zirvə görüşünün rəsmi sənədi kimi qəbul edildi. Daha dəqiq deyilsə, sammitdə iştirak edən ölkələr (Ermənistandan başqa) Dağlıq Qarabağ konfliktinin tənzimlənməsinin üç prinsipinə səs verdilər:1) Azərbaycan Respublikasının və Ermənistanın ərazi bütövlüyü; 2) Dağlıq Qarabağ Azərbaycanın tərkibində yüksək statuslu muxtariyyət almalı; 3) Dağlıq Qarabağın bütün mülki əhalisinin təhlükəsizliyini tə'min etmək.

Təsadüfi deyildir ki, Pol Qobl Azərbaycan nümayəndələrinin Lissabonda çox böyük nailiyyət qazandığını qeyd etmişdir [99].

ABŞ-ın vitse-prezidenti A.Qorun Azərbaycan prezidentinə göndərdiyi teleqramda isə deyilir: "Fəaliyyətdə olan sədrin bəyanatı sülh axtarışı yolunda dəyərli nailiyyət oldu. Həmin prnsiplər ATƏT-in fundamental konsepsiyaları ilə tamamilə üst-üstə düşür. İndi isə vəzifəmiz – Lissabon sammitinin nəticələrindən səmərəli istifadə etməkdir. [100].



Ermənistan tərəfi isə Lissabon sammitinin nəticələrini, xüsusilə özlərinin diplomatik təcridlik vəziyyətini özünəməxsus şəkildə yozurdular. Belə ki, erməni diplomatlarının fikrincə, Azərbaycan neft kartını ağıllı surətdə "oyuna daxil edərək" özü üçün əlverişli qətnaməni qəbul etdirə bildi. ATƏT-in üzvləri isə ilk növbədə özlərinin eqoist siyasi və iqtisadi, hər şeydən əvvəl, neft mənafelərini güdərək, Azərbaycanı dəstəkləmiş və Ermənistana təzyiq göstərmişdir. Lissabonda Ermənistan gərgin vəziyyətə düşdü. O təklikdə qaldı, heç bir tərəfdən dəstək almadı [101].

Azərbaycan diplomatiyası isə Lissabon sammitinin uğurlarına arxalanmayaraq Qarabağ konfliktində realist və məqsədyönlü mövqe tutmaqla beynəlxalq aləmdə daha inamla siyasi imicini artırmaqda davam edirdi. Azərbaycan Rəepublikasının həmin zirvə görüşündən sonra konfliktin sülh yolu ilə həlli məqsədilə BMT ilə ATƏT-in bağladığı müqavilədə iştirakı, həmin müqaviləyə Heydər Əliyevin təklifi ilə Dağlıq Qarabağın Azərbaycan ərazisinin ayrılmaz hissəsi barədə maddənin əlavə olunması dünya birliyi tərəfindən bəyənilmiş və dəstəklənmişdir. Qətnamənin son variantı, yə'ni Azərbaycan tərəfinin düzəlişi əlavə olunmuş mətni səsə qoyularkən yalnız Ermənistan bunun əleyhinə səs vermiş, bununla da beynəlxalq ictimayyətin konfliktin sülh və ədalət prinsipi əsasında həlli yolunda səylərinə bir daha hörmətsizlik nümayiş etdirmişdir. Ölkə prezidentinin rəhbərlik etdiyi Azərbaycan nümayəndə hey'ətinin konfliktin həlli məsələsində tutduğu düzgün yol və nümayiş etdirdiyi sağlam iradə Qərbin, o cümlədən ABŞ-ın xarici siyasət adamlarının dərin rəğbətinə səbəb olmuşdur.

Təsadüfi deyildir ki, Lissabon zirvə görüşündən sonra Azərbaycan diplomatiyasının və onun lideri H.Əliyevin siyasi imicinin daha da artması Birləşmiş Ştatların Qarabağ konfliktinin həlli sahəsində fəaliyyətinə yeni təkan vermişdir. Bununla bağlı bir neçə məqamı qeyd edək. Məhz buna görə də belə bir məsələnin qeyd edilməsi yerinə düşərdi ki, hər iki respublikanın – Azərbaycanın və Ermənistanın müstəqillik qazanmasından sonra problemin BMT və ATƏT-in əməkdaşlığı çərçivəsində nəzərdən keçirilməsi beynəlxalq birliyin bu konfliktin sülhə və təhlükəsizliyə qorxu kimi qiymətləndirilməsinə siyasi-hüquqi əsas vermişdir [102].

Yuxarıda deyildiyi kimi Azərbaycan tərəfi konfliktin həllində "vasitəçilik inhisarının" bir dövlətin – konkret halda Rusiyanın əlində cəmləşməsini məqbul hesab etmir. Ona görə də qarşıda ilk növbədə ATƏT-də həmsədrlik məsələsi dururdu. Birinci həmsədr Fransa tə'yin olunmuşdur, lakin H.Əliyev bu namizədin Azərbaycan tərəfi ilə razılaşdırılmadığını əsas götürərək haqlı olaraq buna qarşı çıxmışdı. Respublikanın Xarici İşlər Nazirliyi təşəbbüsdə bulunaraq Azərbaycan tərəfi üçün ABŞ-ın dövlət katibinin birinci müavini Strob Talbotun

namizədliyinə üstünlük verdiyini bildirmişdir. Bu da maraqlıdır ki, hələ bu təşəbbüsdən əvvəl diplomatik söhbətlərin birində o dövrdə ABŞ-ın Azərbaycandakı səfiri Riçard Kozlariç belə bir fikir söyləmişdir ki, Madlen Olbrayt və Strob Talbot Azərbaycanın, şəxsən prezident Heydər Əliyevin yaxın dostlarıdır. Ermənistan tərəfindən olduqca soyuq qarşılanan üç sədrlik ideyası məhz belə yarandı. Son nəticədə 1997-ci il fevralın 10-da üç həmsədrlik real fakta çevrildikdən sonra konfliktin həlli yolunda diplomatik cəhdlər və səylər yeni vüs'ət aldı.

Beləliklə, 1997-ci ilin birinci yarısında konflikt tərəflərinin Minsk qrupunda üç sədrlik prinsipini qəbul etməsi, ATƏT-in sədri, Danimarkanın Xarici İşlər naziri Süzen Xristiansenin təklifi əslində Lissabon sammitinin müəyyən etdiyi ikili həmsədrlik prinsipinin pozulması idi. Lakin Xristiansenin fikrincə, Azərbaycan tərəfinin Fransanın həmsədrliyindən imtina etməsi ilə yaranan pat vəziyyətində üçsədrlik "o qədər də pis kompromis variant" deyildir. Beləliklə, ABŞ, Fransa və Rusiyadan ibarət həmsədr dövlətlər hər biri öz regional maraqlarını rəhbər tutaraq, konfliktin həllinə kömək edəcəklərini bildirdilər. Lakin bununla belə o dövrdə Fransua Mitteranın ermənipərəst sosialistlərdən ibarət kabinetinin konfliktin həllinə o qədər də obyektiv yanaşmaması, y'əni erməni tərəfini dəstəkləyəcəyi ehtimalını istisna etməməkdə Azərbaycan tərəfi haqlı idi. İkinci bir tərəfdən də ABŞ-ın həmsədr seçilməsinə məmuniyyətlə razılıq verməsi böyük dövlətin regional konfliktlərin həllində liderlik rolunu bir daha nümayiş etdirməsi demək idi. Üstəlik də beynəlxalq münasibətlərdə Fransanın müəyyən problemlərdə alternativ mövqe tutması ABŞ-ın Qafqaz siyasətində Parisin fəal təşəbbüskarlığını tələb edirdi. Beləliklə, Qarabağ konfliktinin həlli məsələsinin böyük dövlətlərin Qafqazda qlobal mənafelərinin ziddiyyətlər yaratdığı şəraitdə mənafelər sistemində önəmli yer tutması regionda diplomatik mübarizənin müəyyən mə'nada hərəkətverici qüvvəsi kimi çıxış etməyə başlayır. Bir sözlə Qafqaz yeni geosiyasi məkana çevrilmişdir. Rəsmi Bakının bir daha Dağlıq Qarabağa Azərbaycan tərkibində geniş muxtariyyət verməsi" barədə təklifi ATƏT-in həmsədr dövlətlərinin fəaliyyətinə yeni stimul verdi. Bunun ardınca Qarabağ konflikti Moskvada E.Primakovla M.Olbraytın görüşündə ciddi müzakirə predmeti oldu, artıq 1997-ci ilin mayında qarşı duran tərəflərin başçılarına şəxsən Rusiya prezidenti B.Yeltsin tərəfindən müraciət olundu. O, müraciətində Azərbaycanın ərazi bütövlüyününün tə'min olunması, qaçqınların Şuşaya və Şaumyan rayonlarına qaytarılması, "DQR"-nın təhlükəsizliyini və onun xarici aləmlə maneəsiz əlaqəsini təmin etmək məsələlərini qoymuşdu. Çox qəribədir ki, Rusiya prezidenti Dağlıq Qarabağ Muxtar Vilayət deyil, "Dağlıq Qarabağ Respublikası" anlayışını



işlədir. Bu hər halda o dövrdə Yeltsin hökumətinin problemə obyektiv yanaşmadığından, açıq-aydın ermənipərəst mövqeyindən xəbər verirdi.

Təbii ki, belə bir şəraitdə Azərbaycan tərəfinin ABŞ-la sıx əməkdaşlığa üstünlük verməsi daha düşünülümüş diplomatik addım idi. Elə buna görə də, 1997-ci ilin yanvarın 7-də Madlen Olbraytın dövlət katibi seçilməsini Amerika-Azərbaycan dialoqunun tərəfdarları ümidlə qarşılamışdılar. O, artıq senatda özünün ilk çıxışında Kiprdəki problemlərə və Dağlıq Qarabağ konfliktinin tənzimlənməsinə xüsusi yer ayırmışdı.

Ümumiyyətlə deyilməlidir ki, 1997-ci ilin 1-ci yarısı beynəlxalq münasibətlər prosesində Azərbaycan-Amerika dialoqu intensivliyinə görə ən önəmli yer tutur. Təqdirəlayiq haldır ki, Lissabon zirvə görüşündən sonra Senatın Beynəlxalq İşlər üzrə komissiyası qarşısında çıxış edərkən M.Olbrayt regionda ABŞ-ın mühüm iqtisadi-siyasi və humanitar mənafelərinin olduğunu və bunların həyata keçirilməsi üçün maksimum səylər göstərməyin vacibliyini vurğulamaqla yanaşı həmçinin qeyd etmişdir ki, bizim tə'sirimizi gücləndirmək istiqamətində addım kimi konqres Azərbaycana qeyri-hərbi yardımda məhdudiyyətləri götürə bilərdi" [103]. Aydındır ki, söhbət bu günə kimi Amerika-Azərbaycan əməkdaşlıq münasibətlərinə mane olmaqda davam edən 907-ci düzəlişdən gedir. Doğrudur, sammitdən sonrakı dövrdə bu sahədə müəyyən işlər görülmüşdür. Məsələn, həmin il aprelin 1-də konrqesmen Bred Şermanın Dağlıq Qarabağa birbaşa yardım haqqında düzəlişi rədd edilmişdir, lakin "Azərbaycan axıra kimi demokratik ölkə kimi tanınmadığından" 907-ci düzəliş qüvvədə saxlanmışdı. Bu təbii ki, ABŞ-la geniş miqyaslı əlaqələr yaratmağa, hər şeydən əvvəl uzun sürən konfliktin həllinə mane olurdu.

Odur ki, prezident H.Əliyevin ABŞ-a rəsmi səfəri ərəfisində 907-ci düzəlişin ləğvi problemi Azərbaycan xarici siyasətinin ən böyük qayğısına çevrilmişdir. Artıq 1997-ci ilin iyulunda konqresmen L.Kinq 907-ci düzəlişi ləğv edən bir düzəliş irəli sürmüşdür. Senator inandırmağa çalışırdı ki, ABŞ-ın Azərbaycana göstərdiyi yardımlara qoyulan bütün məhdudiyyətlərin aradan götürülməsinin vaxtı çatmışdır. Onun təşəbbüsü sayəsində 1998-ci ilin martında konqresmenlər L.Hamilton, Q.Edvars, C.Solomon, D.Rorabeker, Ç.Heqel 907-ci düzəlişin ləğvini dəstəkləmişlər. Lakin onların bu düzəlişini müvafiq komitədən uğurla keçirmək üçün komitənin on nəfərə yaxın üzvünün dəstəyinə nail olmaq lazımdır ki, həmin məsələ səsə qoyulduqda müsbət nəticə alınsın.

Həmin ilin iyulunda senator S.Braunbakın "İpək yolu strategiyası"nı da 907-ci düzəlişin ləğvinə yönəlmiş ciddi addım hesab etmək olar. Amerika senatoru öz layihəsində göstərirdi ki, ABŞ Qafqaza və Orta Asiyaya Avroasiya dəhlizi yaratmaq məqsədilə miqyaslı yardım etməlidir. Əgər belə olarsa, həmin layihə Avropa ölkələri və Mərkəzi Asiya ölkələri ilə

Qafqaz vasitəsilə etibarlı əlaqə yaratamaqda, strateji əlaqələrin formalaşdırılmasında mühüm rol oynaya bilər. Layihə müəllifinin fikrincə, bu təşəbbüs geosiyasi və iqtisadi əhəmiyyət kəsb edir.

Senator S.Braunbakın təşəbbüsü sayəsində 1998-ci ilin yayında elə bir vəziyyət yaranmışdır ki, qanun layihəsinin sponsorlarından biri R.Luqarın fikrincə, "İpək yolu strageyası haqqında" qanunun həmin ildə bəyənilməsi ehtimalı 50/50 olmuşdu. L.Luqar artıq bu barədə Tbilisidəki mətbuat konfransında (24.08.98) demişdir. Hər halda qeyd edilməlidir ki, Senatın beynəlxalq münasibətlər üzrə komitəsində səsvermədə səslərin nisbəti 8/10 olmuşdur ki, ilk dəfə olaraq səs çoxluğu ilə həmin qanun layihəsi çərçivəsində Azərbaycana yardım göstərməkdə müəyyən manеələr aradan qaldırılmışdır. "İpək yolu" strategiyası faktik olaraq 907-ci düzəlişin saxlanılmasını mə'nasız etmişdir. Çünki, "strategiya" çərçivəsində ABŞ konqresi region ölkələrinə, o cümlədən Azərbaycana geniş kömək göstərməyin zəruriliyini təsdiq etmiş oldu. Bu isə çox incə düşünülmüş yanaşmadır.

Daha sonra ayrılmış məbləğ üzrə senat komitəsinin iclasının gedişində 1998-ci maliyyə ili üçün xarici əməliyyatlar üzrə ayrılmış məbləğ haqqında qanun layihəsi qəbul edilmişdir. Komitə hələ 1997-ci ildə 907-ci düzəlişdə edilmiş bütün istisnaları təsdiq etdi, yə'ni ABŞ bunula dövlət maliyyə institutuları çərçivəsində həyata keçirilən hər bir layihəni dəstəkləmiş, humanitar yardım etməyi, sərhəd nəzarətinə kömək göstərməyi təsdiqləmişdir. Bundan əlavə, senator Berdin qanun layihəsinin müşayiətedici mətninə belə müddəanı daxil etmək təklifi qəbul olunmuşdur. ABŞ-ın maliyyə institutları Bakı-Ceyhan kəmərinin maliyyələşdirməsinə də'vət olunurdu. Burada həmçinin belə bir məsələ öz əksini tapmışdır: ABŞ-ın ticarət nazirliyindən xahiş edilir ki, 1999-cu ilin martın birinədək Konqresə ABŞ-ın neft kəmərinin kommersiya cəlbediciliyi üzrə fəaliyyəti haqqında mə'ruzə təqdim etməsi məqsədilə dövlət katibi ilə məsləhətlər aparsın. Həmin qanun layihəsi 1998-ci il sentyabrın 1-də Senatın iclasında təsdiq olunmuşdur. Əhəmiyyət kəsb edən budur ki, 1998-ci ilin sentyarbın 10-da Nümayəndələr Palatasının Komitəsində uzun sürən diskusiyalardan sonra 907-ci düzəlişi ləğv etməyi nəzərdə tutan qərar qəbul edilmişdir. Göründüyü kimi, ölkə başçısı H.Əliyevin ardıcıl və çevik diplomatik fəaliyyəti sayəsində konqresmenlərin bir qismi tədricən olsa da Azəbaycanın mövqeyini dəstəkləməyə başlamışlar. Lakin daha önəmli cəhət budur ki, 907-ci düzəlişlə bağlı diskusiyalarda bir çox senator və konqresmenlər həmin düzəlişin saxlanılamasının Birləşmiş Ştatların regiondakı mənafelərinin həyata keçirilməsində böyük əngəl olduğunu xüsusi vurğulamışlar. Məsələn, senator-demokrat L.Berd ABŞ-ın Azərbaycana münasibətinin "etnik" (ermənilər nəzərdə tutulur) və seçkiqabağı siyasətin tə'siri altında olduğunu qeyd etmişdir. Göstərmək yerinə düşərdi ki, L.Berdin mövqeyinin bir çox samballı siyasətçilər də dəstəkləmişlər. Məsələn, səfir Armitac Azərbaycana yardıma qadağan qoyulmasını "dözülməz düzəliş", eks-nazir Çeyni isə "kökündən səhv" hərəkət adlandırmışdır.

Hər halda ehtimal etməyə əsas var ki, əldə edilən uğurlarda keçmiş dövlət katibi Madlen Olbraytın H.Əliyevlə diplomatik söhbətlərinin xidməti az olmamışdır. Mə'lum olduğu kimi, o, hələ dövlət katibi təsdiq olunması ərəfəsində Konqresdəki çıxışında göstərmişdi ki, Birləşmiş Ştatlarla Azərbaycan arasında normal münasibətlərin yaradılması üçün 907-ci düzəlşin ləğvinin böyük əhəmiyyəti vardır. Lakin qətiyyətlə demək olar ki, Qarabağ konfliktinin həllində ən mühüm mərhələ Azərbaycan prezidenti Heydər Əliyevin 1997-ci il avqustun 1-də Birləşmiş Ştatlara rəsmi səfəri olmuşdur. Qeyd edək ki, səfərə hazırlıq hələ 1997-ci ildə mart ayında dövlət katibinin köməkçisi E.Nyusomun, həmçinin ABŞ prezidentliyinə keçmiş namizəd C.Andersonun Bakıya gəlişi ilə başlamışdır. Bu iki diplomatın prezident Heydər Əliyevlə konstruktiv söhbətləri artıq bunu deməyə əsas verirdi ki, Azərbaycan-Amerika beynəlxalq dialoqunda keyfiyyətcə yeni mərhələ başlayır. Səfər ərəfəsində "Krisçen Sayens Monitor" qəzetində dərc olunan bir məqalə xüsusi maraq doğurur. Burada nüfuzlu konqresmen Li Hamilton öz yazısında vicdanla e'tiraf edir ki, 1992-ci ildə o, 907-ci düzəlişin qəbul olunmasını dəstəkləmişdir. Lakin indi üstündən 5 il keçəndən sonra (1997) e'tiraf etməyə məcburdur ki, bu əlavə ABŞ-ın xarici siyasətinə ziyan vurmuşdur [104].

Həmin dövrdə, ölkə prezidentinin Birləşmiş Ştatlara səfərə hazırlaşdığı mərhələdə, ABŞ-ın dövrü mətbuatını vərəqləyərkən bu ölkənin aparıcı siyasətçilərinin, hökumət üzvlərinin, konqresmenlərinin görüşlərində, xüsusilə regiondakı hadisələrə baxışlarında baş verən təkamülü görmək çətin deyil. Məsələn, 1997-ci ilin iyulun 21-də Con Hopkins universitetində çıxış edərkən ABŞ-ın dövlət katibinin müavini S.Talbott bəyan etmişdir ki, Azərbaycan ABŞ-ın xarici siyasətində xüsusi rol oynayır və ona görə də Birləşmiş Ştatların birinci dərəcəli vəzifəsi Qafqazda konfliktləri tənzimləməkdir. Bunula əlaqədar olaraq o Azərbaycan prezidentinin Birləşmiş Ştatlara qarşıdakı səfərinin əhəmiyyəini xüsusi qeyd etmişdir [105]. Tanınmış Amerika siyasətçisi Zbiqnev Bjezinski Bakıda olarkən qeyd etmişdir ki, Heydər Əliyevin ABŞ-a səfəri doğurdan da epoxal, tarixi hadisədir və bunu ümumiyyətlə regionda yeni dövrün başlağıcı kimi qiymətləndirmək olar.

Həqiqətən də Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin ABŞ-a səfəri çox məhsuldar olmuş, xüsusilə Qarabağ konfliktinə Amerika cəmiyyətinin müxtəlif təbəqələrinin cəlb edilməsi baxımından olduqca

önəmli yer tutmuşdur. Azərbaycanın rəhbəri ABŞ-a səfərini yüksək qiymətləndirərək qeyd edirdi ki, o hər yerdə Birləşmiş Ştatların ölkəmizə böyük maraq və hörmətinin şahidi olmuşdu. Bu səfər gələcəkdə hərtərəfli əməkdaşlığımız üçün mühüm zəmin yaratmışdı. O, Amerika dövlətinin rəhbərləri ilə görüşündən sonra bəyan etmişdi ki, "Azərbaycan və ABŞ arasında konstruktiv tərəfdaşlıq münasibətləri yaranmışdır. Bu görüşdən sonra həmin münasibətlər daha da inkişaf edib artacaqdır. Mən bunların hamısını yüksək qiymətləndirirəm".

Azərbaycan Respublikası prezidentinin ABŞ-a səfərinin başlıca məqsədi iki ölkə arasında 907-ci düzəlişin ləğv edilməməsi ucbatından yaranmış mürəkkəb və ziddiyyətli münasibətlərin tədricən rəvan məcraya salınması və qarşılıqlı, milli mənafelərə hörməti, faydalı və strateji əməkdaşlığa söykənən diplomatik münasibətləri genişləndirmək idi. Səfərin ilk günlərindən ABŞ-ın siyasi elitası dərk etdi ki, amerikalılar bu gün Heydər Əliyevin simasında dünya siyasətinin önəmli şəxsiyyətlərindən olan, xalqın müstəqilliyinin əbədiliyinə dərindən inanan ümummilli liderlə əməkdaşlıq edirlər. Təsadüfi deyildir ki, "AMOKO" korporasiyasının direktorlar Şurasının sədri Lourens Fuller Azərbaycan televiziyasının müxbirinə verdiyi müsahibəsində demişdir: "Sizin prezident çox uzaqgörən və müdrik siyasətçidir. Onun rəhbərliyi altında sizin gözəl ölkənizdə daha yüksək həyat səviyyəsinə nail olunacaq, sizin ölkəniz daha da inkişaf edəcək".

Dövlətimizin başçısı Azərbaycanı, onun əməksevər xalqını Amerika ictimaiyyətinə tanıtmaq, xalqın taleyüklü problemlərinə görkəmli siyasətçilərin nəzərini cəlb etmək üçün çoxlu sayda görüşlər keçirmiş, Birləşmiş Ştatlarla Azərbaycanın siyasi dialoqunun genişləndirilməsinin hər iki ölkə üçün müstəsna əhəmiyyət kəsb etdiyini dəfələrlə vurğulamışdır. Görüşlərdə rəsmi şəxslərlə polemik söhbətlərdə razılıq əldə olunan məsələlər 1997-ci il avqust ayının 1-də Vaşinqtonda açıqlanmış "Amerika-Azərbaycan münasibətləri haqqında birgə bəyanatda" əksini tapmışdır. Birləşmiş Ştatlarda prezident Heydər Əliyevlə görüşməkdən məmnun olan siyasətçilər, konqresmenlər, senatorlar, iş adamları qeyd edirdilər ki, xarici siyasətimizin uğurlu aparılması sayəsində əldə olunmuş atəşkəs rejimi respublikamızda sabitliyin tə'min edilməsinə, Azərbaycanın digər dünya dövlətləri, o cümlədən ABŞ-la hərtərəfli əlaqələrinin, xüsusilə beynəlxalq dialoqun genişlənməsinə əlverişli şərait yaratmışdır. Lakin dövlətlərarası dialoqun gedişini mürəkkəbləşdirən 907-ci düzəliş hər iki ölkənin həllinə sə'y göstərdiyi problem kimi qalmaqda idi. ABŞ prezidenti Bill Klinton əvvəllər olduğu kimi avqustun 1-dəki görüşdə də birmə'nalı şəkildə bildirmişdi ki, 907-ci düzəliş ləğv olunmalıdır. Qeyd edək ki, bu tələb hər iki prezidentin imzaladığı sənəddə də öz əksini



tapmışdır. Bu da təbiidir, çünki sağlam düşüncə mövqeyində duran hər bir siyasətçi və işgüzar adam bilir ki, bu iki ölkə arasında dialoqun normal və qarşılıqlı fayda əsasında qurulması üçün bir çox maneələr, hər şeydən əvvəl isə, 907-ci düzəliş aradan götürülməlidir. Yeri gəlmişkən, qeyd edək ki, bu tələb ABŞ prezidentinin mətbuat katibi Mak Makkafinin Ağ evdə kütləvi informasiya vasitələrinin nümayəndələri üçün keçirdiyi mətbuat konfransında xüsusi səslənmişdir. Ağ evin nümayəndəsinə müxbirlərdən birinin "Azərbaycana yardım göstərilməsinə qadağa qoyan 907-ci maddə ilə əlaqədar Amerika hökumətinin mövqeyi necədir?" sualına o, cavabında demişdir: "Bill Klinton konqresin bu qərarını belə qiymətləndirir ki, bu prezidentin Konstitusiya ilə ona verilmiş hüquqlarını pozur və xüsusilə xarici siyasəti səmərəli surətdə həyata keçirməkdə ona mane olur. Biz 907-ci maddənin ləğv olunmasının qət'i surətdə tərəfdarıyıq. Biz konqres ilə birlikdə çalışacağıq ki, xarici yardımlara qadağa qoyan bu cür qanunverici aktların qəbul olunması təcrübəsinə son qoyulsun."

Qeyd edək ki, Azərbaycan prezidenti 907-ci düzəlişin ləğvi yolunda hər bir Amerika siyasətçisinin təşəbbüsünə və sə'yinə konstruktiv yanaşaraq ABŞ siyasi elitasının Azərbaycan-Amerika beynəlxalq dialoqunun daha pozitiv məcrada aparılması üçün önəmli rolunu düzgün qiymətləndirirdi.

Azərbaycan rəhbərinin ABŞ-a səfərini diqqətlə izləyənlər bilirlər ki, yerli mətbuatda onun haqqında iki yüzə yaxın məqalə çap olunmuşdur. Dövlət başçısının dərin siyasi intellekti ona böyük imic gətirmişdi. Heydər Əliyevin səfəri və onun nəticələri Azərbaycanın beynəlxalq nüfuzunu xeyli artırmışdır. Lakin ölkə liderini daha çox sevindirən, onun özünün dediyi kimi, nəhayət, həm Amerikanın dövlət dairələrində, həm Konqresdə, həm də ictimaiyyətdə 907-ci düzəlişin ədalətsiz və əsassız olması barədə rəy'in formalaşması idi. Analitiklərin fikirincə, bunun başlıca səbəbi isə Heydər Əliyev şəxsiyyəti, onun müdrükliyi, təfəkkür məntiqi, analitik ağlı, qətiyyəti və əqidəsi olmuşdur. Amerika jurnalistlərini də Azərbycan liderinin məhz bu keyfiyyətləri heyran edirdi. Onları ən çox təəccübləndirən o idi ki, ölkəmizin başçısı bütün brifinqlərdə heç bir sualdan yayınmır, müxbirlərə dolğun cavablar verirdi.

Respublika prezidentinin ABŞ-a rəsmi səfəri daha bir mühüm sosial tendensiyanı aşkar etdi. Azərbycanın ABŞ-da və Qərb aləmində nüfuzu artdıqca Ermənistan və xüsusilə onun arxalandığı ölkələr Qafqazdakı tə'sir nüfuzunu itirməyə başlayırdı. Əslində destruktiv mövqe tutan həmin dövlətlərin Ermənistanın haqsız mövqeyini müdafiə etmək imkanları azalır, regionda ABŞ-ın mövqeyi güclənir, nüfuzu artırdı. Bütün Qərb ökələri kimi ABŞ da Qafqaz bölgəsində sülhün bərqərar olmasına, gənc demokratik dövlətlərdə demokratiyanın möhkəmləndirilməsində maraqlıdırlar. Siyasi reallıqların məntiqi göstərirdi ki, dövrün qlobal və Qafqazın

lokal tələbləri çərçivəsində Azərbaycanla ABŞ-ın milli mənafeləri demək olar ki, üst-üstə düşür. Dünya birliyi getdikcə əmin olur ki, ölkəmiz sülhsevər Qafqaz uğrunda mübarizə aparan bütün beynəlxalq təşkilatların mövqeyini bəyənir və dəstəkləyir. Ermənistan isə özünün ekstremist siyasəti ilə dünya ictimaiyyətinə meydan oxuyur, beynəlxalq hüquq normalarına hörmətsizlik nümayiş etdirir. Azərbaycan prezidenti ABŞ-da son görüşlərində bir daha e'lan etdi ki, onun ölkəsi Qafqaz konfliktinin sülh yolu ilə həllinin tərafdarıdır. Və Dağlıq Qarabağa yalnız Azərbaycan tərkibində yüksək avtonomiya verməyə hazırdır.

Beləliklə, ölkəmizin prezidentinin ABŞ-da bütün səviyyələrdə apardığı danışıqlar bir daha göstərdi ki, Azərbaycan-Amerika beynəlxalq dialoqu yüksələn xətt üzrə inkişaf edir.

İndi isə Azərbaycan diplomatiyası qarşısında mühüm vəzifə – ABŞ-ın və marağı olan beynəlxalq institutların dəstəyi ilə əldə edilmiş uğurları möhkəmlətmək, Azərbaycan-Amerika dialoqununu daha konstruktiv əsaslarda genişləndirmək idi.

Təqdirəlayiqdir ki, bu işdə ciddi addımlardan biri məhz ABŞ tərəfindən atıldı. Birləşmiş Ştatlarda 1998-ci il martın 19-da ABŞ senatoru Sem Braunbek Asiya cəmiyyətində Böyük İpək yolu ilə bağlı qısa, lakin məzmunlu nitq söyləmişdir. ABŞ diplomatı öz ölkəsinin regionda olan mənafelərini qeyd etməklə yanaşı, bu yolun salınmasının onun əhatə etdiyi ərazidə sülhün və demokratiyanın bərqərar olunmasında rolunu xüsusilə vurğulamışdır. Senatorun fikrincə, həm Birləşmiş Ştatların, həm də İpək yolunda yerləşən dövlətlərin ümdə mənafelərinə cavab verə biləcək mühüm amil bu strateji bölgədə konfliktlərin həll olunmasıdır. Onun fikrincə, bu sahədə ABŞ daha aktiv rol oynamalıdır [106]. Bununla belə, Birləşmiş Ştatlar dövləti nəzərə almalıdır ki, konfliktlərin həllini tarixən mürəkkəbləşdirən mühüm amil hələ də qalmaqdadır. Belə ki, hələ Sovetlər dövründə sərhədlər bilərəkdən elə bölünmüşdür ki, onların arxasında qalan xalqlar öz müstəqilliyinə can atmasınlar, əks təqdirdə regionda sabitsizlik yaranar, etnik ziddiyyətlər meydana çıxa bilər. Sirr deyildir ki, hazırda Qarabağ konfliktini yaradan amillərdən biri məhz "sərhəd özbaşınalığıdır".

Amerika senatorunun bu mülahizələri ilə razılaşmamaq mümkün deyildir. Vaxtilə Azərbaycanın tarixi ərazisinin tərkib hissəsi olan Zəngəzurun Ermənistana verilməsi də sosial-inzibati ədalətsizliyin bariz nümunəsidir. Senator ümumiyyətlə regionda baş verənləri real qiymətləndirir. O, Rusiyanın Ermənistana bir milyard dollar dəyərində silah verməsini regionda konflikti daha da gərginləşdirən amil adlandırır. S.Braunbek regionda Rusiyanın iqtisadi və kommersiya maraqlarını da yaxşı təsəvvürünə gətirir və hesab edir ki, Rusiyanı bölgədəki iqtisadi



inkişafa cəlb etməklə burada sabitliyə nail olmaq mümkündür. Lakin Rusiyanın özünün mövqeyi də müəyyən mə'nada konflikt yaradan faktordur, çünki o dövrdə bu ölkənin rəhbərliyi regiondakı tə'siri ilə mənafeləri arasındakı fərqi nəzərə almırdı. B.Yeltsinin regionda "neft kəmərləri müharibəsi" bəyanatı ilə Qərbin "Rusiyanın milli mənafelərini nəzərə almamaq" mülahizələri əsasında konfliktin baş verməsi o qədər də xoşa gələn hal deyildi, ona görə də sabitliyə ziyan vururdu. Amerika senatoru hesab edirdi ki, regionda belə ziddiyyətli münasibətlərin yaranmasının nəticəsidir ki, B.Yeltsin 1997-ci ilin sonunda Rusiya təhlükəsizlik orqanlarına ABŞ-ın bölgədə "müdaxiləsini tarazlaşdırmaq" (oxu-dağıtmaq) üçün "yollar və vasitələr" axtarmağı tapşırmışdır [107]. Buna görə də, onun fikrincə, Birləşmiş Ştatlar regionda demokratiyanın, dözümlüyün və vətəndaş cəmiyyətinin inkişafına kömək etməlidir, çünki bu, ABŞ-ın bölgədə sabitliyin yaranmasına real köməyi olardı.

Bu da təbiidir ki, adı çəkilən bölgədə arzu edilən sülhün olmaması müəyyən mə'nada ABŞ-ın Qarabağ konfliktində ikili standart mövqe tutmasından irəli gəlir. Belə ki, Vaşinqtonun Azərbaycanda iqtisadi, bütövlükdə Cənubi Qafqazda isə strateji maraqları onu regionda məhz belə bir addım atmağa "vadar" edir. Məsələn, Nümayəndələr Palatasının məbləğ buraxmaq üzrə komitəsinin 1998-ci il 10 sentyabr tarixli iclasında Porterin təklif etdiyi kompromis düzəlişini götürək. Burada göstərilir ki, əgər prezident konqresə mə'lumat versə ki, 1) Azərbaycan hökuməti konflikti tənzimləmək məqsədilə Dağlıq Qarabağ konfliktində qarşı tərəflə qeyd-şərtsiz birbaşa, yaxud vəkil edilmiş şəxslər vasitəsilə danışıqlara razılıq versə; 2)Azərbaycan hökuməti Ermənistana və Dağlıq Qarabağa maneəsiz ərzaq və beynəlxalq humanitar yardımın tranzitinə icazə versə, 907-ci düzəliş ləğv edilə bilər.

Belə təsəvvür yaranır ki, ABŞ konqresinin bə'zi üzvləri ümumiyyətlə Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınmasından sanki xəbərsizdirlər. Və bir də ki, işğalçı dövlətlə bu cür təklif olunan "mehriban qonşuluq əlaqələri yaratmaq" nə dərəcədə mümkündür? Bundan əvvəl 1998-ci il iyulun 21-də həmin komitənin iclasında açıqca deyilmişdir ki, Azərbaycan hökuməti Ermənistana və Dağlıq Qarabağa qarşı "bütün blokadalara və bütün təcavüzkar qüvvədən istifadəyə son qoysun". Çox qəribə, ədalətsiz səslənir: Dövlət Departamenti real "təcavüzkar qüvvə" olan Ermənistanı niyə nəzərə gətirmir? Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağa qarşı hansı zor işlətməkdən söhbət gedə bilər. ABŞ-ın Ermənistanı vaxtında təcavüzkar tərəf kimi tanımaması nəinki konfliktin həllinə kömək etmişdi, əksinə regionda gərginliyin indiyə qədər "dondurulmasına" gətirib çıxarmışdır. Doğrudur, necə deyərlər, "buz Ki-Uestdə sındı". Lakin bu barədə bir qədər sonra. Hadisələrin sonrakı

inkişafını dəqiq söyləmək çətindir. Yalnız bir məsələ aydındır: dünya dövlətləri regionda əsl təcavüzkarı tanımadıqca sabitliyin uzun sürməsinə tə'minat vermək çətin olacaqdır.

Qarabağ konflikti İstanbul sammitinin də (1999) mövzusu olmuşdur. 1999-cu il noyabrın 19-da ABŞ prezidenti Bill Klintonla konstruktiv diplomatik söhbətində H.Əliyev Amerika-Azərbaycan dialoqunun bundan sonra da davam edəcəyinə ümid etdiyini bildirmiş, hər iki dövləti narahat edən Dağlıq Qarabağ konfliktinin sülh diplomatiyası sayəsində tezliklə aradan qaldırılması ilə bağlı faydalı təklifləri müzakirə etmişdir. Prezident H.Əliyev bir daha əmin olduğunu söyləmişdir ki, Ermənistan-Azərbaycan konfliktinin sülh yolu ilə həllində ATƏT-in rolu xüsusi olmalıdır. Həmin məsələdə tərəflərin fikirlərinin üst-üstə düşdüyünü bildirən ABŞ prezidenti qeyd etmişdir ki, Amerika tərəfi ATƏT-in fəaliyyətini intensivləşdirmək üçün öz sə'ylərini əsirgəməyəcəkdir. İstanbul zirvə görüşündə iştirak edən M.Olbraytla söhbətlərdə də Qarabağ konflikti ciddi müzakirə obyekti olmuşdur.

Konstruktiv anlaşma şəraitində keçən İstanbul görüşlərində tərəflər belə bir qənaətə gəlmişdilər ki, konfliktin həllində ölkə prezidenti Heydər Əliyevin həyata keçirdiyi düzgün strateji xətt həm Azərbaycanın, həm də ABŞ-ın regiondakı milli maraqlarına uyğun gəldiyini bir daha sübut edir. Bu özünün bariz nümunəsini Ki-Uest görüşlərində tapdı.



*IV FƏSİL*

## Kİ-UEST: KONFLİKTİN HƏLLİ STRATEGİYASINDA YENİ SƏHİFƏ

***Ermənistan hər vəchlə Azərbaycanın ərazisinin bir hissəsini qoparmağa, özünə birləşdirməyə və ya Dağlıq Qarabağ üçün müstəqillik statusuna nail olmağa çalışır... Biz konfliktin sülh yolu ilə tam tənzimlənməsinə nail olmaq üçün sə'ylər göstərəcəyik.***

*Heydər Əliyev*

Bu gün Qarabağ problemi siyasi risk və insani ümidlər predmetinə çevrilmişdir. Ümumiyyətlə, siyasət və risk bir-birindən ayrılmazdır. Riskə getməyən siyasətçi siyasətçi deyil, yaxud o, ən azı, professional deyil. Tarix boyu sağlam düşüncəni me'yar seçmiş görkəmli diplomatlar həmişə deyiblər: Riskə gedin, mümkün olmayanı tələb edin, lakin realist olun. Əgər belə demək olarsa, risk amili siyasi rentabelliyə söykənməlidir, yə'ni irəlicədən siyasi dividentlər və itkilər, gəlir və məsrəf nəzərə alınmalıdır. Bu elə də hamar yol deyil, taleyüklü qərarların qəbulu, onların həyata keçirilməsi praktikası hər şeydən əvvəl siyasətçilərin səriştəsindən asılıdır. Siyasətdə riskdən uzaqlaşmaq mümkün olmadığından onun ab-havasında yaşamağı da öyrənmək lazımdır. Xarici siyasət strategiyamızı böyük bacarıqla həyata keçirən dövlət başçısı Heydər Əliyev özü də siyasi praktikasında az riskə getməmişdir. Qarabağ konflikti ilə bağlı, heç olmasa, Lissabon sammitini xatırlayaq. Debatların ən gərgin vəziyyətində o, Azərbaycanın milli mənafelərinə uyğun olmayan qətnamənin qəbul olunacağı təqdirdə özünün veto hüququndan istifadə edəcəyini bildirdikdə, necə riskə getdiyini çox gözəl bilirdi. Əgər, o bunu edərsə, onda dünya ictimaiyyəti Azərbaycana olan rəğbət hissini itirə bilər, etmədiyi təqdirdə isə Azərbaycanın ərazi bütövlüyünün tanınmasının təhlükə altına düşməsi vəziyyəti yaranırdı. Bu isə ümdə milli mənafelərimizə zidd olardı. Lakin, ölkə rəhbəri, təcrübəli siyasətçi H.Əliyev bu riskə getdi, onun bu siyasi

hərəkəti özünü doğrultdu: sammitin bütün iştirakçı dövlət başçıları (Ermənistandan başqa) respublikamızın ərazi toxunulmazlığını tanıdılar.

Ki-Uest görüşləri ərəfəsində bu fikirlərə, düşüncələrə dalmamaq sadəcə mümkün deyildir, çünki bu konflikt ölkəmizdə böyük siyasətçidən tutmuş hər bir sıravi vətəndaşadək ümummilli qayğıdır. Diplomatlar və analitiklər ABŞ-dakı görüşlərin gedişində gərginliyin yaranacağını istisna etmirdilər. Lakin ölkə prezidentinin başçılıq etdiyi Azərbaycan nümayəndə hey'əti okeanın o tayına diplomatik danışıqlara — mühüm bir tədbirə böyük inam hissi ilə gedirdi: dünyanın super dövlətlərinin mühüm geosiyasi əhəmiyyət kəsb edən milli mənafeləri olduğundan planetin konfliktlərinin aradan qaldırılmasında maraqlıdırlar. Növbədə artıq qlobal xarakter almış Qarabağ konfliktini sülh və danışıqlar yolu ilə həll etmək durur. Yüksək görüşlər ərəfəsində ATƏT-in Minsk qrupunun amerikalı həmsədri səfir Keri Kavano birmə'nalı şəkildə bildirmişdir ki, ABŞ prezidenti C.Buş Qarabağ problemini birinci dərəcəli əhəmiyyət kəsb edən məsələ sayır [108]. Səfir Amerika erməni assambleyasının qərargahında çıxış edərkən demişdir ki, ABŞ prezidenti Ermənistan və Azərbaycan prezidentlərinin tez-tez görüşməsindən çox ruhlanmışdır. Diplomat ümidvar olduğunu bildirmişdir ki, Qarabağ konfliktinin tezliklə həlli hər iki Qafqaz respublikasının uzunmüddətli sosial və itqisadi inkişafını tə'min edə bilər. K.Kavano demişdir: "Biz ümid edirik ki, ABŞ-ın, Fransanın və Rusiyanın Ermənistan və Azərbaycan prezidentləri ilə birbaşa iş görməsi nəticəsində Qarabağ probleminin həllinin axtarılması potensialı artar" [109].

Təbii ki, konfliktin həlli problemi ilk növbədə Azərbaycan dövlətinin və xalqının qayğısıdır. Bunu 2001-ci il fevralın 23-də ölkə prezidentinin Milli Məclisdəki tarixi nitqi bir daha göstərdi. O, problemin həlli yolunda meydana çıxan çətinliklərdən, xüsusilə ATƏT-in lazımi prinsipiallıq göstərməməsindən narahatlığını bildirməklə yanaşı bildirdi ki, Azərbaycan tərəfi konfliktin dinc yolla həllinin tərəfdarıdır. Prezident H.Əliyev Minsk qrupunun verdiyi təkliflərdən danışaraq qeyd etdi ki, 1997-ci ildə bu siyasi qurum birinci təklif olaraq konfliktin "Paket həllini" irəli sürdü. Bunu həm biz, həm də Amerika tərəfi qəbul etdik. Ermənistan isə qəbul etmədi. İkinci təklif "mərhələli həll" təklifi oldu. Ermənistan qeyri-konstruktiv addım ataraq bunu da qəbul etmədi. Nəhayət, 1998-ci ildə Azərbaycan tərəfinə "ümumi dövlət" modeli təklif olundu. Əvvəlki təkliflərlə müqayisədə bu bizim üçün qətiyyən qəbuledilməz idi. Prezident qətiyyətlə və birmə'nalı şəkildə bildirmişdi: "biz bunu heç müzakirə etmək istəmirik, çünki bununla Azərbaycanın ərazisində iki dövlət olur – Azərbaycan, bir də Dağlıq Qarabağ və Azərbaycanın Dağlıq Qarabağa heç bir hüququ yoxdur. Bunun da üstündən örtük örtürsünüz ki, beləliklə Azərbaycanın



bütövlüyü saxlanılır. Biz bundan imtina etdik. Ermənistan isə bunu qəbul etdi və bu günə qədər də həmin təklifi qəbul etmədiyimiz üçün bizi konfliktin həllini ləngitməkdə təqsirləndirirlər" [110].

Ümumiyyətlə, Ki-Uest görüşlərindən əvvəl Milli Məclisdə keçirilən müzakirələr prezident Heydər Əliyevin onilliklərin sınağından çıxmış dövlət idarəetmə prinsiplərinə uyğun olaraq, həmin taleyüklü məsələ haqqında xalqla, onun elçilərilə məsləhətləşməsi, geniş ictimaiyyətin rə'yinin öyrənilməsi kimi qiymətləndirilməlidir.

Bu ikigünlük müzakirələrdən sonrakı dövrdə Milli Məclisə 131 təklif daxil olmuşdur. Bunlardan 8 təklifi deputatlar, 13 təklifi siyasi partiyalar, 4 təklifi qeyri-hökumət təşkilatları, 96 təklifi isə ictimaiyyətin nümayəndələri təqdim etmişlər. Ümumiyyətlə Milli Məclisə və Prezident Aparatına 204 təklif verilmişdir. Ki-Uest görüşü ərəfəsində real vəziyyət belə idi.

Qeyd edək ki, ABŞ-ın Florida ştatının Ki-Uest şəhərində iki ölkə prezidenti yeni formatda görüşmüşlər. Nəzərdə tutulduğu kimi prezidentlər H.Əliyev və R.Koçaryan təkbətək danışıqlar aparmaqla kifayətlənməyərək həmçinin ATƏT-in həmsədrləri ilə ayrıca görüşlər keçirmişlər. Görüşlər ərəfəsində hətta mətbuata sızan mə'lumata görə ABŞ-ın dövlət katibi Kolin Pauell tərəflərə özünün hələlik açıqlamaq istəmədiyi "praqmatik təkliflərini" irəli sürmək fikrində idi. Ölkə prezidentinin jurnalistlərə bəyan etdiyi kimi prezidentlər arasında razılığın əldə edilməsi yalnız birinci mərhələdir. Bundan sonra ekspertlərin görüşləri, müqavilələrin hazırlanması mərhələsidir. Özü də həmin müqavilələri konflikt iştirakçılarından başqa Minsk qrupuna, BMT-yə, Avropa Şurasına daxil olan ölkələrin nümayəndələri də imzalamalıdırlar. Həmin ərəfədə ABŞ Dövlət Departamenti verdiyi bəyanatında ictimaiyyəti inandırmağa çalışırdı ki, hazırda razılığa gəlmək üçün real imkanlar mövcuddur. Buna görə də konflikt tərəfləri buna maksimum sə'y göstərməlidirlər. "Azadlıq" radiosunun (rus redaksiyası) verdiyi mə'lumata görə "ABŞ-da hesab edirlər ki, əks halda hərbi əməliyyatlar bərpa oluna bilər" [111]. Maraqlıdır ki, bu günə kimi Qarabağ konflikti ilə bağlı sənədlərdə çoxdan idi ki, bu cür ifadələr işlədilmirdi və bu bir daha göstərir ki, okeanın o tayında Cənubi Qafqaz regionunda müharibənin bərpa olunması ehtimalına ciddi yanaşırlar.

Görüşlər ərəfəsində Yerevanda "Gənc respublika" qrupunun fəalları R.Koçaryana "ürək-dirək" vermək məqsədilə mətbuatda səsləndirdikləri bəyanatda göstərirdilər ki, "biz qaliblərik və öz vətənimizi müdafiəyə hazır olduğumuzdan əmin edirik ki, məcburi və uduşsuz güzəştlərə yol verməyəcəyik". Ümumiyyətlə Ki-Uest ərəfəsində Ermənistanda bir çox siyasətçilər psixoloji təzyiq formalarından da istifadə edirdilər.

Danışıqlar ərəfəsində psixoloji gərginliyi artıran mühüm amillərdən biri Rusiyanın Ermənistanla hərbi əməkdaşlığının fəallaşdırmasını nümayişkaranə şəkildə göstərməsi idi. Rusiya Hərbi Qüvvələri Baş Qərargahının rəis müavini general-polkovnik Yuriy Baluyevskinin regiona gəlişi erməni mətbuatında iki respublika arasında "hərbi dostluğun təcəssümü" kimi təqdim olunmuşdur.

Maraqlı faktlardan biri də budur ki, Ki-Uest görüşlərinə ciddi yanaşan ABŞ Dövlət Departamenti Minsk qrupunun fəaliyyətinə, konfliktin tarixi və Qarabağda sülh prosesinə həsr olunmuş mə'lumat kitabları buraxmış və burada heç bir yerdə "Dağlıq Qarabağ Respublikası" termini işlətməmişdir. Kitabın tərtibçiləri həmçinin göstərirlər ki, Qarabağ Rusiya tərkibinə xanlıq kimi daxil olmuş və yalnız 1813-cü ildən Azərbaycan əhalisi buranın dağlıq hissəsindən mühacir etmiş, burada erməni əhalisi artmışdır. Həmçinin qeyd olunur ki, Dağlıq Qarabağın Azərbaycan tərkibində muxtariyyəti 1921-ci ildə yaradılmışdır. Burada Qarabağın guya Ermənistanın tərkibində üç il olması, sonra 1923-cü ildə Azərbaycana "verilməsi" haqqında ermənilərin uydurması göstərilmir. Mə'lumat kitabında tərtibçilər eyni zamanda göstərirlər ki, Qarabağın və Ermənistanın hərbi qüvvələri 1992-ci ildə əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan və regionun tarixi paytaxtı hesab olunan Şuşanı və Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil olmayan bir sıra rayonlarını işğal etmişlər. Sənəddə həmçinin işğal edilmiş Azərbaycan torpaqlarından erməni qüvvələrinin çıxarılması haqqında BMT Təhlükəsizlik Şurasının qətnamələrinə istinad edilir. Təəccüblü deyildir ki, erməni siyasətçiləri mə'lumat kitabında dərc olunmuş bu məqamlara fikir verməyərək, konfliktin dinc yolla həlli prosesinə həmsədrlərin "Dağlıq Qarabağın" "hakimiyyət" nümayədələrinin də danışıqlara də'vət olunması barədə tövsiyələrini daha çox vurğulayırlar. Birləşmiş Ştatlarda belə mövqedədirlər ki, danışıqlarda miqyaslı uğur əldə olunarsa, Minsk qrupunun həmsədrləri regionun iqtisadi reabilitasiyası üzrə missiya yaratmaq barədə beynəlxalq maliyyə təşkilatları ilə danışıqları bərpa etməyə hazırdırlar.

Deyilənlərdən belə qənaətə gəlmək mümkündür ki, dünyanın qüdrətli dövləti nəinki konfliktin həllində, habelə regionda özünün milli mənafelərini həyata keçirmək naminə öz geosiyasi mövqeyini möhkəmləndirməkdə olduqca maraqlıdır.

Beləliklə, 2001-ci il aprelin 3-də Ki-Uestdə danışıqlar başlandı. İlk "akkordlar" mühüm görüşlərdə iştirak etmək üçün Floridaya gəlmiş ABŞ dövlət katibi Kolin Pauellə Azərbaycan prezidenti Heydər Əliyevin görüşündə səsləndi. Bir neçə saat keçəndən sonra Amerika siyasətçisinin R.Koçaryanla söhbəti olmuşdur. Həmin gün gecə yarısı prezidentlərin ABŞ dövlət katibinin və ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı



ilə görüşü keçirilmişdir. Həmin görüşdə ölkəmizin başçısı məzmunlu bəyanatla çıxış etmişdir. Prezident H.Əliyev danışıqların xüsusi xarakter kəsb etməsini göstərərək demişdir: "İlk dəfə olaraq ATƏT-in Mnsik konfransının həmsədrləri Ermənistan və Azərbaycan prezidentləri, digər görüş iştirakçıları ilə birlikdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktinin sülh yolu ilə nizamlanması məsələsini bu formatda müzakirə edirlər" [111].

Ümumiyyətlə, belə bir təşəbbüs təqdirəlayiqdir, çünki prezidentin dediyi kimi, danışıqlarda indiyə kimi uğur qazanılmamasının, 13 il davam edən konfliktin həll olunmamasının bir səbəbi də bu formatda görüşlərin keçirilməməsidir. Azərbaycan nümayəndə hey'ətinin başçısı öz bəyanatında bir daha bildirmişdir ki, BMT tərəfindən Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün birmə'nalı şəkildə tanınmasına, Dağlıq Qarabağ regionunun Azərbaycana mənsubiyyətinin təsdiqlənməsinə, Azərbaycanın işğal olunmuş torpaqlarından Ermənistanın qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxması haqqında BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan tərəfi bunların heç birinə məhəl qoymur. Düşündürücü məqam budur ki, BMT-nin Təhlükəsizlik Şurası indiyədək öz qərarlarının yerinə yetirilməsinin qayğısına qalmamış, ABŞ-ın da həmsədr olduğu ATƏT-in Minsk qrupunun rəhbərliyi konfliktin həllində heç bir dönüş yaratmamışdır. Belə bir vəziyyət əksinə Ermənistan tərəfinin beynəlxalq hüquq normalarına biganə yanaşmasına, danışıqlarda qeyri-konstruktiv mövqe tutmasına əsas vermişdir. Ölkə prezidentinin ATƏT-in Minsk qrupu həmsədrlərinə ünvalanan tənqidini Qarabağ konfliktinin mütləq tə'xirəsalınmaz həlli və siyasi realizm tələb edirdi. Lakin Azərbaycan tərəfini daha çox narahat edən budur ki, beynəlxalq birlik beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət olunmasına, bunların Ermənistan tərəfindən qəbul olunmasına sə'y göstərmək əvəzinə qətiyyətsizlik nümayiş etdirir və bununla təcavüzkarın fəallaşması üçün meydan açmış olur. Bütün nüfuzlu dövlət başçıları, beynəlxalq təşkilatlar bilməlidirlər ki, erməni tərəfinin qeyri-konstruktiv mövqeyilə təkcə beynəlxalq hüququn ərazi bütövlüyünün toxunulmazlığı kimi fundamental, bəşəri dəyərlərə söykənən norma və prinsipləri şübhə altına alınmır, həmçinin II Dünya müharibəsindən sonra planetdə sülh və əmin-amanlıq, siyasi sabitlik yaratmaq naminə dünya birliyi ölkələrinin işləyib hazırladığı on illərlə beynəlxalq həyatın rəvanlığına xidmət edən hüquq normalarının dayaqları Dağlıq Qarabağ regionunda, Azərbaycanın tarixi torpaqlarında yaşayan 100 min erməninin siyasi ambisiyaya "yoluxmasına" görə sarsılır. Azərbaycanın dövlət başçısı görüş iştirakçılarının nəzərinə haqlı olaraq çatdırmışdır ki, "Hərbi təcavüzün tanınmaması nəticəsində əldə edilmiş sülh sabitlik və

təhlükəsizlik isə möhkəm və əbədi ola bilməz" [112]. Əlbəttə, regionda siyasi sabitliyin tə'min olunmasının maraqlı ölkələrin milli mənafelərinə uyğun gəldiyini dəfələrlə söyləyən Minsk qrupu həmsədrləri, o cümlədən ABŞ tərəfi ölkə prezidentinin açıqlamasının mahiyyətini yaxşı başa düşmüşlər. Lakin bütün bunlarla yanaşı, qeyd edilməlidir ki, prezident H.Əliyevin bəyanatında irəli sürülən proqram ideya öz ifadəsini bu sözlərdə tapmışdır: "Azərbaycan sülhə, 1994-cü ilin mayında əldə olunmuş atəşkəs rejiminə əməl edilməsinə sadiqdir. Biz bundan sonra da konfliktin sülh yolu ilə tənzimlənməsinə nail olmaq üçün sə'ylər göstərəcəyik" [113].

Acınacaqlı fakt budur ki, Azərbaycan tərəfi konfliktin sülh yolu ilə həllinə konstruktiv yanaşdığını dünya birliyinə bəyan etdiyi bir zamanda (qeyd edək ki, Ki-Uest görüşlərinin başlandığı gün) Rusiya süngüsünə arxalanan Ermənistan Naxçıvan sərhəddi yaxınlığında özünün "fədakar silahlı qüvvələri" ilə hərbi manevrlər keçirməyə başlamışdır. Tərkibində ən yeni tanklar və hərbi vertolyotların cəmləşdiyi ordusu ilə təcavüzkar Ermənistan Azərbaycanı yeni güzəştlərə getməyə sövq etmək üçün mə'nasız psixoloji tə'sir taktikasını seçmişdir.

Görüşün birinci günü ABŞ dövlət katibi Kolin Pauell prezidentlərlə təkbətək görüşündən sonra mətbuat konfransında bildirmişdir ki, hər iki ölkə prezidentinin görüşü Ermənistan-Azərbaycan konfliktinin dinc yolla tənzimlənməsində irəliləyişə inam yaradır. "Turan" agentliyinin Ki-Uestdəki müxbirinin verdiyi mə'lumata görə, dövlət katibi demişdir ki, konflikt "qarşılıqlı kompromislər əsasında" tənzimlənə bilər. Birləşmiş Ştatlarda, eləcə də danışıqları izləyən dövlətlərdə çalışan analitiklər H.Əliyevlə R.Koçaryanın görüşünü istefada olan polkovnik K.Pauellin "diplomatik məharəti üçün sınaq" hesab edirlər. "Röyter" agentliyinin mə'lumatında göstərilir ki, bir Amerika diplomatının fikrincə, ABŞ dövlət katibi vasitəçiliyi öz boynuna götürməklə iki prezidentin görüşlərində uğur əldə ediləcəyi təqdirdə imicinin artmasına ümid bəsləyir. Lakin konfliktin xarakterinə daha ciddi yanaşan analitiklər bunu da qeyd etməyi unutmurlar ki, Amerika-Rusiya münasibətlərindəki gərginlik danışıqlar prosesini çətinləşdirə bilər. Söylənilən fikirlər içərisində Brukinqs İnstitutunun analitiki Fiona Xillin reaksiyası maraqlıdır. O, hesab edir ki, Qarabağ konflikti xarakterinə görə Yaxın Şərqdəki vəziyyətə bənzəyir. Buna görə də həddən artıq nikbinliyi düzgün saymayaraq xatırladır ki, ABŞ-ın keçmiş dövlət katibi Strob Talbot 1999-cu ildə Ermənistanı tərk edən kimi bu ölkənin parlamentində atışma nəticəsində Baş nazir və yeddi deputat qətlə yetirildi.



Deyilənlər bunu söyləməyə əsas verir ki, Buş administrasiyası siyasi realizmə söykənərək Qarabağ probleminin tənzimlənməsi prosesində arzu edilən uğura nail olmağa çalışır. Hər halda görüşün ilk günü Ki-Uestdə hökm sürən abu-hava Birləşmiş Ştatların diplomatik sə'ylərinin konfliktin həllinə fəal cəlb olunmasından xəbər verirdi. Buş hökumətinə daxil olan Amerika siyasətçiləri Qarabağ qarşıdurmasının olduğu regionda ABŞ-ın ciddi maraqlarının olmasını gizlətmirlər. "Mediamaks"ın mə'lumatına görə Dövlət Departamentinin adının çəkilməsini istəməyən nümayəndəsi açıqca bildirmişdir ki, Rusiyanın, İranın, Türkiyənin yerləşdiyi regionda müharibənin baş verməsi heç kəsin ürəyindən deyil. Rusiya Federasiyası konflikt tərəflərindən birinin müttəfiqidir, Türkiyə isə digər konflikt tərəfinin müttəfiqidir, azərbaycanlıların xeyli hissəsi isə İranda yaşayır. İkinci bir tərəfdən, regionda Amerika biznesinin daha da inkişafı üçün siyasi tə'minat lazımdır.

Beləliklə, Ki-Uest görüşünün birinci günü göstərdi ki, həm konflikt tərəfləri, həm də vasitəçilər fəaliyyətə tam işgüzar ovqatda başlamışlar. ABŞ-da həmsədr Keri Kavanonun "danışıqlar uzun çəkə bilər, lazım gələrsə, bazar günləri də keçirilə bilər" deməsi buna sübutdur.

Aprelin 4-də həmsədr ölkələrin nümayəndələri Keri Kavano, Jak Qayyard və Vyaçeslav Trubnikov mətbuat konfransı keçirmişlər. Həmsədrlər danışıqlar barədə düşünüb-daşınmaq üçün mə'lumat verməsələr də hər halda tam əminliklə bildiriblər ki, "prezidentlər dinc və işgüzar danışıqlara köklənmişlər". Lakin analitiklər "qeyri-müəyyənlik" vəziyyətinin hökm sürdüyünə baxmayaraq hər iki ölkə prezidentinin danışıqlara çox ciddi yanaşdıqlarını qeyd edirlər. Buna görə də Amerika diplomatları, o cümlədən Kolin Pauell hələlik danışıqlarda uğurdan danışmağı lazım bilməmişlər. ABŞ dövlət katibi bununla belə bir fikri vurğulamışdır ki, "danışıqlar çox çətin olacaqdır. Prezident Buş danışıqların gedişini diqqətlə izləyəcək və mənə elə gəlir ki, gələcəkdə hansı mərhələdəsə uğur əldə olunsa, ABŞ prezidenti Ermənistanın və Azərbaycanın dövlət başçıları ilə görüşəcəkdir. Bunun bu həftəmi, yaxud nə vaxtsa baş verəcəyini mən deyə bilmərəm" [114].

Lakin Ki-Uest görüşlərinin önəmli məqamlarından biri budur ki, Azərbaycan diasporu danışıqların gedişini fəal izləmişdir. KİV-in yaydığı mə'lumata görə, hadisələri İnternetdə izləyən və əsasən Şimali Azərbaycandan olan soydaşlarımız danışıqlar barədə informasiya almaq üçün tez-tez Azərbaycan-Amerika Şurasına telefon zəngi vururdular.

İlk günlər danışıqlar prosesinə Dağlıq Qarabağın separatçıları da özünəməxsus münasibət bildirmişlər. "Los Anceles Tayms" qəzetinə müsahibə verən erməni separatçılarının lideri A.Qukasyan bildirmişdir ki, Dağlıq Qarabağ danışıqlarda iştirak etmir, ona görə də hər cür sülh

müqaviləsini rədd etmək hüququnu özündə saxlayır. Amerikalı həmsədr K.Kavano isə həmin günlərdə belə bir mə'lumat vermişdir: Dağlıq Qarabağ danışıqlarda iştirak etmir, amma gələcəkdə elə ola bilər ki, buradakı ermənilərin danışıqlara cəlb edilməsi "faydalı" olsun. Eyni vaxtda "Mayami Qerald" qəzetində çıxan materiallar da, maraqlıdır. Qəzet Dağlıq Qarabağda baş verənləri "ermənilərin Azərbaycanın hüdudlarında işğal etdiyi anklav" adlandırmışdır.

Danışıqların, bir sıra görüşlərin nəticələrinin açıqlanmaması, məxfi saxlanılması bə'zi hallarda mətbuatda sensasion mə'lumatların meydana gəlməsinə səbəb olurdu. Məsələn, ermənilərin "Azq" qəzeti "Svoboda" radiosunun informasiyasına əsaslanaraq yerli Ki-Uest qəzetlərindən birinin şərhçisi Linda Qotvoldun informasiyasını yaymışdır. L.Qotvoldun mə'lumatına görə, danışıqların ardı 2001-ci ilin yayında Parisdə davam etdiriləcəkdir. Lakin qəribə budur ki, həmin sensasion informasiyaya nə Ki-Uestin şəhər xəbərləri saytında, nə də "Svoboda"nın saytlarında rast gəlinmir. Görəsən, "Azq" qəzetinin belə bir yanlış mə'lumatı yaymaqda məqsədi nədir? [115].

Belə bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, prezident Heydər Əliyevin görüşlərin ilk günü verdiyi bəyanat danışıqlara yeni impuls vermişdir. Analitiklər hesab edirlər ki, Azərbaycan prezidentinin bəyanatında həmsədrlərin ünvanına söylədiyi qətiyyətli tənqid çoxları üçün gözlənilməz olmuşdu. ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin verdiyi mə'lumatda deyilir ki, Azərbaycan prezidenti H.Əliyevin bəyanatda həmsədrlərin "passivliyi" barədə sərt sözləri dövlət katibi K.Pauell üçün gözlənilməz olmamışdır. "Mən hər iki tərəfdən öz mövqeləri barədə onların təsəvvürlərini bilmək istəyirdim. Prezident Heydər Əliyev öz yanaşmalarını çox dəqiq şərh etdi". Ki-Uestdəki diplomatik görüşləri diqqətlə izləyən analitiklər istisna etmirdilər ki, danışıqların gedişi uğurlu olacığı təqdirdə K.Pauell yenidən Ki-Uestə qayıda bilərdi. "Svoboda" radiosunun verdiyi mə'lumata görə, ABŞ-ın dövlət katibi Vaşinqtona uçarkən təyyarədə verdiyi müsahibəsində demişdir ki, təşəbbüskarı olduğu bu danışıqları diqqətlə izləyir, əgər onun iştirakı danışıqlara kömək edərsə o, prezidentlərə qoşulmağa hazırdır [116].

Aprelin 3-4-də həmsədrlərin bir-birilə, həmçinin prezidentlər H.Əliyev və R.Koçaryanla bir sıra görüşləri olmuşdur. Aprelin 4-də həmsədrlər uzun sürən görüşlər keçirmişlər, onlar əvvəlcə Koçaryan, sonra isə prezident H.Əliyevlə görüşmüşlər. Onu da qeyd edək ki, danışıqların daha məhsuldar keçməsi üçün lazım gəldikdə həmsədrlər ekspertlərlə birlikdə işləməli olmuşlar.

Lakin erməni tərəfinin qeyri-konstruktiv, hətta ekstremist mövqeyi danışıqlar prosesinin ümumi ruhuna neqativ tə'sir göstərirdi. Bunu



jurnalistlər də hiss edirdilər. Diplomatların nikbinliyini bölüşdürməyən icmalçılar Koçaryanın "torpaq verməyəcəyini və Dağlıq Qarabağın Bakıdan geri alınması uğrunda döyüşə hazır olması" barədə fikirlərini mətbuatda tez-tez açıqlayırdılar.

Təəssüflər olsun ki, bu danışıqlarda da erməni tərəfinin diplomatik gedişlərdə dəyərincə istifadə etdiyi ABŞ-ın ikili standart siyasəti özünü göstərirdi. Məsələn, jurnalistlərin "Yaxın vaxtlarda danışıqlar prosesinə Türkiyənin və Dağlıq Qarabağın nümayəndələrinin cəlb olunması mümkündürmü?" sualına cavabında K.Kavano yeri gəldikcə bəyan edirdi ki, danışıqların formatı "regionun bütün əhalisinin maraqlarını nəzərə almağı" lazım bilir. O, açıqca bildirmişdir ki, "danışıqların müəyyən mərhələsində Stepanakertin nümayəndələrini də prosesə cəlb etmək lazım idi". Türkiyəyə gəldikdə isə onun fikrincə Ankara danışıqlar prosesinin bir hissəsi deyildir, baxmayaraq ki, konfliktə "böyük maraq" göstərir və konflikt zonası ilə həmsərhəddir.

Qeyd edək ki, Azərbaycan-Amerika beynəlxalq dialoqunda konfliktin həlli prosesində Rusiyanın münasibəti məsələsi də mühüm məqamlardandır. Ümumiyyətlə Rusiyanın regiondakı fəaliyyətinə Vaşinqtonda nə Dövlət Departamentinin nümayəndələri, nə də analitiklər biganə deyillər. Bunu göstərmək vacibdir ki, "Nezavisimaya qazeta" Florida sammiti ərəfəsində dərc etdiyi materiallarda Ki-Uestdə sürprizlərin olacağını istisna etmirdi. Qəzetin analitikləri bu fikri vurğulayırdılar ki, artıq yaxın perspektivdə Qarabağ konfliktinin həllinin baş tutacağına inanmaq üçün əsas vardır. Bəlkə də problem elə müstəvidə həll oluna bilər ki, həm Yerevanı, həm də Rusiyanı təəccübləndirsin. ABŞ dövlət katibinin hər iki tərəfin Qarabağ konfliktinin həlli prinsipi ətrafında razılığa gəlməsi barədə söylədiyi fikir Kreml siyasətçilərinin özünəməxsus reaksiyasına səbəb olmuşdur. Özü də Rusiya tərəfinin diqqətini cəlb edən bu olmuşdur ki, konfliktin tənzimləmə prinsipləri barədə prezident H.Əliyev və R.Koçaryan tərəfindən hələ 1999-cu ildə Cenevrədə və Vaşinqtonda razılıq əldə olunmuşdur. Lakin onların həyata keçirilməsi Ermənistan parlamentində baş vermiş terror aktı nəticəsində pozulmuşdur.

Belə bir ideya səsləndirilir ki, konflikt tərəfləri həmin prinsiplərə qayıtmaq üçün hazırlıq nümayiş etdirməli və onlar bə'zi modifikasiyalar nəzərə alınmaq şərtilə həmin müqaviləni əks etdirən sənədin hazırlanmasına razılıq verməlidirlər. Lakin həmin razılığın əldə edilməsi Bakı ilə Yerevan arasında razılaşmanın Moskva tərəfindən dəstəklənməsindən xeyli dərəcədə asılı olacaqdır. Və istisna etməmək olar ki, Kreml bu məsələdə Ermənistana "xüsusi" tövsiyyələr verəcək, çünki bu ölkənin stabilliyi daha çox Rusiyadan asılıdır. Ona görə də erməni tərəfi tez-tez belə bir fikri vurğulayırdı ki, H.Əliyevlə R.Koçaryanın növbəti görüşü

Moskvada keçiriləcəkdir. Bu özü göstərir ki, danışıqlar heç də "komfort" şəraitdə keçmir.

Məsələ burasındadır ki, Ki-Uest görüşünün gedişində ABŞ diplomatları dəfələrlə bildirmişlər ki, Amerika özünün vasitəçiliyini Rusiya və Fransa vasitəçiləri ilə sıx əlaqədə həyata keçirir. Təcrübənin göstərdiyi kimi belə sıx əməkdaşlığın özü də heç zaman ixtilafsız keçmir. Lakin Rusiya mətbuatının analitik materiallarından belə qənaətə gəlmək olur ki, Kreml özünün Cənubi Qafqaz siyasətində Azərbaycanla daha yaxşı qonşuluq münasibətlərini qurmaq niyyətlərini gizlətmir.

Ona görə də Kremlin regionda mənafelərinin xarakteri təkcə analitiklər deyil, habelə jurnalistləri də çox maraqlandırırdı. Məsələn, aprelin 5-də K.Kavano mətbuat konfransında "əgər Rusiya açıq-aşkar konflikt tərəflərindən birini dəstəkləyirsə, onun neytrallığına inanmaq olarmı?" sualına cavabında demişdir ki, Rusiyanın Ermənistanla hərbi müqavilələri və əməkdaşlığı hamıya bəllidir. Lakin bununla belə, amerikalı həmsədrin fikrincə, Rusiya son zamanlar sülh prosesində irəliləyişə köməyini nümayiş etdirməkdədir. Fikrini əsaslandırmaq üçün K.Kavano Rusiya prezidenti V.Putinin Bakıya, Rusiya Təhlükəsizlik Şurasının sabiq katibi S.İvanovun isə Bakıya və Yerevana səfərini qeyd etmişdir. Bundan əlavə K.Kavano fürsətdən istifadə edərək, bunu da səsləndirməyi lazım bilmişdir ki, əgər jurnalistlər həmsədrlərin əməkdaşlığının və bu məsələdə ümumi baxışlarının nə qədər dərin olduğunu bilsələr, yə'qin ki, təəccübləncəklər. Vyaçeslav Trubnikov isə öz növbəsində bunu deməyi vacib saymışdır ki, o, Ki-Uestə Rusiyanın mənafelərini müdafiə etmək üçün gəlməmişdir: "Mən öz kolleqalarım ilə Qafqazda sülh naminə işləyirəm". Konfliktin həllində istər diplomatların, istərsə də analitiklərin daha çox diqqət yetirdikləri mühüm məqamlardan biri həmsədrlərin məsələyə konseptual yanaşmasıdır, yə'ni onların problemin həllinə "birgə açar" axtarmaq prinsipləridir. Qeyd edək ki, politoloqların bə'ziləri "açarın" Rusiyada olması fikrinə daha çox meyllidir. Rusiya tərəfindən həmsədr Trubnikov müsahiblərini inandırmağa çalışmışdır ki, "konflikti tənzimləmə açarı" Ermənistanın və Azərbaycanın əlindədir. O, birmə'nalı şəkildə bəyan etmişdir ki, hər iki tərəfi qane edəcək sülh prinsipi Rusiyanı da tə'min edəcəkdir. Bu məqsədlə, həmsədrin fikrincə, Rusiya nə Azərbaycana, nə də Ermənistana tə'sir etmək fikrində deyil, bu məsələdə üç həmsədrin mövqeyi bir olacaqdır. Həmsədrlər problemin hərtərəfli həlli prinsipinə üstünlük verirlər. Lakin konfliktin tənzimlənməsində mühüm məqamlardan biri razılığa gəlmək üçün altı işğal edilmiş rayonun qeyd-şərtsiz azad olunmasıdır. Rusiya tərəfi bildirmişdir ki, problemin müsbət həlli üçün danışıqlarda konfliktin bütün aspektləri müzakirə olunur.



Lakin bunu da e'tiraf etmək lazım gəlir ki, konfliktin həlli prosesində müəyyən potensial dəyərincə istifadə olunmamış, bə'zi imkanlar əldən verilmişdir. Məsələn, K.Kavano hesab edir ki, əgər prezidentlərin birbaşa dialoqu əvvəldən, tez-tez baş tutsa idi, yə'qin ki, konfliktin tənzimlənməsi prosesində xeyli irəliləyiş olardı. Onun fikrincə, tənzimləməni ləngidən amillərdən biri məhz Ermənistan və Azərbaycan prezidentlərinin məhsuldar dialoqlara gec başlamasıdır. Müşahidəçilər də belə fikirdədirlər ki, danışıqlarda davam edən gərginlik osasən hazırki sammitdə hər iki ölkə prezidentinin təkbətək görüşünün keçirilməməsidir. Doğrudur, təkbətək görüşlərin bütün təfərrüatı ictimaiyyətə açıqlanmasa da hər halda tərəflərin konstruktiv söhbətləri çox faydalı və pozitiv əhəmiyyət kəsb edir, lakin bu amili tənzimləmə prosesində mühüm mexanizm sayan analitiklər bunu da bilməlidirlər ki, Azərbaycanın mövqeyi həm ATƏT-in həmsədrlərinə, həm də konfliktin tənzimləməsində marağı olan bütün dövlət başçılarına aydındır. Onlar prezident H.Əliyev ilə söhbətlərində artıq əmin olmuşlar ki, Azərbaycan tərəfi konfliktin pozitiv tənzimlənməsi prosesində kifayət qədər kompromislərə getmişdir. Lakin ikili standart siyasəti yeridən ABŞ bu günə kimi 907-ci düzəlişi qüvvədə saxlayır. Və demək olar ki, Azərbaycanın güzəşt limiti artıq tükənmişdir.

Bir daha qeyd edək ki, Ki-Uest danışıqlarının mühüm xarakteri bundadır ki, görüşlər əvvəlkindən fərqli olaraq, yeni formatda keçirildi. Belə ki, prezidentlərin hər biri ayrılıqda həmsədrlərlə görüşdülər. Bu diplomatiyada "yaxınlaşma", "tərəfləri yaxından öyrənmə" adlanır. Bu baxımdan danışıqlarda gözlənilməz məqamlar da ortaya çıxırdı. Mətbuatdakı sızmalardan belə qənaət də yaranırdı ki, danışıqların gedişində hansı informasiya mənbəyindən gəldiyindən asılı olmayaraq, erməni tərəfini narahat edən bir məsələ – Ki-Uestdə dövriyyəyə Qarabağ konfliktinin tənzimlənməsinin yeni variantının daxil olması idi və bu "dəhliz" söhbətlərinin mövzusuna çevrilmişdir. Analitiklər son vaxtlar bu təklifin üzərində xüsusi dayanırlar ki, sülhə daha tez nail olmaq üçün ilkin olaraq, işğal olunmuş altı rayon azad edilsin, qaçqınlar öz yerlərinə qayıtsınlar. Bundan sonra Dağlıq Qarabağın statusu müzakirə obyektinə çevrilsin. Görünür, erməni tərəfində bu qənaəti möhkəmləndirən səbəblərdən biri Amerika mətbuatında dərc olunmuş bə'zi materiallardır. Məsələn, "Nyu-York tayms" qəzetinin aprelin 6-də işıq üzü görən sayında belə bir fikir öz əksini tapmışdır ki, "Dağlıq Qarabağ Ermənistan tərəfindən işğal edilmişdir".

Həmin narahatlıq hissi çox qərəzli şəkildə Ermənistan mətbuatında da öz əksini tapmışdır. "Azq" qəzeti öz fəlsəfəsinə sadiq qalaraq, danışıqlardakı hər bir pozitiv məqamlarda Azərbaycanpərəstlik axtarır. Qəzet yazır ki, "Ki-Uestdə danışıqlar start götürəndən sonra nüfuzlu

Amerika qəzetləri artıq qərəzli Azərbaycanpərəst materiallar çap etməyə başlamışlar. İcmalçıların fikrincə, bütün bunlar guya prezident Koçaryana təzyiq üçün edilir."

Qeyd edək ki, Ermənistanın müxalifətçi mətbuatı da bu bədbinliyi bölüşdürür. "Aravot" qəzeti hiddətini gizlətmədən yazır ki, "Ermənistan hakim dairələri və erməni xalqı birdəfəlik bilməlidir ki, amerikalılar ikiüzlüdürlər, qərəzçidirlər və heç vaxt ermənipərəst siyasət yeritməyəcəklər. İngilislər kimi onlar da lazım gələndə deyəcəklər ki, Bakı nefti tutumuna görə erməni qanından ağırdır."

Unudulmamalıdır ki, ermənilərin bu siyasi bədbinliyini möhkəmlədən amillərdən biri onların dost ölkələrdəki, məsələn, İrandakı siyasətçiləridir. Ki-Uestdə onsuz da gərgin keçən danışıqların keçirildiyi günlərdə İranın mövqeyini əks etdirən "İran İslam Respublikasının səsi" radiostansiyasının şərhçisi qeyd edirdi ki, Amerikanın nəzər nöqtəsinə görə Qarabağ konfliktinin hər cür həlli ABŞ-ın Qafqazda nüfuzunu artırmalıdır. Şərhçinin fikrincə, həmin siyasətin opponenti olaraq Qafqazı öz təhlükəsizliyinin bir hissəsi hesab edən Rusiya, həmçinin Qafqazda öz mənafelərini güdən ATƏT-in Minsk qrupuna daxil olan Avropa dövlətləri çıxış edir. Floridadakı danışıqlar ABŞ-ın təşəbbüsü və Rusiyanın, Fransanın iştirakı ilə keçirilsə də Birləşmiş Ştatlar, Avropa və Rusiya arasında davam edən gizli rəqabət bu regionda həqiqi təhlükəsizliyin qərarlaşmasına manc olur [117]. "Svoboda" radiostansiyasının şərhindən də aydın olur ki, erməni diplomatları danışıqlara o qədər də nikbin yanaşmırlar. Ermənistan Xarici İşlər Nazirliyinin başçısı V.Oskanyan bəyan etmişdir: "İndiki halda demək çətindir ki, biz bu kiçik adanı (Ki-Uest — *müəllif*) uğurla tərk edəcəyik". Bir sözlə, erməni millətçi siyasətçiləri belə əqidədədirlər ki, Ki-Uest danışıqlarında "əzabkeş" erməni xalqının mənafeləri qətiyyən nəzərə alınmır, bu ölkəyə qarşı növbəti "ədalətsizlik" nümayiş etdirilir. Lakin əsl həqiqət budur ki, erməni tərəfi növbəti informasiya müharibəsi ilə danışıqlara tə'sir göstərmək və bu mümkün olmasa, görüşlərin pozitiv nəticələrini heçə endirmək mövqeyini seçmişdir.

Danışıqların sonuncu günü, yə'ni aprelin 9-da gözlənildiyi kimi ABŞ prezidenti Ağ evdə Azərbaycan prezidenti Heydər Əliyevlə görüşmüşdür. Azərbaycan səfirliyindən verilən mə'lumata görə Birləşmiş Ştatlarda danışıqlar haqqında heç bir bəyanat verilməmişdir. Ümumiyyətlə, Ki-Uest görüşlərinin protokoluna görə, qəbul olunmuş format tələb edir ki, danışıqların gedişi barədə informasiya verilməməli, bəyanatlar isə yalnız həmsədrlər tərəfindən edilməlidir. Qeyd edək ki, söhbətdə həmçinin ABŞ-ın vitse-prezidenti Çeyni, dövlət katibi K.Pauell, prezidentin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Kondoliza Rays, həmçinin Minsk qrupunun həmsədri K.Kavano iştirak etmişlər. Lakin danışıqlar prosesində



siyasi etikaya çox da məhəl qoymayan Koçaryandan fərqli olaraq mətbuatla həmişə səmimi olan prezident H.Əliyev jurnalistlərin suallarına cavab vermişdir. Ölkəmizin prezidenti hər şeydən əvvəl e'lan etmişdir ki, Birləşmiş Ştatların nümayəndələri ilə söhbətində Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlər, regionda enerji resurslarının birgə işlənməsi məsələləri müzakirə edilmişdir. Lakin H.Əliyev görüşün məqamlarını açıqlamamışdır. Amerikalı həmsədr K.Kavano da jurnalistlərin suallarına cavabında qeyd etmişdir ki, danışıqlar gizli şəraitdə keçirildiyindən hər cür informasiyanın sızması prosesin gedişinə qeyri-məhsuldar tə'sir göstərə bilər. Lakin bununla belə, o bildirmişdir ki, Minsk qrupu yeni təkliflər üzərində işləyir və bu, tərəflərə növbəti görüşdə təqdim ediləcəkdir. O, jurnalistləri əmin etməyə çalışmışdır ki, problemin həllinin axtarışlarında böyük tərəqqiyə nail olunmuşdur.

Odur ki, bu baxımdan Vaşinqtondakı mə'lumatlı mənbələrdən danışıqlar barədə mətbuata sızan informasiyalar da maraqlıdır. Həmin mənbəyə görə, Florida danışıqlarında tənzimlənmənin mərhələli həlli müzakirə olunmuşdur. Bu variant altı işğal olunmuş rayonun azad edilməsini, kommunikasiyaların bərpasını, sülhməramlı qüvvələrin yerləşdirilməsini, sonra isə Qarabağın statusunun müzakirəsini nəzərdə tutur. Ehtimal ki, bundan sonra həmsədrlər və prezidentlər bir neçə dəfə görüşə biləcəklər. Hər halda danışıqların gedişində belə bir inam hasil olmuşdur ki, həm Amerika, həm də konflikt tərəfləri Rusiyanın mövqeyini çox konstruktiv hesab edirlər.

Ümumiyyətlə Ki-Uestin siyasi ab-havası müəyyən inamla söyləməyə əsas verir ki, tərəflər bir-birini anlamağa çalışırlar. Üzərində dayanılan versiyalardan biri budur ki, Ermənistan Qarabağdan kənarda yerləşən altı rayonu azad edir, Azərbaycan Ermənistana kommunikasiya xətlərini açır. Doğrudur, analitiklər sonradan, yə'ni Qarabağın statusunun müzakirə ediləcəyi mərhələdə danışıqların çıxılmaz vəziyyətə düşəcəyi məqamı da istisna etmirlər. Lakin yerli icmalçılara gəlincə onlar danışıqlarda əldə olunacaq uğurlar sayəsində iki respublikanın iqtisadi əməkdaşlığına ümid edirlər.

Ümumiyyətlə, ATƏT-in Minsk qrupunun həmsədrləri ictimaiyyətə nikbin əhval-ruhiyyə təlqin etməyə çalışırdılar. "Media-Pressin" mə'lumatına görə, həmsədrlərin imzaladıqları birgə rəsmi sənəddə göstərilir ki, ABŞ, Rusiya və Fransa Ki-Uestdə "ciddi və intensiv mübahisələr" getdiyini və hazırda Qarabağ probleminin tənzimlənməsi yolunda sə'yləri davam etdirmək üçün Minsk qrupunun həmsədrlərinin "yeni əhatəli təklif" hazırlayacağını da bildirirlər. Kerri Kavano danışıqların nəticələrini belə səciyyələndirmişdir: "Biz gözlədiyimizdən çox tərəqqiyə nail olmuşuq. Bir çox məsələlərdə tərəflərin mövqelərini yaxınlaşdırmaq mümkün

olmuşdur, lakin hələ çox iş görmək lazım gələcək". Fransalı həmsədr J.Qayyard öz növbəsində demişdir ki, bu gün biz Floridaya qədər əldə etdiklərimizlə müqayisədə sülhə daha çox yaxınlaşmışıq. Fransa nümayəndəsinin fikrini belə qiymətləndirmək olar: sülh haqqında razılıq zəruridir, atəşkəs rejimini saxlamaq barədə razılıq, qaçqınların və dinc əhalinin müharibə vəziyyətində yaşaması cəmiyyəti yormuşdur və bunu dərk edərək razılığa gəlmək olduqca vacibdir, beynəlxalq aləm sülhə dəstək verməli, konflikt tərəfləri isə mövcud danışıqlar formatının məqbul olduğunu qəbul etməlidirlər.

Bunu da qeyd edək ki, Ki-Uestdə İranın "dolayısı" yolla dialoqa cəlb olunması əsl sensasiya yaratmışdır. Amerikalı həmsədr K.Kavano (görünür, bu Birləşmiş Ştatların mövqeyidir) və'd vermişdir ki, həmsədrlər bundan sonra Ki-Uest danışıqlarının nəticələri barədə İrana informasiya verəcəklər. O, İranı regionda "mühüm oyunçu" adlandırmışdır. Yeri gəlmişkən qeyd edək ki, hazırda fransalı həmsədr Filip dc Sürmeyn vaxtilə İranda Fransanın səfiri olmuşdur. Ümumiyyətlə, formalaşmış fikir belədir ki, Qarabağ konfliktinin tənzimlənməsində İranın iştirakına əvvəlkindən xeyli çox imkan yaratmaq lazımdır.

Lakin danışıqların gedişi göstərdi ki, Azərbaycan real gerçəkliyi nəzərə almaqla konfliktin həllində özünün milli mənafelərinin düzgün həyata keçirilməsi mövqeyindən çıxış etmişdir. Azərbaycanın Xarici İşlər naziri "Amerikanın səsi" radiostansiyasının Azərbaycan redaksiyasına verdiyi müsahibədə haqlı olaraq demişdir: "Biz yeni təkliflərin Azərbaycan prezidentinin bəyanatı çərçivəsində reallaşmasının tərəfdarıyıq. Əlbəttə, bu qarşılıqlı güzəştləri istisna etmir, lakin onların xarakteri göstərdiyimiz bəyanatla müəyyənləşdirilməlidir" [118]. Təbii ki, konfliktin tənzimlənməsi prosesində irəli sürüləcək son nəticələrdən ictimaiyyət xəbərdar olacaqdır.

Beləliklə, heç də rəvan keçməyən Ki-Uest danışıqları başa çatdı, jurnalistlərə heç bir təəccübləndirici açıqlamalar verilməsə də, Birləşmiş Ştatların gözəl guşələrindən birində keçirilmiş görüşlər dünya siyasətçilərinə və diplomatlarına düşünüb-daşınmaq üçün xeyli məhsuldar informativ material verdi.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına aprelin əvvəllərində etdiyi səfər və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktinin sülh yolu ilə həllinə dair Florida ştatında keçirilən sülh danışıqları dünya mətbuatının diqqət mərkəzində olmuşdur. Aprelin 9-da ABŞ-ın ən nüfuzlu mətbuat orqanlarından sayılan "Nyu-York Tayms" qəzetində "Buş neftlə zəngin olan regionda konfliktin həllini dəstəkləyir" mövzusunda məqalə dərc olunmuşdur.



Məqalədə bildirilir ki, prezident Corc Buşun Azərbaycan və Ermənistan prezidentləri ilə görüşməsi onlara hörmət əlaməti olmaqla bərabər konfliktin sülh yolu ilə tənzimlənməsinə ABŞ-ın yeni administrasiyasının nə qədər böyük əhəmiyyət verdiyindən xəbər verir. Qəzetdə həmçinin qeyd edilir ki, Amerika Birləşmiş Ştatlarının prezidenti hər iki dövlət başçısını barışıq əldə etmək üçün mövcud olan fikir ayrılıqlarının aradan qaldırılması istiqamətində apardıqları işləri davam etdirməyə ruhlandırıb.

Qəzetin icmalçısı görüşdən sonra Ermənistan prezidenti Robert Koçaryanın dünyanın kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşmədən gözlənilməz şəkildə Ağ evi arxa qapıdan tərk etdiyi halda Azərbaycan prezidenti Heydər Əliyevin jurnalistlər üçün qısa bəyanat verdiyinə də xüsusi diqqət yetirib. O, Azərbaycan prezidentindən sitat gtirərək yazır: "Biz ümid edirik ki, Amerika Birləşmiş Ştatları və digər həmsədrlər konfliktin sülh yolu ilə həllinə dair sə'ylərini bundan sonra daha da gücləndirəcəklər".

Təqdirəlayiqdir ki, icmalçı Dağlıq Qarabağ konfliktinin ermənilər tərəfindən başlanması və bunun nəticəsində 800 mindən artıq azərbaycanlının öz evindən didərgin düşməsi, Dağlıq Qarabağdan əlavə Azərbaycanın digər 7 rayonunun da işğal olunması haqqında danışır. "Nyu-York Tayms" yazır ki, işğal olunmuş ərazilərdən erməni silahlı qüvvələrinin çıxarılması, müharibə zamanı qaçqın düşmüş insanların yenidən öz doğma yurdlarına qaytarılması və Dağlıq Qarabağa Azərbaycanın tərkibində geniş muxtariyyət verilməsi məsələləri Ki-Uest danışıqlarının gündəliyində duran əsas mövzulardan olmuşdur.

Qəzet Azərbaycanın zəngin təbii ehtiyatlarına diqqəti çəkərək bildirir ki, konfliktin həllində olduqca maraqlı olan Birləşmiş Ştatların yeni administrasiyası əmindir ki, regionda sabitliyin bərqərar olması Azərbaycanın Qərb bazarına ən böyük neft ixrac edən ölkələrdən birinə çevirilməsinə gətirib çıxaracaqdır. Qəzet Ağ evin yüksək vəzifəli mə'muruna istinadən yazır ki, son dövrlər Rusiya ilə Amerika arasında kəskin ziddiyyətlərin olmasına baxmayaraq, bu konfliktin həlli ilə əlaqədar aparılan danışıqlarda əldə edilmiş səmimi əməkdaşlıq başqa sahələrdə də bu iki dövlətin əməkdaşlığı üçün nümunə ola bilər.

İlk növbədə qeyd edilməlidir ki, Ki-Uest görüşlərində ən önəmli, konstruktiv iş prinsipi danışıqların formatı hesab olunmalıdır. Vasitəçilərin fikrinə görə, məhsuldar fəaliyyət prinsipi kimi qiymətləndirdikləri bu danışıqlar metodu davam etdiriləcəkdir. Ağ evin adının çəkilməsinin istəməyən yüksək vəzifəli nümayəndələrindən biri e'tiraf etmişdir ki, İsveçrənin e'lan etdiyinə görə bu ölkə Floridada əldə edilmiş nailiyyətləri inkişaf etdirməyə mühüm sə'ylər göstərəcəkdir. Danışıqların mahiyyətindən söz açan diplomat bildirmişdir ki, möhkəm tənzimləməni tə'min

edən hər bir qərar regionun əhalisi tərəfindən qəbul edilməli, məqbul hesab olunmalıdır. O, bir daha xatırlatmışdır ki, Minsk qrupu həmsədrlərinin e'tirafına görə yeni təklif üzərində iş gedir, həmsədrlər və prezidentlər belə fikirdədirlər ki, potensial sülh müqaviləsinin konturlarının və detallarının ümumiləşdirilməsi yolunda mühüm tərəqqi əldə olunmuşdur. Buna görə hər iki prezident növbəti danışıqların da bu formatda keçirilməsi təşəbbüsünü konstruktiv addım hesab edirlər. Hər halda mühüm stimul bundadır ki, həmsədrlər və hər iki ölkənin prezidentləri hazırlıq işləri görmək və danışıqlar konsepsiyasını işləyib hazırlamaq, yaxud ayrı-ayrı detalları dəqiqləşdirmək üçün müəyyən vaxt imkanı əldə etmişlər. Görünür, bu formatda danışıqların keçirilməsində əldə olunacaq ilkin nailiyyət, ABŞ-ın dövlət katibi K.Pauellin tə'birincə deyilsə, tərəflər arasında fikir ayrılığını azaltmaq olmalıdır. Danışıqlar məxfi aparılsa da Ki-Uest görüşünün nəticələri barədə müəyyən ehtimallar söyləməyə, bu ətrafda düşünüb-daşınmağa əsas vardır. Xatırladaq ki, görüşün əvvəlində Kolin Pauell brifinqdə bildirmişdi ki, danışıqların gedişində müəyyən irəliləyiş olarsa, ABŞ prezidenti C.Buş Azərbaycan və Ermənistan prezidentlərini qəbul edəcəkdir. Mə'lum olduğu kimi, danışıqlar başa çatandan sonra Birləşmiş Ştatların prezidenti dərhal prezident H.Əliyevi və R.Koçaryanı qəbul etdi. Deməli, ehtimal etməyə əsas vardır ki, danışıqların gedişində müəyyən irəliləyiş əldə edilmişdir.

Hər şeydən öncə, ümumi irəliləyiş olaraq qeyd olunmalıdır ki, əvvəlki sammitlərdən fərqli olaraq Ki-Uestdə danışıqların strategiyası kəskin şəkildə dəyişmişdir. Hər halda danışıqlara Amerika siyasətinin "sanballı fiquru" K.Pauell qoşulmuşdur. Bu o deməkdir ki, ABŞ administrasiyası konfliktin sülh və danışıqlar yolu ilə həllinə ciddi maraq göstərmişdir. İkincisi, Birləşmiş Ştatların iştirak etdiyi siyasət həmişə "böyük oyundan" xəbər verdiyindən bu super dövlətin regionda sabitliyi bərpa etmək yolunda pozitiv və konstruktiv addımları digər iri dövlətlərin də Qafqazdakı hadisələrə münasibəti üçün presedent rolunu oynaya bilər [118].

Siyasət eyforiya sevmir. Onun söykəndiyi ən mühüm bəşəri dəyər sağlam düşüncədir. Ölkə prezidenti H.Əliyev bütün görüşlərində və açıqlamalarında xalqımızın milli mənafelərindən çıxış edərək təcrübəli siyasətçi kimi sağlam düşüncə fəlsəfəsinə üstünlük vermişdir. Məhz bu müdrik diplomatik sə'ylərin nəticəsidir ki, ABŞ Dövlət Departamentinin açıqlamasında Birləşmiş Ştatlar Ermənistanın ilk dəfə olaraq təcavüzkar olduğunu rəsmən e'lan etmişdir. Ermənistanın təcavüzkar olduğunu e'tiraf edən bu, dövlətin açıqlamasında deyilir: "Dağlıq Qarabağda azərbaycanlı əhalinin əksəriyyətinin yaşadığı Şuşa şəhəri 1992-ci ilin mayında Ermənistanın və Qarabağın silahlı qüvvələri tərəfindən işğal olunub.



Həmin dövrdə Qarabağı Ermənistana birləşdirən Laçın rayonu da işğal olunub. Ermənistan və Qarabağ silahlı qüvvələrinin irəliləməsi üzündən yüz minlərlə azərbaycanlı qaçqın ölkənin başqa rayonlarına axışıb" [119]. Bəlkə də tarixin kinayəsidir ki, 1988-ci ildə Azərbaycan dövlətçiliyinə qarşı başlayan və 1994-cü ilə qədər davam edən torpaqlarımızın 20 faizinin işğalı, yüz minlərlə vətəndaşımızın qaçqın düşməsi, on minlərlə şəhid verilməsilə nəticələnən növbəti erməni təcavüzü üstündən 13 il keçəndən sonra dünyanın super dövləti tərəfindən tanındı. Açıqlamada həmçinin o da öz əksini tapıb ki, mə'lum BMT qətnamələrində (üstündən 8 il keçəndən sonra) erməni qoşunlarının işğal ərazilərindən dərhal çıxarılması tələb olunur. Bunun ardınca Amerika mətbutında, o cümlədən bu günə kimi Qarabağın coğrafi region kimi tanınmadığı Ki-Uest şəhərciyinin qəzetlərində Qarabağ konflikti barədə yazılan həqiqətlər bir daha göstərir ki, Ermənistana güclü humanitar yardımı ilə seçilən Birləşmiş Ştatların administrasiyası konfliktin həlli məsələsində obyektiv mövqelərini bildirməyə hazırdır. Ki-Uest danışıqlarında maraqlı olduğunu gizlətməyən və açığını deyək ki, dövlətimizin və xalqımızın haqlı tələbinə heç də həmişə rəğbətlə yanaşmayan "Nezavisimaya qazeta"nın icmalçısı "Zaman Heydər Əliyevə işləyir" məqaləsində yazır: "Departamentin nümayəndələri sanki zarafatla tez-tez təkrarlayırlar ki, hansısa razılaşma əldə edilməyənədək prezidentləri Ki-Uestdən "buraxmayacaqlar"". Qəzet belə bir məqamı xüsusilə vurğulayır ki, Aərbaycan rəhbəri Moskva, Vaşinqton və Parisin hazırladığı, Azərbaycan və Qarabağ tərəflərinin bərabər hüquqlu olacağı "ümumi dövlət" yaradılmasını nəzərdə tutan planı qəbul etməməsində israrlıdır, hətta bu planın Azərbaycanın ərazi bütövlüyünü saxladığına baxmayaraq [120].

Yeri gəlmişkən, belə bir məqamı xatırlatmaq lazımdır ki, Qarabağ konfliktinin həlli məsələsində Azərbaycan diplomatiyasının nailiyyətlərindən biri Rusiya prezidenti V.Putinin Bakıya səfəri və hər iki ölkənin prezidentlərinin məhsuldar söhbətləridir. Bu səfərlə Kreml Azərbaycanla mehriban qonşuluq münasibətlərini yenidən qurmaqda, ölkəmizin ərazi bütövlüyünün saxlanmasında maraqlı olduğunu gizlətməmişdir. Təbii ki, Qarabağ probleminin həlli məsələsində də həmişəki kimi Moskva öz milli maraqlarından çıxış edir. Ehtimal etmək olar ki, Rusiya həmsədrlərdən biri kimi özünün regionda ən'ənəvi müttəfiqi və tərəfdaşı olan Ermənistanın rəsmi dairələrinə, ilk növbədə Robert Koçaryana qarşıdurmanın uzun müddətə dondurulması xəttinin perspektivsiz olduğunu təlqin etməli olacaq. Həqiqət budur ki, Ermənistanın milli iqtisadiyyatının böhrandan çıxmasının bu ölkənin beynəlxalq imicinin yaxşılaşmasının tə'minatı konfliktin tezliklə sülh yolu ilə həllidir. Ermənistan dövləti bilməlidir ki, ən'ənəvi olaraq sənaye və yanacaq "payını ümumi ittifaq qazanından"

almış bir ölkənin iqtisadiyyatını nə humanitar şüarlarla, nə də cəlbedici siyasi qətnamələrlə inkişaf etdirmək mümkün deyildir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İ.Əliyev Vaşinqtonda 1998-ci ilin mart ayında "Azərbaycandan keçən Avrasiya nəqliyyat dəhlizi" mövzusunda keçirilmiş seminarda haqlı olaraq demişdir: "Ermənistan anlamalıdır ki, regionda gedən inkişaf şəraitində, Avrasiya dəhlizi, Transxəzər boru və digər nəhəng layihələrin hoyata keçirildiyi şəraitində Ermənistan bir ölkə kimi bütün bu inkişafdan kənarda qalacaqdır. Ermənistan təcridə doğru yuvarlanır. Dağlıq Qarabağı müstəqil qurum kimi heç kim tanımayacaqdır. Azərbaycan öz torpaqlarının zəbt olunması ilə razılaşa bilməz. Ermənistanın indiki siyasətinin davamı Ermənistanın tam təcrid olunması deməkdir" [121]. İkinci bir tərəfdən hər cür ritorika ilə ruhlandırılan Rusiya-Ermənistan dostluğuna baxmayaraq, Rusiya və Azərbaycan strateji tərəfdaşlardır. Əgər konkret iqtisadi problemlərdən, bununla bağlı obyektlərdən söhbət gctsə ölkəmiz Rusiyada daha çox potensial investor tapa bilər. Ümumiyyətlə, Ki-Uest danışıqlarının gizli keçirilməsinə baxmayaraq, onun məntiqindən də hiss olunurdu ki, bu görüşdə vasitəçilərin marağı konfliktin həllində erməni tərəfinin mövqeyinin tədricən dəyişməsinə nail olmaq yolunda cəhdlərdən ibarətdir. Əgər problemin araşdırılması ən'ənəvi müstəvidə götürülsə, hakim ideya belədir ki, Ermənistanın yeganə yolu Rusiyanın maraqlarını həyata keçirməklə regionda öz mövqeyini möhkəmlətməkdir. E'tibarlı sülhə can atmaq, iqtisadiyyatı inkişaf etdirmək zərurəti bu təsəvvürləri şübhə altına almaya bilməz. Hətta Rusiya analitikləri belə düşünürlər ki, Bakı və Ankara ilə normal münasibətləri bərpa etmək, Qarabağ konfliktində müəyyən güzəştlərə getmək rəsmi Yerevan üçün bu gün çox vacib məsələdir. Ehtimal etmək olar ki, ermənilərə simpatiyasını gizlətməyən Paris də Qərbin regionda mənafeləri baxımından o qədər də dəstəkləmədiyi Rusiyanın mənafelərinə xidmət etməyin, Moskva ilə çox sıx əməkdaşlığın Ermənistanın mənafeləri üçün o qədər də faydalı olmaması fikrindədir. Bu baxımdan Florida sammitində məhsuldar hesab edilən Rusiya ilə ABŞ-ın müştərək əməkdaşlığının gələcəkdə də faydalı olacağına şübhə etməmək olar.

Yuxarıda gətirilən faktlar və ehtimallar hər halda buna dəlalət edir ki, Qarabağ konfliktinin həlli problemi istər milli mənafelər, istərsə də iri dövlətlərin geosiyasi niyyətləri baxımından, olduqca çətin və ağır məsələdir. Dünyanın super dövləti tərəfindən Ermənistanın təcavüzkar kimi tanınması 13 ildən sonra baş vermişsə bu həmçinin o deməkdir ki, böyük sülh sazişinin bağlanması prosesi də böyük çətinliklər və əziyyətlərlə müşayət olunacaqdır. Deməli, Ki-Uestin mühüm ibrətamiz dərslərindən biri uğurlarla kifayətlənməmək, arxayınçılığa yol verməmək,



konfliktin həlli ilə bağlı Azərbaycan-Amerika dialoqunu daha da inkişaf etdirməkdir. Bunu hər şeydən əvvəl demokratiya yolunu seçmiş Azərbaycanın Birləşmiş Ştatların qlobal dəyişikliklər kontekstində müttəfiqi olmaq zərurəti tələb edir. Odur ki, bizcə müasir politoloji tədqiqatlarda "Azərbaycan dünyanın Amerika modeli kontekstində" probleminin araşdırılması təqdirəlayiq hadisə kimi qiymətləndirilməlidir [122].

Bu gün Azərbaycan-Amerika beynəlxalq dialoqunun yeni impulsa ehtiyacı olduğu bir mərhələdə ölkə rəhbərliyi və cəmiyyətimizin sosial institutlarının fəaliyyətində prioritet istiqamətlər hansılar olmalıdır?

Məsələyə qlobal şəkildə yanaşıldıqda, qeyd edilməlidir ki, suveren Azərbaycan Respublikası dünya birliyi ölkələri ilə, o cümlədən Birləşmiş Ştatlarla qarşılıqlı faydalı münasibətlər qurmaq üçün dönməz demokratik quruculuq və islahatlar konsepsiyasına daim sadiq olmalıdır. Müxtəlif ölkələrin özünəməxsus gerçəkliyi göstərir ki, demokratik ideallarıın həyata keçirilməsi fövqəldövlət fenomeninə, yeni-yeni geosiyasi problemlərə marağı artırmaqla yanaşı, xalqın mentaliteti ilə də üzləşir, əsrlər boyu sarsıntılara mə'ruz qalmış dəyərlərin tə'sirini duyur. Ölkə prezidenti Heydər Əliyev Milli Məclisin 23 fevral tarixli iclasındakı çıxışında demişdir: "Bizim Azərbaycanın öz yolu var. Xalqımızın öz mentaliteti var. Heç kəs güman etməsin ki, burada Azərbaycanda bu gün Fransadakı kimi demokratiya olacaqdır. Onun üçün çox illər yaşamaq lazımdır".

Azərbaycanın tarixi ərazilərinin erməni işğalçılarından azad edilməsi haqqında nikbin proqnozları dəstəkləməklə yanaşı biz bunu da nəzərdən qaçırmamalıyıq ki, nikbinliyin sosial-siyasi dayaqlarından biri olaraq Amerika Birləşmiş Ştatları ilə məhsuldar münasibətlərimizin roluna xarici siyasət konsepsiyamızda mühüm yer ayrılmalıdır. Bunun üçün geosiyasi yerinə və əhəmiyyətinə görə Avrasiya, Yaxın Şərq və Qərb münasibətləri məkanının ayrılmaz hissəsi olan suveren Azərbaycan Respublikası ABŞ-la münasibətlərini aşağıdakı prinsiplərə riayət etməklə qurmalıdır:

-Sovetlər İttifaqının dağılmasından sonra ABŞ-ın yeganə super dövlətə çevrilməsi ilə güclənən müasir inteqrasiya prosesində fəal iştirak etmək, bu işdə dövlətin, bütün siyasi institutlarının rolunu artırmaq.

-İki əsrə yaxın, əvvəlcə Rusiya, sonra isə SSRİ imperiyasının geosiyasi məkanında yaşamış Azərbaycanın müasir xarici siyasəti üçün ən önəmli məsələlərdən biri ABŞ-ın MDB dövlətləri ilə hərtərəfli münasibətlərini dərindən öyrənməkdir. Həm də unudulmamalıdır ki, ABŞ-ın intensiv xarici siyasət münasibətləri qurduğu türk dövlətlərinin böyük əksəriyyəti keçmiş İttifaq məkanında yerləşir.

-Azərbaycan özünün zəngin tarixi keçmişi ilə bağlı olduğu və ABŞ-ın xüsusi münasibətdə olduğu Avropa dövlətləri ilə qarşılıqlı əlaqələri inkişaf etdirməlidir.

-Əgər Birləşmiş Ştatların Qafqaz regionuna, o cümlədən Azərbaycana öz strateji nüfuz məkanı kimi baxdığını nəzərə alsaq, Azərbaycan Respublikasının "neft diplomatiyasından" milli mənafelər naminə rasional istifadə olunmasının vacibliyi öz-özündən aydın olar.

-Transregional sosial-iqtisadi inkişafın sür'ətləndirməsinin tə'minatı olan investirləşdirmənin müxtəlif strukturları çərçivəsində elm və biznesin qarşılıqlı tə'sirini genişləndirmək və fəalaşdırmaq son dərəcə vacibdir.

-Demokratik proseslərin genişləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunun dərinləşdirilməsi kontekstində dünya informasiya sisteminə qoşulmaq, informasiya cəmiyyətinə doğru sə'y göstərməyi hüquqi dövlət quruculuğunun mühüm amili kimi qəbul etmək.

-Birləşmiş Ştatlarla beynəlxalq dialoqu daha da inkişaf etdirmək məqsədilə nüfuzlu beynəlxalq təşkilatlarla, xüsusilə BMT-nin bütün strukturları ilə əməkdaşlığı genişləndirmək mühüm xarici siyasət vəzifəsi kimi ön plana çəkilməlidir. Unudulmamalıdır ki, Qarabağ konfliktinin sülh yolu ilə həlli ölkəmizin siyasi imicindən də xeyli asılıdır. Bu vəzifənin yerinə yetirilməsində sadalanan xarici siyasət prinsiplərinin rolu misilsizdir. Belə bir ideya ilə razılaşmaq olar ki, ölkəmizin demokratik inkişaf yolu seçməsilə müasir demokratik ideallara və me'yarlara uyğun dövlətçilik quruculuğuna sədaqətimizi praktik işdə göstərməliyik. Bu seçim Azərbaycanın regiondakı müstəsna rolunu qabaqcadan müəyyən etmişdir: "Azərbaycan demokratiya yolunu seçdiyinə görə, o, hökmən Amerikanın müttəfiqi rolunda çıxış etməlidir".

Amerika-Azərbaycan münasibətləri haqqında iki ölkə prezidentləri tərəfindən imzalanmış mə'lum bəyanat, Müdafiə Nazirlikləri arasında müdafiə və hərbi əlaqələr üzrə əməkdaşlıq, investisiyaların təşviqi və qorunması, ticarət və sərmayə qoyuluşu, banklararası və digər sahələrdə əməkdaşlığı nəzərdə tutan hökumətlərarası sənədlər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, milli təhlükəsizliyin tə'min olunmasına və sosial-iqtisadi tərəqqisinə xidmət etməsi bu iki dövlətin dialoqunun genişləndirilməsində önəmli sosial-siyasi və iqtisadi təməl olsa da, hər halda, ölkə prezidentinin dediyi kimi Qarabağ konfliktinin həllində Azərbaycan tərəfi öz potensial imkanlarından daha düzgün və səmərəli istifadə etməlidir. Bu işdə xarici siyasət fəaliyyətimizi müxtəlif konstruktiv istiqamətlərdə qurmaq mümkündür. Strateji mülahizələrə görə belə istiqamətlərdən biri ermənilərin çoxluq təşkil etdiyi Qərb ölkələrində, xüsusilə Birləşmiş Ştatlarda güclü fəaliyyət göstərən Azərbaycan diasporunu təşkilatlandırmağın vacibliyidir. Parlamentdə Ermənistan-Azərbaycan konfliktinin tənzimlənməsi ilə bağlı diskusiyalar, onun ardınca Ki-Uestdə intensiv danışıqların aparılması bu fenomenin xarici siyasətimizdə mühüm problem olmasını bir daha sübut etdi. Artıq sirr deyil ki, ABŞ-da və Fransada erməni diasporasının fəal tədbirləri nəticəsində Qarabağ konflikti barədə həm siyasətçilərdə, həm də həmin ölkələrin ictimaiyyətində təhrif olunmuş təsəvvür yaranmışdır. E'tiraf edək ki, erməni diasporu, eləcə də onlara kömək edən ermənipərəst qüvvələr təcavüzkar olan Ermənistanı türklərin və müsəlmanların "vəhşi hərəkətlərinin qurbanı" kimi təqdim edə bilmişdir. Lakin bu da həqiqətdir ki, Xəzər neftində marağı olan enerji nəhənglərinin lobbisi də ermənilərin yalan informasiyasının təzyiqini dəf edə bilməmişdir. Başqa sözlə, iqtisadi lobbinin erməni etnik idealına söykənən lobbi ilə ayaqlaşa bilməməsi göz qabağındadır. İkinci bir məsələ, ermənilərin ABŞ-da güclü maliyyə dayağı olan siyasi fəal hissəsi səsvermə hüququna malikdir. Və ilk baxışda da belə təsəvvür yaranır ki, həmin səs hüququna malik Amerika erməniləri demokratik prosedurlardan istifadə etməklə parlamentdə ölkənin siyasi və iqtisadi mənfelərinə zidd qərarların qəbul edilməsinə də nail ola bilərlər. Bütün türklərə qarşı bioloji nifrət erməni diasporunda hazırda MDB məkanında yaşayan ermənilərdəkindən daha güclüdür. Bu da, bəlkə təbiidir, ona görə ki, Ermənistandakı və Dağlıq Qarabağdakı ermənilərdə ifrat şovinizmi qızışdıran, bu psixoloji əhval-ruhiyyə fonunda "erməni soyqırımı" məsələsini "böyük erməni idealı" səviyyəsinə qaldıran məhz xaricdə yaşayan ermənilərdir [123].

Bu baxımdan təqdirəlayiq haldır ki, erməni lobbisinin sə'ylərinə baxmayaraq ABŞ prezidenti C.Buş Osmanlı imperiyasında 1915-ci il "erməni soyqırımı" deyilən hadisə ilə bağlı "başsağlığı" verərkən "soyqırım" ifadəsini işlətməmişdir. O, həmçinin qeyd etmişdir ki, həmin hadisələrin müasir Türkiyə ilə heç bir əlaqəsi yoxdur, bu yalnız Osmanlı imperiyası ilə bağlıdır. Təbiidir ki, ABŞ prezidentinin bu mövqeyi erməni diasporunun kəskin narazılığına səbəb olmuşdur. Mətbuatda göstərilir ki, "soyqırım" ifadəsini işlətməməyi D.Çeyni, K.Pauell və müdafiə naziri Ramsvell C.Buşa məsləhət bilmişlər. Bu hər halda türk dünyasına hörmət əlaməti kimi qiymətləndirilməlidir.

Bu, necə deyərlər, artıq dünya ictimaiyyətinə mə'lumdur. Bizə gəldikdə isə Azərbaycan özünün xarici siyasət konsepsiyasında lobbizm fenomeninin layiqli yer tutması barədə ciddi düşünməlidir. Aydındır ki, bu sahədə diplomatiyanın önəmli cəhdləri, xüsusilə ölkə prezidenitinin xaricdəki soydaşlarımızla açıq və tə'sirli söhbətləri həmvətənlərimizdə xeyli siyasi fəallıq əhval-ruhiyyəsini yarada bilmişdir. Lakin "erməni soyqırımı"nı tanıtmaq cəhdləri ilə bağlı son hadisələr bir daha göstərir ki, lobbizmi, diasporanı təşkilatlandırmaq məsələsi ilə bağlı xarici siyasət fəaliyyətimizdə konseptual yanaşma xüsusilə vacibdir. Maraqlıdır ki, türk və azərbaycanlı diasporu ilə müqayisədə ermənilər o qədər də çox deyillər. Vaxtilə Türkiyədə işsizlərin çox olması ilə, İran İslam İnqilabı ilə

bağlı türklərin və azərbaycanlıların xaricdə sayı artmış, onlar tamamilə yeni siyasi mühitdə formalaşmağa başlamışlar. Lakin qeyd edilməlidir ki, xaricdə yaşayan soydaşlarımız lazımi təşkilatlanma qabiliyyəti nümayiş etdirə bilmir, yeni Vətənlərinin siyasi həyatına çox çətinliklə adaptasiya olunurlar. Buna görə də nə Azərbaycan, nə də türk diasporası dəyərincə nüfuza malik deyildir. Düşündürücü hal budur ki, Azərbaycanın sərhədlərindən uzaqda yaşayan azərbaycanlılar böyük əksəriyyət təşkil edirlər. Amma diaspora yoxdur, söhbət təşkilatlanmış və keyfiyyətli fəaliyyət nümayiş etdirə biləcək diasporamızın olmamasından gedir. Ona görə də bu təşkilatlanma işinin dövlət siyasətinin tərkib hissəsi olması vacibdir. Azərbaycanın həyatı və problemləri, xüsusilə Qarabağ konfliktinin bütün aspektləri haqqında informasiya, xaricdə yaşayan soydaşlarımızın hüquqları, bir sıra Qərb ölkələrində yaranmış az sayda təşkilatların fəaliyyətini əlaqələndirmək üzrə təşkilati işləri həmin fəaliyyətin istiqamətləri kimi səciyyələndirmək olar. Bu sahədə ilk addım olaraq soydaşlar haqqında qanunun (Pribaltika ölkələrində olduğu kimi), xarici soydaşlarla işlər üzrə dövlət siyasəti haqqında qanunun qəbul edilməsi böyük səmərə verə bilər. Azərbaycanlıların öz tarixi Vətənləri ilə əlaqələrini canlandırmaq, onların təhsilinin, milli mədəniyyətlərinin qorunmasına kömək etmək qısa müddətdə dünyanın iri dövlətlərində milli diasporanın yaranmasına imkan yaratmış olardı. Söhbət ilk növbədə milli mənlik şüurunun oyanması, azərbaycanlılıq ideyasının aşılanması kimi keyfiyyətlərin formalaşmasından, başqa sözlə, belə bir qanunun həyata keçirilmə istiqamətlərinin düzgün düşünülüb işlənməsindən, onun milli mentalitetə pozitiv tə'sirinə nail olmaqdan gedir.

Buna görə də, deyilənlər baxımından təqdirəlayiq hadisədir ki, bu yaxınlarda ABŞ Konqresində Amerika-Türkiyə münasibətləri və türkmənşəli amerikalıların məsələləri ilə məşğul olacaq işçi qrupu fəaliyyətə başlayır. Nümayəndələr Palatasının Respublikaçılar Partiyasından olan üç üzvünün – Robert Uckeler, Edvard Uitfild və Key Qrengerin təşəbbüsü ilə yaradılmış qrupa 17 konqresmen daxildir. İşçi qrupu konqresmenləri Birləşmiş Ştatlar və Türkiyə arasında münasibətlərin mövcud vəziyyəti, regional təhlükəsizlik, müdafiə, enerji, ticarət, turizm, mədəniyyət və s. məsələlərdə mə'lumatlandıracaq, habelə ölkədə yaşayan türklərin maraqlarını konqresdə müdafiə edəcəkdir. Bu bir daha göstərir ki, ABŞ müttəfiqi Türkiyəyə və Amerika Türkləri Assosasiyaları Assambleyasının fəaliyyətinə, ümumiyyətlə bu ölkədə yaşayan türkmənşəli xalqların problemlərinə mühüm əhəmiyyət verir. Məsələn aprelin 17-də Vaşinqtonun Yaxın Şərq institutunda çıxış edən ABŞ-ın Türkiyədəki sabiq səfiri Mark R.Parris ABŞ-Türkiyə münasibətlərində dönüş yaratmağın vacibliyini qeyd edərək demişdir: "ABŞ tərəfi nə qədər xoşniyyətli və çevik



xarici siyasət yürütsə də Türkiyənin tərəfdaşlığı olmadan ardıcıllıq və səmərəlilikdən danışmaq yersizdir" [124]. Bunu da qeyd edək ki, bu yaxınlarda Amerika RAUD Corporation mərkəzinin analitiki Qrchem Fuller "Yeni Türkiyə üçün böyük siyasət" məqaləsində belə bir fikir söyləyir ki, Türkiyə özünün Qafqaz geosiyasətində Ermənistana stavka etməlidir, çünki Ermənistan türk əhatəsindən qorxduğu üçün Rusiyanın girovuna çevrilmişdir, üstəlik də öz təhlükəsizliyinin tə'min olunması ucbatından Moskvadan asılı vəziyyətə düşmüşdür. Analitik hesab edir ki, Türkiyənin Yerevanla münasibətlərinin yaxşılaşması Ermənistanın narahatlığını azaldar, onun Avropaya alternativ yolunu müəyyənləşdirər və Qarabağ probleminin həlli üçün yeni imkanlar açar [125].

Əlbəttə, belə bir təklifin Türkiyə üçün nə qədər məqbul olmasını bu ölkə özü qiymətləndirməlidir və hər şeydən əvvəl bu dövlətin öz daxili işidir. Lakin analitik material bir daha göstərir ki, Birləşmiş Ştatlar regionda öz milli mənafelərinin qayğısına qalır, daha doğrusu Ermənistanı Qərb orbitinə cəlb etməyə, Cənubi Qafqazda Rusiyanın geosiyasi niyyətlərinin həyata keçirilməsinə imkan verməməyə çalışır.

Belə bir məsələ də unudulmamalıdır ki, konfliktlərin həllinə, dövlətlər arasında konsensus yaratmağa kömək edən siyasi fəaliyyət formalarından biri lobbizmdir. Lakin biz belə bir məs'uliyyətli məqamı da dərk edirik ki, lobbizmi yaratmaq, bundan milli mənafelərin həyata keçirilməsində istifadə etmək heç də asan deyildir. Bu gün lobbizm fəaliyyətini maliyyələşdirməkdən daha çox məhz gərgin, çevik diplomatik fəaliyyət tələb olunur. Buna çox böyük təcrübə toplamaqla nail olmaq mümkündür. Məsələn, ABŞ-da ən'ənəyə görə lobbistlər öz "müştəriləri" adından xüsusi təkliflə konqresə müraciət edir və onlar üçün konkret mə'lumatlar toplayırlar. Lobbistlər qanun layihələrini müdafiə edən, neytrallaşdıran, yaxud qüvvədə olan qanunlara əlavə etmək məqsədilə siyasi strategiya və taktika işləyib hazırlayırlar.

Lobbistlərin fəaliyyətinə təkan verən amillərdən biri xidmət etdikləri müvafiq dövlətin, deyək ABŞ-ın federal sistemini, konqreslə icra hakimiyyətinin qarşılıqlı münasibətlərini yaxşı bilməsidir. Göründüyü kimi lobbizm çoxşaxəli fəaliyyət sahəsi olduğundan bu işlə məşğul olanlardan müstəsna peşəkarlıq tələb edir.

Lakin biz belə bir inamı itirmirik ki, Dünya Birliyi tərəfindən və hüquqi dövlət qurmaq yolunda demokratik institutlar yaradan, sosial yönümlü bazar iqtisadiyyatına üstünlük verən ölkə kimi tanınan Azərbaycan inkişaf etmiş ölkələrin parlamentlərində respublikamızın lobbisi ilə çıxış edəcəkdir.

Belə bir son faktı götürək. Bu il aprelin 24-də Avropa Şurası Parlament Assambleyasında mütəşəkkil cinayətkarlıq probleminin müzakirəsi zamanı

Azərbaycan nümayəndə hey'ətinin rəhbəri millət vəkili İlham Əliyev Dağlıq Qarabağ problemindən danışarkən bu diyarın ərazisindən narkotiklərin daşınması, bu qondarma qurumdan qanunsuz silahların ötürülməsi üçün tranzit kimi istifadə olunması, burada hərbi dəstələrin yaradılması, işğal olunmuş ərazilərdə çirkli pulların yuyulması haqqında ətraflı mə'lumat vermişdir. Millət vəkilinin gətirdiyi arqumentlər qarşısında erməni nümayəndələri aciz qalmış artıq sübut və dəlilləri təkzib edə bilməmişlər. Onun mə'ruzəsi AŞ PA-nın üzvləri tərəfindən maraqla qarşılanmış və bəyənilmişdir [126]. Ermənilərin uydurma hökmlərini vüs'ətdən salmaq üçün xarici ölkələrdə haqqımızda əsl həqiqəti deyə biləcək lobbiyə olduqca böyük ehtiyac vardır.

Ki-Uest danışıqlarına qədər prezident Heydər Əliyev 68 ölkənin prezidenti, dövlət başçısı ilə 485 görüş keçirmiş və hər birində Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması, Qarabağ konfliktinin tarixi-siyasi köklərinin mahiyyətinin nədən ibarət olduğu məsələsini açıqlamış, dünya birliyini həmin problemin dinc yolla həllində kömək etməyə çağırmışdır. O, 18 dəfə yalnız Birləşmiş Ştatların prezidenti və dövlət katibi ilə görüşüb Qarabağ konfliktinin həllinin və bu yolda əsas maneə olan 907-ci düzəlişin ləğvinin zəruriliyini əsaslandırmışdır. Azərbaycan prezidenti Ki-Uestdən Vətənə qayıdarkən jurnalistlərə verdiyi müsahibəsində xüsusi olaraq qeyd etmişdir ki, "görüşlər böyük əhəmiyyət kəsb etmişdir. Çünki danışıqlarda C.Buşun bütün komandası – vitse-prezident Çeyni, dövlət katibi Pauell, prezidetin milli təhlükəsizlik üzrə köməkçisi Kondoliza Rays iştirak etmişlər. Deməli, bu onu göstərir ki, onlar tərəfindən bu məsələyə nə qədər böyük diqət var, maraq var" [127].

Azərbaycan Respublikasının ləyaqətlə təmsil olunduğu Ki-Uest danışıqlarının fəlsəfəsini iştirakçılar belə ifadə etmişlər: "Necə işləmək lazımdır ki, sülhə nail olaq, ehtiyacında olduqları və haqları çatdığı o sülhü region uşaqlarına ərmağan edək!".



*FƏSİL V*

## SÜLH İSTİQAMƏTİNDƏ SƏ'YLƏR DAVAM EDİR

***Ermənistan ilə Azərbaycan arasında sülh yaradılması bütün Cənubi Qafqazda həm sabitlik üçün, həm də təhlükəsizlik üçün müstəsna əhəmiyyət daşıyacaqdır.***

*Heydər Əliyev.*

Ki-Uest danışıqları artıq arxada qalmışdır. Lakin Azərbaycan-Amerika beynəlxalq dialoqunda mühüm mərhələ təşkil edən bu görüşlərin əks-sədası səngimir, tolatüm sevən mətbuatın səhifələrində fikir və yanaşmalar "sızma-təkzib" məcrasında işıqlandırılır. Bir sözlə, "böyük oyunun" tərkib hissəsi olan "regional oyunlar" getdikcə yeni vüs'ət almağa başlayır. Ki-Uestdən Vətənə dönən kimi Azərbaycan prezidenti H.Əliyev aprelin 16-da prezident sarayında ABŞ Senatının üzvü Riçard Şelbinin başçılığı ilə nümayəndə hey'ətini qəbul etmişdir. Amerikalı qonaq Birləşmiş Ştatlar ilə Azərbaycan arasında əməkdaşlığın çox geniş spektri olduğunu vurğulamış və xüsusilə qeyd etmişdir ki, ABŞ-Azərbaycan dialoqunu uğurla həyata keçirmək üçün təbiidir ki, Azərbaycanın ən əsas problemi – Qarabağ konflikti həll olunmalıdır [128].

Son illər regionda təhlükəsizliyin tə'min olunması sahəsində Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında xeyli iş görülübdür. Və əgər uzun sürən konflikt həll olunsa, əməkdaşlığımız daha yüksək səviyyəyə qalxa bilər. Florida görüşləri göstərdi ki, Senat, Konqres və Amerika Birləşmiş Ştatlarının yeni hökuməti, prezident Buş və onun komandası dialoqun gələcəkdə də genişlənməsinə çox əhəmiyyət verirlər. Bu barədə ölkə prezidenti ilə cənab Buş çox ətraflı danışmışlar. Həmin görüşdə iştirak edən vitse-prezident Dik Çeyni, dövlət katibi Kolin Pauell, prezidentin təhlükəsizlik üzrə köməkçisi Kondoliza Rays danışıqlardan müsbət nəticələr gözlədiklərini qeyd etmişlər.

Cənab R.Şelbi belə fikirdədir ki, "Azərbaycan-Amerika münasibətlərində ciddi maneə olan 907-ci maddənin aradan qaldırılması üçün zaman artıq yetişibdir. Hesab edirəm ki, bu maddə Amerikadakı etnik

azlığın, erməni lobbisinin sə'yləri nəticəsində qəbul olunmuş bir maddədir. Bir daha təkrar edirəm ki, bu, ABŞ-ın Azərbaycana, Azərbaycan xalqı üçün daha yaxşı işlər görməsinə mane olan bir maddə kimi dərhal aradan qaldırılmalıdır". Amerikalı diplomat belə bir məqama toxunmuşdur ki, Azərbaycandan Türkiyəyə çəkiləcək boru kəməri Azərbaycanın və regionun digər dövlətlərinin müstəqilliyinin gücləndirilməsinə yardımçı olacaqdır. Onun fikrincə, "əsas boru kəməri Rusiyadan keçərsə, onda Azərbaycan taleyini onların mərhəmətinə və yaxud ümidinə buraxmış olar. Siz və sizin xalqınız Rusiyanın ümidinə, mərhəmətinə möhtac qalmağın tarixən nə demək olduğunu yaxşı bilirsiniz" [129].

Ümumiyyətlə, Azərbaycan-Amerika dialoqunda gələcəkdə xüsusi əhəmiyyət kəsb edən məsələ boru xəttlərinin təhlükəsizliyinin tə'min olunmasıdır. Bunu vurğulayan cənab R.Şelbi demişdir: "Biz sizinlə təhlükəsizlik sahələrində əməkdaşlıq edərkən boru xətlərinin qorunması məsələsində də çox ciddi əməkdaşlıq etməliyik. Bunda bizim sizə böyük ehtiyacımız var. Ona görə ki, bir neçə il bundan qabaq fərziyyə hesab olunan bir şey, bu gün reallığa çevrilibdir. Bundan sonra belə olacaqdır və bizim bu sahədə əməkdaşlığımız çox geniş olmahdır. Amma bunların hamısının əsas şərti Ermənistan-Azərbaycan münaqişəsinə son qoymaq, Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, bir milyon Azərbaycan vətəndaşını öz yerinə-yurduna qaytarmaqdır".

Ölkə prezidenti H.Əliyev 907-ci maddənin ədalətsiz olduğunu bir daha qonağın nəzərinə çatdıraraq göstərmişdir: "907-ci maddənin nə qədər ədalətsiz olduğunu sizin kimi çoxları e'tiraf edir. Prezident Klinton da e'tiraf edirdi. Mən prezident Buş ilə də bu barədə danışdım. Ona görə, gərək Amerika kimi bir ədalətli dövlətdə, Amerika Konqresi kimi ədalətli bir təşkilatda bundan sonra ədalətsizliyə yol verilməsin". Prezidentimizin və xalqımızın həmin ağrılı problemə haqlı reaksiyasını düzgün dərk edən Amerika diplomatı H.Əliyevi əmin etmişdir ki, bu ədalətsiz əlavənin ləğvi üçün əlindən gələni edəcəkdir. O, demişdir: "Mən buradan qayıtdıqdan sonra Nelsonla birlikdə həm prezident Buş, həm vitse-prezident Çeyni, həm dövlət katibi Pauell, həm təhlükəsizlik məsələləri üzrə müşavir Rays ilə söhbət etməyi planlaşdırıram. Onlarla görüşdə bu məsələnin, yə'ni 907-ci maddənin dərhal aradan qaldırılmasının vacibliyini bir daha bildirəcəyəm".

Cənab R.Şelbi bu fikirdədir ki, 907-ci maddə regionda sülh prosesinə də mane olur. Şübhəsiz ki, işğalçı dövlət ilə təcavüzə mə'ruz qalmış dövlət arasında normal münasibətlər olmur. Sülhün bərqərar edilməsinin vacibliyinin erməni xalqına da anlatmağın önəmli olduğunu vurğulayan amerikalı diplomat qeyd etmişdir ki, "bu mübarizəni davam etdirmək erməni xalqının nə yaxın, nə də uzaq zaman üçün hesablanmış məqsədlərinə xidmət etmir" [130]. Söhbət əsnasında amerikalı qonaq e'tiraf etmişdir ki, ölkə prezidenti H.Əliyev ona Azərbaycanda bir milyona yaxın vətəndaşımızın didərgin düşdüyünü, qaçqın olduğunu dəfələrlə söyləmişdir. Ölkəsinin qaçqınlarla işləyən beynəlxalq təşkilatlarla sıx fəaliyyətinin nə olduğunu bilən ABŞ nümayəndəsi qeyd etmişdir ki, "qaçqınların problemləri Azərbaycanda əlavə iqtisadi çətinliklər yaradır. Onlar Azərbaycanın başqa hissələri üzərində iqtisadi yük olurlar. Lakin evindən-eşiyindən didərgin salınanda onların getməyə başqa yerləri olmur, sadəcə, ölkənin başqa bir hissəsinə köçürlər".



Ölkə prezidenti Amerika siyasətçisinin bu mövqeyini təqdirəlayiq saymış və göstərmişdir ki, "həqiqətən də cənab Buş, vitse-prezident Çeyni, dövlət katibi Pauell, milli təhlükəsizlik üzrə müşavir Rays – bunlar Azərbaycanın və regionun nə qədər mühüm əhəmiyyət daşıdığını yaxşı anlayan siyasətçilərdir. Onlar boru kəmərlərinə və sizin kimi dövlətlərin azadlıqlarının qorunub saxlanılmasına bütün dünyadakı təhlükəsizliyin tə'min olunmasının vacib elementi kimi baxırlar".

İlk baxışda monoqrafiya üçün qeyri-ən'ənəvi görünən bu diplomatik söhbət xarakterli materiala geniş yer verməklə biz Azərbaycan-Amerika dialoqunda Amerika tərəfinin Qarabağ konfliktinin həllində maraqlı olduğunu bir daha göstərmək istədik. Yuxarıdakı görüş sanki Ki-Uest danışıqlarının ruhunun davamından xəbər verir.

Məhz, görünür, Ki-Uestdəki diplomatik sə'ylərin pozitiv ruhuna xələl gətirməmək üçün ABŞ prezidenti C.Buş Amerika ermənilərinə "erməni soyqırımı" deyilən hadisə ilə əlaqədar müraciət edərkən "soyqırımı" ifadəsini işlətmədi. Və bu, təbii ki, Amerika Erməni Assambleyasının yaydığı xüsusi açıqlamada ABŞ prezidentinin müraciətindən bütün ermənilərin təəssüf hissi keçirməsi faktının xüsusi vurğulanmasına səbəb olmuşdur.

Daha sonra AŞ PA-da millət vəkili İ.Əliyevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə hey'əti tərəfindən Strasburqda erməni separatçılarının işğal olunmuş Dağlıq Qarabağı narkobiznes məkanına çevirmələri barədə tutarlı faktları açıqlaması dünya ictimaiyyətinə erməni təcavüzkarlarının əsl simasını bir daha göstərdi. Azərbaycan parlamentarilərinin Avropanın bu nüfuzlu siyasi qurumunda diplomatik fəaliyyəti dünyada ictimai rə'yin Azərbaycanın xeyrinə dəyişməsində çox böyük rol oynamışdır. Ən önəmlisi budur ki, nümayəndə hey'ətinin (buraya iqtidar və müxalifət təmsilçiləri daxildir) Azərbaycanın milli maraqları baxımından yekdil mövqedən çıxış etməsi "erməniləri şoka salan həmrə'ylik" effektini yaratmış, milli həmrə'yliyin həyatiliyini bir daha sübut etmişdir. Həmrə'yliyin bariz təzahürü Azərbaycan nümayəndə hey'ətinin türkiyəli

parlamentarilərlə birgə ermənilərin Azərbaycan xalqına qarşı soyqırım törətməsi barədə sənəd hazırlaması və bunun sessiya iştirakçıları arasında paylanmasıdır.

Belə bir fakt da nəzərdən qaçırılmamalıdır ki, ABŞ hökumətinin vasitəçilik etdiyi konflikt nə qədər mürəkkəbdirsə, amerikalıların əksəriyyəti üçün bir o qədər də anlaşılmazdır – belə bir fikir "Vaşinqton post" qəzetinin 16 aprel tarixli nömrəsində açıqlanmışdır. Lakin bununla belə Qarabağ konfliktinə Birləşmiş Ştatlar hökumətinin xüsusi diqqət yetirməsi təqdirəlayiqdir. Həmin qəzetdə göstərilir ki, prezident Corc Buş ərəblərlə israillilər arasında getdikcə gərginləşən zorakılığın dayandırılması sahəsində vasitəçilik sə'ylərinə öz hökumətini yaxından cəlb etməkdən hələlik boyun qaçırır... Bununla yanaşı Şimali İrlandiyadakı konfliktin həlli üçün məs'uliyyət Milli Təhlükəsizlik Şurasından Dövlət Departamentinə ötürülmüşdür ki, bu da həmin məsələyə yetirilən diqqətin azaldılması deməkdir. Lakin ***eyni dərəcədə mürəkkəb*** (kursiv bizimdir) və uzaq regional konflikt – "Dağlıq Qarabağ konflikti, deyəsən, yeni hökumətin diqqətini bilavasitə cəlb etmişdir. Corc Buş hökuməti vasitəçilik rolunu tez qəbul etmiş və sonuncu zirvə görüşünün keçirilməsində fəallıq göstərmişdir" [131].

Ki-Uest danışıqlarından sonra ABŞ hökumətinin problemə olan münasibəti daha da artmaqdadır. Həmin tarixdə, yə'ni aprelin 16-da "Nyu-York tayms" qəzetində dərc olunmuş "Cənab Buşun Xəzər diplomatiyası" məqaləsi xüsusi maraq kəsb edir. Məqalədə deyilir: "deyəsən indi Corc Buş hökumətinin bə'zi əməkdaşları nikbindirlər ki, Ermənistan daha üzüyola ola bilər. Onlar ümidvar olduqlarını söyləyirlər ki, həmin anklavın (Dağlıq Qarabağın — *müəllif*) əslən Dağlıq Qarabağlı olan keçmiş lideri, Ermənistanın indiki prezidenti Robert Koçaryan erməniləri, xüsusən də nüfuzlu hərbi dairələri müstəqillik iddialarından əl çəkməyin zəruriliyinə inandıra bilər, bir şərtlə ki, onun özü məhz belə hərəkət etmək qərarına gəlsin" [132].

Göründüyü kimi Birləşmiş Ştatlar konfliktin həllində sağlam düşüncə prinsipini rəhbər tutaraq öz milli mənafeləri baxımından onun tezliklə tənzimlənməsinə sə'y göstərir. Ümumiyyətlə, son vaxtlar konflikt ətrafında müzakirə və mülahizələr daha intensiv xarakter alır. Amerikalı həmsədr K.Kavanonun Bakıya səfəri bunu bir daha sübut edir. Mətbuatdan mə'lum olduğu kimi K.Kavanonun Bakıya gəlişindən əvvəl "Röyter" agentliyi ona istinadən yazır ki, Ermənistan və Azərbaycan konfliktin tənzimlənməsi istiqamətində çox intensiv işləyirlər. Adı çəkilən mənbə belə bir məsələni də vurğulayır ki, "gələcək saziş Dağlıq Qarabağ üçün yüksək özünüidarəetmə, onun Azərbaycan tərkibində nominal qalacağı planını nəzərdə tutur. Qarabağ həmçinin Ermənistan ilə dəhliz, Azərbaycan isə Naxçıvanla əlaqə üçün dəhliz alacaqdır" [133].



Təsadüfi deyildir ki, Minsk qrupunun həmsədri K.Kavano Bakıda olarkən bu məsələyə toxunulmuşdur. Lakin amerikalı diplomat o qədər də nikbinlik nümayiş etdirməmişdir. Doğrudur, o, bildirmişdir ki, artıq 2001-ci ilin sonu üçün prezidentlərin konflikti tənzimləmək şansı vardır, lakin Yaxın Şərq konfliktinin təcrübəsinin göstərdiyi kimi bu uzun çəkən prosesdir.

"Trend" agentliyinin nümayəndəsinə amerikalı həmsədrin dediyindən belə bir fikir də aydın olur ki, Qarabağla bağlı əldə olunan razılıqlar məxfi saxlanılmayacaq, müzakirə üçün konflikt tərəflərinə təqdim olunacaqdır. Lakin maraqlı burasıdır ki, Birləşmiş Ştatlar konfliktin həllinə intensiv maraq göstərdikcə Ermənistanda daxili gərginlik də artır. Ermənistan parlamentində təmsil olunan partiyaların bəyanatında belə bir məqam vurğulanır ki, "bu elə bir həddir ki, bundan da aşağı enmək olmaz". Qeyd edək ki, onların bəyanatında irəli sürülən prinsipə görə, Qarabağ müstəqil dövlətə çevrilir, yaxud o, Ermənistana (işğal olunmuş Dağlıq Qarabağ ətrafındakı rayonlar da daxil olmaqla) birləşdirilir. "Kuryer" qəzetinin mə'lumatına görə, gərginliyi bir növ azaltmaq istəyən Ermənistanın Xarici İşlər Nazirliyi tələsik bildirmişdir ki, iki ölkə prezidentlərinin Paris və Ki-Uest görüşlərindən sonra "bu ilin axırı üçün sülh sazişinin bağlanmasına" inam artmışdır. Əlbəttə, erməni tərəfinin bu bəyanatı nə inandırıcı, nə də səmimi səslənmir, ictimaiyyəti sakitləşdirmək hələ problemin həllinə hazır olmağı bildirmir. Əksinə, erməni siyasətçiləri ABŞ-ın Ermənistana tə'sir göstərəcəyini istisna etmirlər. Bu səbəbdən də hadisələri bir növ qabaqlamaq məqsədilə erməni kütləvi informasiya vasitələri "informasiya təxribatı" metodlarından istifadə edərək "heç bir kompromisə və güzəştlərə" getməyəcəkləri barədə hay-küylü materiallar dərc edirlər. Dağlıq Qarabağ separatçılarının liderləri təxribatçı addımlardan əl çəkməyərək nəzakətsiz bəyanatlar verməkdə davam edirlər. Onların "Mediamaks" agentliyinə verdiyi müsahibədə deyilir ki, rəsmi Bakı özü sülhyaratma proseslərini davam etdirmək üçün masa arxasında oturmaqda maraqlı olmalıdır. Separatist liderlər bildiriblər ki, "Nə qədər ki Dağlıq Qarabağ tənzimlənmə prosesindən sıxışdırılır, hansısa irəliləyişi gözləmək mümkün olmayacaqdır" [134].

Erməni tərəfinin bu demarşından məqsəd Birləşmiş Ştatların sə'ylə konfliktin həllinə qoşulması sayəsində əldə olunmuş Ki-Uest uğurlarını heçə endirməkdir. Bu ölkənin Qırğızıstandan ən yeni silahlar üçün güllə alması, ehtimala görə buraya tank sursatı göndərilməsi, eləcə də Rusiya ilə birgə hərbi tə'limlər keçirməsi onun geniş miqyaslı müharibəyə hazırlaşması barədə fikir söyləməyə əsas verir. Belə qənaətə gəlmək olar

ki, bu təkcə dünya ictimaiyyətinə tə'sir göstərməkdən çox Azərbaycana hədə-qorxu üsulu kimi qiymətləndirilməlidir. Buna baxmayaraq, Qarabağ konfliktinin nizamlanmasına dünya dövlətlərinin marağının diapazonu daha da genişlənir.

Mə'lum olduğu kimi Almaniyanın Lokkum şəhərində mayın 2-4-ü "Qafqazda sabitlik və sülh" mövzusunda konfrans keçirilmişdir. Lokkum İncil Akademiyasının, İnkişaf və Azadlıq Fondunun təşkil etdiyi bu görüşdə ATƏT-in Minsk qrupunun həmsədrləri, həmçinin müxtəlif ölkələrdən 150-yə yaxın mütəxəssis iştirak etmişlər. Nümunə olaraq Dağlıq Qarabağ konflikti nəzərdən keçirilmişdir. Üç gün ərzində Ermənistan-Azərbaycan konfliktinin bütün detalları, əsirlərin mübadiləsi, Dağlıq Qarabağın statusu və onun Qafqazda iqtisadi, siyasi və regional münasibətlərə mümkün tə'siri bütün təfərrüatı ilə müzakirə olunmuşdur.

Seminarda çox ciddi problemlərə toxunulmuşdur. Görüş iştirakçıları belə bir həqiqətin şahidi olmuşlar ki, ermənilər və onları dəstəkləyənlər konfliktin uzanmasından daha çox narahat olmağa başlamışlar. Regionda gedən hadisələri və prosesləri dərindən öyrənən konfliktoloqlar birmə'nalı şəkildə bildirmişlər ki, əgər konflikt bu məcrada davam edərsə, gələcəkdə kütləvi miqrasiya hadisələrinin güclənməsini gözləmək mümkündür. Bu amilin yalnız Ermənistanın itisadiyyatına, siyasi durumuna ziyan vuracağını Minsk qrupunun həmsədrləri, o cümlədən K.Kavano xüsusilə vurğulamışlar.

Mə'lum olduğu kimi, Azərbaycan tərəfi bütün rəsmi və qeyri-rəsmi səviyyələrdə keçirdiyi görüşlərdə Qarabağ konfliktinin sülh yolu ilə həllinin yalnız beynəlxalq hüquq normaları əsasında mümkünlüyünü dəfələrlə bəyan etmişdir. Ermənilər və onları dəstəkləyənlər seminarın gedişində bir daha neqativ mövqe tutaraq iştirakçıların nəzərini konfliktin "unikallığına" cəlb etməyə çalışmışlar. Ermənipərəst konfliktoloqlar sübut etməyə çalışırdılar ki, guya beynəlxalq hüquq normalarını Qarabağ konfliktinə şamil etmək çox çətindir. Onlar hesab edirlər ki, ölkənin ərazi bütövlüyünün qorunması prinsipi guya etnik özünümüəyyənlik konsepsiyasına ziddir. Lakin realizm mövqeyində duran iştirakçıların milli özünümüəyyənliyin ayrılma və separatizm sə'yləri ilə müşayiət edilməsinin sağlam məntiqə zidd olması barədə sübutlarına erməni tərəfi və onları dəstəkləyənlər cavab verməkdə aciz qalmışlar. Lakin seminar iştirakçılarının yekdil fikrincə regiondakı qaçqınlar öz daimi yaşadıqları yerlərə qaytarılmalıdırlar.

Doğrudur, problemin həllində maraqlı olan beynəlxalq təşkilatlar konflikt tərəflərinin qarşılıqlı güzəştə getməsini məqsədəuyğun hesab edərək bunu da xüsusilə vurğulayırlar ki, konfliktin həllində qalib tərəf ola bilməz və əgər problemin tənzimlənməsinə beynəlxalq hüquq normaları



şamil olunmursa, onda tərəflər dil tapıb barışmalıdırlar. Təbii ki, bu da yeganə real çıxış yolu deyildir və əslində problemin həlli prosesinin yeni çətinliklərlə üzləşəcəyindən xəbər verir. Seminarın ümumi ruhunu xarakterizə etsək bunu konflikt tərəflərinin mövqelərini dəqiqləşdirmək cəhdi kimi də qiymətləndirmək olar. Forumun gedişində həmsədrlərin Ermənistan və Azərbaycan nümayəndə hey'ətinin çıxışlarına və analitiklərin təhlilinə diqqətlə yanaşmaları bunu bir daha sübut edir. Yeri gəlmişkən qeyd edək ki, seminarın gedişində iqtidar və müxalifət nümayəndələrinin fikir mübadiləsi aparması bütövlükdə Azərbaycan tərəfinin konfliktin tənzimlənməsinə daha realist mövqedən yanaşmasını tə'min etmişdir.

Maraqlıdır ki, konfliktin tənzimlənməsi prosesində paradoksal məqamlar da meydana çıxır. Problemlə bağlı "informasiya blokadası" anlayışı aydındır ki, uzun müddətdən bəri mətbuatın səhifələrindən düşmür, konfliktin həlli prosesini çətinləşdirir, hər iki dövlət arasında qarşıdurma prosesini daha da gərginləşdirir. Lakin bu gün biz yeni bir "fenomen" – Ermənistan tərəfinin "informasiya təxribatı"nı gündəliyə gətirən yeni "diplomatik fəaliyyətlə" üzləşməli oluruq. Məsələyə aydınlıq gətirək. Mayın 10-da Ermənistan Xarici İşlər naziri V.Oskanyan Ki-Uestdə *iki ölkə prezidentinin Minsk qrupu həmsədrlərinə danışıqların məzmununu* məxfi saxlamaq barədə verdikləri və'din ziddinə olaraq məqsədəuyğun sayılmayan açıqlama vermişdir. Bu sükutu ilk pozan R.Koçaryan oldu. Lakin sonradan mə'lum oldu ki, danışıq tərəflərinin bəyanatları bir-birindən fərqlidir və erməni tərəfi birmə'nalı şəkildə "ucuz effekt", yalançı "sensasiya" xatirinə müasir diplomatik münasibətlərin rəvan keçməsinə mane olmaq niyyəti daşıyan bəyanatlar yolunu seçmişlər. Nümunə üçün Ermənistan Xarici İşlər Nazirinin açıqlamasına diqqət yetirək. Onun dediklərindən belə çıxır ki, Dağlıq Qarabağa erməniləri qane edən status verilərsə, onda tənzimlənmə üzrə son sənədə görə, Azərbaycana 7 rayondan 6-sı qaytarılacaqdır. Laçın rayonu erməni tərəfində qalmalıdır. Bu erməni "həqiqətini" Ermənistan XİN "A1+" erməni teleşirkətinə verdiyi bəyanatda "açıqlamışdır". Laçın rayonuna Dağlıq Qarabağ üçün nəzərdə tutulmuş status veriləcəkdir. Statusun nədən ibarət olduğunu deməkdən vaz keçən erməni nümayəndəsi bunu diplomatik sirr adlandırmışdır. Bəyanatda belə bir fikir aydın vurğulanmışdır ki, erməni tərəfi ya Dağlıq Qarabağla Azərbaycan arasında üfiqi əlaqənin yaradılması, ya da Xankəndinin Bakıya tabe olmaması prinsipinin həyata keçirilməsini də tə'kid edir [135].

Lakin həmin ölkənin XİN-in başçısı bunu da qeyd etmişdir ki, danışıqların gedişində bu günə kimi mə'lum olmayan üçüncü variant yarana bilər. Tənzimlənmə planının təfərrüatına varmayan erməni tərəfi

bunu deməyi lazım bilmişdir ki, Ermənistanı Dağlıq Qarabağla, Azərbaycanı isə Naxçıvan ilə birləşdirəcək dəhlizlər müxtəlif coğrafi şərait üzündən simmetrik ola bilməz, çünki Dağlıq Qarabağ anklavdır, Naxçıvan isə iki suveren dövlətlə – Türkiyə və İranla həmsərhəddir. Bundan əlavə göstərilir ki, əgər Ermənistan Dağlıq Qarabağla birbaşa əlaqə yaratsa da Azərbaycan Laçın rayonundan yan keçərək Ermənistanın qaytaracağı əraziləri ilə ardıcıl əlaqə yarada biləcəkdir. Ermənistan isə Bakı ilə Naxçıvan arasında dəhliz açmaqla öz ərazisini hissələrə bölmüş olur. Erməni tərəfinin fikrincə, bu coğrafi amil nəzərə alınmalıdır. Üstəlik də, erməni separatistləri tələb edirlər ki, Ermənistan ərazisindən keçən dəhlizlərə erməni qüvvələri nəzarət etməlidir.

Belə bir məqamı da qeyd edək ki, XİN bu çaşdırıcı bəyanatından əvvəl erməni KİV-i "Röyter" agentliyinə istinadən K.Kavanonun belə bir mülahizəsini vermişdilər ki, guya Azərbaycan, "əlil itirilmiş əli ilə barışdığı kimi itkilərlə barışmalıdır". Təbii ki, Ki-Uest danışıqlarında Ermənistanın təcavüzkar olmasını dəstəkləyən diplomatlardan biri olan K.Kavanonun bu bəyanatı respublikamızın müxtəlif təbəqələrində şok yaratmışdı. Belə çıxır ki, Qarabağın statusu erməniləri qane edəcəyi təqdirdə Azərbaycan Laçını əlil əli kimi itirmək təhlükəsi ilə üzləşməli olacaq. Təbii ki, hər bir azərbaycanlı bu cür informasiyanı nifrətlə qarşılamaya bilməz. Lakin danışıqların gedişindən məlumatlı olan analitik bir mənbənin bildirdiyinə görə Ki-Uestdə bu səpkidə məsələ müzakirə olunmamışdır. Görünür, təcavüzkar ölkənin Xarici İşlər naziri nə etdiyini bilir: məqsəd ictimaiyyəti çaşdırmaqdır, özü də bu yanlış informasiya təkcə Azərbaycan tərəfini deyil, bəlkə də daha çox Ermənistan ictimaiyyətində çaşqınlıq yaratmaq niyyəti güdür [136]. Bu bir daha göstərir ki, ABŞ tərəfindən bu ölkənin təcavüzkar kimi qiymətləndirilməsini ermənilər mə'yusluqla qarşılamamışlar. Maraqlıdır ki, K.Kavano Bakıda olarkən ona həqiqətən yuxarıda gətirilən fikrin müəllifi olması barədə sual verilərkən o, cavabında belə bir mülahizə söyləmədiyini bildirmişdir. ABŞ Dövlət Departamentinin əməkdaşları hətta "Röyter" agentliyinə müraciət edərək öyrənmişlər ki, həmin agentlik belə bir bəyanat yaymamışdır [137].

Aydındır ki, erməni tərəfi belə vicdansız informasiyanı təsadüfi yaymamışdır. Məqsəd gələcəkdə danışıqlar prosesinə ümumiyyətlə qeyri-konstruktiv ovqat gətirməkdir. Bu gün iqtisadi cəhətdən Azərbaycandan çox geri qalan təcavüzkar tərəf artıq siyasi sahədə də uduzmağını hiss edir.

Ki-Uest danışıqlarının ruhu Avropada da yaşamaqdadır. Bunu may ayının 10-da Strasburqda Azərbaycan Xİ naziri V.Quliyevin Avropa Şurasının Baş katibi Valter Şvimmerlə söhbəti aydın göstərir. Söhbətdə Qarabağ probleminə toxunulmuş, Xarici İşlər naziri AŞ baş katibinə



konfliktin tənzimlənməsi prosesi barədə lazımi mə'lumatlar vermişdir. Söhbət qeyri-formal şəraitdə keçsə də konfliktin həlli dinamikasında müəyyən məqam olmuşdur. Mayın 11-də AŞ Nazirlər Komitəsinin iclasında Qarabağ mövzusunda çıxış etmiş, üzv dövlətlərin probleme olan münasibətinin önəmli məqamları 108-ci sesiyanın nəticələri üzrə yekun sənədində əksini tapmışdır. AŞ beynəlxalq birlik tərəfindən qəbul olunmuş sərhədlərin toxunulmazlığı prinsipini bir daha təsdiq etmişdir. Erməni tərəfi buna biganəliyini bir daha büruzə vermişdir. Qəbul olunmuş sənəddə AŞ nazirləri terrorizmin və etnik zorakılığın bütün formalarını pisləmiş, qaçqınların və məcburi köçkünlərin vəziyyətindən doğan narahatlıq əksini tapmışdır. Bu nüfuzlu təşkilatın çərçivəsində aparılan söhbətlər göstərdi ki, ermənilər 1996-cı il Lissabon sammitində olduğu kimi bu dəfə də ərazi bütövlüyü ilə milli özünümüəyyənlik prinsiplərini eyniləşdirməyə çalışmışlarsa da heç bir şeyə nail ola bilməmişlər. Sənəddə belə bir ideya da vardır ki, Nazirlər Komitəsi hər iki konflikt tərəfi arasında "e'timad" əhval-ruhiyyəsinin yaradılmasına çağırır. AŞ-nın işində önəmli cəhətlərdən biri budur ki, Nazirlər Komitəsi Qarabağ konfliktinin həlli məsələsində də ATƏT-in Minsk qrupunun fəaliyyətində tərəqqi gözlədiyini, Qafqaz regionunda sabitliyin yaradılmasını və qanunun aliliyi prinsipinin bərqərar olması arzusunda olduğunu bildirmişdir. İsveçin Xarici İşlər naziri Anna Lind hər iki konflikt tərəfini problemin həllində birgə sə'yləri intensivləşdirməyə çağırmışdır. Avropa İttifaqı konfliktin sülh yolu ilə həllinə üstünlük verdiyini bir daha təsdiq edərək yekun sənədində göstərmişdir: "Avropa İttifaqı prezidentlər arasında danışıqları dəstəkləyir və ATƏT-in Minsk qrupunun konstruktiv rolunu alqışlayır".

Deyilənlərlə yanaşı qeyd edilməlidir ki, Ki-Uest danışıqlarının səngiməyən əks-sədasında həmsədrlərdən biri olan Rusiyanın da "payını" nəzərə almaq lazımdır. Xatırladaq ki, həmsədrlərdən K.Kavano və V.Trubnikov konfliktin həllində müştərək və qarşılıqlı razılaşdırılma formasında işlədiklərini dəfələrlə bəyan etmişlər. İkinci tərəfdən də, Rusiya tərəfinin son zamanlar problemin həllinə artan marağı qonşu ölkənin konfliktə münasibətdə mövcud mövqeyinin araşdırılmasını zəruri edir. Mayın 15-də (2001-ci il) Rusiya Təhlükəsizlik Şurasının katibi V.Ruşaylonun Bakıya səfəri konfliktin həlli dinamikasına yeni impuls vermişdir. Ruşaylonun Bakıda keçiriləcək söhbətlərinin başlıca mövzusunun "Qafqazda təhlükəsizlik" olacağını səfər ərəfəsində Rusiya KİV-i əvvəlcədən bildirmişdilər. "Novosti" agentliyinin mə'lumatına görə, V.Ruşaylo özü Bakıya uçmaq ərəfəsində e'lan etmişdi ki, onun səfəri iki ölkə prezidenti tərəfindən V.Putinin yanvarda Bakıya səfəri zamanı əsası qoyulmuş Rusiya ilə Azərbaycan arasında münasibətlərdə yeni pozitiv meyllərin inkişafına əlavə impuls verəcəkdir. Lakin o daha çox belə bir

fikri vurğulamışdır ki, "bizim münasibətlərimiz konfliktlərin tənzimlənməsində, regional və beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsində xüsusi rol oynaya bilər". Təhlükəsizlik Şurası katibinin Rusiyada Putin siyasətinə göstərə biləcəyi tə'sirin dərəcəsindən asılı olmayaraq demək olar ki, qonşu iri dövlətin nümayəndəsi Qarabağ konfliktinin tezliklə həllində maraqlı olduğunu bildirmişdir [138]. Lakin bununla belə şübhə etməmək olar ki, V.Ruşaylonun Bakıya səfərindən ən mühüm niyyət K.Kavanonun Bakıya gəlməsinədək "vasitəçilik təşəbbüsünü" ABŞ-ın əlindən almaq üçün növbəti cəhd idi. Hər bir halda Rusiya kimi iri bir dövlətin regionda strateji mənafeləri, konfliktə göstərdiyi maraq bütövlükdə dünyada təhlükəsizlik siyasətində izsiz qalmır. Məsələn, təqribən V.Ruşaylonun Bakıya səfəri ərəfəsində ABŞ dövlət katibi K.Pauell mayın 14-də "İnterfaks" agentliyinə verdiyi müsahibəsində demişdir ki, Rusiya Birləşmiş Ştatların xarici siyasətində mühüm yer tutur, çünki bu ölkə mənafelərimizin üst-üstə düşdüyü sahələrdə bizimlə əməkdaşlıq etmək potensialına malikdir. Bunu deyərkən amerikalı siyasətçi kütləvi qırğın silahlarının yayılmasının qarşısını almaq, terrorizm və narkotik maddələr ticarəti, həmçinin Yaxın Şərq və Dağlıq Qarabağ konfliktlərinin diplomatik yolla tənzimlənməsi ilə bağlı münasibətlər sahəsini nəzərdə tutmuşdur [139]. Amerikalı həmsədr K.Kavano isə mayın 12-də ABŞ-da Ermənistan iqtisadiyyatına sərmayə qoyuluşunun perspektivlərinə həsr olunmuş biznes-forumda çıxışında açıq e'lan etmişdir ki, Ermənistan və Azərbaycan Dağlıq Qarabağ konfliktinin tənzimlənməsində qarşılıqlı güzəştə getməyə hazırdırlar. Onun fikrincə, hər iki ölkənin rəhbərliyi qəbul edir ki, iqtisadi inkişafın yeganə yolu regionda sülhün və sabitliyin tə'min olunmasıdır. K.Kavano həmçinin qeyd etmişdir ki, konflikt tərəfləri yüz faiz uğur əldə etməsələr də yaxınlaşmaqda davam edirlər. Lakin onlar sülhün vacibliyini qəbul etsələr də kompromisə gəlmək yollarını tam təsəvvür edə bilmirlər. Birləşmiş Ştatların prezidenti C.Buş foruma göndərdiyi məktubda Ki-Uest danışıqlarında tərəqqinin əldə edilməsini alqışlamış və xüsusilə vurğulamışdır ki, Ermənistanın çiçəklənməsində və təhlükəsizliyinin tə'min olunmasında "məhək daşı Cənubi Qafqaz regionunda sülhün və sabitliyin bərqərar olmasıdır". ABŞ prezidenti bunu deməyi də unutmamışdır ki, Birləşmiş Ştatlarda böyük erməni diasporunun olması Vaşinqtonla Yerevanın münasibətlərinə "mühüm insan amili kəsb etdirir" [140]. C.Buş administrasiyasının bu mövqeyi deməyə əsas verir ki, "ipə-sapa yatmayan" Ermənistana qarşı ABŞ hökuməti görünür iqtisadi tə'sir metodundan istifadə etmək niyyətindədir.

Lakin amerikalı həmsədrin "tərəflərin bu ilin sonundan gec olmayaraq sülh sazişini imzalayacaqlar" deməsi və bu nikbinliyi konflikt tərəflərinin



bölüşdürməməsi problemin həllində yenidən qeyri-müəyyənlik yaratmışdır. Ermənistan prezidenti bu məsələdə özünü "realist" adlandırıraraq sülh sazişinin nə vaxt imzalanacağı barədə proqnoz verməkdən imtina etmişdir, çünki onun fikrincə sülhə nail olmaq çox çətindir. Ermənistanın özündə konflikt ətrafında gedən qızğın mübahisələr Yerevan hökuməti üçün ciddi problemlər yaratmaqla yanaşı ölkədə antiazərbaycan əhval-ruhiyyəsini daha da qızışdırmışdır. Ölkənin parlamentindəki "Sabitlik" qrupunu təmsil edənlər açıqca bildirirlər ki, zəbt olunmuş torpaqlar danışıqlar predmeti ola bilməz, çünki "DQR" təhlükəsizliyi üçün vacib ərazilərdir. Həmin qrup üstəlik Ermənistanın Meğri rayonunun ərazisində Azərbaycanla Naxçıvan arasında əlaqə yaradan dəhlizin açılması əleyhinə çıxış edir. Hamının tanıdığı bədnam publisist Z.Balayan da hesab edir ki, "Meğrini itirməklə biz həm Ermənistanı, həm də Qarabağı itirmiş oluruq". Təsadüfi deyildir ki, qaraguruhçu, separatist qüvvələrin bu növ ifrat radikal tələbləri Ermənistanda vəziyyəti gərginləşdirmiş, hökumətin istefasını tələb edən mitinqlərin keçirilməsinə səbəb olmuşdur [141].

Yeri gəlmişkən qeyd edək ki, regionda önəmli rol oynayan, Birləşmiş Ştatların siyasi müttəfiqi Türkiyədə də konfliktin mövcud vəziyyətini diqqətlə və fəal izləyirlər. Ən mühüm hadisə kimi Pentaqon rəhbəri Ramsvellin Türkiyə səfəri zamanı Ermənistanla əlaqələrin inkişafına dair təkliflərinə Baş nazir Bülend Ecevitin "ermənilər işğal etdikləri Azərbaycan ərazisindən çıxmayınca bu mümkün deyil" cavabı qeyd edilməlidir. Bundan əlavə məsələn, mayın 13-də yüksək rütbəli türkiyəli diplomat İgid Alpoqan Bakıya səfərinin məqsədini jurnalistlərə belə açıqlamışdır: "Mən Bakıya çox mühüm məsələni müzakirə etmək üçün gəlmişəm. Azərbaycan tərəfinin fikrini bilmək mənə son dərəcə lazımdır. Türkiyədə məndən tə'cili cavab gözləyirlər" [142]. Analitiklər istisna etmirlər ki, danışıqların mövzusu Türkiyəni də yaxından maraqlandıran Qarabağ konfliktinin tənzimlənməsi üzrə hazırlanan sazişdir.

Nəzərdən keçirdiyimiz problemin ətrafında səngimək bilməyən diskusiyalarda əsas mübahisə doğuran Qarabağın statusu məsələsidir. Mə'lumdur ki, Azərbaycan tərəfi Dağlıq Qarabağa ən yüksək status təklif edir və bildiyimiz kimi ermənilər bunu qəbul etmir, Dağlıq Qarabağla Ermənistan arasında üfiqi münasibətlərin tə'min olunmasında israr edirlər. Məhz buna görə də vasitəçilər bu mürəkkəb vəziyyətdən çıxış yolu tapmaq üçün müzakirələri davam etdirirlər. Bu yaxınlarda Harvard Universitetinin Xəzər araşdırmaları proqramının tədqiqi üzrə direktoru xanım Brenda Şaffer sülhü tə'min edən "bir tərəfin müstəqillik iddiasını, digər tərəfin isə idarə etmək iddiasını dəstəkləməsi düsturudur". Bununla əlaqədar B.Şaffer Andorra knyazlığını nümunə gətirir. Qarabağ konflikti

haqqında bir sıra analitik məqalənin müəllifi olan amerikalı ekspertin təklif etdiyi bu model özünəməxsus xüsusiyyətə malikdir. Belə ki, ərazisi 468 kv.km olan Andorra 1993-cü ildə BMT tərəfindən müstəqil dövlət kimi tanınmışdır. Bu kiçik ərazi qurumunun öz parlamenti, hökuməti, konstitusiyası, bayrağı və himni, həmçinin xaricdə öz nümayəndəliyini açmaq hüququ vardır. Andorranı eyni zamanda birgə knyazlıq idarə edir. Ölkənin həmidarəçiləri Fransa prezidenti və Urxe yepiskopudur (İspaniya). Baş naziri parlament həmidarəçilərin razılığı ilə seçir. Onlar həmçinin referendum keçirir, seçkilərin vaxtını müəyyənləşdirirlər. Diplomatik tə'yinatlar da həmidarəçilərlə razılaşdırılır. Burada mühüm məqam budur ki, bu dövlətin ordusu yoxdur. Ölkədə asayişi Fransa və İspaniya tə'min edir. Beləliklə, Andorra hüquqi cəhətdən müstəqil, faktik olaraq isə tabeçidir. B.Şaffer hesab edir ki, "müstəqillik ilə muxtariyyət arasında" düsturu Qarabağ konfliktinin tənzimlənməsinə kömək edə bilər. Lakin amerikalı analitik görünür ki, belə bir məqamı nəzərə almamışdır: Andorradan fərqli olaraq erməni separatçıları hüquqi tabeçilik şərtilə faktik müstəqilliyi tələb edirlər ki, bu da Azərbaycan tərəfi üçün qəbuledilməzdir. Şuşanı "Azərbaycanın Yerusəlimi" adlandıran B.Şaffer, belə fikirdədir ki, bu şəhər Azərbaycanın idarəçiliyində olmalıdır, bu şərtlə ki, burada yaşayan ermənilərin təhlükəsizliyi tam qorunsun. Koridorlar məsələsinə gəldikdə isə, o, hesab edir ki, söhbət dəhlizlərin mübadiləsindən yox, Naxçıvanla Azərbaycanı və Ermənistanla Qarabağı birləşdirən dəhlizlərin açılmasından getməlidir [143].

Amma belə halda da, model müəllifinin istəyindən asılı olmayaraq Şuşa problemi konflikt mənbəyi kimi qalacaqdır.

Lakin "Andorra modeli" onun müəllifinin istəyinin əksinə olaraq Azərbaycan analitikləri tərəfindən birmə'nalı şəkildə neqativ təklif kimi qarşılanmışdır. Təqribən 300 illik tarixi olan Andorra dövlətinin statusunda özünəməxsus qeyri-müəyyənlik mövcuddur. Belə ki, o nə tam müstəqil deyil, nə də hər iki dövlətə mütləq formada tabe deyildir. Amma dövlətə xas olan atributlara malikdir. Modelin Azrbaycan reallıqlarına uyğun gəlməsini iddia edən Amerika ekspertinin, təbii ki, özünün baxım bucağını bildirmək hüququ vardır. Lakin xanım B.Şaffer görünür konflikt ərzində tökülən qanları, müharibəni nədənsə unudur, bütün sərhədləri açıb hər iki ölkənin xalqlarını dostlaşmağa çağırır. Politoloqlarımız haqlı olaraq bu layihəni heç də uğurlu olmayan "kondominium modeli" hesab edirlər. Bir qədər kondominium anlayışı barədə. Kondominium müəyyən ərazidə iki və ya daha çox dövlətin yaratdığı dövlət hakimiyyətidir. Məsələn vaxtilə Vyana sülhünə (1864) görə Prussiya və Avstriya Şlezviq-Qolşteyn üzərində kondominium müəyən etmişlər. 1865-ci il 14 avqust tarixli Qolşteyn konvensiyasına görə hersoqluğun iki hissəsi ayrıca idarə



olunmuşdur. 1866-cı ildə Prussiyanın Avstriya üzərində qələbəsindən sonra kondominium hakimiyyətinə son qoyulmuşdur. Biz yalnız bir nümunə gətirdik. Bu özü göstərir ki, kondominium bir növ orta əsr idarəçilik formasını xatırladır və buna görə də belə idarəçilik və hakimiyyət forması tarixdə özünü doğrultmamışdır. Elə bu səbəbdən kondominiumlar ya ləğv edilmiş, ya da bu cür siyasi-coğrafi qurum sonradan müstəqil dövlətə çevrilmişdir. Haqqında söhbət gedən Andorra dövləti, əslində müstəqil dövlət hakimiyyətinə malikdir. Diqqət yetirilsə modeldə söhbət faktik olaraq ondan gedir ki, Azərbaycan Ermənistanın təcavüzünün qurbanı olan, Qarabağ separatistlərinin uydurma dövlət qurumu yaratdıqları əraziyə şamil olunan statusun "mübahisəli ərazi" modeli ilə əvəz olunmasına razılıq versin və burada Ermənistanın və Azərbaycanın ikiqat nəzarəti tətbiq edilsin. İkinci tərəfdən Azərbaycanın qədim şəhərlərindən olan Şuşaya "Yerusəlim statusu" vermək, əksinə bu bölgəni heç zaman (ta müharibə yolu ilə alınmasınadək) sönməyən konflikt ocağına çevirməkdir. Xatırlayaq ki, Andorra vətəndaşları öz qanunlarını özləri verir, öz hökumətlərini özləri seçirlər. Ermənistan isə heç bir hüquq normalarına məhəl qoymayaraq tarixi ərazimizi işğal edib. Ona görə də bu modelə razılıq verirlərsə onda gərək Azərbaycan formal iştirakçıya çevrilə, Ermənistan isə əraziyə nəzarət edən dövlət funksiyasını yerinə yetirə. Beləliklə, Andorranın faktik müstəqilliyi statusu Qarabağ probleminin həlli üçün Azərbaycan tərəfindən qəbul edilə bilməz.

Konfliktin tənzimlənməsi prosesinin dinamikası bə'zən gözlənilməz, paradoksal hallar yaradır. Politoloqların və analitiklərin "Andorra modeli" ətrafında apardıqları mübahisələr səngiməmiş yeni bir xəbər yayılmışdır. Mətbuatın verdiyi mə'lumata görə, xanım B.Şaffer guya belə bir modeli təklif etməmişdir. Amerikalı ekspertin e'tirfına görə, mayın əvvəlində İstanbulda keçirilən "Yeni yaranmış türk cəmiyyətlərinin 10 ili"nə həsr olunmuş konfransda dünyada mövcud olan muxtariyyətlərdən söhbət getmişdir, lakin "Andorra modelinə" toxunulmamışdır [144].

Bizcə burada heç də bu və ya digər modelin konfliktin nizamlanması prosesinə tətbiqi məsələsi o qədər də əhəmiyyət kəsb etmir, heç olmasa ona görə ki, Azərbaycan tərəfinin qəbul edəcəyi variantda Dağlıq Qarabağın ölkəmizin tarixi ərazisi olması ideyası həmsədrlər tərəfindən qəbul olunmalıdır. Bu baxımdan, bəlkə də, haqqında söhbət gedən problemin həllinə tətbiq olunacaq elə bir model yoxdur. Lakin bizi maraqlandıran, ekspert və analtiklərin nəzərini cəlb edən fakt budur ki, Qarabağ konflikti və onun tənzimlənməsi son dərəcə qloballaşdığından bütün sivilizasiyalı dünya birliyinin diqqət mərkəzindədir. Bunu da qeyd edək ki, bu modelin (təklif verənin kimliyindən asılı olmayaraq) mayın 18-i, yə'ni Minsk qrupu həmsədrlərinin Bakıya gəlişi ərəfəsində səslənməsi

konfliktin tənzimlənməsi prosesinə müəyyən mə'nada tə'sir göstərə bilər Hər halda ehtimal etmək olar ki, Minsk qrupu həmsədrləri nəsə buna bənzər model təklif edə bilərlər, çünki Ki-Uest danışıqlarına xeyli ekspert və analitiklər də cəlb olunmuşdu. Səfər ərəfəsində ABŞ dövlət katibi Kolin Pauell bir daha e'lan etmişdir ki, Moskva, Paris və Vaşinqton bir sıra çətin məsələlərin həllinə başlamağın lazım gəldiyi bir şəraitdə çox konstruktiv və pozitiv istiqamətdə işləyirlər. Mayın 18-də Vaşinqtonda da Rusiya XİN-in başçısı İ.İvanovla görüşdə də Qarabağ konflikti müzakirə olunmuşdur. "Snark"ın verdiyi mə'lumata görə Ermənistan prezidenti bu nikbinliyi bölüşdürmür və bildirir ki, konfliktin tənzimlənməsinin müddəti barədə söhbət açmaq hələ tezdir. Müttəfiqi olduğu ölkənin prezidentinin söylədiyi fikri daha da möhkəmlədən V.Trubnikov aydınca e'lan etmişdir ki, tənzimlənmənin dəqiq müddəti barədə heç bir sağlam düşüncəli insan qət'i söz deyə bilməz. Bütün bunlar, hər şeydən əvvəl Ermənistanın müxtəlif təbəqələrində gərginliyi artırmaqla yanaşı rəsmi Yerevanı daha sərt mövqe tutmağa sövq edir.

Mayın 18-də həmsədrlərin görüşü ərəfəsində ictimai rə'y də Azərbaycanı təcavüzə mə'ruz qalmış konflikt tərəfi kimi tanımağa doğru xeyli dəyişmişdir. Artıq dünya ictimaiyyəti bilir ki, erməni təcavüzü nəticəsində Azərbaycana 53 mlrd.dollar ziyan dəymişdir. Ərazimizin 20 faizi indi də təcavüzkar Ermənistanın nəzarəti altındadır, bir milyona yaxın qaçqını olan Azərbaycan Respublikasına qarşı Avropanın bu yaxınlara qədər susması təcavüzkarın meydan oxumasına şərait yaratmışdır. Doğrudur, 2001-ci ilin aprelində millət vəkili İ.Əliyevin AŞ PA-da kəskin və sübutlu çıxışı Avropa ictimaiyyətində ölkəmizə güclü maddi və mə'nəvi ziyan vurmuş Qarabağ konfliktinə diqqəti xeyli artırmış, hamıya aydın olmuşdur ki, Ermənistan Azərbaycana qarşı işğal və terror siyasətini həyata keçirir. Məhz bu ərəfədə ABŞ-ın dövlət katibi Kolin Pauell Rusiya XİN-in rəhbəri İ.İvanovla diplomatik söhbətində bildirmişdir ki, Dağlıq Qarabağ konfliktinin tənzimlənməsi işində maraqlı dövlətlərin fəallığı xeyli artmışdır. Məsələn, fransalı həmsədr Filipp de Sürmeyn qeyd etmişdir ki, İranın da konfliktin tənzimlənməsində iştirakı vacibdir. Onun fikrincə belə olarsa onda İran tərəfinə aydın olar ki, həmsədrlərin fəaliyyət göstərdiyi prosesdə bu ölkəyə qarşı heç bir zidd hərəkətə yol verilmir. Üstəlik də həmsədr K.Kavanonun Qarabağ konfliktinin tənzimlənməsi prosesində ən böyük maneənin aradan götürüldüyü barədə dediyi fikir və bunun açıqlanmaması mayın 18-də keçirilmiş prosesə marağı daha da artırmışdır. K.Kavanonun özünəməxsus konflikt yaradan bir fikri də iki respublikada gərgin mübahisələr yaratmışdır. Məsələn o demişdir ki, prezidentlər H.Əliyev və R.Koçaryan Azərbaycan və Ermənistan əhalisindən fərqli olaraq Qarabağ konfliktinin tənzimlənməsinə başqa cür



yanaşırlar [144]. O, bunu da əlavə etmişdir ki, liderlərin qənaətinə görə böyük kompromislər problemin həlli üçün yeganə imkandır. Səlahiyyətli diplomatın "ikili standart" fikri istər-istəməz hər iki respublikanın ictimai rə'yində anlaşılmazlıq, hətta Minsk qrupunun fəaliyyəti barədə mənfi reaksiya da yarada bilər. Amerikalı həmsədrin belə mövqedən çıxış etməsi "xalqlardan həqiqətin gizlədilməsi effektini" bir növ rəsmiləşdirmək kimi də yozula bilər.

İkinci gərginlik yaradan məqam. Müxtəlif tələblər altında keçirilən mitinqlərdə erməni millətçilərinin işğal olunmuş torpaqları qaytarmaq fikrində olmadığını dəfələrlə irəli sürməsidir. Bu məqsədlə Ermənistanda hətta "Azad olunmuş torpaqların müdafiəsi uğrunda" ictimai təşəbbüs qrupu yaradılmışdır. Bu qurum "DQR" müdafiə təşkilatı ilə birlikdə Ermənistan prezidentinə iki təklif vermək fikrindədir: birincisi, guya milli azadlıq mübarizəsinin gedişində Azərbaycanın ərazi bütövlüyü pozulmamışdır; ikincisi, "DQR" beynəlxalq hüquq normalarına(?) uyğun olaraq e'lan edilmişdir [145]. Təbii ki, Azərbaycan ictimaiyyəti, siyasi partiyalar da danışıqlarda ölkəmizin milli mənafelərinə hörmət prinsipinə riayət olunmasını, əksər işğal olunmuş rayonlarla yanaşı Şuşaya və Xocalıya azərbaycanlıların qaytarılmasını, onların təhlükəsizliyinin qorunmasını tələb edir.

"Biz Sizin vəzifənizi yaxşı başa düşürük – sülh sisteminə doğru istiqamət götürmək" – amerikalı həmsədr K.Kavanonun mayın 18-də Bakıda ölkə prezidentinə ilk xahişi belə olmuş, prezident H.Əliyev isə öz növbəsində ATƏT-in həmsədrlərini danışıqlar prosesi gəmisinə əyləşməyə və onun sülh sahilinə hərəkətinə kömək etməyə çağırmışdır. Görüşə nikbinlik vermək istəyən K.Kavano prezident H.Əliyevlə görüşərkən bəyan etmişdir ki, bu gün üfiqdə Azərbaycanla Ermənistan arasında sülh görmək mümkündür. Amerikalı diplomat əlavə edərək göstərmişdir ki, sülh sazişinin tezliklə bağlanacağı xülyasına dalmaq yersiz olardı. Lakin o bir daha – artıq neçənci dəfə – vurğulamalı oldu ki, hər şey son nəticədə iki ölkə prezidentinin iradəsindən asılı olacaqdır, amma prosesə impuls vermək, sülhə nail olmaq naminə tərəflər həmçinin ciddi kompromislərə getməlidirlər [145]. Prezident H.Əliyev Minsk qrupu həmsədrlərinin fəaliyyətinin intensiv xarakter kəsb etməsindən məmnun olduğunu bildirmiş və qeyd etmişdir ki, görünür onun Ki-Uestdə ATƏT barədə tənqidi fikirləri də buna müəyyən təkan vermişdir. Söhbət əsnasında Rusiyalı həmsədr N.Qribkov dövlətimizin başçısını əmin etmişdir ki, Rusiya, ABŞ və Fransa prezidentləri konfliktin sülh yolu ilə tənzimlənməsi naminə tez-tez məsləhətləşmələr aparırlar [147]. Sonradan "təkbətək" iki saat davam edən danışıqlar başlamışdır. K.Kavano prezident H.Əliyevlə görüşünün uğurlu olduğunu qeyd etmişdir. Təbii ki, konfliktin tənzim-

lənməsi prosesində qeyri-müəyyənliyin mövcud olduğu bir şəraitdə informasiyanın sızması ümumiyyətlə, sülh danışıqlarının pozulmasına gətirib çıxara bilər. Məsələn, Yaxın Şərq konfliktinin həlli prosesində tərəflərin informasiyanın açıqlanmasında ehtiyatsızlıq etməsi regionda gərginliyi daha da artırmışdır.

Lakin ikinci bir tərəfdən də bir məqam unudulmamalıdır ki, diplomatik informasiyanın məxfi saxlanması danışıqların müəyyən mərhələsinədək pozitiv sayıla bilər. Məsələn, K.Kavanonun əsas maneələrin aradan götürüldüyü barədə söylədiyi fikir "məxfilik" prinsipinə nə dərəcədə adekvatdır? Əslində bu cür müəmmalı açıqlamaların özü müəyyən mə'nada "məxfilik" üzərindən pərdənin götürülməsi kimi qiymətləndirilə bilər. Hər halda bunu deməyə əsasımız var ki, işğal olunmuş torpaqları qaytarmamaq və azərbaycanlıların Dağlıq Qarabağa qayıtmasının qarşısını almaq, sadəcə buna imkan verməmək gələcək sülh konsepsiyasının əsası ola bilməz, çünki belə sülh möhkəm də ola bilməz. Gözlənilməz məqamlardan biri rusiyalı həmsədr Qribkovun iki ölkə prezidentinin Cenevrə görüşünün iyunun 15-də keçiriləcəyinə şübhə etməsi oldu. (Xatırladaq ki, bu görüş barədə razılıq Ki-Uestdə əldə olunmuşdu). Onun fikrincə, görüşün vaxtı hələ müəyyənləşdirilməmişdir. Bir də ki, Cenevrə görüşünün uğursuzluğa düçar olmasına imkan vrmək olmaz və buna görə də görüşü buna kifayət qədər hazır olduqda keçirmək məqsədəuyğundur.

Qarabağ konfliktinin tənzimlənməsinə beynəlxalq ictimaiyyətin diqqətinin xeyli artması göz qabağındadır. Lakin daha çox düşündürücü məqam həmsədrlərin nikbinliyinin azalmasıdır. Hər halda bu Ki-Uestdəki siyasi ovqata bənzəmir. Ehtimal etmək olar ki, "nikbinlik böhranına" səbəb Ermənistanda baş verən müxalifət mitinqləri və bunun tə'sirilə R.Koçaryanın öz neqativ mövqeyində israr etməsidir. Yeri gəlmişkən qeyd edək ki, Ki-Uest danışıqları zamanı ABŞ Dövlət Departamentinin erməni tərəfini təcavüzkar adlandırması Azərbaycanda nikbinliyə, Ermənistanda isə çaşqınlığa, e'tiraza səbəb olmuşdur. Bu ölkədə ekstremist çıxışlar, məsələn, işğal olunmuş torpaqları qaytarmamaq, "tənzimlənmə ya Qarabağın Ermənistana birləşdirilməsi, ya da ona müstəqillik verilməsidir" kimi şüarlar rəsmi Yerevan tərəfindən də dəstəklənir. Həmin hadisələrin fonunda guya Ermənistan-Rusiya münasibətlərində "sərinlik" yaranması barədə fikirləri erməni mətbuatı "təxribat" adlandırır. Birləşmiş Ştatların rəsmi dairələri, xüsusilə həmsədr K.Kavano isə tez-tez ABŞ-ın Cənubi Qafqazda mənafelərinin olduğunu vurğulamaqda davam edir. E'tiraf edilməlidir ki, N.Qribkovun Cenevrə görüşünün keçirilməsi vaxtının qeyri-müəyyənliyi barədə açıqlaması narahatlığın daha da artmasına, danışıqlar prosesinin "havadan asılı qala biləcəyi" barədə fikirlərin gəzib



dolanmasına səbəb olmuşdur. Ən çox narahatçılıq doğuran amil budur ki, Azərbaycan tərəfinin məsələnin sülh yolu ilə həlli istiqamətində güzəştləri müqabilində Ermənistan öz mövqeyini daha da sərtləşdirir.

Bütün bu siyasi ehtirasların coşmasına baxmayaraq vasitəçilər Azərbaycanda olmaq fürsətindən istifadə edərək və ərazilərdə gələcəkdə bərpa işlərinin miqyasını öyrənmək məqsədilə qaçqınların yerləşdikləri düşərgələrə getmiş, oradakı dözülməz, qeyri-insani vəziyyətlə yaxından tanış olmuşlar.

Bütün bu deyilənlərin məcrasında bizi düşündürən ən mühüm problemlərdən biri BMT və onun prosedurası sisteminin xarakteridir. Xatırladaq ki, Ki-Uest danışıqlarının açılışı günü prezident H.Əliyev görüşün keçirilməsinə impuls verən bəyanatında Qarabağ konfliktinin tarixi və siyasi-hüquqi qaynaqlarına da toxunmuş və Ermənistanın təcavüzkar tərəf olduğunu açıqlamışdı. Lakin Ermənistan prezidenti buna heç də diplomatik nəzakət normalarına sığmayan "mən danışıqlara gəlmişəm, təbliğat aparmağa yox" deyə cavab vermişdi. Lakin sonralar erməni təbliğatı "əldən verilmiş imkanın" yerini doldurmağa cəhd göstərmişdir. Həmsədrlərin Bakı görüşü ərəfəsində, aprelin 30-da separatist rejimin Xarici İşlər nazirliyi Birləşmiş Millətlər Təşkilatında yayılmaq üçün memorandum və onu müşayiət edən məktub göndərmişdir. Memorandum Ermənistanın BMT-dəki daimi nümayəndəsinin məktubuna əlavə kimi təqdim edilmişdir. Mə'lum mənbə mətbuat bildirmişdir ki, BMT-nin katibliyi üzv dövlətlərin ***istənilən əlavəsini yaymağa borcludur*** (kursiv bizimdir). Biz bu məsələyə qayıdacağıq, indi isə "əlavənin" məzmunu və niyyəti barədə. Memorandumda deyilir ki, "DQR" 2001-ci il 30 aprel tarixli məktubunun Baş Məclisin 56-cı sessiyasının sənədi kimi yayılmasına görə minnətdarlığını bildirir [148]. Erməni separatistlərinin məktubunda həmçinin göstərilir ki, "Dağlıq Qarabağ Respublikasının" hakimiyyət orqanları "keçmişin problemlərilə" bağlı diskusiyalardan çəkinməyə çalışmış və diqqəti konfliktin həlli üçün gələcəkdə sülhün və sabitliyin yaradılması naminə sə'ylər üzərində cəmləşdirmişdir. Qəribədir ki, bütün rəsmi və təbliğat sənədlərində Arsaxın Ermənistanın tarixi torpağı olması barədə heç bir tarixi-etnoqrafik əsasa söykənməyən söhbətləri ortaya atmaqla Azərbaycan tərəfini həmişə mə'nasız polemikaya zorla cəlb edən erməni alimləri deyilmi? İndi isə erməni separatistləri nədənsə Azərbaycan prezidentinin öz bəyanatında Qarabağın tarixi barədə əsl elmi, obyektiv açıqlamasından narahat olurlar. Odur ki, erməni tərəfi məktubda regionun tarixi barədə "danılmaz elmi" faktlar gətirir.

Bununla əlaqədar biz iki mühüm məsələyə toxunmaq istərdik. Birincisi, erməni təbliğatının texnologiyası məsələsi. Qəribədir ki, bu cavabı Ermənistan hökuməti deyil, qondarma Qarabağ Respublikasının təmsilçisi

verir. Görəsən, erməni tərəfi bu "diplomatik" hərəkəti ilə hansı məqsədi güdür? Bizcə, hər şeydən əvvəl, Qarabağ separatçıları bir daha dünya ictimaiyyətinin gözündə özlərini danışıqlarda iştirak etməli olan konflikt tərəfi kimi göstərmək istəyirlər. Buraya erməni qızışdırıcı qüvvələrinin fəallaşmasını da əlavə etsək, ümumi mənzərəni təsəvvür etmək çətin deyildir. Məsələn, dini rütbəsindən məhrum olunmuş erməni apostol kilsəsinin "Yeni-Naxçıvan" və Rusiya eparxiyasının keçmiş başçısı Kaza Kyureqyan bu yaxınlarda demişdir ki, "Ermənistan prezidenti R.Koçaryan Qarabağı Azərbaycana verəcəkdir". Onun sözlərinə görə, Koçaryan Qərb qüvvələrinin təzyiqi və erməni dövlətinin keçmiş başçısı L.Ter-Petrosyanın bilavasitə iştirakı ilə "tə'yin edilmişdir". Keşişin fikrincə, L.Ter-Petrosyan"vəziyyətin real sahibidir" və Ermənistanda "boz kardinal" rolunu oynayır. O, hesab edir ki, Qərbin və L.Ter-Petrosyanın layihəsinə əsasən "başçısını itirmiş Dağlıq Qarabağ Azərbaycana qarabağlıların özləri tərəfindən veriləcək", başqa sözlə, "DQR"-nın sabiq və Ermənistanın hazırki başçısı R.Koçaryan tərəfindən veriləcəkdir [149].

"Ermənistan reallıqları" barədə təsəvvür əldə etmək çətin deyildir. İkinci bir mühüm məsələ. BMT-nin praktikasında üzv dövlətin istənilən sənədi paylaması ümumiyyətlə nə deməkdir? Nəinki beynəlxalq birliyin, tanımadığı bir separatist qurumun sənədinin sesiyanın, özü də Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılmasına nə ad vermək olar? Bu dünya birliyini narahat edən konfliktə ən azı biganəlikdir. Bizcə burada daha ciddi məsələ BMT-nin prosedura sisteminin təkmil olmamasıdır. Belə olduqda isə, beynəlxalq konfliktlərin həlli xeyli çətinləşir.



## QARABAĞ KONFLİKTİ BU GÜN (İYUN 2001-ci İL)

*(nəticə əvəzi)*

Beləliklə, ATƏT-in Minsk qrupunun həmsədrlərinin regiona son səfərləri (may 2001-ci il) çərçivəsində Bakı görüşləri başa çatdı, "bağlı qapılar" arxasında aparılan danışıqlar, həmsədrlərin natamam, bə'zən də uğursuz mülahizələri problemə aydınlıq gətirmədi. Ümumiyyətlə "gizli" söhbətlərin təhlili analitiklər üçün də yorucu sənətdir. Hər halda ilk mümkün mülahizəni söyləmək vacibdir. Birinci nəzəri cəlb edən fenomen budur ki, Ki-Uest danışıqlarından sonra, Minsk qrupu həmsədrlərinin konfliktin tənzimlənməsi sahəsində fəallığı xeyli artmış, xüsusilə Birləşmiş Ştatların KİV-nin Qarabağ probleminin həllinə diqqəti daha intensiv xarakter kəsb etmişdir. Ən önəmli cəhət budur ki, Corc Buş hökuməti Qarabağ konfliktinin tnzimlənməsində vasitəçiliyə həvəslə qoşulmuş və göründüyü kimi Florida danışıqlarında fəallıq nümayiş etdirmişdir. Saziş əldə olunmasa da Birləşmiş Ştatların konfliktin həllində maraqlı olması Azərbaycanın siyasi dairələrində müəyyən nikbinliyə təkan vermişdir. Lakin realizm belə bir cəhəti də nəzərə almağı zəruri edir: şübhəsizdir ki, konfliktin arzu edilən məcrada həll edildiyi təqdirdə regiona ABŞ-ın kapitalı axacaqdır ki, bu da təkcə Azərbaycanın işğal olunmuş ərazilərinin bərpası baxımından deyil, habelə ABŞ-Azərbaycan ticarət əlaqələrinin inkişafı baxımından hər iki ölkə üçün faydalıdır. Bu isə Birləşmiş Ştatlarla müqayisədə regiona kapital qoyuluşu çox zəif olan Rusiyanı qıcıqlandırmaya bilməz. Ona görə də konfliktin tənzimlənməsinə ziyan vurmamaq məqsədilə bu iki super dövlət regionda öz mənafelərini rasional əlaqələndirmək yolunu seçməlidirlər. Nikbinlik əhval-ruhiyyəsini artıran amillərdən biri Nümayəndələr Palatasının Respublikaçılar partiyasından olan üzvlərinin təşəbbüsü ilə ABŞ konqresində Amerika-Türkiyə münasibətləri və türk mənşəli amerikalıların məsələləri ilə məşğul olan işçi qrupunun yaranmasıdır. Nikbinliyə əsas verən ən mühüm amillərdən biri prezident Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan diplomatiyasının konfliktin yalnız sülh yolu ilə tənzimlənməsini dəfələrlə bəyan etməsidir.

Lakin bu realizmi erməni diplomatiyasında görmək çətindir. Bunu həmsədrlərin problemə yanaşdıqları nikbinliklə erməni tərəfinin verdiyi bəyanatlar arasında tam əkslik sübut edir. Ermənistanın son zamanlar uydurma "DQR" kartından bilərəkdən, yaxud yerli-yersiz istifadə etməsi göstərir ki, bu ölkənin separatist qüvvələrinin sərt, barışmaz mövqeyində pozitiv irəliləyiş yoxdur. E'tiraf edək ki, konfliktin tənzimlənməsinə belə münasibət ümumi nikbinlik hissinə neqativ sirayət edir və hər şeydən əvvəl Ermənistanın ciddi danışıqlara hazır olmamasından xəbər verir. Başqa sözlə bu ölkənin separatist liderləri güzəştlərə hazır deyillər, onlar dərk etmək istəmirlər ki, böhranın davam etməsi gələcəkdə Ermənistan üçün mənfi nəticələr verəcək, üstəlik də bu ölkə getdikcə kasıblaşır, onsuz da çox olmayan əhalisinin böyük əksəriyyəti ölkəni tərk edir. Fransa Beynəlxalq Münasibətlər İnstitutunun əməkdaşı xanım Anita Tripolskayanın dediyinə görə indi şərait elədir ki, erməni diasporu Ermənistana investisiya qoymur. Bundan ötrü isə sabitlik olmalı, başqa sözlə, Cənubi Qafqazda konflikt ocaqları söndürülməli, o cümlədən Qarabağ konflikti tezliklə həll edilməlidir. Lakin hər iki konflikt tərəfi bunu da bilir ki, bu gün məcburiyyət vasitəsilə barışığa nail olmaq mümkün deyildir. Necə deyərlər bu "klassik" barışıq forması artıq müasir sivilizasiyalı dünyada işləmir.

Və nəhayət, erməni tərəfi bilməlidir ki, heç bir müasir diplomatik tə'sir gücü xalqının milli mənafelərini hər şeydən uca tutan Heydər Əliyevin iradəsini qıra bilməz. Görünür erməni separatistləri hələ də dərk etmirlər ki, nə Azərbaycan xalqı, nə də onun dövləti tarixi torpaqlarının işğalı ilə heç zaman barışmayacaqdır, ona görə də yaxşı olardı ki, həmsədrlər öz nikbin proqnozlarının gələcəkdə doğrulması naminə erməni tərəfini bu həqiqətə inandırsınlar.

Bununla belə, sağlam düşüncəli hər bir kəs qlobal konfliktlərin həllində mühüm mərhələlərin şahidi olmuş Cenevrədə vaxtından asılı olmayaraq keçiriləcək danışıqlardan mö'cüzə gözləmir. Hər halda, lap bu yaxınlarda Qarabağ bölgəsində olan həmsədrlərin "Qarabağın mövqeyini və mənafelərini nəzərə almadan real tənzimlənməyə nail olmaq mümkün deyil" deməsi hər şeydən əvvəl bu il iyunun 15-ə planlaşdırılmış Cenevrə danışıqlarının tezliklə baş tutmayacağından xəbər verirdi. Rusiyalı həmsədr Qribkov açıqca bildirib ki, "hətta formal baxımdan Dağlıq Qarabağ konflikt tərəfidir, çünki, hələ 1992-cidə il ATƏT-in üzv dövlətləri Xarici İşlər Nazirləri Şurası öz qərarı ilə Qarabağı maraqlı tərəf adlandırılmışdır. Buna görə də, başqalarının bunu istəyib-istəməməsindən asılı olmayaraq Dağlıq Qarabağ konflikt tərəfidir və ciddi amildir".

Əgər belədirsə, birmə'nalı şəkildə deyilməlidir ki, Azərbaycan Respublikası onun tarixi torpaqlarını zəbt etmiş və özünü müstəqil dövlət



e'lan etmiş bir qurumu tanımadığı üçün, təbii ki, onunla danışıqlar masasında əyləşməyəcəkdir. Amerikalı həmsədr K.Kavano da sonuncu səfərində bildirmişdir ki, vasitəçilərin üzərində işlədikləri təklif "dəqiq müəyyənləşdirilməli və tənzimlənməlidir".

Mətbuata sızan mə'lumata görə hətta amerikalı həmsədr demişdir ki, "Ermənistan və Azərbaycan przidentləri öz cəmiyyətlərini hazırlamayınca Cenevrədə toplaşmaq mümkün olmayacaqdır". Deməli, əhalinin mentalitetindən cəmiyyətin siyasi mədəniyyəti səviyyəsinədək hər cür dəyərlərimiz konfliktin həllində iştirak edə bilər.

Beləliklə, Qarabağ konfliktinin tənzimlənməsi ilə bağlı reallıqlar belədir. Elə buna görə də, bu gün milli həmrə'ylik amili real tarixi şansı – Qarabağ konfliktinin Amerika-Azərbaycan beynəlxalq dialoqu vasitəsilə həll olunacağı fürsətini itirməmək naminə son dərəcə vacibdir. Bir də unudulmamalıdır ki, zaman Heydər Əliyev diplomatiyasına işləyir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Bax: Azərbaycan Demokratik Respublikası. Xarici siyasət. B., 1999.
2. *Девид Вилсон.* Внешняя политика Соединенных Штатов.// "Beynəlxalq həyat", B., 1998, №2-4, s. 26.
3. *А.Дугин.* Основы геополитики. М., 1997, с. 121-131.
4. *В.А.Байбуртян.* Армянская колония в новом Джульфе в XVIII веке. Ереван, 1969, с. 34; həmçinin, *В.К.Восканян.* Армяно-русские отношения в XVII в. Ереван. 1948.
5. *S.Kərimova.* Böyük erməni xülyası və Böyük Pyotr.// "Azərbaycan" qəzeti, 22 iyun 1990-cı il.
6. *Глинка С.* Описание переселения армян азербайджанских в пределы России. М., 1831.
7. Nazim Mustafa. Ermənilər öz dövlətlərini yaratmaq üçün nə qədər rüşvət vermişlər.// "Yeni Azərbaycan" qəzeti, 5 avqust 1993-cü il.
8. Собрание актов относящихся к обозрению истории Армянского народа. Часть I, М., 1833, с. 328
9. Yenə orada, s. 328.
10. Bax: *F.Əsədov, S.Kərimova.* Çarizmi Azərbaycana gətirənlər. B., 1993; *S.Kərimova.*Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu. B., 1995; yenə onun: Çarizmin müstəmləkəçilik siyasətində erməni amili. "Azərbaycan" qəzeti, 7 aprel 1994-cü il; yenə onun: Necə oldu ki, balaca erməni Böyük Pyotrun başını tovladı. "Vətən ocağı" qəzeti, 29 iyul 1994-cü il; *С.А.Мамедов.* Исторические связи азербайджанского и армянского народов. Вторая половина XVIII в. Б., 1977; *M.*İsmayılov. Azərbaycan tarixi. B., 1993 və b.
11. *С.М.Соловьев.* Чтение и рассказы по истории России. М., 1989, с. 717.
12. *Востриков С.В.* Карабахский кризис и Восточная политика России.// "Россия и современый мир", 1999, №1, с. 105.
13. *Г.А.Эзов.* Сношения Петра Великого с армянским народом. Документы. СПб., 1898, с. 26.
14. Yenə orada, s. 87.
15. Yenə orada, s. 339-340.
16. *Востриков С.В.* Göstərilən əsəri, s. 105.
17. Bax: *Ишханян Б.* Народности Кавказа. Берлин, 1913.
18. Описание Карабахской провинции, состаленное в 1823 году, по распоряжению главноуправляющего в Грузии Ермолова. Тифлис, 1866. *Дж.Гасанлы.* От Курякчайского договора до решения Кавбюро.// "Конфликт", 1999, №1, с. 25-26.
19. *С.Ашурбейли.* История города Баку. с. 293
20. Ultumatum barədə bax: *V.Arzumanlı.* Tarix siyasətin və siyasət tarixin dili ilə. B., 1999, s. 219-220.
21. *S.Kərimova.* Göstərilən əsəri, s. 66-68.
22. *F.Əsədov, S.Kərimova.* Çarizmi Azərbaycana gətirənlər. s. 10-12.
23. Bax: *С.В.Шостакович.* Диполматическая деятельность А.С.Грибоедова. М., 1960, с. 193-220.
24. *Qlinka* S. Göstərilən əsəri, s. 92-94.
25. *В.Парсамян.* История армянского народа. с. 49.
26. *Qlinka* S. Göstərilən əsəri, s. 40.
27. Bax: *Г.Гулиев.* Смерть дипломата или к истокам конфликта в Карабахе. Б., 1995, с. 103-104.
28. Yenə orada, s. 103.
29. *А.Грибоедов.* "Горе от ума" письма и записки. с. 341.
30. *С.В.Шостакович.* Göstərilən əsəri.
31. Bax: *Кямуран Гюрюн.* Армянское досье. Б., 1993, с. 134-140.
32. *Качазнуни О.* Дашнакцутюн больше нечего делать. Тбилиси, 1927, həmçinin Bakı nəşri, 1990, s. 11-12.
33. Записка генерального консула России в Эрзуруме Маевского.// В кн. *Н.Н.Шавров.* Новая угроза русскому делу в Закавказье. Б., 1990, с. 83-155.
34. Bax ətraflı: *Кямуран Гюрюн.* Göstərilən əsəri.
35. Bu barədə daha ətraflı bax: Материалы 17 комисии Кузьминского. Отчет сенатора Кузминского. С.Петербург, 1905.

36. Из писем И.И.Воронцова-Дашкова Николаю Романову. //Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Б., 1990, s. 119.
37. Yenə orada, s. 224-225.
38. *H.İ.Məmmədova.* Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov.// Azərbaycan EA.Xəbərlər.tarix, fəlsəfə, hüquq. 1999, №2, s. 57
39. C.Həsənli. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. B., 1993, s. 255-256.
40. Azərbaycan Respublikası MDA qr.970, siy.1, iş 196, v. 4-5.
41. ЦГАОР Аз.ССР, гр.970, оп. 1, д. 149, л. 71-72.
42. Yenə orada.
43. *Дж.Гасанлы.* Карабах: от Куракчайского договора до решения Кавбюро.// "Конфликт", 1999, №1, с. 31.
44. История Советской Конституции в декретах и постановлениях Советского правительства. 1917-1936. М., 1936, с. 244-250; Milli məsələ haqqında ətraflı bax: *Суси П.И.* Нация, культура и кризис идентичности.//Этничность национальные движения. Социальная практика. СПб., 1995; *Дашдамиров А.Ф.* Национальная идея и этничность. М., 1996.
45. *Эдвард Карр.* История Советской России. кн.1, М., 1990, с. 314.
46. Yenə orada, s. 315.
47. Bax: *Сикевич З.В.* Социология и психология националных отношений. СПб, 1999, с. 25.
48. Yenə orada, s. 26.
49. *Суси П.И.* Нация, культура и кризис идентичности.//Этничность и национальные двиъения. Социальная практика. СПб., 1995, с. 60-70.
50. Yenə orada, s. 60-64.
51. "Труд-7", 1 февраля 2001 года.
52. Yenə orada.
53. "Azərbaycan" qəzeti, 1 may 1992-ci il.
54. *Марк Фейгин.* Закафказский узел.// "Новый мир", №9, 1998, с. 27.
55. "Советский Карабах", 21 февраля 1988 года.
56. "Вышка", 9 февраля 2001 года; бу барәдә әтрафлы бах: События вокруг НКАО в кривом зеркале фальсификаторов. В., 1989.
57. *Марк Фейгин.* Göstərilən əsəri, s. 9.
58. Interim Report of the CSCS. Rapporteur Mission on the Situation in Nagorno Karabakh. United States Institute of Peace. Washington. D.C. 1992, p. 3.
59. Documents on Armenian Question. Karabakh AAC. University of La Veme. №2, p. 18.
60. *V.Arzumanlı, N.Mustafa.* Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. B., 1998, s. 153; həmçinin *İ.Vəliyev.* Deportasiya.// "Dirçəliş", 1998, №2, s. 62.
61. "Kommunist" qəzeti, 14 iyun 1988-ci il.
62. Yenə orada.
63. "Коммунист", Ереван, 29 марта 1998 года.
64. "Ленинский сборник", М., 1924, т.II, с. 144.
65. *Эдвард Карр.* История Советской России. с. 333.
66. Azərbaycan Sovet Ensiklopediyası. B., 1982, c.VI, s. 565.
67. Interim Report of the CSCS. Rapporteur Mission. p. 1.
68. *Н.Оганесян.* Нагорно-Карабахский конфликт и варианты его решения.// Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. Нью-Йорк, 1997, с. 101.
69. Yenə orada, s. 101.
70. *Е.Мехтиев.* Некоторые аспекты развития армяно-азербайдъанского конфликта и усилия для его урегулирования. Центр конфликтологии и меъдународного развития. Мерилендский Университет, 1997, с. 87.
71. "Azərbaycan" qəzeti, 30 sentyabr 1994-cü il.
72. *Гейдар Алиев.* Политический портрет. Б., 1998, с. 60-61.
73. Əmrəli İsmayılov, Qoşqar Əliyev. Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi. B., 1998, s. 33.
74. Ə.Həsənov. Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1996). B., 1998, s. 149.
75. *H.Əliyev.* Qayıdış. 1990-1993. B., 1996, s. 705-707.
76. Yenə orada, s. 716-717.
77. *H.Əliyev.* Müstəqilliyimiz əbədidir. B., 1997, I kitab, s. 125-126.
78. "Azərbaycan" qəzeti, 14 sentyabr 1993-cü il.
79. *Ə.Həsənov.* Göstərilən əsəri, s. 155.
80. "Azərbaycan" qəzeti, 14 iyun 1994-cü il.

81. *H.Əliyev.* Azərbaycanı dünyaya tanıdır. s. 152; Azərbaycan Beynəlxalq Aləmdə. B., 1996, s. 227-228; "Azərbaycan" qəzeti, 6 sentyabr 1994-cü il.
82. Bax:*А.Аббасбейли, Э.Аббасбейли.* Гейдар Алиев и мировая политика. Б., 1997, с. 18-19.
83. Bax: *V.Abdullayev.* Azərbaycan yeni diplomatiya məkanında. B., 2000, s. 284.
84. Yenə orada.
85. *А.Топчубашев.* Дипломатические беседы в Истамбуле. Б., 1994, с. 33-36, 125-126, 138-139.
86. Bax: *V.Abdullayev.* Göstərilən əsəri, s. 285.
87. "Azərbaycan" qəzeti, 28 iyun 1994-cü il; 16 avqust 1994-cü il.
88. "Xalq qəzeti", 4 dekabr 1996.
89. Bax: Bir daha "Porter əlavəsi" haqqında.//"Qanun", 1996, №7, s. 25.
90. Bax: *А.Аббасбейли, А.Гасанов.* Азербайджан в системе международных и региональных организаций. Б., 1999, с. 133.
91. "Маяк", 1996, 1 декабря.
92. "Xalq qəzeti", 1 mart 1996-cı il.
93. "Röyter", 1996, 1 dekabr.
94. *А.Аббасбейли, А.Гасанов.* Göstərilən əsəri, s. 152-169.
95. Лиссабонский Саммит 96. Б., 1997, с. 111.
96. Лиссабонский Саммит 96. Б., 1997, с. 51; həmçinin, *Э.Мехтиев.* Некоторые аспекты развития армяно-азербайджанского конфликта и усилия для его урегулирования.//Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. США, 1997, с. 89.
97. Yenə orada, s. 63.
98. Yenə orada, s. 113.
99. Yenə orada, s. 126.
100. Yenə orada, s. 147.
101. "Xalq qəzeti", 27 dekabr 1996; həmçinin, *Ə.Həsənov.* ATƏT və Azərbaycan: Helsinkidən Lissabona qədər.//Lissabon Sammiti.96. B., 1997, s. 233-235; *Elmira Əmrahqızı.* Azərbaycan Lissabonda istədiyinə nail oldu.//Lissabon Sammiti.96. B., 1997, s. 267-277; E.Nəsirov. Azərbaycan-ABŞ münasibətləri. B., 1998, s. 23-28, 42.



102. *Ф.Аббасзаде.* Функционирование механизмов ООН по предотвращению, управлению и разрешению споров и конфликтов.//Автореф.дисс.канд.пол.наук. Б., 2001, с. 21-23.
103. "Панорама", 1996, 10 декабря.
104. *Крисчен Сайенс.* Monitor, 1997, 23 iyul.
105. *А.Аббасбейли, Э.Аббасбейли.* Göstərilən əsər, s. 154.
106. *С.Браунбек.* Преследуя стратегию Шелкового пути.//Великий шелковый путь и Азербайджан. Б., 1998, с. 11-15.
107. Yenə orada, s. 12.
108. "Эхо" qəzeti, 31 mart, 2001-ci il.
109. Yenə orada, 3 aprel 2001-ci il.
110. "Azərbaycan müəllimi", 5-11 aprel 2001-ci il.
111. Радио "Свобода", 4 апреля 2001г.
112. "Xalq qəzeti", 4 aprel 2001-ci il.
113. Yenə orada.
114. "Эхо" qəzeti, 5 aprel 2001-ci il.
115. Yenə orada.
116. Интернет Gazeta SNG.
117. "Эхо" qəzeti, 25 aprel 2001-ci il.
118. Yenə orada.
119. Yenə orada.
120. "Независимая газета", 4 апреля 2001 года.
121. *İlham Əliyev.* Azərbaycan-Amerika strateji əməkdaşlığının üfiqləri. "Dirçəliş", 1998, №3-4, s. 33-34.
122. *R.Mustafayev.* Fikir azaddır. B., 2000, s. 195-206; yenə onun, Azəbaycan dövlətçiliyi: özümüzü və dünyamızı dərketmə yolunda. B., 1995.
123. Bax: *А.Г.Рзаев.* Армяно-азербайджанский конфликт в российских средствах массовой информации.//"Азербайджан и азербайджанцы", №1-2, 2000, с. 33-42; həmçinin, *İ.Şükürov.* Erməni separatizmi Qafqaz böhranının amili kimi.// "Dirçəliş", 2000, №2.
124. "Respublika" qəzeti, 20 aprel 2001-ci il.
125. "Xalq qəzeti", 24 fevral 2001-ci il.
126. "Эхо" qəzeti, 28 aprel 2001-ci il.
127. "Azərbaycan" qəzeti, 14 aprel 2001-ci il.
128. "Azərbaycan" qəzeti, 17 aprel 2001-ci il.

129. Yenə orada.
130. Yenə orada.
131. "Respublika" qəzeti, 19 aprel 2001-ci il.
132. Yenə orada, 20, 21 aprel 2001-ci il.
133. "Эхо" qəzeti, 5 may 2001-ci il.
134. *Ə.Həsənov.* Lokkumda Qarabağ problemi müzakirə edilmişdir.// "Эхо" qəzeti, 8 may 2001-ci il.
135. "Эхо" qəzeti, 11 may 2001-ci il.
136. Yenə orada.
137. Yenə orada, 18 may 2001-ci il.
138. Yenə orada, 16 may 2001-ci il.
139. *X.Исмајлова.* Тест на политические способности.// "Эхо" qəzeti, 15 may 2001-ci il.
140. Yenə orada, həmçinin, О внешней политике администрации Буша.// "Эхо" qəzeti, 21 aprel 2001-ci il.
141. "Эхо" qəzeti, 15 may 2001-ci il.
142. Yenə orada.
143. *X.Исмајлова.* "Модель Андорры" для Карабаха.//"Эхо" qəzeti, 16 may 2001-ci il.
144. "Эхо" qəzeti, 15 may 2001-ci il.
145. "Эхо" qəzeti, 12 may 2001-ci il.
146. *Нурани, М.Энвероглу.* Корабль президентов.// "Эхо" qəzeti, 19 may 2001-ci il.
147. Yenə orada.
148. "Эхо" qəzeti, 19 may 2001-ci il.
149. Yenə orada, 22 may 2001-ci il.



## MÜNDƏRİCAT

Dağlıq Qarabağ konflikti beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir *(ön söz əvəzi)*........ 3
Redaktordan........ 7

*Fəsil I.* Dağlıq Qarabağ probleminin geosiyasi kökləri........ 13
*Fəsil II.* Konfliktin ilkin mərhələsi və ABŞ-ın bölgədə siyasi xətti........ 45
*Fəsil III.* Heydər Əliyev diplomatiyası və ABŞ-Azərbaycan beynəlxalq dialoqunda Qarabağ konflikti........ 65
*Fəsil IV.* Ki-Uest: konfliktin həlli strategiyasında yeni səhifə........ 97
*Fəsil V.* Sülh istiqamətində sə'ylər davam edir........ 121
Qarabağ konflikti bu gün (iyun 2001-ci il) *(nəticə əvəzi)*........ 139
*İstifadə olunmuş ədəbiyyat*........ 142

**Füzuli İsmayılov**

**Qarabağ konflikti**
**ABŞ-ın qlobal siyasəti kontekstində**

*(Azərbaycan türkcəsində)*

Bakı – 2001



Texniki redaktoru
*Səlim Əhmədov*

Korrektoru
*Cəmilə İsmayıllı*

Kompüter tərtibatçısı
*Esmira Cəbbarova*

Çapa imzalanmışdır 11.06.2001. Formatı 60x84 1/16.
Hesab n.v. 11,1. Şərti ç.v. 8,37.
Tirajı 550.
Qiymәti müqavilə ilə

Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı
Bakı 370004, Böyük Qala küç., 41.

Əlaqə telefonları:
92-56-34
93-59-46